**Turac Atabəyi**



# Azərbaycan: etnik mənsubiyyəti və İranda qüdrət uğrunda mübarizəsi

63.3/2
A 95

TURAC ATABƏYİ

# AZƏRBAYCAN: ETNİK MƏNSUBİYYƏTİ VƏ İRANDA QÜDRƏT UĞRUNDA MÜBARİZƏSİ

97477

«TƏHSİL» NƏŞRİYYATI
BAKI-2003

M.S.Ordubadi adına
Naxçıvan Respublika
Kitabxanası

63.я7
A90

Tərcümə edəni **Nigar Eynulla qızı Mədətli**

Elmi redaktoru
**Yaqub Mahmudlu,**
*Əməkdar elm xadimi, tarix elmləri doktoru, professor*

**Atabəyi Turac**
**A90** Azərbaycan: etnik mənsubiyyəti və İranda qüdrət uğrunda mübarizəsi. Bakı, «Təhsil», 2002, 248 səh.

Kitabda Azərbaycanın çox mühüm dövrlərində baş vermiş tarixi-siyasi hadisələr araşdırılır. Burada Səttar xan və Məşrutə hərəkatı, Şeyx Məhəmməd Xiyabani hərəkatı, Azərbaycan Xalq Cümhuriyyəti tarixi, S.C.Pişəvərinin başçılığı ilə Azərbaycan milli hökumətinin yaranması və süqutu məsələləri küll halında oxucuların mühakiməsinə verilir.

Təbrizli alim T.Atabəyinin Londonda çapdan çıxmış bu kitabı Azərbaycan dilində ilk dəfə nəşr olunur.

T $\frac{4306020600}{053}$ 2002

**63.я7**

**© «Təhsil», 2002**

## TƏRCÜMƏÇİDƏN

Turac Atabəyinin «Azərbaycan: etnik mənsubiyyəti və İranda qüdrət uğrunda mübarizəsi» kitabı 1993-cü ildə Britaniya Akademik Press nəşriyyatı tərəfindən nəşr edilmiş, 1997-ci ildə həmin kitabın fars dilinə tərcüməsi Tehranda nəşr olunaraq yayılmışdır. Kitabın farsca nəşri həm İranda, həm də Azərbaycan Respublikasında maraqla qarşılandığı kimi, kəskin etiraz və tənqidi fikirlər də doğurmuşdu. Bəzi Azərbaycan tədqiqatçıları həmin kitabdakı yanlış müddəa və nəticələri elmi mətbuatda tənqid etmişdilər.

Utrext Universitetinin və Amsterdam Beynəlxalq Sosial Tarix İnstitutunun İran və Mərkəzi Asiya üzrə aparıcı mütəxəssisi olan və uzun illər vətənindən kənarda yaşayan azərbaycanlı (Cənubi Azərbaycan) alim T.Atabəyinin kitabı ikinci dəfə London və Nyu-Yorkda «İ.B.Tauris Publishers» tərəfindən nəşr edilmişdir.

T.Atabəyinin bu kitabı Azərbaycan tarixinin çox mühüm bir dövründə baş vermiş tarixi-siyasi hadisələrin, o cümlədən Məşrutə və Ş.M.Xiyabani hərəkatlarının, S.C.Pişəvərinin başçılığı ilə Azərbaycan Milli Hökuməti və Azərbaycan Respublikası ilə əlaqədar məsələlərin ümumi şəkildə araşdırılmasına həsr edilmişdir. Bununla belə, kitabda bir sıra qəbuledilməz müddəalar, yanlış şərh və nəticələr də vardır.

Kitabın 2000-ci ildə ingiliscə nəşrini dilimizə tərcümə etməklə alimlərimizin, tariximizi sevənlərin kitabla tanış olmaları, oradakı fikir və mülahizələrə elmi-tənqidi münasibət bildirmələri üçün imkan yaratmaq məqsədini qarşıma qoymuşam.

Hörmətli oxucularımızın və mütəxəssislərimizin mənim bu ilk tərcümə işimdə rastlaşacaqları nöqsanlarıma qarşı səbir və xeyirxahlıq nümayiş etdirəcəklərinə ümid edirəm.

**Nigar Mədətli**

*Bakı Dövlət Universitetinin şərqşünaslıq fakültəsinin tələbəsi*

## *CƏNUBİ AZƏRBAYCANIN TARİXİNƏ DAİR DƏYƏRLİ ARAŞDIRMA*

Hollandiyanın Utrext Universitetinin professoru, Təbrizli alim Turac Atabəyinin Londonda nəşr olunmuş «Azərbaycan: etnik mənsubiyyəti və İranda qüdrət uğrunda mübarizəsi» kitabının Azərbaycan dilinə tərcümə edilib ölkəmizdə çap edilməsi, bununla da Azərbaycanın ən yeni tarixinin Səttar xan və Məşrutə hərəkatı, Şeyx Məhəmməd Xiyabani hərəkatı, Azərbaycan Xalq Cümhuriyyəti tarixi, Seyid Cəfər Pişəvərinin başçılığı ilə Azərbaycan Milli Hökumətinin yaranması və süqutu məsələlərinin ilk dəfə olaraq bir kitabda oxucuların mühakiməsinə verilməsi təqdirəlayiqdir. Yuxarıda göstərilən məsələlər barədə son əlli il ərzində Azərbaycanda çoxlu kitab, elmi məqalələr, ədəbi-bədii, publisistik materiallar nəşr olunmuş, bir sıra namizədlik və doktorluq dissertasiyaları müdafiə olunmuşdur.

T.Atabəyinin Qərb və keçmiş Sovet mənbələri, diplomatik yazışma və hesabatlar, dövri mətbuat, tədqiq edilən məsələlərlə bağlı müxtəlif ölkələrdəki arxiv sənədləri və başqa qaynaqlar əsasında yazdığı, ilk dəfə Londonda və Nyu-Yorkda ingiliscə, sonra isə Tehranda farsca nəşr edilən bu kitabın Azərbaycan Respublikasının elmi ictimaiyyəti arasında maraq doğuracağı, həm də birmənalı qarşılanmayacağı şəksizdir. Lakin kitabın ən böyük məziyyəti Azərbaycan varlığının İranda iyirminci əsrin başlanğıcında ölkənin bütün sonrakı siyasi tarixinə əsaslı təsir göstərən siyasi hərəkatların mərkəzi kimi təqdim edilməsi, Azərbaycan Milli Hökumətinə gətirib çıxaran ictimai-siyasi inkişaf yolunun tarixi nöqteyi-nəzərdən izlənməsi, təhlil edilməsi və bu zaman müəllifin tərəfsiz mövqedən çıxış etməyə səy göstərməsidir.

Kitabın əvvəlki fəsillərində müasir İran Azərbaycanında milli mənsubiyyət şüurluluğunun inkişafı və bu inkişafın tədriclə siyasi hərəkata çevrilərək son nəticədə Azərbaycan Milli Hökumətinin meydana gəlməsinə gətirib çıxarması tədqiq olunur. Müəllifin bütövlükdə İranda, xüsusilə, Azərbaycan əyalətlərində daxili ictimai-iqtisadi – siyasi zəminin İkinci dünya müharibəsində regionda yaranmış yeni beynəlxalq şəraitlə əlaqəli şəkildə Azərbaycan milli-siyasi hərəkatına təsir göstərdiyini zəngin faktlar və dəlillərlə şərh etməsi təqdirəlayiqdir.

T.Atabəyinin təqdim olunan əsərinin müsbət cəhətlərindən biri də onun əsərin sonunda təqdim etdiyi irihəcmli epiloqdur. Burada müəllif tədqiqatının çərçivəsindən kənara çıxaraq SSRİ-nin dağılması və Azərbaycan Respublikasının yaranması məsələlərini Dağlıq Qarabağ problemi, 1990-cı ilin 20 Yanvar qırğını və s. məsələlərlə əlaqədə təsvir edir, Azərbaycan Xalq Cəbhəsinin, mərhum prezident Əbülfəz Elçibəyin bütöv Azərbaycan məsələləri ilə bağlı fəaliyyətinin İranla münasibətlərə ciddi zərər vurduğunu təhlil edir, 1993-cü ildə prezident seçildikdən sonra Heydər Əliyevin bu münasibətlərin bərpa edilməsi sahəsində apardığı məqsədyönlü, ardıcıl işlərin əhəmiyyətini, hələ Naxçıvan Muxtar Respublikasına rəhbərlik etdiyi zamandan başlayaraq onun İranla münasibətləri yaxşılaşdırmağa böyük əhəmiyyət verdiyini, bu məqsədlə İrana səfər etdiyini yüksək dəyərləndirir.

Epiloqun sonunda İranda etnik məsələ ilə əlaqədar müəllifin gəldiyi bir nəticəni ayrıca qeyd etməyi lazım bilirəm. T.Atabəyi yazır: «İyirminci əsr boyunca İran talenin Osmanlı imperiyası, Çar Rusiyası və Sovet İttifaqının başına gətirdiyi hadisələrin öhdəsindən müvəffəqiyyətlə gəlmiş, İrandakı müxtəlif etnik qruplar isə bu müddətdə dinc və yanaşı yaşamışlar. Lakin diqqətə almaq lazımdır ki, iyirmi birinci əsrdə İranda etnik mənsubiyyət və ərazi bütövlüyü məsələsi ölkənin siyasi quruluşunda aparılacaq əsaslı islahatlarda ən mühüm rol oynayan amilə çevriləcək. Bu isə öz növbəsində ayrı-ayrı fərdlərin hüquqları ilə yanaşı, kollektiv hüquqların da qorunduğu bir cəmiyyətin yaranmasına və tədricən inkişaf etməsinə təkan vermiş olacaq. Əks halda heç nə əbədi deyildir». Müəllif tamamilə haqlıdır. Ya islahatlar yolu tutulmalı, insan haqlarına, çoxsaylı etnosların, o cümlədən, Azərbaycan xalqının qanuni haqlarına saygı göstərilməli, ya da ki «heç nə əbədi deyildir».

Qeyd edilməlidir ki, müəllif əksər hallarda baş verən hadisələrə öz münasibətlərini bildirmir, yalnız təsvirə, müxtəlif mənbələrə və müəlliflərə istinad etməklə bitərəfliyi gözləməyə çalışır, yalnız bəzi hallarda sadiq qalmaq istədiyi bu prinsipdən uzaqlaşır. Bu da T.Atabəyinin əski tarixə müraciət etdiyi, Azərbaycan xalqının soykökünün, dilinin formalaşması, millətçilik və milli mənsubiyyət məsələlərinin ümumi şəkildə dəyərləndirildiyi, Azərbaycanın tarixi coğrafiyasının tədqiq edildiyi bölümlərə aiddir. T.Atabəyinin indiki Azərbaycan ərazi-

sinin guya qədimdən Azərbaycana aid olmadığı, Araz çayının şimalının Azərbaycan deyil Aran adlandırıldığı, türk dilinin Azərbaycana XI əsrdə türklərin Kiçik Asiyaya gəlişi ilə daxil olduğu, azərbaycanlıların İranda millət yox, bir etnik qrup olduğu, 1918-ci ildə Arazın şimalında yaranmış respublikaya müsavatçılar tərəfindən siyasi məqsədlə, yanlış olaraq Azərbaycan adı verildiyi kimi Pəhləvi ideologiyasından qaynaqlanan ənənəvi qeyri-elmi iddialara istinad etməsi və onları tarixi reallıq kimi təqdim etməsi ilə qətiyyən razılaşmaq olmaz. Bu, bəzi millətçi-şovinist İran tarixçilərinin ənənəvi mövqeyini əks etdirməklə Azərbaycan—İran münasibətlərinin gələcəyinə ciddi ziyan vurur. Müəllifin bu kimi bir sıra iqtibasları və dəyərləndirmələri ciddi tənqidi yanaşma tələb edir və nəşr edilən bu kitabın mütəxəssislərimizin diqqətini çəkəcəyi, müəlliflə bəlkə də maraqlı bir polemika açılacağı şübhəsizdir. Biz isə bu yazıda yalnız onu qeyd etməklə kifayətlənmək istərdik ki, T.Atabəyinin əsərinin tarixə müraciət hissəsində və epiloqdakı bəzi mülahizələri onun elan etdiyi obyektivlik və tərəfsizlik prinsipinə əsla uyğun deyil. Belə ki, o, həmin məsələlərin şərhi zamanı Azərbaycan Respublikasında aparılmış tədqiqatları və elmi ümumiləşdirmələri nəzərə almamışdır.

Bu da səbəbsiz deyil. Çünki əsərdə razılaşa bilmədiyimiz müddəaların heç biri yeni deyildir və onlar dəfələrlə tarixçilərimiz, dilçilərimiz tərəfindən tutarlı tənqidə məruz qalmışlar. Buna görə, fikrimizcə, bu nöqsanlar Azərbaycan oxucusu üçün gözlənilməz deyil. Müsbət hal budur ki, Turac Atabəyi Azərbaycan Milli Hökuməti və ona gətirib çıxaran tarixi şəraiti və yolları etibarlı qaynaqlar əsasında, yüksək elmi istedadla oxuculara təqdim edə bilmişdir.

Nəhayət, bu yığcam yazıda məqsədimiz təqdim etdiyimiz kitabı tənqid etməkdən ibarət deyil. Buna görə də razılaşmadığımız, yaxud mübahisəli hesab etdiyimiz məsələlər barəsində elmi-tənqidi fikirlər söyləməyi lazım bilmədik. Belə hesab edirik ki, elmi ictimaiyyətimiz T.Atabəyinin yaxın tariximizin çox mühüm hadisələrinin tədqiqinə həsr edilmiş, bir çox hallarda fərqli görünən baxış və dəyərləndirmələrinə yanaşmada səbirlilik göstərəcək, eyni zamanda da hörmətli tədqiqatçı ilə elmi mübahisələrə və fikir mübadilələrinə girərək elmi nəşrlərimizdə öz mövqelərini bildirəcəklər.

Son olaraq bu kitabı ingiliscədən dilimizə tərcümə etmiş gənc və istedadlı şərqşünas Nigar Mədətlinin əməyini xüsusi olaraq qeyd etmək, xalqımızın tarixi və mədəniyyətinə dair farsca və ingiliscə əsərlərin bundan sonra da tərcümə edilib tədqiqatçılarımızın diqqətinə təqdim edilməsi işində ona müvəffəqiyyətlər arzulayıram. Oxuculara onu da yetirməyi özümə borc bilirəm ki, Nigar səfəvilərin soykökünə həsr olunmuş çox qiymətli bir araşdırması ilə də diqqətimi cəlb etmişdir. Onun ümidverici və istedadlı bir şərqşünas, vətəndaş mövqeyindən çıxış edəcək ardıcıl Azərbaycanlı olacağına böyük ümid bəsləyirəm.

**YAQUB MAHMUDOV**

*Əməkdar elm xadimi, tarix elmləri doktoru, professor*

## DR. TURAC ATABƏYİNİN «AZƏRBAYCAN» KİTABI ÜZƏRİNDƏ BİR DƏYƏRLƏNDİRMƏ VƏ TƏKMİLLƏŞDİRMƏ

Amerikaya son səfərimdə sayğın dostum Dr. Əhməd Füruğ bəyin mənə təqdim etdiyi Dr. Turac Atabəyinin «Azərbaycan» adlı kitabının ingiliscə ikinci nəşrini diqqətlə oxudum. Neçə il öncə birinci nəşrini oxuyarkən bir xeyli nöqsan və qüsurlarla üzləşmişdim ki, müəlliflə rastlaşdığımda özü ilə bu mövzuda danışmaq istəyində idim. Bir neçə ay öncə, İran Dış İşlər Bakanlığı tərəfindən Tehranda keçirilən «İran və Turan seminarı»nda təsadüfən kitabın müəllifi ilə tanış oldum.

Dr. Atabəyi öz görünüşü və xoş davranışları ilə ilk görüşdə qarşı tərəfin sevgi və sayğısını qazanan bir gəncdir. Mən də onunla tanışlığımdan çox sevindim, seminarda danışmağa fürsət olmadığından telefon nömrəsini alıb söylədim ki, kitabınızın birinci nəşri barədə danışmaq istəyirəm, çünki sizin mülahizələrinizlə ilgili həm tənqidi, həm də təsdiqi görüşlərim vardır.

Nə yazıq ki, seminar bitdikdən sonra, onu görə bilmədim və telefon nömrəsini itirdiyim üçün də doktor bəylə təmas saxlamaq mümkün olmadı.

«Azərbaycan» kitabının mövzusu Demokrat Firqəsinin təşkili və Azərbaycanda muxtar hökumətin yaranmasıdır. Müəllif yazır ki, bu günə qədər Pişəvəri və Demokrat Firqəsinin birillik hökuməti mövzusunda yazılanların hamısı birtərəfli və qərəzli olduğundan mən İran və xaricdə mövcud olan sənədləri araşdıraraq və o dönəmdəki olaylarda iştirak edənlərlə əlaqə və ilişki quraraq imkan çərçivəsində bu tarixi hadisəyə tərəfsizcə aydınlıq və açıqlama gətirməyə çalışdım. Həm də birinci, ikinci və üçüncü fəsillərin girişində bu ölkə xalqının soyu, dili, tarixi keçmişi, Azərbaycanın adı və hüdudu barəsində Azərbaycan insanları üçün bilgi verməyə çalışmışam.

Mən bu kitabın ikinci nəşrini də diqqətlə oxudum. Müəllif bir il içərisində baş verən olayların – Azərbaycan Demokrat Hökumətinin yaranışı və dağılışı barədə tərəfsiz və gerçəkli bir izahın öhdəsindən gəlmiş və o dönəmin mürəkkəb məsələlərinin incəliklərini belə araşdıraraq oxucunun mütaliəsinə vermişdir. Bu özü özlüyündə müəllifin elmi səviyyəsini təsdiq edən təqdirəlayiq bir işdir.

Fəqət, möhtərəm müəllif kaş ki kitabın ilk iki-üç fəslini yazmaz olaydı və birbaşa mövzuya girəydi. Çünki ilk fəsillərin ehtiva etdiyi mövzular elmi və tərəfsizcə yazılmamış və kitabın sonrakı fəsillərindəki yazılış tərzilə də mütabiq deyildir ki, bu da müəllifin dəyərli kitabını etibarsızlaşdırmaqdadır.

Hollandiyada təhsil almış və ali ustadlıq səviyyəsinə yüksəlmiş müəllif yaxşı bilməkdədir ki, XX əsrdə bir çox İran yazarları aşırı millətçilik ideologiyasına və farsçılığa qapıldıqları üçün tarix, kültür və dil haqqında mühakimələri və mülahizələri o qədər qeyri-elmi və təəssübkeşlik üzrə olmuşdur ki, Batı bilim adamlarının yanında öz etibarını itirmişdir. Alman İranşünas və türkoloq prof. Dorfer Xələc yazır ki, Avropada humanitar elmlər barəsində iranlı müəlliflərin əsərləri oxunmur.

Yaşı və qurunu bir yerdə yandıran, Fars kültürünü bu qədər düşürən və etibarsızlaşdıran bir acı reallıq, millətçilik təəssüblərinin nəticəsidir ki, Avropadan bizə ərməğan olaraq gəlmişdir.

Nə yazıq ki, 57 il Pəhləvi iqtidarı dönəmində bu şovinizm təəssübkeşliyi antitürk və antiərəbçiliyi ilə öz zirvəsinə yüksəldi və o dövrün çirkin təlimatları kültür biçimi halına gəldi ki, Pəhləvi rejiminin süqutundan 22 il keçməsinə baxmayaraq, yazarlar, hətta əksər ədiblər və humanitar elm uzmanları hələ də o şovinizm «kültür»ünün əsiridirlər, etkisi altındadırlar.

Gənc bilim adamlarından, özəlliklə Dr. Atabəyi kimi illər boyu Qərbdə və gəlişmiş ölkələrdə təhsil alan, tədris və araşdırma ilə uğraşanlardan bəklənən odur ki, doğru araşdırma metodları ilə tanış olub, dünya mənbələrindən faydalanıb, gerçəyi yazmaq və elmi tərəfsizlik imkanını əldə etməklə keçmiş dövranın çirkin təlimatlarını öz əsərləri və tərəfləri ilə islah etsinlər, nəinki qərəzli yazıları təkrarlasınlar.

Şübhəsiz, bu iş çox təlaş və zəhmət tələb edir, həqiqəti aramaq və ortaya çıxarmaq üçün, yorulmazlıq və eşqlə qaynaşan bir təlaş lazımdır, çünki həqiqət hər şeydən, hətta məsləhətdən də üstündür.

Mən möhtərəm müəllifə saygı duyduğum üçün və həqiqəti arama, həqiqəti söyləmə rəsalətimdən (missionumdan) və elmi görəvimdən dolayı yazarın kitabının birinci bölümü üzərinə bir dəyərləndirmə yapmaq və kitabın qaranlıq və mübhəm incəliklərini aydınlatmaq mükəlləfiyyətindəyəm. Ümidvaram ki, müəllif öz dostu və yaşlı həmşəhrisindən incimədən bunları diqqətlə oxuyub nəzərə alacaq və bəlkə də son-

rakı nəşrlərində mənim bu dəyərləndirməmdən yararlanıb dəyərli əsərinin etibarını daha da artıracaqdır.

Şübhəsiz, mən təsdiq edirəm ki, azərbaycanlıların əsil-nəsəbi, soyu və türk dilinin Azərbaycanın hüdudları içərisində yayğınlaşması barədə hələ də ittifaq-i nəzər və fikir birliyi mövcud deyildir. Bu üzdən də tarixçi və bilim adamlarının müxtəlif nəzərlərini önə çəkmək gərəkdir ki, oxucu bunların müqayisəsi və qarşılaşdırılması nəticəsində həqiqəti dərk etsin və yazarlar da elmi tərəfsizlik görəvini yerinə yetirmiş olsunlar.

**İndi isə kitabın ilk fəsilləri barədə mənim dostcasına tənqidlərim:**

Öncə kitabın əsl mətni, yəni firqənin təşkili və Azərbaycanda demokrat hökumətin quruluşu barədə bir şeyə diqqəti yönəltmək istəyirəm. Müəllif demokrat hökuməti ilə ilgili əski Sovetlər birliyində mövcud olan sənədləri əldə etmə təlaşına rəğmən, son zamanlar Azərbaycan Respublikasının arxivindən çıxarılmış iki məhrəmanə (gizlin) bəlgə (sənəd)dən bixəbərdir. Bu iki bəlgəni prof. Cəmil Həsənli iki cildli «Güney Azərbaycan»[1] adlı tədqiqi əsərində vermişdir. Bu bəlgələr göstərir ki, Stalin İranın Quzey və Batı neft imtiyazlarını əldə etmək üçün Pişəvərini və Güney Azərbaycan xalqını necə öz imperialist həvəslərinin oyuncağına çevirmişdir. Öncə Demokrat Firqəsinin təşkilatlanma müqəddəmatını və sonra da hökumətə daşınmasını təmin etmiş, Qüvam-ül Səltənə ilə neft imtiyazı barədə anlaşdıqdan dərhal sonra isə Pişəvərini təslim olmağa və fərar etməyə zorlamış, bununla da minlərcə azərbaycanlının öldürülməsinə, qətl edilməsinə səbəb olmuş, neçə ay sonra da saxta bir maşın təsadüfü ilə Pişəvərini də məhv etdirmişdir.

**İndi isə tənqidlərim:**

Müəllif azərbaycanlıların soyuna aid fəsildə yazır (s.7.):

«Türk, Azəri və ya Azərbaycanlı qavramlarını İranın mümtaz (!) tarixçisi Əhməd Kəsrəvi Atropatla bağlamaqdadır».

Bu rəvayət Yunan tarixçisi Strabondan (19—63m) və Təbəridəndir ki, əgər Kəsrəvi öz rəvayətində onların adını çəkməmişdirsə, ədəbi əmanətə sadiq qalmamışdır deməkdir.

Müəllif Azərbaycanın və Aranın hüdudları barədə ancaq Arazın Quzeyini Aran adlandıran müəlliflərin iddialarına güvənmişdir və Bürhan-i Qatedən də Arazla bağlı belə bir cümlə nəql edir ki, «Araz» Azərbaycanın və Aranın arasında mövcud olan çaydır!

---

[1] Güney Azərbaycan, Bakı, Diplomat nəşriyyatı, 1998.

Bürhan-i Qatenin kitabında Aranın mənası belə verilmişdir: Aran Azərbaycanın vilayətlərindən birisidir və Gəncə ilə Bərdə onun şəhərlərindəndir.[1]

Eləcə də müəllif Aranı Quzey Azərbaycanın bir hissəsi adlandıran Təbəri, Bələmi, Yəqubi, Məsudi, İbn-i Esir kimi müsəlman tarixçilərdən və digər qaynaqlardan heç yararlanmamışdır.

Mən «Türk dili və ləhcələrinin tarixi»[2] adlı kitabımda və «Varlıq» dərgisində «Cəlal Mətininin Azərbaycan haradır məqaləsi üzərinə»[3] və «Azərbaycanın adı və sərhədləri»[4] başlıqlı məqalələrimdə Azərbaycanın sınırları və bu sınırlar barədə mövcud olan fikir ayrılığının səbəbləri üzərinə izahlar vermişəm. Çox təəssüflər olsun ki, hörmətli müəllif bunların heç birisini nəzərə almamış və bəlkə də onları heç görməmişdir. Bu səbəbdən də onlara işarə etməyi lazım bilirəm.

1065 il öncə Samani vəziri Əbu Əli Məhəmməd Bələminin Təbəri tarixindən tərcümə və iqtibas etdiyi kitab 1337-ci ildə (h.ş) Dr. Cavad Məşkurun çalışmaları hesabına Tehranda çap edilmişdir. Bu kitabın *Azərbayqanın* fəthi mövzusu və Xəzərlər bölümündə yazılır: «Xəbər verilir ki, Ömər İbn-i Əlxəttab Nəim İbn-i Müqrinə yazdığı məktubda Səmak İbn-i Hərbəsənin Azərbaycana göndərilməsini əmr etmişdi və oraya İsmət İbn-i Fərqəd və Əbdüllahi göndərmişdi. Orada Əcəm atəşkədələri vardı və Əcəmlər atəşə Pəhləvi dilində azər söyləyərmişlər. Bu üzdən oraya *Azərbayqan* söyləyərmişlər ki, əslində Əcəmin atəşə pərəstiş etməsi orada olmuşdur. Azərbayqanın hüdudu Həmədandan başlar, Əbhər və Zəncanı içinə alar və sonu Xəzərlər Dərbəndinə qədər uzanar. Bu arada mövcud olan bütün şəhərlərə *Azərbayqan* və Tazicə (ərəbcə) bab (qapı) söylərlər və bütün bu yolların hamısını isə əbvab (qapılar) olaraq adlandırmışlar».

Eyni zamanda, kitabın 42-ci səhifəsində söylənilir: «Bu yerlərin hamısı türklərin əlində olmuşdur». IX əsr tarixçisi Yəqubi, *«Əlbələdan»* kitabının 46-cı səhifəsində Azərbaycanın hüdudlarını Zəncandan Vərsana və Arazın o tərəflərinə qədər qeyd etmiş, o cümlədən Beyləqan və Bərdə şəhərlərini Azərbaycan-i Ülya (yuxarı Azərbaycan) adlandırmışdır.

---

[1] Bürhan-i Qate , 1-ci cild, s. 96.
[2] Tehran 1365—66.
[3] Varlıq, Mehr-Aban, 1369.
[4] Varlıq, 1372-ci ilin (h.ş.) payızı.

IV (h.q.) əsrin birinci yarısında yaşamış və həmin qaynaqlardan yararlanmış İslam tarixçisi Məsudi də Aranı Azərbaycanın şəhərləri olaraq qeyd etmiş və «Əl Əran min əl biladi Azərbaycan»[1] (Aran Azərbaycanın şəhərlərindəndir) söyləmişdir.

Böyük İslam tarixçisi İbn-i Esir «*Əlkamil*»[2] adlı kitabında Aranı Azərbaycanın bölgələrindən saymışdır.

İstəxri də xəritədə Azərbaycandan Dərbəndə qədər əraziləri Azərbaycanın olaraq göstərmişdir.[3]

Həmdullah Mostofi də «*Nüzhət-ül Qülub*»da[4] belə yazır: «Azərbaycanın hüdudları İraq-i Əcəm vilayətləri, Muğan, Gürcüstan və Ermənistanla bağlantılıdır, şəhərləri isə bunlardır: Təbriz, Ucan, Gərgər, Naxçıvan, Əcnan, Ordubad və Maku».

Soyca Alban olan Şəmsəddin Sami 1898-ci ildə İstanbulda basılan «*Qamus-ül Elam*»[5] əsərində Nizaminin doğulduğu yeri Azərbaycanın Gəncə şəhəri olaraq yazmışdır.

Qazan və Peterburq Universitetlərində fars, türk və ərəb dilləri üzrə ustadlardan olmuş Mirzə Kazım bəy 1846-cı ildə Qazan Universiteti tərəfindən çap edilən «Türk dillərinin tətbiqi qrammatikası» adlı kitabında Azərbaycan türkcəsini iki ləhcəyə—Güney Azərbaycan (İran Azərbaycanı) və Quzey Azərbaycan (Qafqaz) ləhcələrinə bölmüşdür[6].

Eləcə də, Dehxuda lüğətnaməsində Aran sözünü «Azərbaycanda olan bir iqlimdir» kimi tanımlamışdır.

Azərbaycan Sasanilər zamanından (224—652 m) öncə Azərpatqan və sonra Azərbayqan adlandı və Quzey hüdudları isə Xəzərlərin hücumları üzündən dəyişilirdi.

Ənuşirəvan (531—579 m) Şirvanı və Dərbəndi aldı, Şirvan və Dərbənd qalalarını tikdirdi və bütün bu bölgəni Azərbaycan adı altında idarə edirdi.[7]

1929-cu ildə bir rus araşdırmaçısı Ənuşirəvan (553) zamanına aid olan Dərbənddəki Pəhləvi daş kitabələrini oxuduqdan sonra bir məqalə çap etdirdi ki, orada Azərbaycanın hüdudunun Dərbəndə qədər uzanma-

---

[1] Mürəvvic-ül Zəhəb, Misir, 1303 ( h.ş), 1-ci cild, s.100.
[2] Əlkamil, tərcümə: Əli Haşimi Hairi, 16-cı cild.
[3] İslam ensiklopediyası, 2-ci cild, s. 94.
[4] Nüzhət-ül Qülub, s. 85 və 102.
[5] Qamus-ül Elam, 6-cı cild, s. 4589.
[6] İran tarix sürəgcində Azərbaycan, Rəhim Rəyisniya, 1-ci cild, s.94.
[7] Prof. Zəki Vəlidi Tuğan. İslam ensiklopediyası, Azərbaycan bölümü, İstanbul.

masını söyləyir və yazır ki, bu bölgədən vergi toplayan dövlət məmuru özünü Azərbaycandan vergi toplayan şəxs kimi tanıtdırmışdır[1].

Müəllif Türk dilinin bu bölgədə yayğınlaşmasının səbəbini XI əsrdə türklərin Kiçik Asiyaya doğru böyük köç axınları ilə ilgili sayır və deyir ki, oğuzların Azərbaycana ilk mühacirəti 1029-cu ildə olmuşdur. Sonra da, Səlcuqlar dönəmi mühacirətlərinə işarə edərək yazır ki, yerli Azəri dili ilə (Türklərin gəlişindən öncə Azərbaycanda mövcud olan bir dil) əlaqəyə girən və yerli dildən təsirlənən «Oğuz» türkcəsi zamanla Azərbaycanda hakim dilə çevrilmişdir!

Xatırlatmaq gərəkdir ki, bir çox tarixçilər Azərbaycanı Türklərin ən əski vətəni kimi bilməkdədirlər[2].

İstər miladdan öncə (hakim sakalar qrupu), istərsə də miladdan sonra Azərbaycana gələn Türk (bulğarlar, hunlar, sabirlər, piçənəklər, xəzərlər, kəngərlər, ağçərilər, onoğurlar və sarıoğurlar və b.) mühacirləri tarixdə əks olunmuşdur (Abas Katina, erməni müəllifi Musa Xoren və...).

Mən öz yazı və məqalələrimdə bu barədə və Azərbaycanda ümumxalq dili olaraq şəkillənən Türk dili haqda bəlgəli izahlar vermişəm[3]. Digər tərəfdən Azərbaycanda qətiyyən Azəri adında bir dil (sözün əsl və tam mənası ilə dil olaraq) olmamış, sadəcə dəyişik bölgələrdə bir-birlərindən fərqlənən yayğın ağızlar (ləhcələr) olmuşdur.

Müəllifin güvəndiyi Müqəddəsinin də (X əsrin sonları) yazdığı kimi, Ərdəbil və çevrəsində, Savalan bölgəsində insanlar yetmişdən artıq dildə danışırlar.

Eləcə də, İbn-i Hoqəl (müəllifin istinad etdiyi qaynaq) deyir ki, bölgənin kəndlərində Fars, Tat dillərindən başqa digər dillər də yayğındır və bunlar bir-birlərini anlaya bilmirlər.

Müəllif bu barədə referans vermir və bəlli olmur ki, mərhum Rəsulzadənin bu ifadəsini hardan götürmüşdür. Bir halda ki, Rəsulzadənin ömrünün son gününə qədər Azərbaycan eşqilə yaşaması məlumdur. Rəsulzadə öz milli-tarixi missionunun qalan hissəsini Azərbaycan xalqı üçün yazmaq və yaratmaqla yerinə yetirmişdir.

---

[1] Prof. Zəki Vəlidi Tuğan. İslam ensiklopediyası, Azərbaycan bölümü, İstanbul.

[2] Məhəmməd Tağı Zehtabi. İran Türklərinin əski tarixi, 1378 (h.ş.), Tofiq Hacıyev. Azərbaycan ədəbi dili və tarixi, Bakı, Mahmud İsmayılov və ...

[3] Dr. Cavad Heyət. Türk dili və ləhcələrinin tarixi, Tehran, 1365, Azərbaycanın türkləşməsi və Azəri Türkcəsinin tarixi, Varlıq, 1369, Tehran.

Rəsulzadənin arkadaşları nəql edirlər ki, Rəsulzadə can verdiyi zaman üç dəfə «Can, can, can Azərbaycan» söyləyib Tanrı hüzuruna qovuşur.

Dr. Atabəyi davam edir ki, Rəsulzadə öz qısamüddətli cümhuriyyəti barəsində izhar edir ki, Albaniya (Quzey Azərbaycan) Azərbaycandan fərqlidir və qaynaq olaraq da Y.Akçura oğlunun adını çəkir *(s. 59)*. Eləcə də, Rəsulzadənin «Ayəndə» jurnalının 4-cü cildində, 1 və 2-ci saylarında *(1988)* dərc olunan Təqizadəyə yazdığı məktuba işarə edir ki, o, (Rəsulzadə) bundan belə iranlıları incitməyəcəyi, rəncidə etməyəcəyi yönündə çox istəklidir. Mən bu məktubu oxumuşam. Mərhum Təqizadə Rəsulzadə ilə ilgili yazdığı nekroloji məqaləsində işarə edir ki, İstanbulda yaşayan bəzi iranlıların Rəsulzadədən incik düşmələrinin səbəbi onun Türk milliyyətçiləri ilə əməkdaşlığı olmuşdur və Azərbaycan Cümhuriyyətinin adı ilə bağlı deyilirdi.

Bugünkü Azərbaycan Cümhuriyyətində də bulunmuş olan Dr. Atabəyi cənabları yaxşıca bilir ki, o ölkənin insanları öz yurdlarını Azərbaycan olaraq tanıyırlar və onların bu adla olan bağlantıları bizimkilərdən daha güclüdür. Çünki onlar milli kimliklərini yalnızca azərbaycanlı, biz isə, öz kimliyimizi iranlı və azərbaycanlı olaraq tanıyırıq. Hətta birgə paylaşdığımız, eyni tür danışdığımız dilə biz türkcə, onlar isə Azərbaycan dili söyləməkdədirlər.

Müəllif kitabın 26-cı səhifəsində, fəslin sonunda «Azərbaycanlı Qafqazda bir millət və İranda isə etnik bir qrup» ünvanı ilə yazır: «Rza şah zamanında milli dövlət (nation state) qurulduğundan azərbaycanlı İranın etnik bir qrupu olaraq millətin bir üzvü kimi qəbul edilmişdir!»

Bu haqda da bir şeyi xatırlatmaq gərəkir ki, Rza şah və oğlunun dönəmində də azərbaycanlıların etnik kimliyi (türklük) inkar edilirdi. Pəhləvi rejiminin «nəzəriyyəçi»ləri saxta bölgələrdə əskidən azərbaycanlıların fars olduqları barədə propaqandalar yapır, moğulların gəlişi ilə azərbaycanlıların türkləşməsini önə sürür və zorla azərbaycanlılara sırınmış bu əcnəbi dilin unudulması (!), kənarlaşdırılması (!) gərəkir yönündə təbliğatlar edirdilər. Təəssüflər olsun ki, bu çirkin təlimatların zərərli ictimai və kültür təsirləri bir çox oxumuş, yaşlı adamlarda qalmaqdadır, hələ də bəzi şovinist və panfarsistlər əski təbliğatları sürdürməkdədirlər.

Dr. Atabəyi bəy Əhməd Kəsrəvinin «Azərbaycanın 18 illik tarixi» *(s. 41; qeyd: 62)* kitabına əsaslanaraq Birinci dünya savaşında İranın,

özəlliklə Azərbaycanın ingilis və rus ordusu tərəfindən işğal edilməsi və Osmanlı Türk ordusunun Azərbaycana girib İslam birliyini yaratması barədə yazır. Osmanlılar pantürkizm və panturanizm (bütün Türk millətləri üçün bir Vətən oluşdurma) hissiyyatından ittiham alaraq Azərbaycanda müttəfiq qüvvələrə (entente forceses) qarşı yeni bir cəbhə açdılar. Bu davranış üzündən Azərbaycan dərhal savaş meydanına çevrildi. Rusların, ingilislərin və osmanlıların strateji hədəflərindən birisi də müxtəlif qövmlər arasında düşmənçilik atəşini alovlandırma, əyalətdə məzhəblər arasında nifaqsalma siyasətini təqib etməkdən ibarət idi. Buna görə də kürdlərə, aysorilərə, ermənilərə və Azərbaycan müsəlmanlarına bəzi vədlər vermişdilər!

Bu biçim aldadıcı müdaxilələr qövmlər və məzhəblər arasında qanlı və vəhşi qarşıdurmalara səbəb oldu. Və yenə də davam edir: «Xarici müdaxilələrin nəticəsi olaraq da Azərbaycan bölük-bölük (a divided land) bir ölkə halına gəldi. Müxtəlif qəbilələrin, xanlar və cəmiyyətlərin rəisləri İslam ümmətinin birləşməsi üçün «İslam Birliyini (İttihad) İslam bayrağı altında birləşdirdilər».

Azəri dili və ya Yaqut Həməvi və Kəsrəvinin söylədiyi kimi yarım dil olaraq Azəricə ki, Kəsrəvinin təlif etdiyi «Azəri dili və ya əski Azərbaycan dili» kitabında ondan neçə örnəklər də verilmişdir, sadəcə yerli ləhcələrin bir türüdür və Azərbaycanın bəzi bölgələrində hələ də mövcuddur (Tat, Hərzən və Kəsrəvinin iddia etdiyi üzrə Azəri deyişləri kimi).

Mən bu mövzuda ««Azəri dili və ya əski Azərbaycan dili» kitabı üzərinə bir dəyərləndirmə» adlı bir məqaləmdə Azəri dilinin müstəqil və ümumi bir dil olmasının rəddi doğrultusunda geniş izahlar vermişəm.

Kəsrəvi adı çəkilən kitabın 11-ci səhifəsində Yaqut Həməvidən nəqlən Azərbaycan haqqında yazır: «Yarımca dilləri vardır ki, Azəriyyə adlanır və özlərindən başqa kimsə anlaya bilməz (Möcəm-ül Bələdan). Bu üzdən də, ləhcə və ağız səviyyəsində olan bu yarımca dil farslar üçün də anlaşılır deyildir».

Kəsrəvi, Yaqut Həməvidən nəql etdiyi ifadəyə baxmayaraq, Azəriyyə və ya Azəricəni fars dilinin bir şaxəsi kimi təqdim edir.

Kəsrəvi dəfələrlə ləhcə yerinə yarım dil və dil sözlərini işlətmişdir. Yerli və Ari ləhcələrin tərkibindən yaranmış olan yarım dilləri fars

dilinin şaxələri kimi anlayır. Bir halda ki, Azəri, Tat, Hərzən və s. kimi ağızlar farsdillilər üçün qavranılır deyildir, bu səbəbdən də dilçilik üsul və kurallarına görə, bu ləhcələr farscanın dəyişik ağızları ola bilməzlər. Kəsrəvi əksər hallarda özünün də söylədiyi kimi dil və ləhcələri «düşüncə» ilə anlamağa çalışır. Dilçilik elmində kifayət qədər mətnləri müqayisə edərək dilləri fonetik, morfoloji, leksik və sintaktik yöndən araşdırmaq, onların mahiyyətlərini sezmək və bir-biriləri ilə qohumluq ilişkilərini anlamaq zəruridir.

Kəsrəvi Azəricəni bir dil kimi təqdim etdiyində Ərdəbil, Xalxal və Hərzən ləhcələrində bir neçə cümlə və dübeyti örnək göstərir. **Dilçilik baxımından bir ləhcənin ədəbiyyatı, qrammatikası və geniş istifadə bölgəsi olduğunda onu dil adlandırmaq mümkündür.**

Kəsrəvinin Azəricəsi isə, yazılı ədəbiyyat və qrammatikadan məhrum olmaqla birgə, müxtəlif şəhər və bölgələrdə dəyişiklik türdədir.

Müqəddəsi yazır: «Ərdəbilin çevrəsində 70 dildə danışırdılar və heç birisi də başqasını anlaya bilməzdi».

Hər dil, hətta hər ləhcə və ağız belə, adətən 30 – 40 arasında fonemə sahibdir ki, bunlar da ünlü (sait) və ünsüzlərə (samit) bölünürlər. Kəsrəvi bütün fonemlərdən yalnız altısına (d, t, ç, s, b, p) işarə edir ki, Azəricədə onlar tərtiblə (r, z, c, ç, m, b) fonemlərinə çevrilmişlər. Kəsrəvi öz dil bilgisini və məntiqini qrammatik kurallardan sadəcə 5 qayda ilə məhdudlaşdırır və bunlar isə bütün hallarda farsca ilə fərqlidirlər, ancaq sifət və tərkiblərdə Türkcə ilə tam uyum içərisindədir. *(s. 49)*

Söz tərkibi olaraq isə sadəcə 26 kəlmə göstərir ki, onlardan yalnız 13 söz Azəricəyə məxsusdur. Sonra da Ərdəbil Azəricəsinə bir neçə dübeyti təqdim edir ki, onların bəzilərinin mənasını özü də bilmir.

Sonra da, Xalxal və Tat ləhcələrindən örnəklər göstərir ki, özünün də etirafına görə, Talış deyişi ilə eyni və Ərdəbil ləhcəsi ilə fərqlidir. Hərzən ləhcəsi də digərlərindən fərqlənir və onda Türkcə sözlər də mövcuddur, müəllifin özünün söylədiyinə görə, Hərzən ləhcəsi erməni dilinə daha yaxındır.

Dr. Atabəyi cənabları kitabının 25-ci səhifəsində yazır ki, Azərbaycan Cümhuriyyətinin *(1918)* banisi olan Məhəmməd Əmin Rəsulzadənin qurduğu hökumət bolşeviklər tərəfindən süquta uğradıldıqdan və özü də xarici ölkələrdə sığınacaq aramağa başladıqdan sonra etiraf edir ki, yeni cümhuriyyətə Azərbaycan adını vermək səhv (mistake) imiş.

Bu barədə iddia etdiyinin tərsinə olaraq Kəsrəvinin yazılarından yararlanmamışdır. Əksinə, Rusiyanın, İngiltərənin və Amerikanın dəstəkləri ilə 100 mindən artıq Azərbaycan müsəlmanlarını soyqırıma məruz qoyan erməni-aysori birləşmələri ilə azərbaycanlıları eyni sırada görür. Günahsız Azərbaycan müsəlmanlarını qatil daşnakların, general Andraniklərin təcavüzündən qoruyan, qırğından qurtaran müsəlman Osmanlı ordusu ilə İngilis – Rus ordusunu eyni tip olaraq dəyərləndirir. Urmiya, Xoy, Səlmas və... müsəlmanların soyqırım hekayəsi belə olmuşdur.

Kəsrəvi «Azərbaycanın 18 illik tarixi» adlı kitabının 710-cu səhifəsindən 764-cü səhifəsinin sonuna qədərki bölümündə bu hadisələri aşağıdakı başlıqlarla şərh edir: «Urmiya hadisəsinin çətinliyi», «Simitqonun Marşimonu öldürməsi», «Aysorilərlə savaşlar və Səlmasın canyaxıcı hadisəsi», «Osmanlıların Azərbaycana gəlişi barədə», «Səlmas və Urmiya hadisəsinin uzantısı», «Xoy, Səlmas, Urmiya və ətraf kənd müsəlmanlarının aysorilər və ermənilər tərəfindən kütləvi öldürülmələri və general Andranikin 3 minlik ordusu». Eləcə də, rusların, ingilislərin təhriki, Amerika missionerlərinin erməni və aysori başçıları ilə müzakirələri və Qərbi Azərbaycanı müsəlmanlardan təmizləyib xristian bir dövlətin quruluşu barədə onlara yardımları təfsilatı ilə izah edilmişdir. Məsələn, 723-cü səhifədə Urmiyanın xristianlar tərəfindən işğal edilməsini şərh etdikdən sonra deyir: Petros jandarmanın rəisi və İbrahimxan (qaçaq Qafqaz erməniləri) polis idarəsinin başqanı oldu. Bir tərəfdən 16 nəfərdən ibarət olan idarə heyəti (şəhəri idarə edən 16 nəfərlik xristian məclisi) tüfəng və digər savaş alətlərini cəmiyyətdən alır, digər tərəfdən isə Mr. Şetin (missionerlərin rəisi və Amerika konsulunun müavini) əmri ilə öldürülmüş insanları evlərdən və küçələrdən götürüb basdırırdılar.

Bu arada ağır iş, çörəksizlik, aclıq və qışın soyuğu daha da ağırlaşırdı. Rusların yaxdıqları bazar açıqca, yerli müsəlmanların sallaqxanasına çevrilmişdi. Xristianlar o çevrədə gördükləri müsəlmanı öldürürdülər... və davam edir ki, silahları toplama bəhanəsi ilə evlərə soxulur, bütün dəyərli əşyaları, qida mallarını götürür və insanları da qətlə yetirirdilər. Heç kəsin can və mal güvənliyi yox idi. Müsəlmanlara qarşı bu biçim rəftar Osmanlı ordusu gəldiyi ana qədər davam edirdi.

725-ci səhifədə «Simitqonun Marşimonu öldürməsi» bölümündə yazılır: «Urmiyada ayaqlanan xristianlar əcnəbi dövlətlərin himayəsi ilə ayrıca bir güc oluşdurma və ya daha doğrusu, İrana qarşı xristian bir



M.S.Ordubadi adına
Naxçıvan Respublika
Kitabxanası

97471

dövlət qurma təlaşı içərisində idilər. Ancaq aysori və erməni olaraq, öz kəmiyyətlərini az gördüklərindən kürdləri də özlərinə qatmaq istədilər və bu barədə ən uyğun adam olaraq da Simitqonu seçdilər».

Bu qərardan sonra baş keşiş Marşimon 140 kişi silahlı dəstə ilə İsmayıl Simitqonun görüşünə gedir. Simitqonun etirafına görə, Marşimon ona belə demiş: «Kürdüstan adlanan bu ölkə bizim hamımızın olmuşdur. Ancaq birliksizlik bizləri dağıtmış və bu günə salmışdır. İndi isə birləşməli, bu ölkəni ələ keçirməli və birlikdə yaşamalıyıq... biz ordunu səfərbər etmişik, ancaq süvari yoxumuzdur. Əgər siz də bizimlə olsanız, çoxlu süvari ilə Təbrizə hücum edib oranı da ələ keçirərik».

Marşimonun ölüm xəbəri Urmiyaya çatdıqdan sonra xristianlar başçılarının izni və əmri ilə iki gün kütləvi qətl törətdilər və bu qırğında təqribən 10 min müsəlman və kəlimi öldürüldü...

755-ci səhifədə belə yazılır: «Beləliklə, savaş davam edirdi ki, birdən Osmanlı ordusu Səlmas tərəfindən gəlməyə başladı və yetişcək də toplarını bağ başına yerləşdirib atəş açmağa başladılar. Osmanlıların gəlişindən Xoy xalqı sevindi və savaşmağa cürət etdilər. Digər tərəfdən ermənilər özlərini iki od arasında gördükləri üçün qələbəyə olan inamlarını itirdilər və yalnız savaşaraq döyüş meydanından özlərini uzaqlaşdırmağa çalışırdılar».

Osmanlılar ağır hücum edib onlardan çoxlarını öldürdülər. İki-üç gün ərzində Osmanlılar Xoy və çevrəsindəki bütün erməni kişilərini öldürdülər və sonra da Osmanlı ordusu Urmiyaya döndü.

763-cü səhifədə yazılır: «Beləliklə, Səlmas və Urmiya fitnəsi Osmanlı tərəfindən basdırıldı və Dr. Şet və yandaşlarının törətdikləri fitnə atəşində 130 mindən artıq müsəlman və bir çox xristian dəstələri öldürüldülər. Bütün çevrə abadlıqları viran edildi. Bütün xristianlar sərgərdan olaraq ev-eşiklərindən didərgin düşdülər. Bir toplumun əcnəbilərin əlində oyuncaq olmasının nəticəsi budur».

Əhməd Kaviyanpurun «Urmiya tarixi»[1] kitabında və prof. Həsən Əlibəylinin Bakıda «İpək Yolu»[2] dərgisində çap etdirdiyi məqaləsində də olaylar təqribən Əhməd Kəsrəvinin yazdığı kimi nəql edilmişdir.

Sadəcə, daha xülasə və aydın olaraq macəra belə imiş ki, 1918-ci ilin yanvarında İngiltərənin ikinci kol ordu başçısı Qresi Urmiyada Fransa

---

[1] Kaviyanpur Əhməd, Tarix-e Urmiye, Tehran.

[2] Prof. Həsən Əlibəyli (Azərbaycan universitetlərində Uluslararası və tarix öyrətməni).

xəstəxanasının müdiri Kucol, Amerika konsulunun yardımçısı və missionerlərin məsul adamı Makdavil, Rusiyanın Urmiyadakı konsulunun müavini V.P.Nikitin və aysorilər məzhəbinin rəisi Mar-Şimon bir sıra müzakirələrdən sonra belə qərara gəlirlər ki, silahlanmış erməni-aysori qüvvələri çar ordusunun qalıqları və Amerikanın maliyyə yardımı ilə Türklərə qarşı savaşı davam etdirsinlər və Azərbaycanda (İranda) müstəqil xristian bir dövlət qursunlar. İngilislərin məsləhəti ilə kürdlərin də bu işə qoşulması təklif olunur. Bu məqsəd üçün Mar-Şimon 1918-ci ilin mart ayının 3-də 140 nəfərlik süvari və bir neçə rus zabiti ilə birgə Simitqo ilə görüşmək istəyir. Simitqoya deyir ki, biz öz qüvvələrimizi silahlandırmış və hazırlamışıq, bizim süvarilərimizin sayı azdır, sizin də süvariləriniz bizimlə olsa, gedib Təbrizi də tutarıq.

Bu zaman öncədən hazırlanmış bir plan üzrə Mar-Şimon və arkadaşları silahlı Simitqo süvariləri tərəfindən öldürülürlər. Mar-Şimonun ölüm xəbəri Səlmasa çatdıqda iki gün ərzində aysorilər və erməni daşnakları tərəfindən 10 minə yaxın silahsız müsəlman qətlə yetirilir. Aysori kilsəsi ümumi qətl fitvası verir və Kəsrəvinin söylədiyinə görə, Urmiyada 10 min nəfər insan qətlə yetirilir. Əhməd Kaviyanpurun yazdığına görə, Xoy və çevrəsindəki xristian-müsəlman toqquşmasında bütün bölgədə təqribən 130 min nəfər insan öldürülür. Bu zaman rus silahlı qüvvələri müsəlmanları tərk-silah etmək üçün əmr çıxarır, fərman verir.

Bu elanda yazılmışdı: «Azərbaycanda İran dövləti tərəfsizliyini saxlaya bilmədiyi üçün müttəfiqlərin qərarı ilə xarici Osmanlı ordusunun Azərbaycana girişinin qarşısını almaq məqsədilə milli xristian ordusu təşkil edilir... Müsəlmanlar aşağıdakı şərtlərə riayət etməlidirlər:

1. İstipanyansın başqanlıq və liderliyilə 16 nəfərlik bir məclis təşkil edilir.

2. Şəhərdə fövqəladə vəziyyət elan olunduğundan, polis idarəsinin rəisi bu məclis tərəfindən təyin edilməlidir.

3. Müsəlmanlar 48 saat içərisində silahsızlaşdırılmalı və silahlarını təhvil verməlidirlər.

4. İran kazak bilimləri rus zabitlərinə tabe olmalıdırlar».

Bu zaman erməni general Andranik 3 minlik silahlı ordusu ilə Araz çayından keçib Xoyu mühasirə edir və xoyluları qırdıqdan sonra Urmiyaya tərəf getmək, xristian qüvvələri ilə birləşərək xristian dövlətinin təşkil olunacağı yerdə hər ehtimala qarşı Osmanlı ordusu hücumunun qarşısını

almaq istəyir. Andranik öz planlarını realizə etmək və böyük Ermənistan yaratmaq yönündə rus və ingilis komandanlarının razılığını almışdı.

Bu anda Osmanlı Türk ordusu Azərbaycana gəlir, Xoy və Səlmasda Andraniki və digər xristian qüvvələrini məğlub edir. Andranik öz ordusu ilə fərar etmək məcburiyyətində qalır.

Beləliklə də Azərbaycanda müstəqil xristian dövlətini təşkil etmək planı 130 min nəfər insanın öldürülməsi ilə sonuclanır.

Mənim atam mərhum müctəhid Mirzə Əli Heyət ki, xalq tərəfindən sayğı ilə qarşılanır və Azərbaycanda hökumətin təmsilçisi olan Qacar vəliəhdi Məhəmməd Həsən Mirzə ilə də çox yaxşı münasibətləri var imiş, Osmanlılarla da yaxşıca ilişkidə olmuş və onlarla birlikdə İttihad-i İslam cəmiyyətini təşkil etmiş və özü də İran üzrə bu cəmiyyətin başqanlığını (Osmanlı İslam İttihadının başqanı mərhum Yusuf Ziya bəy[1] idi) yapmışdır, Osmanlıların sonrakı davranış və təpkiləri barədə belə rəvayət edirdi: Rus – ingilis ordusunun, Fransız və Amerika missionerlərinin himayəsini arxasına alan aysorilər, erməni daşnakları və Andranik ordusu Urmiyada, Səlmasda, Xoyda və ətraf kəndlərdə müsəlmanları ümumi qətlə uğratdıqdan sonra Osmanlı ordusu yetişdi və onların hücumu nəticəsində xristian gücləri məğlub olub əksəriyyəti fərar etdilər. Osmanlı qoşunu yerdə qalan aysoriləri və erməniləri mühasirəyə aldı. Osmanlı ordusunun başçısı Əli Ehsan Paşa mənimlə görüşüb dedi: Biz hər zaman sizə əngəl və düşmən olan bu müxərrib ünsürlərdən şəhərlərinizi təmizləmək istəyirik. Ancaq bu iş üçün İttihad-i İslamın rəisi olaraq sizin razılığınız və vəliəhdin də izni lazımdır. Dedim ki, bu işi etməyiniz, çünki bu, islam və insanlıq üsullarına qarşıdır və tarix boyu bu, iranlılara və sizə qarşı rüsvaylıq olaraq qeyd olunar. Dedi ki, siz gedin, vəliəhdlə məsləhətləşin, bəlkə vəliəhd razı oldu. Mən vəliəhdin yanına gedib Əli Ehsan Paşanın təklifini və öz mövqeyimi də söylədim. Vəliəhd də qətiyyətlə etiraz edib söylədi: Sakın bu işi yapmasınlar, yoxsa tarixdə biabır olarıq. Mən Ehsan Paşaya varıb vəliəhdin fikrini çatdırdım. Əli Ehsan Paşa narahatlıqla söylədi ki, mən bu işin vəbalini öz boynuma götürüb və Azərbaycan əhalisini birdəfəlik bu xəbis ünsürlərin şərindən qurtarmaq istəyirdim, ancaq təəssüf ki, özünüz istəmədiniz.

---

[1] Osmanlı ordusunun albayı Yusuf Ziya Paşa Quzey Azərbaycanın və Bakı Universitetinin müəllimi Abdulla Şaiqin qardaşı olmuşdur. Sovetlər Birliyi dağıdıldıqdan sonra, Yusuf Ziya Paşa Nərimanov tərəfindən dəvət edildi və bir neçə müddət Azərbaycanda xidmət etdi.

Beləliklə, görürsünüz ki, Urmiyada, Xoyda və Səlmasda kimlər müsəlman öldürmə fitnəsini salmış və İran Azərbaycanında müstəqil xristian dövləti və böyük Ermənistan dövləti qurmaq kimi çirkin xəyallarla uğraşmışlar. Müsəlman Osmanlı ordusunun isə bu aradakı rolu nə pantürkizm, nə də qövmlər və məzhəblər arasında ixtilaf icad etmək idi. **Osmanlı ordusunun rəsaləti günahsız Azərbaycan xalqını canavarların əlindən qurtarmaq olmuşdur.**

Sonda, Dr. Atabəyi bəyə «Azərbaycan» kitabını yazdıqları üçün təqdirlərimi sunaraq ümidvar olduğumu bildirirəm ki, mənim dostca təzəkkürlərimdən inciməyəcəklər və mənim qeydlərimi kitabında verdiyi bilgilər üzərinə bir təkmilləşdirmə kimi anlayacaqlar.

**Dr. CAVAD HEYƏT**
*30.05.2001*

## İKİNCİ NƏŞRƏ ÖN SÖZ

Mən özümü naşirlərin kitabın yenidən nəşr edilməsi barədə təklifini ən sadə redaktəni belə etmədən böyük məmnuniyyətlə qəbul edən alimlər sırasına aid etmirəm. Əslində, bu tədqiqat müasir siyasi və eyni zamanda sosial məsələlərlə bağlı olduğundan redaktə işi daha vacibdir. Bu nəşr üçün aparılmış tədqiqat hələ İranın şimal qonşuları olan Qafqaz və Orta Asiya regionunda Sovet idarəçiliyi hakim olduğu bir vaxtda başlanmış və elə həmin dövrdə də başa çatdırılmışdır. Keçən iki əsr boyunca İran öz şimal sərhədlərini dünyanın ən mühüm ikinci qüvvəsinə çevrilmiş qəsbkar bir dövlətlə bölüşürdü. Lakin bir neçə il müddətində, geniş Sovet imperiyasına alternativ olan İran siyasi və iqtisadi cəhətdən daha üstün olduğu üç respublika ilə ümumi sərhədləri bölüşməyin sevincini yaşadı. Buna baxmayaraq bu respublikalardan hər biri—Azərbaycan, Ermənistan və Türkmənistan İran ərazisində yaşayan əhali ilə etnik qohumluğu olan geniş əhaliyə malikdirlər. İran Azərbaycanı Sovet İttifaqının dağılmasından sonra Qafqazda baş verən sosial-siyasi hadisələrə uzun müddət biganə qala bilməzdi. Bütün bunlara görə də bu tədqiqatda həmin dəyişiklikləri nəzərə almaq zəruri idi. Lakin bəzi texniki səbəblər ucbatından mənim bu işi tamamilə yenidən işləməyim mümkün olmadı. Belə ki, mən mətndəki səhvləri düzəltməklə bərabər, sadəcə girişin üzərində yenidən işləmişəm.

Bu kitabın birinci nəşri təkcə Qərbdə deyil, eyni zamanda İranda və Azərbaycan Respublikasında da böyük diqqət cəlb etmişdi. İranda bu kitab farscaya tərcümə olunub «Tur Nəşriyyatı» tərəfindən nəşr edildiyi halda, Azərbaycan Respublikasında kitabın yalnız müxtəlif bölümləri tərcümə olunmuş və yerli jurnallarda dərc olunmuşdur. Bundan əlavə, əsl ingilis versiyası bir sıra elmi jurnallarda təhlil edilmişdir. Bəzi rəyçilərin öz dəyərləndirmələrində lazımi elmi bitərəfliyi gözləmədiklərinə baxmayaraq, mən onlara bu kitabı oxumağa ayırdıqları vaxt üçün dərin təşəkkürümü bildirməyi özümə borc bilirəm. Xüsusilə, İrandan olan azərbaycanlı mütəxəssis Rəhim Rəisniyaya bu kitabın farsca tərcüməsi üzərində etmiş olduğu, mənim üçün son dərəcə aydınlaşdırıcı təhlil üçün öz dərin minnətdarlığımı bildirirəm. Fikrimi yekunlaşdırarkən, İrac Bağırzadəyə və Tarisdəki Lester Kruka bu kitabın nəşrində göstərmiş olduqları ruhlandırıcı və inamverici kömək üçün sonsuz təşəkkürümü bildirirəm.

TURAC ATABƏYİ

## ÖN SÖZ

Bu kitab Azərbaycan Muxtar Hökumətinin (1945–1946) yüksəlişi və süqutunu tədqiq etməklə başladı. Diqqətimi əsasən İranın 1940-cı illərin əvvəllərində və II Dünya müharibəsindən sonrakı dövrdə apardığı siyasət üzərində cəmləşdirməklə əsas məqsədim muxtar hökumətin yaradılmasını təhlil edərkən qeyri-adi, tərəfsiz mövqeni gözləməkdən ibarət idi. Mən xüsusilə, «Azərbaycan böhranı» ilə əlaqədar olaraq sadəcə beynəlxalq əlaqələrin və soyuq müharibənin inkişafının təsiri ilə bağlı olan araşdırmalara istinad edən alim və tarixçilərdən fərqli mövqedə olmaq arzusunda idim. Lakin işin gedişatında mən Azərbaycan Muxtar Hökumətinin əsasının qoyulmasında milliyyətçilik və muxtariyyət anlayışlarının son dərəcə böyük əhəmiyyət kəsb etdiyinin və həmin dövr ərzində İranda baş verən hadisələrin müvafiq şəkildə bir tərəfdən bölgəçilik və mərkəzçilik arasında inkişaf etməkdə olan ziddiyyətlə, digər tərəfdən isə etnik mənsubiyyət, etnik bənzərlik və milliyyətçilik kimi anlayışlara təsir edən həlledici, nəzəri-əsaslı (konseptual) dəyişikliklərlə qarşılıqlı surətdə öyrənilməsinin zəruriliyinin fərqinə vardım.

Kitabın I–III bölmələrində azərbaycanlılıq etnik mənsubiyyətinin kökünə ümumi, tarixi bir nəzər salınır. XIX əsrdə İran Azərbaycanında formalaşan siyasi fikrə əsasən, Osmanlı imperiyasında və eyni zamanda, İranda mövcud olmuş etnik mənsubiyyət, milliyyətçilik, vətəndaşlıq anlayışlarına təsir edən siyasi mülahizələrin müxtəlif formaları müqayisə edilir və qarşılaşdırılır. Kitabın IV–VI bölmələrində əsas diqqət Azərbaycan Muxtar Hökumətini sosial-siyasi zəmində tədqiq etməyə yönəldilir.

Kitabda İran rəsmi mənbələri, Sovet İttifaqı arxivləri, Britaniya Xarici İşlər Nazirliyi və Amerika Birləşmiş Ştatlarındakı Milli Vaşinqton arxivləri ilə yanaşı, bu vaxta qədər əlçatmaz sayılan və ya çox az istifadə edilən, Azərbaycan Demokratik Partiyası və bilavasitə muxtar hökumətin özü ilə əlaqədar olaraq yaranmış mənbələrdən də istifadə olunmuşdur.

İran tarixi böyük əksəriyyətlə yazılmamış şifahi tarix olduğundan mən, yeri gəldikcə bu kitaba Azərbaycan Demokrat Partiyasının rəhbərləri, muxtar hökumətin keçmiş üzvləri və müasir siyasətçilərlə müsahibələri də daxil etmişəm. Avropanın müxtəlif şəhərlərində, eyni zamanda, keçmiş Sovet İttifaqının ayrı-ayrı respublikalarında aparılmış bu müsahibələr hadisələrin gedişində qaranlıq qalan bir sıra nöqtələrin

işıqlandırılmasında, əsas və ikinci dərəcəli mənbələrin dəyərinin yenidən nəzərdən keçirilməsində mühüm rol oynamışdır.

Əsərdə istifadə olunmuş mənbələr hadisələrlə bağlı bütün sahələri əhatə etməklə, çox az hallarda müraciət edilmiş əsas mənbələr kateqoriyasına aiddir. Qəzetlər, kitablar həm Azərbaycan Demokrat Partiyasının, həm də muxtar hökumətin qapalı, təşkilati iclaslarının protokolları ilə yanaşı, həmin dövrdə fəaliyyət göstərmiş şəxslərin xatirələri və müsahibələri, eyni zamanda müasir İran nəşrləri və jurnallarından istifadə etməkdə mənim məqsədim dövrün hadisələrinin tarazlı və «digər tərəf»in vəziyyəti necə dərk etdiyini də nəzərə alan hesabatını verməkdir.

İmkandan istifadə edərək bu kitabın yazılmasında mənə köməklik göstərənlərə öz təşəkkürümü bildirmək istərdim: Ervand Abrahamiana daimi rəhbərliyi və heç azalmayan dəstəyi üçün, Frederik de Lonqa çox dəyərli ruhlandırması üçün, Cohn Gurney, Filipp Kreyenbrok, Anna Enayat və Lester Kruka müxtəlif bölümlərin ilkin əlyazmaları ilə əlaqədar yaradıcı məsləhət və tənqidləri üçün öz təşəkkürümü bildirirəm. Sonuncu olaraq mən bu kitabın əlyazmasının redaktə edilməsində sonsuz səbir və dözüm göstərmiş Cohn Keynə öz dərin minnətdarlığımı bildirmək istərdim. O, çox xeyirxahcasına vaxtının böyük hissəsini bu işə həsr etmiş və mənə mənəvi cəhətdən həmişə dəstək olmuşdur.

Mən eyni zamanda, Hidayət Mətin Dəftəri, Nasir Pakdamən və Cahanşahlı Əfşara məni, ixtiyarlarında olan bir sıra mənbələrdən istifadə vasitəsilə və məlumatlarla təmin etdikləri üçün öz təşəkkürümü bildirirəm. Mən həmçinin, nəzarətçiyə, Britaniyadakı «HM Stationery» idarəsinə və keçmiş Sovet İttifaqının müxtəlif arxivlərində çalışan işçi heyətinə bu vaxta qədər nəşr olunmamış sənədlərdən kitabımda istifadə etməyə icazə verdikləri üçün minnətdaram. Son olaraq, mən anama heç yorulmadan İrandan mənə lazım olan bütün materialları göndərdiyinə görə həyat yoldaşım Şərarə və kiçik qızım Atossaya böyük səbir və anlayışla yaxşı ev şəraiti yaratmaqla mənim fikrimi cəmləşdirərək bu kitabı bitirməyimdə göstərmiş olduqları kömək üçün öz təşəkkürümü bildirmək istərdim.

Sözsüz ki, yuxarıda adları qeyd olunmuş şəxslərin və ya müəssisələrin heç biri bu kitabın hər hansı bir çatışmazlığı üçün cavabdeh deyildirlər.

**TURAC ATABƏYİ**

# MÜQƏDDİMƏ

*Ənənəvi tarixçilikdə adətən dövlət quruluşunun sistemli şəkildə tədqiqatı böyük əhəmiyyət kəsb etmir. Əgər tarix ayrı-ayrı şəxs və qrupların aydın, şüurlu plan və məqsədlərinin məcmusu kimi dəyərləndirilsə, onda yüksək təbəqəli insanların cüzi qısqanclıq və rəqabətləri hadisələrin gedişatı və ya tarixin aydınlaşdırılması üçün az əhəmiyyət kəsb edən fenomenin adi zəmininə çevrilə bilər. Sosioloji təlim olmadan həm ideologiya və əsl hakimiyyət bölgüsü arasındakı fərq, həm də əsl hakimiyyət bölgüsünün cəhətləri kimi ideologiyaların vəzifəsi əslində anlaşılmaz və qeyri-müəyyən şəkildə qalır.*

**N. Elias**, «Məhkəmə cəmiyyəti»,
*səh. 276* .

Siyasi tarix baxımından dəyərləndirildikdə iyirminci əsr hər şeydən əvvəl misilsiz sayda kiçik həcmli, suveren, milli dövlətlərin yaranmasına şahid olan, millətçiliyin geniş yayıldığı bir əsr kimi fərqləndirilə bilər. Bundan əlavə, yenicə yaranmış milli dövlətlərin əsasının qoyulması, eyni zamanda, meydana çıxmış dövləti izah etmək və əlaqəlilik yaratmaq üçün lazımi tarixi ənənələrinin də ortaya çıxması ilə nəticələndi. Belə ki, tarixin yenidən yazılması insanların bir araya gətirilməsində,onların milli mənsubiyyət hissləri və siyasi şüurunun inkişaf etdirilməsində ən mühüm amilə çevrildi. Hətta bəzi hallarda sadəcə qədim, tarixən əks-səda doğuran adların çəkilməsi siyasi qanunilik naminə yekdilliklə razılığa gəlmək üçün kifayət idi. İranlılar, Turan və bəzi türklər üçün Persiya adı nə qədər əhəmiyyətlidirsə, yunanlar üçün də Makedoniya adı bir o qədər əhəmiyyətli olub və indi də olmaqdadır. Bunun nəticəsi olaraq müəyyən sosial-siyasi ifadələrin, eyni zamanda coğrafi terminlərin sosial məzmunları siyasi müstəqillik və qanunilik tələblərinin irəli sürülməsində və yeni meydana çıxmış suveren dövlətlər arasında coğrafi sərhədlərin yenidən müəyyən edilməsində mühüm amilə çevrildi.

Əgər iyirminci əsrin əvvəlində iki qədim imperiyanın—Osmanlı imperiyası və Çar Rusiyasının süquta uğraması ən mühüm siyasi inkişaf kimi dəyərləndirilirdisə, əsrin sonu nəhəng Sovet İttifaqının çökməsi ilə səciyyələndirilir. Bu parçalanma nəticəsində bir sıra suveren dövlətlərin əsası qoyuldu ki, bu dövlətlərin də əksəriyyəti özlərinin tarixən qadağan edilmiş və əsl milli mənsubiyyətinin axtarışındadır.

Birinci dünya müharibəsindən sonra, Rusiya imperiyası yeni inqilabi Sovet dövləti ilə əvəz olunduqda, millətçilik dövrünün ən azı Avro-

pada sona çatdığına və bəşəriyyət üçün sinfi mənsubiyyətin çox güman ki, on doqquzuncu əsrin qədim milli mənsubiyyət anlayışı ilə əvəz oluna biləcəyi yeni eranın başlanacağına inananlar var idi. Əslində Sovet İttifaqı özü bu fikri dəstəkləməklə köhnə imperiyanın əsasında yeni «Sovet adamı» üçün yetişdirici zəmin olan yeni bir vətənin yaradılması niyyətində idi. Bu yeni vətənin əsas səciyyəvi xüsusiyyəti isə özünəməxsus potensialdan müxtəlif etnik qrupların milli mənsubiyyətlərini arxa plana atmaq üçün istifadə etməkdən ibarət idi. Bu, «tarixi determinizmi» başa vurmaqla və yeni fərd sayılan «Sovet adamı» üçün yol açmaqla, tarixin həm məhəlli səviyyədə, həm də böyük beynəlxalq imperiyaların səviyyəsində yenidən yazılması üçün cəhd edilmiş oldu.

Eyni zamanda, buna əks olaraq həmin tarixçilik məktəbi daxilində öz milli mənsubiyyətlərini mükəmməl və yoxedici Sovet mənsubluğundan qorumaq üçün yerli tarixçilərin səyi ilə məhdud da olsa milli ruhlu təmayül tədricən özünü büruzə verməyə başladı. İran Azərbaycanının şimalında yerləşən Sovet Azərbaycanının (bugünkü Azərbaycan Respublikası) tarixinin əsaslı şəkildə yenidən yazılması tarixin siyasi cəhətdən əsaslandırılaraq bu cür yenidən yazılmasına canlı nümunədir.

Stalinin hakimiyyətindən sonrakı dövrdə Stalin meylli tarixçiliyi əvəz etmək üçün yazılmış Azərbaycan tarixinin (1) səhifələrində «Azərbaycan türkləri» tarixinin ardıcıllığına xüsusi əhəmiyyət verilməsini sezmək heç də çətin deyil. Bu müəlliflərə əsasən, Azərbaycan ərazisi qədim zamanlardan xüsusən, türk tayfalarının vətəni olmuşdur. Yeni tarixi qanunilik yaratmaq üçün sadə coğrafi terminlərdən istifadə etmək təşəbbüsünü əks etdirən başqa bir misal isə, həm İran Azərbaycanının, həm də keçmiş Sovet Azərbaycanının bir sıra ziyalı dairələrində Araz çayının şimal və cənub bölgələrini təyin etmək üçün Şimali və Cənubi Azərbaycan ifadələrindən istifadə olunmasıdır. Bu terminologiyanın seçilməsinin əsl məqsədinin İran Azərbaycanı və bugünkü Azərbaycan Respublikasının birləşdirilməsi ümidi ilə hər iki coğrafi ərazidə mövcud olan mədəni bənzərliyin üzə çıxarılmasından ibarət olduğu aydındır.

Ümumiyyətlə, iranlılar və xüsusilə də İran azərbaycanlılarına milli mənsubiyyət və milliyyətçilik kimi anlayışların siyasi əhəmiyyəti 1905 – 1909-cu illərdə baş verən Məşrutə inqilabından sonrakı dövrdə agah oldu. Millət, millətçilik və milli müstəqilliklə bağlı on doqquzuncu əsrdə Qərbdə yayılmış ideyaların təsirilə və eyni zamanda, qonşu Ana-

doluda pantürkizmin genişlənməsi ilə İranın orta ziyalı təbəqəsinin bəzi dairələri iyirminci əsrin əvvəllərində regionun üzləşdiyi siyasi dəyişikliklərin nəticələri barəsində narahat olmağa başladılar. Bu ziyalıların əsas narahatlıqları İranın müstəqilliyini qorumaq və ölkəni bir neçə regional dövlətə parçalamaq meylləri ilə mübarizə aparmaqdan ibarət idi.

Osmanlı imperiyasının süquta uğramasından sonra türk milliyyətçiləri tərəfindən türklər üçün daha böyük vətən ideyası yayılmağa başlandı, İrandan ayrılmaq və yeni pantürkizm vətəninə qoşulmaq barədə İran azərbaycanlılarına müraciətlər edildi. Berlində cəmləşən İran ziyalılarının kiçik bir qrupu İranın milli mənsubluğunun və müstəqilliyinin ən hay-küyçü müdafiəçilərinə çevrildilər. Daha sonra İrana qayıdan və hökumətdə nüfuzlu mövqelər tutan həmin ziyalılar qrupunun üzvləri İran tarixçiliyində İran mədəniyyətinin varisliyinə xüsusi əhəmiyyət verən və ölkənin islamdan əvvəlki dəyərlərini müdafiə edən meylin təsisçilərinə çevrildilər.

Birinci dünya müharibəsi başladıqda İran siyasi qarışıqlıq və çaxnaşma ilə üzləşdi. Bir-birini əvəz edən hökumətlər ölkənin gündən-günə çoxalan problemlərinin həll edilməsinə və əsaslı islahatların keçirilməsinə qadir olmadıqlarını nümayiş etdirdilər. Buna baxmayaraq, ölkənin şimalında—Azərbaycan, Gilan və Xorasanda bir sıra islahatpərəst şəxsiyyətlər mövcud idi və onlar öz bölgələrində dəyişikliklər etmək və islahatlar aparmaq üçün kampaniyalara başlamağa nail olacaqları təqdirdə bu islahatların tədricən bütün ölkəyə yayılacağına inanırdılar. Bu regional kampaniyaların gündəliyində İrandan ayrılmaq barədə müraciət yox idi. Belə ki, onların səyləri daha çox İran ərazisində hakimiyyətin mərkəzi hökumətlə yerli səlahiyyətli orqanlar arasında ədalətli şəkildə bölünməsini nəzərə almaqla sabit siyasi hakimiyyət yaratmaqdan ibarət idi.

Müasir dövrümüzdə qəbul edilmiş olan, sözün əsl mənasında, müstəqil muxtariyyət anlayışı İrana yalnız bir neçə il sonra, marksizmin əlavə məhsulu kimi gəldi. İran marksistləri tərəfindən yazılmış və ya tərcümə olunmuş marksist ədəbiyyatında İran, farslardan başqa bütün digər millətlərin zülmə məruz qaldıqları, çoxmillətli bir dövlət kimi səciyyələndirilirdi. Bundan əlavə, «Fars şovinizmindən»yaxa qurtarmaq üçün digər «millətlərə» Sovet modelini qəbul etmək, yəni İranın siyasi sərhədləri çərçivəsində muxtar regionların əsasının qoyulması tövsiyə

edilirdi. Digər tərəfdən qeyd etmək lazımdır ki, İran marksistlərinin bəzi təbliğatlarında muxtar regionların yaradılması ideyasından yan keçildiyi və bolşeviklərin xalqların öz müqəddəratlarını müəyyən etmək, ayrılaraq yeni müstəqil dövlət yaratmaq hüququ prinsipinə əsasən müraciətlər qəbul edildiyi hallar olmuşdur. Lakin gizli siyasi qrup olduqlarından İran kommunistləri bu yeni modellərin hər hansı birini yerinə yetirməyə qadir olub-olmadıqlarını nümayiş etdirə bilmədilər. Rza şah Pəhləvinin dövründə *(1925–1945)* nə kommunistlər, nə də başqa hər hansı bir siyasi partiya ölkənin siyasi həyatında iştirak etməyə imkan tapa bildi.

1941-ci ildə İranın İngilis – Sovet qoşunları tərəfindən işğal edilməsi iranlılar üçün Rza şahın 16 illik mütləqiyyətinin sonu demək idi. İranın siyasi həyatında işğalla başlayan «açıq mühitin» Azərbaycan Muxtar Hökumətinin süquta uğraması ilə tədricən yox olmasına baxmayaraq, 1941-ci ildən sonra sürətlə baş verən siyasiləşmə prosesi İran cəmiyyətinin 1905–1909-cu illər Məşrutə inqilabından sonrakı dövrdə yaşadığı heç bir şeyə bənzəmirdi.

Böyük şəhərlərdə siyasi partiyaların və ticarət ittifaqlarının yaranması ilə insanların siyasi və eyni zamanda sinfi, etnik şüurluluğunun səviyyəsi yüksəldi. Adətən, «itaətkar möhür» kimi dəyərləndirilən İran parlamentinin hökumət tərəfindən verilən qanun layihələrini itaətkarcasına qəbul etmək əvəzinə ölkə ilə bağlı qərarların qəbul edilməsində fəallaşacağı barədə geniş yayılmış ümumi bir fikir var idi.

Bundan əlavə, Rza şahın 1941-ci ildə öz səlahiyyətlərindən əl çəkməsi İranın bəzi əyalətlərində əhalinin farsdilli hissəsinin üstünlüyü siyasətini yeridən hökumətin sona çatması kimi dəyərləndirilirdi. Bu siyasət xüsusilə, Rza şahın hakimiyyətinin son 10 ilində özünü daha çox göstərirdi. İndi, 16 il ərzində hökumətin müxtəlif etnik qruplara qarşı apardığı dözülməz rəsmi siyasətdən sonra, bir sıra sosial çətinliklər və etnik münasibətlərin öz yoluna qoyulması üçün imkan yaranmışdı. Belə ki, qəzet və jurnallar fars dilindən başqa digər dillərdə də nəşr olunmağa başlandı. Habelə, bəzi əyalətlərdə etnik mədəniyyətin bərpa edilməsi və milli mənsubiyyətə xüsusi diqqət verilməsi sadəcə Rza şahın etnik eynicinsləşdirmə siyasətinə qarşı verilən reaksiya kimi yox, eyni zamanda ölkənin kəndlərinin iqtisadi tələblərinə daha çox diqqət yetirilməsi üçün hökumətə təzyiq göstərməyin üsulları kimi də başa düşülürdü.

Azərbaycan Rza şahın hakimiyyəti dövründə iqtisadi cəhətdən diqqət yetirilmədiyindən müxtəlif şəkillərdə əziyyət çəkmiş coğrafi bölgələrdən biri idi. İranın şimal-qərbinin Sovet qoşunları tərəfindən işğal edilməsi nəticəsində yaranan hakimiyyət boşluğu, ölkənin iqtisadiyyatından tamamilə təcridolunma və inkişaf etməkdə olan milli mənsubiyyət şüurluluğu sosial dəyişikliklərin sürətlənməsinə kömək edən ən mühüm amillər idi. Dövr yeni ideyalar üçün uyğun idi, cəmiyyət və siyasətlə bağlı məsələləri izah etmək üçün yeni nəzəriyyələrə əsaslanmağa meyllilik var idi.

Bu yeni beynəlxalq tarazlıqdan istifadə edən təzəcə yaranmış Azərbaycan Demokratik Partiyası 1945-ci ilin sentyabrında Milli Məclis çağırdı və daha sonra Azərbaycan Milli Hökumətinin əsasını qoydu. Eyni zamanda rəsmi ordu ləğv edildi və onun yerinə Fədaiyan (Fədailər) kimi tanınan hərbyönlü təşkilat yaradıldı. Azərbaycan Demokratik Partiyası bir il müddətində hakimiyyəti əlində saxlaya bildi. 1946-cı ilin dekabrında mərkəzi hökumət Azərbaycana ordu göndərərək muxtar hökumətin hakimiyyətinə güclə son qoydu və beləliklə də Milli Hökumətin dramatik süqutu baş verdi.

Bu kitabın əsas hissəsində müasir İran Azərbaycanında milli mənsubiyyət şüurluluğunun inkişafı və bu inkişafın necə siyasi hərəkata çevrilərək Azərbaycan muxtar hökumətinin yaranmasına səbəb olduğu tədqiq olunur.

Müasir İranda ilk dəfə, ciddi olaraq bir etnik qrup tərəfindən regional muxtariyyət əldə etmək səyilə azərbaycanlıların yaratdığı muxtar hökumətin əhəmiyyətini nəzərə alaraq bu kitabda həmin hökumətin tarixi təfərrüatı ilə təsvir edilmişdir. Bundan əlavə, bu hökumətin yüksəlişi və süqutunun tarazlaşdırılmış hesabatını vermək üçün İranda daha əvvəl cərəyan edən siyasi hadisələri, xüsusilə də 1941–1946-cı illəri əhatə edən dövrdə, yəni Rza şahın öz səlahiyyətlərindən əl çəkməsi və İranın müttəfiqlərin qoşunları tərəfindən işğal olunması ilə başlayan və qısaömürlü Azərbaycan Muxtar Hökumətinin süqutu ilə başa çatan bu dövrdə baş verən yaddaqalan hadisələri də nəzərə almaq olduqca vacib və əhəmiyyətlidir.

Azərbaycanın «böhran» illəri və Azərbaycan Muxtar Hökumətinin siyasəti həm iyirminci əsr İran tarixinə, həm də Sovet İttifaqının Qərb

və İranla əlaqələrinə həsr olunmuş bir sıra kitab və elmi məqalələrdə müzakirə olunmuşdur. Bu mövzunun həddən artıq çox tədqiq olunduğu nəzərə alındıqda həmin sahədə başqa bir tədqiqata ehtiyac olmadığı güman edilə bilər. Lakin bu kitab və məqalələrin əksəriyyətində hadisələrə və Azərbaycan hökumətinin siyasətinə istiqamət verən beynəlxalq əlaqələrin və soyuq müharibənin təsirinin tədqiqinə daha çox üstünlük verilir. Bundan başqa, çox təəssüflə qeyd edilməlidir ki, elmə verilmiş bu töhfələrin əksəriyyəti siyasi bitərəflik cəhətdən kasıbdır və doğru, dəqiq olmayan məlumatlara əsaslanır. Faktiki olaraq tamamilə səhvən Pişəvərini (Azərbaycan Muxtar Hökumətinin rəhbəri) Stalinin 1935 – 1938-ci illərdə apardığı təmizləmələrdə (2) məhv edilən kommunist, veteran Sultanzadə ilə qarışıq salan H. Thomasın soyuq müharibədən bəhs edən kitabını misal olaraq göstərmək olar. Başqa bir örnək olaraq, Ladgevardinin İranda həmkarlar ittifaqı hərəkatına həsr etdiyi çox dəyərli kitabında Azərbaycan «böhranından» bəhs edərkən Trumeni Azərbaycandan Sovet qoşunlarını çıxartmaq barədə Stalinə «ultimatum» vermiş kimi qələmə vermәsini xatırlatmaq olar.(3)

Bu kitab nə bütövlükdə iyirminci əsr İran tarixini əhatə etməyi, nə də ki müasir İran tarixi ilə bağlı olan milli mənsubiyyət, millətçilik və vətəndaşlıq anlayışları ilə əlaqədar hər hansı bir problemi həll etməyi qarşısına məqsəd qoymuşdur. Əsasən Azərbaycanı tədqiq etməklə, kitab həm Azərbaycanda milli mənsubiyyətin inkişafını, həm də bu inkişafın, ümumiyyətlə, İran milli mənsubiyyəti ilə qarşılıqlı əlaqələrini işıqlandırmağa ümid edir. Bu kitabın digər əsas məqsədi isə müasir milli dövlətlərin regional muxtariyyət məsələsi ilə bağlı üzləşdikləri problemləri aydınlaşdırmaqdan ibarətdir. Azərbaycan Muxtar Hökumətinin yüksəlişi və süqutu ilə bağlı hadisələri təsvir edərkən mən min il bundan əvvəl məşhur İran tarixçisi Əbülfəz Beyhaqinin vəfat etmiş vəzirin tarixini yazarkən qeyd etmiş olduğu sözləri yadımdan çıxarmamağa çalışmışam: «Mən bu insana nifrət etdiyimi boynuma almalıyam. Lakin buna baxmayaraq, bu tarixi yazarkən fanatik və intiqamçı səslənəcək hər hansı bir fikrə yol verməməyə səy göstərəcəyəm. Buna görə də insanlar heç bir səhv tapmayacaqlar».

I

## AZƏRBAYCANLILARIN SOYKÖKÜ

*Ömər İbn əl-Xəttab əl-Hörmüzandan «İsfahan, yoxsa Azərbaycanla (Aturpatakan) başlayaq?» deyə məsləhət alanda əl-Hörmüzan cavab verdi: «İsfahan başdır, Azərbaycan isə qanaddır. Baş kəsilsə, qanadlar da onunla bərabər qırılacaq».*

**Əl-Baladhuri**, Kitab Fütuh əl-Buldan, *səh. 472.*

Türk, Azəri, yoxsa Azərbaycanlı?

Müasir İranın şimal-qərbində yerləşən Azərbaycan 7,770,000 nəfər (ölkənin 49,765,000 nəfər ümumi əhalisindən) (1) əhaliyə malik bir regiondur. Azərbaycan müstəqil milli mənsubiyyəti əks etdirmək üçün ən mühüm amil olan özünəməxsus və fərqli dilə sahibdir. Tanınmış İran tarixçisi Əhməd Kəsrəviyə görə, coğrafi termin olaraq Azərbaycan sözü Böyük İsgəndərin e. ə. 330-cu ildə (2) İranı işğal etdiyi zaman bu bölgəni idarə edən yerli hökmdar Atropatın adından törəmişdir. Atropatın adı «Atəş Qoruyucusu» mənasını verir. Atəş məbədlərinin olduqca geniş yayıldığı bu bölgədə—Adurbadaqanda (Azərbaycan) onun nəslindən olan hökmdarlar əsrlər boyu hökmranlıq etmişlər.(3)

Adurbadaqanın islamlaşdırılması yeddinci əsrə, ərəb ordusunun İranın qərb sərhədlərində qazandığı qələbələrdən sonra şimala yürüş edərək bizim eranın 642-ci ilində ərəb tələffüzünə əsasən, Azərbaycan olaraq bilinən bölgədə qələbə çaldığı dövrə təsadüf edir. İslamçı coğrafiyaşünaslar Azərbaycanın cənubdan Zəncan, şərqdən Deyləmistan, Tarom və Gilanla, qərbdən Varasan və ya Varadan, şimaldan isə Araz çayı ilə sərhəd olduğunu qeyd edirlər. (4)

Bu təsvirdən də aydın olduğu kimi, bu gün Azərbaycan Respublikasının (keçmiş Sovet Sosialist Azərbaycan Respublikası) ərazisinə daxil olan, Araz çayından şimalda yerləşən torpaqlar qədim Azərbaycanın coğrafi sərhədləri daxilində deyilmiş. Onuncu əsrə aid müəllifi bəlli olmayan «Hüdud əl-Aləm» (5) adlı coğrafiya kitabında Araz çayının şimalı Arran adlandırılır. Eyni zamanda, İbn Hövqəl Araz çayını Arran (6) bölgəsinin cənub sərhədi hesab edir. İranı Arran və Azərbaycan da daxil olmaqla səkkiz bölgəyə bölən digər bir onuncu əsr səyyahı əl-Müqəddisinin qeydlərini nəzərdən keçirə bilərik: «Arran Xəzər dənizi

və Araz çayı arasında yerləşən adaya bənzər bir ərazidir. Onun paytaxtı Bərdədir».(7) On üçüncü əsr coğrafiyaçısı Yaqut əl-Həməvinin də Azərbaycanın Arrandan fərqləndiyini qeyd etməsini müşahidə edirik: «Azərbaycan və Arranın arasından Araz adlı bir çay axır. Bu çayın şimal və qərbində yerləşən ərazi Arran, cənubunda yerləşən ərazi isə Azərbaycan adlanır».(8) Son olaraq, 1652-ci ildə tamamlanan «Bürhan-i Qate» adlı ensiklopedik kitabda Araz Tiflisdən axan və Azərbaycanla Arran arasındakı sərhədi təyin edən məşhur bir çay kimi təsvir olunur(9). Onuncu əsr səyyahı Əl-İstəxri azərbaycanlıların dilinin fars və ərəb dilləri olduğunu, lakin Bərdədən kənarda yaşayan əhalinin Arrani dilində danışdığını qeyd edir.(10) Onuncu əsrin məşhur tarixçisi əl-Məsudiyə əsasən, farslar Mahat dağları, Ermənistan və Arrana qədər uzanan Azərbaycan, Dərbəndə qədər uzanan Beyləqan, Rey, Təbəristan, Masqat, Şabran, Qorqan, Abarşəhr, Nişapur, Herat, Mərv, Xorasanda yerləşən digər ərazilər, Secistan, Kirman, Fars, Əhvaz və digər ərazilər daxilində məskunlaşmış əhaliyə deyilirdi. Bir zamanlar bütün bu ərazilər müstəqil bir şahlıq tərəfindən idarə olunurdu və bu bölgədə bir-birindən qismən fərqlənən ayrı-ayrı dillər olsa da, əsasən bir dil hakim idi. Bu dillərin hamısı eyni əlifbadan və əsərlərdə də eyni üsullardan istifadə edirdilər. Belə ki, Pəhləvi, Dari, Azəri və digər fars dilləri kimi bir-birindən fərqlənən dillər mövcud idi.(11)

Buradan aydın olur ki, müəllif Azəri dilini fars dilləri ailəsinin bir üzvü hesab edir.

Hətta on üçüncü əsrdə, Azərbaycanın müsəlman ərəblər tərəfindən işğal edilməsindən altı əsr sonra belə Azərbaycanda Azəri dili danışılırdı. Bunu Yaqut əl-Həməvi də təsdiq edir: «Azərbaycanda məskunlaşan insanların gözəl simaları, zərif dəriləri vardır. Onlar özlərindən başqa heç kimin başa düşmədiyi Azəriyeh adlanan bir dildə danışırlar».(12)

## TÜRKLƏRİN GƏLİŞİ

Türk dili Azərbaycan bölgəsinə on birinci əsrdə türklərin Kiçik Asiyaya etdikləri böyük köçün nəticəsində gəlmişdir. «Oğuzların 2000 nəfərdən ibarət ilk qrupu 1029-cu ildə gəldi və Vahsudan tərəfindən çox yaxşı qarşılandı... Yenidən 1044-cü ildə 5000 nəfərdən ibarət olan türkmənlər Diyarbəkir və Ermənistandan keçərək Mesopotamiyadan Azər-

baycana qayıtdılar və Xoy şəhərini işğal etdilər».(13) Lakin ən həlledici hadisə 1054-cü ildə məşhur Səlçuq sərkərdəsi Toğrul bəyin Azərbaycan və Arrana yürüş edərək yerli hakimləri özünə tabe etməsi oldu.(14)

Bu təzəgələnlərin özləri ilə birlikdə gətirdikləri dil türk dillərinin cənub-qərb (oğuz) qoluna daxildir. Bu yeni dil yerli əhalinin danışdığı Azəri dilinin güclü təsirinə məruz qalsa da tədricən həmin dili əvəz etməyə başladı və Azərbaycanda hakim dilə çevrildi.

Səlcuqların yürüşlərindən sonra Azərbaycan 1221-ci ilin yazında monqollar tərəfindən işğal olundu. Çingiz xanın amansız və güclü hücumları əsasən bu ərazilərin viran edilməsi və qırğınla əlamətdar olsa da, daha sonrakı illərdə Azərbaycan yavaş-yavaş özünə gəldi, tədricən sülh və əminamanlıq dövrünə daxil oldu. 1258-ci ildə Bağdadı istila edərək Azərbaycana qayıdan monqol hökmdarı Hülaki xan daha sonra, Persiyada hökmranlıq edən Elxanilərin paytaxtına çevrilən Marağanı özünə iqamətgah seçdi. Bu yüksək mədəni inkişaf mərhələsinin başlanğıcı idi. Məhz bu dövrdə Nəsirəddin Tusi, Böyük Vəzir və monqol xanının rəhbərliyi altında Marağada məşhur astroloji rəsədxana yaradıldı. Marağa ilə yanaşı Təbriz də qüdrətli Elxanilərin idarəçiliyində olduğu vaxtlarda rifaha qovuşdu. Əslində, 1265-ci ildə Hülaki xanın xələfi Abaqa xan taxta çıxarkən yeni qaydaya əsasən, imperiyanın paytaxtını Marağadan Təbrizə köçürdü.(15)

On beşinci əsrdə, Teymur və onun davamçılarının hökmranlıq etdiyi bir dövrdə Azərbaycan əsasən Qaraqoyunlu və Ağqoyunlu türkmənləri tərəfindən idarə olunurdu. Teymurilərin başlıca rəqibləri olan türkmənlər tez-tez Azərbaycana yürüşlər edirdilər və nəticədə bu əyalət həddən artıq dağıntıya məruz qalırdı. Buna baxmayaraq, tarixinin bu mərhələsində əyalətin sülh və əminamanlıq içərisində yaşadığı vaxtlar da olurdu. Bu hakimiyyət Anadoludan Herata qədər uzanan Qaraqoyunlu Türkmənin dövründə (1438–1467), Təbrizin paytaxta çevrildiyi bir vaxtda, özünü daha çox göstərirdi.(16)

Türk dilinin yerli forması olan Azərbaycan dilinin yayılması prosesi o qədər müvəffəqiyyətlə gedirdi ki, on altıncı əsrin əvvəllərində Şah İsmayıl bu regionda Səfəvilər sülaləsinin hakimiyyətinin əsasını qoyduqda, artıq qədim Azəri dilindən heç bir nişanə yox idi və Azərbaycan dili əhali arasında ən hakim dilə çevrilmişdi.

On altıncı və on yeddinci əsrlərdə bu regionun siyasi tarixi daha çox rəqabətlə və bir çox hallarda iki böyük imperiyanın—Anadoluda Osmanlı imperiyası ilə Persiyada Səfəvilər dövlətinin arasında baş verən açıq hərbi qarşıdurmalarla xarakterizə olunur. Sünni müsəlmanların ənənəvi olaraq məskunlaşdığı coğrafi ərazidə şiəliyin yayılmasına böyük əhəmiyyət verməkdə Səfəvilərin əsas məqsədi sünni Osmanlı imperiyası təhlükəsinə qarşı öz müstəqilliklərini təminat altına almaqdan ibarət idi.

On altıncı əsr tarixçisi Həsən bəy Rumluya əsasən, Səfəvilər sülaləsinin banisi Şah İsmayıl Təbrizdə öz hakimiyyətini elan edərkən şiəliyə dair bütün dini kitabların bir araya toplanması barədə fərman imzalamışdır. Lakin Təbriz kimi böyük bir şəhərdə belə şiəliyə dair yalnız bir kitab tapılmışdır.(18) Belə görünür ki, bu lətifə həmin regionda o dövrdə mövcud olan şiəliyi öyrənmək üçün aparılan tədqiqatların yetərsizliyini təsvir etmək üçün verilmişdir.

Səfəvilərin hakimiyyətdə olduğu sonrakı iki əsrdə Azərbaycan Osmanlı qoşunları tərəfindən bir neçə dəfə viran edilmişdir. Şübhəsiz ki, bu hərbi hadisələrin ən faciəlisi 1635-ci ildə Osmanlı sultanı IV Muradın Təbrizi tutaraq darmadağın etməsi olmuşdur.

On səkkizinci əsrin birinci yarısında Azərbaycana Osmanlı imperiyasının hərbi yürüşləri davam etdi. Səfəvilər dövrünün sonunda Persiyada mövcud olan çaxnaşmalardan istifadə edən və öz hərbi əməliyyatlarını Səfəvilərin «dönüklüyünə» qarşı mübarizə aparmaq kimi dəyərləndirən Osmanlılar yenidən Azərbaycana və Ardalana (Kürdüstan) hücum etdilər. Lakin daha sonra, on səkkizinci əsrin ortalarında sünni sərkərdə Nadir şah Əfşar İranda hakimiyyətə gəldikdə Osmanlılar bu əyalətdən geri çəkilməyə məcbur oldular.(19)

Osmanlı imperiyasının hərb yolu ilə Azərbaycana doğru genişlənməsi uğrunda apardığı əsaslı siyasətinin əsrlər boyu güclənən mühüm dini ziddiyyətlə birlikdə inkişaf etməsi nəticəsində azərbaycanlıların indi Türkiyə Respublikası adlanan həmin dövlətə qarşı düşmənçilik münasibətinin yaranmasına şərait yarandı. Digər tərəfdən, qeyri-sabitliyin yaranmasına səbəb olan arasıkəsilməz Osmanlı təhlükəsinə baxmayaraq, Azərbaycan zaman-zaman sülh və əminamanlıq içərisində yaşamış, mühüm ticarət yolları və Trabzonla Mərkəzi İranı birləşdirən strateji mövqedə yerləşdiyindən ticarət cəhətdən olduqca inkişaf etmişdi.

On doqquzuncu əsr Azərbaycan tarixinə əsas istiqamət verən hadisə farsların siyasi səhnədə yeni bir imperiyanın dağıdıcı təsiri ilə üzləşməsi oldu. Belə ki, Rusiya imperiyası ilə sərhəd olmaqla Azərbaycan tədricən həm diplomatik, həm iqtisadi, həm də hərbi sahədə rusların güclü təzyiqinə məruz qaldı. 1813 və 1828-ci illərin alçaldıcı hərbi uğursuzluqlarının nəticəsi olaraq Persiyanın Rusiya ilə sərhədləri Gülüstan və Türkmənçay müqavilələrinə əsasən müəyyən edildi. Nəticədə, Persiya Qafqazdakı əyalətlərini əbədi olaraq tərk etməyə məcbur oldu. Bundan başqa, bu müqavilələr sayəsində Rusiya Azərbaycanda həm ticari, həm də maliyyə sahəsində imtiyazlar əldə etdi.

Təbii ki, Rusiyanın Persiyanın digər bölgələrinə iqtisadi cəhətdən nüfuz edə bilməsi üçün Azərbaycanın bir növ keçid rolunu oynaması olduqca əhəmiyyətli idi. Mərkəzi Azərbaycan olan Qacar imperiyasında *(1790 – 1925)* da Təbriz Persiyanın ən mühüm ticarət mərkəzlərindən biri və şahzadənin saray əhli ilə birlikdə oturduğu, ölkənin ikinci ən mühüm siyasi şəhəri olaraq qalırdı. Bundan əlavə, bu dövr Təbrizin xarici dünyaya daha açıq olması və yeni ideyaların inkişaf etməsi üçün Persiyanın hər hansı bir digər şəhərindən daha əlverişli şəraitə malik olması ilə xarakterizə olunurdu. Bu isə tədricən Təbrizdə mütərəqqi siyasi düşüncəyə sahib şəxslərin yetişməsinə imkan yaratdı. Bütün bunlar Azərbaycanın nə üçün iyirminci əsrin əvvəlində baş verən Məşrutə inqilabında çox mühüm rol oynadığını izah edir.

## AZƏRBAYCANLILAR MİLLƏTDİRLƏR, YOXSA ETNİK QRUP?

Azərbaycanlıları bir millət, yoxsa etnik qrup kimi dəyərləndirə bilmək üçün hər şeydən əvvəl hər iki sosial-siyasi terminin mənası dəqiqləşdirilməlidir. Bu kitabın məqsədi kimi əsas məsələ ən azı siyasi düşüncəyə sahib olan azərbaycanlıların bir hissəsi arasında yaranan və Azərbaycanda muxtariyyət hərəkatı üçün çox mühüm nəticələrə gətirib çıxaran «azərbaycanlıların sadəcə etnik qrup yox, bir millət olması» anlayışının necə özünə əsas tapmasının araşdırılmasıdır.

İyirminci əsrin əvvəllərində iki böyük imperiyanın – Çar Rusiyası və Osmanlı imperiyasının süquta uğraması millətlərin öz müqəddəratını

təyin etmək hüququ anlayışının ümumiyyətlə inkişaf etməsinə şərait yaratdı. Daha sonra, II Dünya müharibəsindən sonrakı dövrdə müstəmləkəçilik siyasətinin süquta uğraması prosesinin sürətlənməsi və bir sıra yeni milli dövlətlərin meydana gəlməsi nəticəsində bu anlayış daha böyük siyasi əhəmiyyət kəsb etdi. Bütün bu dövr ərzində millətin necə müəyyən olunması və öz müqəddəratını təyin etmək hüququnun əsasında nəyin dayanması sualı, xüsusilə, dünyanın bir sıra bölgələrində, bu kimi siyasi anlayışların adi insanların düşüncə tərzinə əvvəlki vaxtlara nisbətən daha çox təsir etdiyi yerlərdə daim diqqət mərkəzində olmuşdur. Bir qrup insan sadəcə özünü millət adlandırdığı üçün öz müqəddəratını təyin etmək hüququndan istifadə edərək müstəqil dövlət yarada bilərmi? Əgər belə deyilsə, onda bir millətin ayrıca, müstəqil olaraq mövcud olması üçün zəruri sayılan meyarlar nədən ibarət idi? Millət və etnik qrup arasında əhəmiyyətli bir fərq vardırmı? Əgər varsa, bu fərqlilik dəqiqliklə nədən ibarətdir?

Aşağıdakı bölümlərdə müasir dünyaya yenicə qədəm qoymuş iranlıların siyasi düşüncə tərzinə son dərəcə təsir edən bu sualların heç olmasa bir hissəsinə cavab tapmağa səy göstərilmişdir. İran və Osmanlı imperiyası ilə bağlı hadisələr həm oxşar, həm də fərqli xüsusiyyətlərə malik iki ayrı milli məzmun çərçivəsində nəzərə alınacaq və müqayisə ediləcəkdir. Daha sonra aydın olacağı kimi, hər iki imperiyada on doqquzuncu əsrin axırları və iyirminci əsrin əvvəllərində baş vermiş siyasi inkişafla əlaqədar olaraq milli mənsubiyyət, millətçilik və vətəndaşlıq kimi siyasi anlayışlar köklü dəyişikliklərə məruz qalaraq tamamilə başqa şəkil almışlar.

## MİLLƏTÇİLİK MİLLİ MƏNSUBİYYƏTƏ QARŞI

Bu problemin aydın, səlist və dəqiq elmi həllinin tapıla biləcəyinə nikbinliklə yanaşa bilmək üçün Seton-Vatsonun sözlərini yadda saxlamaq məqsədəuyğun olardı: «Mən belə bir nəticəyə gəlmişəm ki, millətin elmi tərifi verilə bilməz. Bu fenomen həmişə mövcud olub və indi də var olmağa davam edir».

Bəlkə də «Millət nədir?» sualına sadə şəkildə belə cavab vermək olar: «İki adam o zaman bir millətin nümayəndəsi hesab oluna bilər ki,

onlar eyni mədəniyyətə sahib olsunlar. Mədəniyyət isə öz növbəsində ideyalar, nişanələr, cəmiyyətlər, ümumi davranış və ünsiyyət vasitələrinin məcmusudur».(21)

İlk baxışda, bu tərif qənaətbəxş kimi görünsə də, əslində insanların bir millət olaraq formalaşması üçün əsas sayılan qan qohumluğu və nəsil ortaqlılığı tələblərinə cavab vermir. «Millət» sözünün etimologiyasına diqqət yetirdikdə bu sözün latın dilindəki *nascere* (anadan olmaq) sözündən əmələ gəldiyini və beləliklə də millət anlayışının tərkibinə qohumluq anlayışının da daxil olduğunu müşahidə edirik.

Bugünkü müasir mənada «millət» sözü Avropada maarifçilik və inqilab dövründə yaranmışdır. «Millət» sözünə on üçüncü əsr İngilis ədəbiyyatında da rast gəlinməsinə baxmayaraq, bu söz ilkin olaraq «qan qohumluğuna əsaslanan insan qrupları» mənasını verməklə (22) qan qohumluğundan başqa digər bağlarla bir araya gələn insanlar və ya xüsusi qruplara aid edilmirdi. Buna görə də yeni millət anlayışının qarşısında duran birinci vəzifə bu sözün yekdilliklə qəbul edilmiş köhnə, mərkəzləşdirilmiş və qan bağlarına görə müəyyən edilən mənasını ləğv etmək və «ilahinin iyerarxiyaya əsaslanan sülalə krallığı əmrinin qanuniliyinə» son qoymaqdan ibarət idi. Şübhəsiz ki, yeni millət anlayışının irəli sürdüyü suverenlik və qanunilik iddiaları Avropanın on yeddi və on səkkizinci əsrlərdəki sosial-siyasi vəziyyəti ilə əlaqədar idi. «On yeddinci əsrin əvvəllərindən etibarən «millət» sözü ölkə əhalisinin tərkibinin etnik-milli mənsubiyyətindən asılı olmayaraq, həmin ölkədə məskunlaşan insanlara aid edilməklə daha az səciyyəvi insan kateqoriyaları olan xalq və ya vətəndaşlıq anlayışlarını əvəz etməyə başladı».(24)

Qeyd etmək lazımdır ki, «millət» sözü Avropanın hər yerində eyni şəkildə anlaşılmır. İngilis və fransız dillərində «milliyyət» sözü vətəndaşlıq mənasını verdiyi halda, alman dilində *nationalitat* bir şəxsin milli mənsubiyyətini ifadə edir, milliyyət isə «dövlətə məxsus» mənasını verən *staatsangehörigkeit* kimi tərcümə olunur. Alman dilində «milliyyət» sözü yalnız etnik müxtəlifliyin istisnadan daha çox normaya çevrildiyi Avstriya– Macarıstan, Rusiya və yaxud da ki, İspan imperiyası ilə bağlı hallarda etnik mənsubiyyəti bildirmək üçün işlədilir.

1917-ci ildə bolşeviklər daha əvvəl Rusiya imperiyası tərəfindən idarə olunan geniş ərazilərdə hakimiyyəti ələ aldıqda üzləşdikləri çətinliklərdən biri bu geniş ərazidə yaşayan bir çox müxtəlif millətləri bir

araya gətirməkdən ibarət idi. Bu məqsədə nail ola bilmək üçün ilkin bolşeviklər millət anlayışına daha çox «sifariş olunmuş» tərif verməyə səy göstərirdilər. Stalinin bu tərifi uzun müddət qüvvədə qalmaqla, xüsusilə Üçüncü dünya ölkələrindəki kommunist nəzəriyyəçiləri tərəfindən qəbul edilmişdi. Stalinə görə, millət tarixən inkişaf etmiş, dil, ərazi, iqtisadi birlik və psixoloji cəhətdən təzahür edən mədəniyyət ümumiliyinə əsaslanan sabit insan cəmiyyətinə deyilir.(25)

Stalinin millətə verdiyi tərifdə çatışmayan cəhət bu meyarların hamısına olmasa da bəzilərinə malik insanların millət olaraq tanınmaq istəyinin nəzərə alınmamasıdır. Bir çox hallarda ört-basdır edilən bu cür cəhdlər Benedikt Andersonun millətə verdiyi tərifdə öz əksini tapmışdır: «Millət daxilən məhdud və suveren olan xəyali, siyasi cəmiyyətdir».(26) Daha sonra o, xəyali cəmiyyətlə nə demək istədiyini aydınlaşdırır: «Bu cəmiyyət xəyalidir, çünki ən kiçik millətin nümayəndələri belə öz millətinin bütün üzvlərini tanıya, onlarla görüşə, ya da ki, onları eşidə bilməz. Lakin buna baxmayaraq, onların hər birinin düşüncələrində sıx əlaqə, birlik xəyalı yaşayır».(27) Regional məsələləri təhlil edərkən «millət» sözü ilə yanaşı «etnik» sifəti və ondan yaranmış olan «ethnicity» (milli mənsubiyyət) ismi də bir sıra səciyyəvi çətinliklərin yaranmasına səbəb olur. Belə ki, bu iki söz «milli» və «milliyyət» anlayışlarını əvəz edə bilən ifadələr kimi istifadə olunur. Eyni zamanda, «etnik qrup» ifadəsindən «millət» sözünə ekvivalent kimi istifadə olunur. «Etnik» sözündən və ondan yaranan digər sözlərdən ikimənalı şəkildə istifadə olunması regional milli mənsubiyyətə qarşı sadəlövh münasibətin nəticəsi xarakteri daşımadıqda, adətən, xüsusi siyasi məzmun kəsb edir.

Qəbilə icmasında bir şəxs müəyyən qəbiləyə mənsub olmaqla yanaşı, eyni zamanda, «ümumi tale» ilə bağlı olduğu daha böyük insan qrupunun da üzvü ola bilər. Bir şəxsi öz qəbiləsinin digər üzvləri ilə dil, dialekt və ya adət-ənənələr ümumiliyinin birləşdirməsi, onun digər qonşu qruplarla bir araya gəlməsi üçün əsasın olduğu faktını heç də istisna etmir. Bir müstəqil etnik qrupu digərindən fərqləndirən müəyyən anlayışlar, fikirlər və zəruri fəaliyyətlər hər hansı bir etnik qrupun meydana gəlməsi üçün əsas amillərdir. Bu mənada, bir qrupun etnik mənsubiyyəti həmin qrup üçün müəyyənedici amil kimi digər, qonşu qruplardan fərqli olaraq özünü yeni, bir-birinin ardınca gələcək nəsillərdə təsdiq etməsinin əsas şərtidir.(28)

Bütün qeyd edilənləri ümumiləşdirərkən bir tərəfdən millət və milliyyət, digər tərəfdən isə etnik qrup və milli mənsubiyyət arasındakı fərqi müəyyən edə bilmək üçün millət və etnik qrup anlayışlarının xüsusilə ərazinin coğrafi sərhədləri ilə, milliyyət və milli mənsubiyyət anlayışlarının isə sərhədlərin təyin olunmasında heç bir xüsusi rolu olmayan mədəniyyətlə bağlı olduğunu xatırlatmaq məqsədəuyğun olardı. Etnik mənsubiyyət dedikdə, əslində milli mənsubiyyət anlayışı dərk edilir. Lakin milli mənsubiyyət bir xalq tərəfindən özünü digərlərindən fərqləndirmək üçün istifadə edilən, mədəniyyətin hər hansı bir sahəsinə, yəni dil, din və s. sahələrə əsaslana bilər. Bununla da, xalq özünün siyasi sistemdə və ya daha yüksək məqamda tanınması tələbilə iddialar irəli sürür. Bu iddianın arxasında duran mütəhərriklik isə tezliklə həmrəylik şüurluluğunun artması və beləliklə də bəzi hüquqlar da daxil olmaqla bir sıra siyasi tələblərin irəli sürülməsi məqsədi ilə inkişaf edə bilər. Bu «səfərbər olunmuş» etnik qrup özünün tam müstəqil və sərhədləri dəqiqləşdirilmiş ölkəsinin əsasının qoyulmasına müvəffəq olduqda «millət»ə çevrilmiş olur.

## TÜRKLƏR MİLLƏTDİRLƏR, YOXSA ÜMMƏT?
## *(dini cəmiyyət)*

On doqquzuncu əsrin ortalarında Triestdə İstanbuldan Avstriyaya gedən bir erməni yerli məmur tərəfindən dayandırıldıqda və hansı milliyyətdən olduğu soruşulduqda o, dərhal sadəcə olaraq «katolik» cavabını verdi. Bu şəxsin milliyyəti naməlum qaldığından məmur çaşıb qaldı və ona buradakı insanların da hamısının katolik olduğunu, lakin özlərini avstriyalı və ya italiyan adlandırdıqlarını xatırlatdı. Daha sonra onun hansı milliyyətdən olduğunu bir də soruşdu. Bizim «dəyərli, cəsur dostumuz» dərhal başqa heç nə yox, sadəcə katolik olduğunu təkrar etdi, Fransa səfirinin müdaxiləsi sayəsində indi onların öz patriarxı olduğunu və onların artıq bir «millət» olaraq tanındığını dedi. (29) Bizim dönük erməni dostumuz özünü qondarma katolik millətinin nümayəndəsi elan edərək əslində «millət» sözünü sadəcə «nation» (İngilis dilində) kimi hərfən tərcümə etmişdi. Ehtimal ki, o, millət termininin on doqquzuncu əsrdəki Avropasayağı şərhindən xəbərsiz idi. Onun üçün «nation» (İngi-

lis dilində) «millət» mənasını verirdi və bu səbəbdən də o, özünü müəyyən inanc və dinə etiqad edən bir millətin nümayəndəsi hesab edirdi.

On doqquzuncu əsr şairi Səfi Əlişahın «Zöbdat əl-Əsrar» əsərindən olan aşağıdakı misralar millət termininin müstəsna dini əhəmiyyətini əyani şəkildə əks etdirir:

Ey, Xristian! Sən İsanın millətisən,
Sənin İslam millətilə heç bir əlaqən yoxdur.(30)

Əgər avstriyalı məmur təəccüblənmiş ermənidən onun hansı millətin nümayəndəsi yox, hansı ölkənin vətəndaşı olduğunu soruşsaydı, o zaman bütün bu qarışıqlığa yol verilmiş olmazdı. Sadəcə olaraq «təbəə» kimi tərcümə olunan «rəiyyət» termini dilindən, inanclarından, müsəlman olub-olmamağından asılı olmayaraq, Osmanlı imperiyası tərəfindən idarə olunan ərazilər daxilində yaşayan bütün əhaliyə aid edilirdi. Əgər bir şəxs vergi ödəməklə öhdəliklərini yerinə yetirirdisə, o zaman özünü rəiyyət adlandırmaq hüququna sahib olmuş olurdu.

Osmanlı imperiyasında «millət» və «rəiyyət» terminlərindən başqa, müsəlman cəmiyyətinin üzvlərini təyin etmək üçün digər bir termindən də istifadə olunurdu. Balkan yarımadasından və ya türk, kürd, ərəb olmasından asılı olmayaraq hər bir müsəlman «umma və ya ümmətin» nümayəndəsi hesab olunurdu. (Ümmət ərəb dilindəki «İslam cəmiyyəti» ifadəsinin türk dilində işlədilən formasıdır.) Ümmət yalnız sünni müsəlmanları əhatə edən bir termin olmayıb, eyni zamanda osmanlı idarəçiliyinin təqiblərindən son dərəcə əziyyət çəkən şiyələrə də nəzəri cəhətdən aid edilirdi.

Niyazi Berkesə əsasən, «millət» sözünü öz mənasında ilk dəfə müasir türk yazıçı və islahatçısı İbrahim Şinasi (1824–1871) işlətmişdir.(31) «Tərcüman-e Əhval» qəzetinin 1860-cı ildə nəşr olunmuş ilk başlıca məqaləsində İbrahim Şinasi öz vətəninin maraqlarından bəhs edir və imperiyanın qeyri-müsəlman əhalisinin öz qəzetlərinin olmasını və bu vaxta qədər «hakim millətin» heç bir nümayəndəsinin qəzet nəşr etdirmək arzusunda olmaması nəticəsində əsl osmanlı qəzetlərinin olmadığını qeyd edir.(32)

Belə görünür ki, Osmanlı hökuməti «millət» sözünün bu şəkildə mənalandırılmasını məqsədəuyğun hesab etdi və bundan istifadə etməyə başladı. Bu isə osmanlı ziyalılarının digər bir qrupu, xüsusilə də sür-

gündə olan gənc osmanlılar arasında əks-səda doğurdu. Vətənpərvər yazıçı Namiq Kamal 1868-ci ildə «Portu» *ümmət* əvəzinə *millət* sözündən istifadə etdiyi üçün tənqid etdi. Onun fikrinə görə, *millət* ancaq dini cəmiyyətə aid edilə bilərdi. (33)

Namiq Kamalın ardıcılları üçün çətinlik yaradan əsas məsələ, ərazi bütövlüyü olan milli dövlətin yalnız bir millətə əsaslanması ilə bağlı on doqquzuncu əsr Avropasında yaranan yeni ideya idi. Digər tərəfdən, *ümmət* termininin əvvəlki mənasında işlədildiyi təqdirdə yalnız müsəlmanlara aid ediləcəyinin fərqində olan gənc türklər bir din kimi İslam dininin Qara dəniz balıqçıları və Dəməşqin şəhərətrafı ərazilərində yaşayan kəndliləri millət olaraq birləşdirmək üçün yetərli olmadığını başa düşürdülər. Bu bərabərsizliyə görə insanların vətəndaşlıq çərçivəsində bir araya gətirilməsi ən uyğun yol kimi görünürdü. Lakin mədəniyyət sahəsindəki müxtəlifliyin törətdiyi çətinliyin arxasında *ümmət* termininin vətəndaşlıq anlayışına aid edilməsinin hər zaman *millət* olaraq fərqlənən qeyri-müsəlmanlara qarşı maneə yarada biləcəyi faktı dururdu. Terminologiyada meydana gələn bu qarışıqlıq belə bir gülünc sualın yaranmasına səbəb oldu: «Bu necə vətəndaşlıqdır ki, bütün vətəndaşları əhatə etmir?»

Təəssüf ki, «qədim, yaxşı dəyərlərə» aparan yol da bağlanmışdı. Yuxarıda qeyd olunduğu kimi, «rəiyyət» termini yalnız vergi ödəyən əhaliyə aid edildiyindən ənənəvi olaraq vergilərdən azad edilən hakim sinif və əskəriyyə (hərbi xidmətçilər) bu təbəqəyə daxil ola bilmirdi. Bu səbəbdən, bu termindən də istifadə etmək mümkün deyildi. Əslində, on doqquzuncu əsrin millət və milliyyət, vətəndaş və vətəndaşlıq anlayışları cinsindən, sinfindən və dinindən asılı olmayaraq hər kəs üçün münasib idi.

Osmanlı imperiyasının süquta uğraması və yeni Türkiyə Respublikasının yaranması ilə bu çətinliklərin əksəriyyəti öz həllini tapdı. Hakim qrup olan türklərə əngəllər törədən maneə və səddlər ortadan qaldırıldı. Türkiyə Respublikası 1919—1920-ci illərdə qəbul edilmiş Milli Paktda öz əksini tapan ideyalar əsasında qurulmuşdu. Anadolu «dini, irqi və amalları ilə bir olan osmanlı müsəlmanlarının əksəriyyətinin məskunlaşdığı» bir ərazi kimi tanınmağa başladı. Çox keçmədən Anadolu Türkiyəyə—ərazi bütövlüyünə sahib bir dövlətə və türklər kimi tanınan millətin vətəninə çevrildi: bir ölkə, bir millət.

## İRANLILAR ÜMMƏT (DİNİ CƏMİYYƏT), MİLLƏT, YOXSA ƏHALİDİRLƏR?

İranlılar Osmanlı imperiyası kimi etnik cəhətdən çox müxtəlif əhaliyə malik bir dövlətə sahib olmadıqlarından yuxarıda qeyd olunmuş terminlərdən istifadə edərkən çətinliklərlə daha az üzləşirdilər. Etnik cəhətdən yanaşıldıqda, ən mühüm fərqlərdən biri on doqquzuncu əsrdə İranda yaşayan xristian əhalinin Osmanlı imperiyasına nisbətən daha az olması idi. III Napaleon Nəsrəddin şaha yazdığı məktubunda İranla Osmanlı imperiyasını müqayisə edərkən bunu açıq-aydın qeyd edir: «Yaranmış vəziyyətlə əlaqədar Əlahəzrətin Sultandan üstünlüyü ondan ibarətdir ki, Sultan azlıqda olan müsəlmanlar və çoxluqda olan xristianlarla məşğuldur».(34)

Nəsrəddin şahın atası Məhəmməd şah 1840-cı ilin 20 aprelində verilən manifestdə katolikləri *millət* yox, *etnik qrup* adlandırmışdır. Bu sənəddə Şah katoliklərin müsəlmanlarla eyni hüquqlara sahib olacaqlarını bəyan edir: «Etnik qrup (qövm) olan katoliklər öz dinlərinin qayda-qanunlarına əməl etdikləri və rifah axtarışında olduqları üçün Əlahəzrətin iltifat edərək İlahi Sarayın bütün qulluqçularına rəva bildiyi təminatlardan yararlana biləcəklər».(35)

Yuxarıda qeyd olunduğu kimi, Osmanlı imperiyasında «ümmət» və «millət» terminlərindən müvafiq olaraq müsəlman və xristianları müəyyən etmək üçün istifadə olunurdu. Bunun əksinə olaraq, iranlılar Osmanlı müsəlmanlarını *ümmət* yox, *millət* adlandırırdılar. Məhəmməd şahın Fransadakı ilk səfiri Mirzə Hüseynxan Acudanbaşı 1839-cu ildə Osmanlı imperiyasından Fransaya gedərkən, islami dəyərləri qoruduqları üçün «millət-e Osmaniyəyə» həsəd apardığını qeyd etmişdi.

«Millət-e Osmaniyə sözün əsl mənasında, İslamın beş şərtinə o qədər dəqiq əməl edir ki, bunu təsvir etmək qeyri-mümkündür».(36) Fransaya çatan səfir fransız milləti və Şah arasında mövcud olan əlaqələrin qeyri-sabitliyinə görə öz narahatçılığını ifadə edir: «Fransız millətinin bir qrupunun məqsədi suverenlik prinsipini aradan qaldırmaqla ölkəni millətin nümayəndələri olan bir qrup insanın əllərinə təslim etməkdən ibarətdir».(37)

Göründüyü kimi, Hüseynxan Acudanbaşı həm fransızları, həm də Osmanlı müsəlmanlarını əsl millət hesab edir. Səfirin *millət* sözünü Os-

manlı müsəlmanlarına aid edərkən osmanlıların özlərinin ümmət və millət terminlərindən fərqli mənalarda istifadə etdikləri faktına diqqət yetirməməsi olduqca açıqdır. Hüseynxan «millət-e Osmaniyə» ifadəsini Osmanlı milləti mənasında işlətmişdir.

Təxminən yarım əsrlik bir müddətdən sonra Yusif xan Müstəşər od-Dövlə siyasətə dair «Resaleh-e Mosumeh be Yek Kəlime» («Bir söz» adlı elmi məqalə) adlı çox məşhur kitabında *millət, ümmət* və *əhali* terminlərindən tez-tez istifadə etmişdir. On doqquzuncu əsrin tanınmış maarifpərvər islahatçılarından olan Müstəşər od-Dövlə bu kitabı 1870-ci ildə Parisdə İran hökumətinin müvəqqəti işlər üzrə vəkili olaraq çalışdığı vaxt ərzində yazmışdır. (38) O, azərbaycanlı olub, Təbrizli bir tacirin oğlu idi. «*Dövlət* hakimiyyətinin kökləri *millətin* iradəsindən asılıdır»(39) ideyası ilk dəfə Müstəşər od-Dövlə tərəfindən irəli sürülmüş və inkişaf etdirilmişdir. «Bir söz» adlı kitabında o, *dövlətlə millət* arasında mövcud olan əlaqələrin bütün cəhətlərini təsvir və tənzim edəcək, millət tərəfindən bəyənilib təsdiq ediləcək «yazılı qanunların» olması gərəkliliyinin əhəmiyyətini vurğulayır.(40) Daha sonra o, *əhali* terminini *millətə* sinonim kimi işlədir: «Hökumət təcrübələrinin qanuniliyi sahəsində *əhali* böyük hakimiyyətə sahibdir».(41) Onun *millət* və *əhali* terminlərinə verdiyi tərifdə dinindən, dilindən, irqindən və sinfindən asılı olmayaraq bu anlayışların İranın bütün vətəndaşlarını əhatə etməsi qeyd olunur: «Şah da, dilənçi də, rəiyyət də, hərbi xidmətçilər də *əhali* və *millətin* üzvləridirlər».(42)

Göründüyü kimi, Müstəşər od-Dövlə *rəiyyət* terminini müasir Osmanlı yazılarında başa düşüldüyü mənada, yəni hərbi xidmətçilər sinfinin üzvü olan fars *ləşkəri* və ya Osmanlı *əsgərindən* başqa bütün vergi ödəyənləri əhatə edən bir söz kimi işlətmişdir.

Digər tərəfdən isə Müstəşər od-Dövlə *ümmət* sözünü Osmanlı dairələrindən tamamilə fərqli bir mənada işlətmişdir. Belə ki, osmanlılar *ümmət* sözündən Osmanlı imperiyasının bütün müsəlman əhalisini müəyyən etmək üçün istifadə etdikləri halda, iranlılar bu termini *millət* sözü ilə eyniləşdirirlər: «Fransa və digər mədəni ölkələrin *əhalisi* nümayəndələr vasitəçiliyi ilə, adətən, narazılıqlara gətirib çıxaran, siyasət və digər məsələlərlə bağlı nəyin doğru, nəyin yanlış olduğuna dair müzakirə və mübahisələr etdikdə və bir millətin nümayəndələr şurası bütün fikirləri nəzərdən keçirdikdən sonra *dövlət* və *ümmət* məsələlərin-

də hansı mümkün anlaşılmazlıq və çaxnaşmalar özünü göstərə bilər? Qanunvericiliklə yanaşı, *Firəngistanda* əksər idarəçilik məsələləri *millət* və *dövlətin* razılığı ilə yerinə yetirilir».(42) Maraqlıdır ki, Müstəşər od-Dövlə fransızları da *ümmət* və ya *millət* hesab edir. Onun nəzərində bu terminlər eyni mənanı kəsb etməklə bir-birini əvəz edə bilər.

Müstəşər od-Dövlə varis olacağı ehtimal olunan Müzəfərəddinə 1888-ci ildə yazdığı məktubunda hökumətin idarəçiliyini tənqid etmiş, İranda yaşayan etnik tayfa və qrupların ölkənin üzləşdiyi xoşbəxtlik və bədbəxtliklərə şərik olduqlarını xatırladaraq məmləkətin bütün əhalisinə qanun qarşısında bərabərlik verilməsi fikrini müdafiə etmişdir.(44)

Bu yazıdan da aydın olduğu kimi, Müstəşər od-Dövlə İran milləti və ya İranın əhalisindən bəhs edərkən İran ərazisi daxilində yaşayan bütün müxtəlif etnik tayfa və qrupları nəzərdə tutur.

Digər maarifpərvər islahatçılar kimi Müstəşər od-Dövlə də öz ideya və inanclarının əvəzini ağır ödədi. Qəzvin həbsxanasında o, özünün «Bir söz» adlı kitabı ilə başından vəhşicəsinə elə vurulmuşdu ki, gözləri kor olmuşdu. Bu hadisədən çox keçmədən, 1895-ci ildə o, dünyasını dəyişdi.(45)

Müstəşər od-Dövlə və başqalarının ideyaları 1905 – 1909-cu illərin Məşrutə inqilabı üçün zəmin hazırladı. 1906-cı ildə bəyan edilən Konstitusiya Məcəlləsinin iki bəndinə əsasən, *Məclis* (parlament) «İran məmləkətinin bütün *əhalisinin* nümayəndəliyi» kimi tərif olunurdu. On birinci maddəyə əsasən, parlamentin hər bir üzvündən monarxiyanın əsaslarını müdafiə edəcəyinə, *millətin* hüquqlarını qoruyacağına və eyni zamanda, İran *dövləti* və *millətinin* maraqları və mənfəəti naminə çalışacağına dair and içmək tələb olunurdu.(46)

Həm 1906-cı ildə bəyan edilən Konstitusiya Məcəlləsində, həm də ki, bir il sonra ona artırılan əlavədə etnik qrup və ya qruplar xatırladılmır, bütün iranlılar İran *milləti* və ya *əhalisinin* üzvləri hesab olunurdular.

Bu terminlər istifadə dairəsinə görə heç bir şəkildə Konstitusiya Məcəlləsi ilə məhdudlaşmırdı. İlk parlamentin sədri Sani od-Dövlə öz islahat proqramını 1907-ci ildə nəşr olunan kitabçada aşağıdakı bildirişlə təqdim etdi: «Əgər hökumətin sütunları olan siyasətçilər və millətin ayrı-ayrı fərdləri bu gün qarşılarına qoyduqları müəyyən hədəflərə çata bilməsələr, onda çox keçmədən güclənən sellər və dağıdıcı küləklər bizim *qövmiyyət* ağacımızın köklərini yaralaya bilər».(47)

Burada Sani od-Dövlə *milliyyət* əvəzinə hələ də fars lüğətlərində həmin anlayışı ifadə edən söz kimi öz əksini tapan *qövmiyyət* termindən istifadə etmişdir. Osmanlılar isə həmin anlayışı ifadə etmək üçün *qövmiyyət* əvəzinə *milliyyət* sözündən istifadə etməyə artıq çoxdan başlamışdılar.(48) Sani od-Dövlənin bu termindən özünəməxsus tərzdə istifadə etməsinin səbəbi onun təhsili ilə əlaqədar ola bilər. Belə ki, o, ilkin təhsilini bitirdikdən sonra ərəb dilində oxuduğundan çox güman ki, ərəb dilinin siyasi terminologiyası ilə daha yaxından tanış idi.(49) Müasir ərəb dilində də milliyyət anlayışını ifadə etmək üçün *milliyyə* yox, *qövmiyyə* sözündən istifadə olunur.

İranın ziyalı təbəqəsinin bu terminlərdən istifadə edərkən müasir ərəb dilinə nisbətən osmanlıcada işlədilən qaydaları qəbul etməyə daha çox meylli olmasını Məşrutə inqilabından bir neçə il sonra nəşr olunan və müəllifi bəlli olmayan «Şəri dəf etmək haqqı və zülmə qarşı qiyam» adlı az tanınmış bir kitabdan sitat gətirməklə əyani şəkildə sübut etmək olar. Millətin «ayağa qalxmaq» hüququnu, «zülm və ədalətsizliyə» qarşı mübarizə aparmaqla bağlı ideyaları təbliğ və tərənnüm edən müəllif, *millətin* bütün bunları etməyəcəyi təqdirdə *milliyyət* və *iranlılıqdan* heç bir nişanənin qalmayacağı barəsində xəbərdarlıq edir.(50)

Məşrutə inqilabından sonrakı illərdə ədəbi, siyasi söz və fikir azadlığına qoyulan məhdudiyyətlər azaldığından həmin dövr, adətən, demokratiya dövrü kimi səciyyələndirilir. Bu vaxtdan etibarən, *millət* sözü yeni məna kəsb etməyə başladı. Belə ki, bu söz İranın zülm və əsarətə məruz qalan əhalisinə şamil edilirdi. Kəndli, işçi və sənətkarların əməyini istismar edərək yaşayan insanlar isə yüksək təbəqəli əhaliyə aid edilirdilər. Bu yeni anlayışa əsasən, kiçik elita heç bir zəhmət çəkmədən, sadəcə digər insanları istismar etməklə öz yaşamını rahatlıqla qazandığı üçün *millətin* tərkib hissəsi sayıla bilməzdi. 1909-cu ildə çıxan «Millətin tərkibinə kimlər daxildir və onların hüquqları nədən ibarətdir?» adlı bir şəbnamədə (axşam vərəqəsi) *millət* aşağıdakı şəkildə tərif olunurdu: «*Millət* müəyyən bir ölkənin zəhmətkeş əhalisindən ibarətdir. *Millətin* tərkibinə öz yaşamlarını min bir əziyyət, alın təri ilə qazanan və davamlı olaraq çətinlik, qəm-qüssə içərisində yaşayan insanlar daxildir. Başqa sözlə, *millət* qarşılıqlı kömək və əməkdaşlıqdan asılı olaraq bir-birinin rahatlığını təmin etmək üçün şəhərlərdə işləyən insanlardan ibarətdir. Misal üçün, əgər bir adam başmaqçıdırsa, onda başqaları ayaqqabısız

gəzmir. Başqa bir adam başmaqçının və bu sahədə çalışan digər insanların ehtiyaclarını ödəyə bilmək üçün dəmirçi olur. Eyni şəkildə baqqal, əczaçı, yem satıcısı, dərzi, parça taciri və əkinçini buna misal göstərmək olar. Bu fərdlərin hər biri – əkinçidən başlamış tacirə qədər çox müxtəlif peşə sahələrinə məxsus insanlar *milləti* əmələ gətirir».

Daha sonra, həmin vərəqədə *millətə* verilmiş bu tərifdə *millətin* tərkib hissəsi hesab edilməyən sosial sinif və qruplar sadalanır: «Yalnız xalqın rifahı üçün çalışmayan və sadəcə öz ehtiyaclarını qarşılamaqla məşğul olan müftəxorlar *millətin* tərkibinə daxil edilə bilməzlər. Onlar il boyu evlərində və ya gözəl mənzərəli əla yerlərdə, vaxtlarını rahat keçirərək yaşayan insandırlar. Onlar xalqın işinə zərrə qədər də kömək etmirlər. Bunun əksinə, onlar başqalarının çalışacağını və beləliklə də bütün ehtiyaclarının qarşılanacağını gözləyir, digər insanların əməyinin zəhməti nəticəsində cah-cəlal, dəbdəbə içərisində yaşayırlar. Bütün bunlara görə də, bu müftəxor və tənbəllər millətin sıralarına aid edilə bilməzlər».(51)

Millətin bu tərifini öz proqramında əks etdirən siyasi qruplardan biri də «İctemaiyyun Enqelabiyun» kimi tanınmağa üstünlük verən İran Sosial İnqilabçıları idi. Lakin onların rəmzi olan nişanların üzərində «İran Sosial İnqilabçılar Cəmiyyəti» adlı yazı var idi. İran Sosial İnqilabçılar Cəmiyyəti özünün rəsmi məramnaməsində «yerli və özgə qurdların zülm caynağında boğulan», əsarətdə yaşamağa məhkum İran *milləti* üçün öz narahatlıq və tərəfkeşliyini ifadə edərək əkinçilər, tacirlər, sənətkarlar, hərbi xidmətçilər, gildiya üzvləri və tələbələrə müraciət edir və onları milli suveren hökumət yaratmaq üçün bütün səylərini bir araya cəmləşdirməyə çağırırdı.(52)

Xüsusilə qeyd etmək lazımdır ki, *İctemaiyyun Enqelabiyun* fars dilinin «ölkənin rəsmi dili» olmasının müstəsna əhəmiyyətini təbliğ və tərənnüm edən, eyni zamanda bu dilin yalnız milli məclisdə yox, həm də əyalət şuralarında işlədilməsini təkid edən ilk siyasi qurum idi.(53)

Xatırlatmaq lazımdır ki, haqqında danışdığımız dövrdə *millət*, *ümmət*, *qövm* və *əhali* terminlərinin mənalarının aydınlaşdırılmasında yalnız İran ziyalılarının kiçik bir qrupu maraqlı idi. Eyni şəkildə *Türk*, *Azəri* və ya *Azərbaycani* sözlərinin mənalarında baş verən dəyişikliklər və ya onlara verilən yeni təriflər ziyalı təbəqəsinin yalnız kiçik bir hissəsinin diqqət mərkəzində idi. İranda tarixən güclü, qətiyyətli və mərkəz-

ləşdirilmiş dövlətin və bu məsələlərə dair sağlam qarşılıqlı razılaşmanın olmadığını nəzərə aldıqda, ziyalıların bu qayğı və əndişələrinin əhəmiyyətini daha yaxşı dərk etmək olar. Bu səbəbdən də, kitabın bu bölməsində həmin terminlərin yeni müəyyən edilmiş mənalarına istinad edilməsi bir çox hallarda əksər siyasi düşüncəli şəxslər tərəfindən həddən artıq təhlükə doğuran bölücülük kimi dəyərləndirilmişdi.

## AZƏRBAYCANLILAR QAFQAZDA MİLLƏTDİRLƏR, YOXSA İRANDA ETNİK QRUP?

Rusiya imperiyasının süqutu Zaqafqaziyada yeni, müstəqil respublikanın meydana gəlməsi üçün zəmin yaratdı. 1917-ci ilin noyabrında Tiflisdə Zaqafqaziya Komissarlığı təşkil olundu. Komissarlıq «Zaqafqaziya İnqilabi Demokratiyası» adı ilə nəşr etdiyi ilk rəsmi bəyannaməsində Rusiya inqilabının irəli sürdüyü «millətlərin öz müqəddəratını müəyyən etmək hüququ» prinsipinə əməl etməyin zəruriliyini xüsusilə qeyd edirdi. Beş ay sonra, 1918-ci ilin 22 aprelində gürcü menşevikləri, erməni daşnakları və müsəlman müsavatçıları çox cüzi olsa belə, əməkdaşlıq nümayiş etdirərək Zaqafqaziya Federativ Respublikasının yaranmasını elan etdilər.(54)

Zaqafqaziyadakı bu birlik nümayişi çox uzun sürmədi. 1918-ci ilin 26 mayında Osmanlı imperiyası ilə sülh əldə etməyə nail olmaq məqsədilə keçirilən konfransda Zaqafqaziya Federativ Respublikasının üzvləri arasında mövcud olan ədavət dərhal özünü büruzə verdi və tezliklə bu əməkdaşlıq başa çatdı.(55) Elə həmin gün bu qısaömürlü, ötəri Federativ Respublikanı buraxmaq üçün Zaqafqaziya Məclisi (Seym) çağrıldı. Bundan dərhal sonra, Gürcü Milli Şurası Gürcüstan Respublikasını müstəqil elan etdi. İki gün ərzində ermənilər də həmin qayda ilə öz müstəqil respublikalarını yaratdılar.

Bu zaman, 27 mayda, Müsəlman Milli Şurası Tiflisdə bir araya gələrək «Zaqafqaziyanın *cənub* və *şərqini* əhatə edən *Azərbaycan* Respublikasının müstəqilliyini elan etməyi qərara aldı».(56) Növbəti gün, «indiki Azərbaycan sayılan Zaqafqaziya tatarlarının hökuməti daha sonralar Kirovabad adlandırılan Gəncə şəhərinin respublikanın müvəqqəti paytaxtı seçildiyini elan etdi».(57)

Zaqafqaziyanın cənub və şərqini əhatə edən bu respublikaya Azərbaycan adının verilməsi həm İranda, həm də Azərbaycanda narazılıqlara səbəb oldu. Zaqafqaziyadakı Azərbaycan Respublikasının banisi Məhəmməd Əmin Rəsulzadə ilk vaxtlar yeni Azərbaycanın ərazisinin «Bakı və Yelizavetpol quberniyaları, Tiflis və Yerevan quberniyalarının cənub əyalətləri və Zaqatala dairəsindən»(58) ibarət olduğunu hesab edirdi. Lakin respublikanın bolşeviklər tərəfindən devrilməsindən sonra Rəsulzadə, xaricdə sığınacaq axtarmağa məcbur olduğu bir vaxtda, respublika üçün seçilən yanlış adı qəbul etdi.

M.Ə.Rəsulzadə qısaömürlü Azərbaycan Respublikasının tarixinə dair yazdığı bir məqalədə «Albanıyanın (keçmiş Sovet Azərbaycanı) Azərbaycandan (İran Azərbaycanı) fərqləndiyini» qeyd edir. (59) Bundan əlavə, Tağızadəyə yazdığı məktubunda o, «iranlılar arasında mövcud olan narazılığın qarşısını almaq üçün əlindən gələni etməyə» hazır olduğunu bildirir.(60)

Bütün bunlara baxmayaraq, qeyd etmək lazımdır ki, respublikaya Azərbaycan adı müsəlman Müsavatçılar tərəfindən verilmiş olsa belə, bolşeviklər bu bölgədə öz hakimiyyətlərini yaratdıqları zaman ölkənin adının saxlanmasında tərəddüd etmədilər. 1920-ci ilin 28 aprelində Müsavatçıların hökuməti inqilabi bolşeviklər tərəfindən devrildi və beləliklə, müstəqil Azərbaycan Sovet Respublikası elan edildi.(61)

Keçmiş Rusiya imperiyasının ərazisində bir sıra milli dövlətlər yaratmaq prinsipinə dayanan Sovet millətçiliyi siyasətinə əsasən bu millətin adı *azərbaycanlı* olaraq təyin edildi. Özünəməxsus dil ilə azərbaycanlılar daha sonra Sovet Sosialist Azərbaycan Respublikası adlanan Cənubi Qafqaz regionunun sakinlərinə çevrildilər.(62)

Cənubi Qafqazda cərəyan edən siyasi dəyişikliklərin tam əksinə olaraq, İranda Azərbaycan əyaləti ölkənin ayrılmaz bir hissəsi kimi qalırdı. Bundan əlavə, daha sonrakı illərdə, Rza şah tərəfindən İranda müasir milli dövlət yaradıldıqdan sonra, azərbaycanlılar sadəcə bir etnik qrup kimi dəyərləndirilir, iranlı termini isə yalnız onlara millətin nümayəndələri kimi şamil edilirdi.

II

# AZƏRBAYCANDA MUXTARİYYƏT HƏRƏKATININ MƏNŞƏYİ

*Bizim şah sağlam fikirdən bir qədər məhrumdur.... O, səbirləri tükənən insanların bir ürək və amalla ayağa qalxaraq itaətkarlıq və təmkinliliklərinə son qoyacağı təqdirdə nə edəcəyi barəsində düşünmür... Bu insanlar, bu vaxta qədər yalnız heç bir başqa vasitə, çarə qalmadığından açıq şəkildə güc tətbiq etməyə məcbur olublar və bundan sonra da belə hərəkət edəcəklər. Onlar, sadəlik, yalvarış və ədalətə müraciətlərlə heç nəyə nail ola bilmədilər və bunun nəticəsində də tədricən bu mərhələyə gəlib çatdılar.*

«Ölkədə baş qaldıranlar» adlı axşam vərəqəsi,
21 aprel 1906, Tehran,
**M.M.Kaşani**, *Vaqeət-e Ettefaqiyye dər Ruzeqar, I cild, səh. 21.*

### *Məşrutə (konstitusiya) inqilabı*

1905–1909-cu illərin Məşrutə inqilabı hadisələri dövründə konstitusiyaçılar arasında regional muxtariyyət yaratmaq barədə hər hansı bir cəhdin nişanəsi belə yox idi. Müasir İran yazılarına istinad etdikdə sosial-siyasi inkişafa aparıb çıxaran yolun yalnız qayda-qanuna əsaslanan, qətiyyətli, mərkəzləşdirilmiş dövlətdən keçdiyinə inanan çox geniş yayılmış bir fikirlə rastlaşırıq. İnqilabdan sonrakı ilk onillik ərzində bu kimi siyasi cəhdlər konstitusiyaçıları öz rəqibləri olan və «istibdad müdafiəçiləri» hesab edilən mühafizəkarlardan fərqləndirən ən mühüm amillər sayılırdı.

Məşrutə inqilabı illərində həmfikir azərbaycanlılar, farslar, bəxtiyarilər və gilanlılar «qanunsuzluğun», monarxiyanın tamamilə mütləq və məhdudiyyətsiz hakimiyyətinin müdafiəçilərinə qarşı birgə mübarizə aparırdılar. Onlar *dövlət* əleyhinə müxalifətdə birləşərək *dövləti* qanunvericilik sahəsindəki inhisarçılığından əl çəkməyə çağırırdılar. Onların məqsədi milli mənsubiyyətə əsaslanan ayrı-ayrı müstəqil dövlətlər yaratmaq üçün hakimiyyəti ölkənin müxtəlif etnik qrupları arasında bölmək deyildi. Düzdür, onların nəzərində bu inqilabın əsas vəzifəsi mərkəzləşdirilmiş, qeyri-məhdud və müstəbid hakimiyyət quruluşuna xitam verməkdən ibarət olmalı idi. Yeni hökumət yenə də mərkəzləşdirilmiş olaraq qalacaq, lakin əvvəlkindən fərqli olaraq yazılı konstitusiya əsasında məqsədyönlü fəaliyyət göstərərək daha səmərəli olacaqdı.

1906-cı ildə verilən *Qanun-e əsasi* (Konstitusiya) olduqca tez, ümumi şəkildə yazıldığından konstitusiyaya əsaslanan hökumətə xas olan bir çox zəruri məsələləri özündə tamamilə əks etdirmirdi. Şah sarayının üzvlərindən birinin daha sonralar yazdığı kimi, Qacar monarxiyası ölüm ayağında olduğundan hər kəs qətiyyətsiz, qeyri-müəyyən vəziyyətdə idi. Hətta «monarxın həkimindən onun ölümünü ən azı bir həftəlik – qanunlar hazır olana qədər təxirə salmasını» xahiş edənlər də var idi. (1) Şahın vəfat etmədən konstitusiyanın son variantını təsdiq edəcəyi ümid edilirdi. Həqiqətən də şah konstitusiyanı bəyənərək rəsmi şəkildə təsdiq etdi (dekabrda) və on gün sonra vəfat etdi.

Yalnız müəyyən sosial siniflərə və peşə sahələrinə məxsus şəxslərdən olan Məclis üzvləri tezliklə Konstitusiyanın ilkin formasında mövcud olan çatışmazlıqlarının fərqinə vardılar(2) və bu səbəbdən də «Motammam-e Qanun-e Əsasi» (Konstitusiyaya Əlavə) adlanan əlavə qanunların tərtib edilməsi üçün altı nəfərdən ibarət bir komissiya təşkil etdilər.(3)

Konstitusiyanın ən mühüm qüsuru qanunvericilik, icraedicilik və məhkəmə sahələri üzrə hakimiyyət bölgüsünün tam, dolğun şəkildə əhatə edilməməsindən ibarət idi. Misal üçün, nazirlər Məclis əvəzinə birbaşa Şaha tabe idilər. Bundan əlavə, xalqın suverenliyini təmin edəcək əsas demokratik prinsiplər belə hökumətin əməli işlərində özünü göstərmirdi.

Bu çatışmazlıqlar və Məclislə hökumət arasında mövcud olan ziddiyyət o qədər böyük və açıq idi ki, hətta bir dəfə deputatlardan biri şikayət edərək demişdi: «Biz konstitusiyalı hökumətə sahib deyilmiyik? Əgər belədirsə, nəyə görə hökumətimiz konstitusiyanın tələblərini yerinə yetirmir?» Baş nazir Müşirüddövlə isə dərhal buna etiraz edərək cavab vermişdi: «Xeyr! Burada heç bir konstitusiyalı hökumət yoxdur. Şah sizə ölkənin qanunlarına müvafiq olaraq yalnız məsləhətləşmək məqsədilə Məclis çağırmağa icazə vermişdir».(4)

Konstitusiyada məlum çatışmazlıqlar olduğundan təşkil olunmuş komissiya Konstitusiyaya Əlavələr qanununu hazırlayaraq təklif etdi. Həmin əlavə yalnız konstitusiyaçılarla şəhər ruhanilərinin bir hissəsi tərəfindən müdafiə olunan, yenicə taxta çıxmış şah arasında davam edən beşaylıq mübahisədən sonra, 1907-ci ilin oktyabrında nəhayət ki, təsdiq olundu.(5)

Konstitusiyaya Əlavədə əks olunan əsas məsələlərdən biri əyalətlərin əhalisinə öz şuralarına sahibolma imkanının verilməsi idi. Əlavənin 90–93-cü maddələrinə əsasən, hər bir şəhər və əyalətin mərkəzi hökumətin nümayəndəliyi kimi fəaliyyət göstərən, hər şeydən əvvəl yerli işlərə nəzarət etməklə və bəlli bir region üçün vergiləri təyin edərək onların toplanması ilə məşğul olan özünəməxsus şurası olacaqdı.

Əyalət şuraları barədə qanunun məclisdə qəbul edilməsində azərbaycanlıların rolu olduqca yüksək qiymətləndirilməlidir. Belə ki, Təbrizlilər Konstitusiyaya Əlavələr qanununun təsdiq edilməsindən hələ bir neçə ay əvvəl öz şuralarını yaratmışdılar.

***Təbriz Şurası***

1906-cı ilin sentyabr ayında *Əncümən-e Təbrizin* (Təbriz Şurası) əsası qoyuldu. Əsl vəzifəsi Məclis üçün namizədlər irəli sürmək və onları seçməkdən ibarət olsa da, (6) tezliklə bu şura öz səylərinin nəticəsində regional parlamentə çevrildi.(7) Hətta bəzi xarici müşahidəçilər Təbriz Şurasını 1905-ci il Rusiya inqilabı zamanı təşəkkül tapan sovetlərlə müqayisə edir(8) və bu sovetlərin şura üzərində böyük təsirə malik olduğunu güman edirlər.(9)

*Əncümən* ilk sayı 1906-cı ilin oktyabr ayında çıxan «Carideh-e Melli» (Milli qəzet) adlı ayrıca qəzet nəşr etdirirdi. Həftədə iki dəfə çıxan bu qəzetin adı otuz yeddi buraxılışdan sonra dəyişdirilərək *Əncümənlə* əvəz olundu. Qeyd etmək lazımdır ki, bu qəzet hər iki ad ilə fars dilində nəşr olunurdu. Şuraya və müxtəlif iclaslara dair xəbərlərlə yanaşı, «Əncümən» qəzeti milli xəbərləri, xüsusilə Məclislə əlaqədar olan yenilikləri də öz səhifələrində əks etdirirdi. Qəzetin bir neçə buraxılışında konstitusiyaçılığın əsas şərtlərindən bəhs edən geniş ibrətamiz məqalələr, «*azadlıq*, *bərabərlik* və *qardaşlıq* anlayışlarının əsl mənası» kimi mövzulara dair yazılar dərc edilmişdi.(10)

İlk vaxtlarda Təbriz konstitusiyaçıları öz mühazirə və nəşrlərində Təbriz Şurasını *Milli Məclis* adlandırırdılar. Əslində, «Carideh-e Melli» qəzetinin birinci buraxılışında *Milli Məclisin* yaradılması ilə bağlı çox əhatəli, geniş bir redaktor məqaləsi dərc olunmuşdu.(11) Belə bir başlıqdan istifadə olunması isə dərhal Tehranın narazılığına səbəb olmuşdu. Belə ki, Tehranda bəzi *Məclis* üzvləri təbrizliləri öz səlahiyyətlərini aşmaqda və əyalət şurasının yox, *Darülşoura-ye Mərkəzinin* (Böyük Mərkəzi Məclis) statusunu öz üzərlərinə götürməkdə günahlandırırdılar.(12)

Tehrandakı azərbaycanlı deputatlar isə yerli şuranın üzvlərinin belə bir niyyətinin olduğunu təkzib edərək dərhal bu məsələyə öz münasibətlərini bildirdilər. «*Əncümən*» qəzetinin 1907-ci il 9 fevralda çıxan 41 saylı buraxılışında da azərbaycanlı deputatlarının *Məclisdə* dedikləri təsdiq olundu. Onlar *Əncümən-e Təbrizin* milli məclis yox, əyalət şurası olduğunu xüsusilə vurğuladılar. Bundan sonra, Təbriz konstitusiyaçıları şuranın *Əncümən-e Təbriz* (Təbriz Şurası), yoxsa *Əncümən-e Əyaləti-ye Azərbaycan* (Azərbaycan Əyalət Şurası) adlandırılmasında daha seçici və ehtiyatlı davranırdılar.

Bəzi tarixçilər 1905-ci il Rusiya inqilabının İranda baş verən Məşrutə inqilabına etmiş olduğu təsiri gərəkdiyindən yüksək qiymətləndirirlər. Misal üçün, İran tarixçisi Hüma Natiq təbrizlilərin şuraya ad olaraq qəbul etdikləri *əncümən* istilahının rus dilindəki «sovet» sözündən tərcümə olduğunu güman edir. Bu müddəanı əsaslandırmaq üçün o, doktor Xəlil bəy Lübnani tərəfindən yazılmış, 1905-ci il Rusiya inqilabı ilə bağlı «Tarix-e Enqelab-e Rusiye» adlı kitaba müraciət edir. Bu kitabın fars dilinə tərcümə olunmuş nüsxəsində tərcüməçi Seyid Əbdülhüseyn Rəzəvi «Peterburq Soveti» ifadəsini «Əncümən-e Peterburq» olaraq tərcümə etmişdir. (13) Bu kitabın tərcüməsi yanız 1908-ci ilin iyul ayında nəşr edilə bilmiş, daha sonra, dərhal hökumət tərəfindən qadağan edilməsinə baxmayaraq, 1909-cu ilin oktyabrında yenidən, ikinci dəfə nəşr olunmuşdur. (14) Lakin bütün hallarda, tərcümənin nəşri olduqca gecikdirildiyindən bu kitabın *Əncümən-e Təbrizin* yaradıcılarına hər hansı bir təsir göstərməsi qeyri-mümkün idi.

Təbriz Şurası regional məsələlərlə məşğul olmaq və əyalətin bütün hissələrindən gələn çoxsaylı şikayət və narazılıqlara baxan ədalət məhkəməsi kimi fəaliyyət göstərməklə yanaşı, eyni zamanda, paytaxtda yerləşən *Məclisə* birbaşa və ya dolayı yolla təzyiq göstərirdi. Tehrandakı azərbaycanlı deputatlar Təbrizlə sıx əlaqədə idilər və bir çox hallarda parlament məsələləri ilə əlaqədar olaraq Təbriz Şurası ilə məsləhətləşirdilər. (15) Bəzi hallarda Təbriz Şurası öz məqsədinə nail olmaq üçün *Məclis* və hökumətə müstəqim olaraq təzyiq göstərməkdə belə tərəddüd etmirdi. Misal üçün, yenicə taxta çıxmış şah Məhəmməd Əli Mirzə, *Məclis* və konstitusiyanın varlığına məhəl qoymayaraq hökm sürməyə başladıqda, Təbriz Şurası *Məclisə* şahın İran hökumətinin tamamilə konstitusiyaya əsaslandığını, hər bir şəhər və əyalətin öz şurasına

sahib olmaq haqqının olduğunu yazılı şəkildə təsdiq etməsi də daxil olmaqla yeddi bənddən ibarət tələblərin əks olunduğu bir teleqram göndərmişdi. (16) Daha sonra, şah «Rah-e Necat və Omidvari-ye Mellət» («Nicat yolu və millətin ümidləri») adlı bəyannamə nəşr edərək *Məclisə* qarşı müxalif mövqeyini bir daha nümayiş etdirdikdə, Təbriz Şurası dərhal Xorasan, Fars, Kirman və İsfahan əyalət şuralarına şahı «öz vədinə əməl etməməkdə» təqsirləndirən bir teleqram göndərdi. Həmin teleqramda şah «vətən və millət xaini» adlandırılır və eyni zamanda, «bütün iranlı qardaşlara Böyük Məclis və Konstitusiyanın müdafiəsi» naminə ayağa qalxaraq mübarizə aparmaq çağırışı edilirdi. (18)

Əslində, Məhəmməd Əli Mirzə doğrudan da öz vədinə əməl etməmişdi. O, nəhayət, *Məclisə* ultimatum təqdim etdi və üç gün sonra, 1908-ci ilin 23 iyununda *Məclisi* topa tutmaq üçün göstəriş verdi. Beləliklə, İran Məşrutə inqilabının tamamilə yeni mərhələsi başlandı. (19) Daha sonra, Şah Baş nazir Müşirüd-Səltənəyə yazdığı məktubunda «hakimiyyət verilməmiş şuraları hökumət işlərinə müdaxilə edərək ölkədə qarışıqlığın yaranmasına səbəb olmaqda və onu *Məclisi* buraxmağa təhrik etməkdə» günahlandırmaqla öz əməllərinə bəraət qazandırırdı. O, *Məclisin* bu qeyri-müəyyən, anlaşılmaz vəziyyətinin, hər hansı halda, üç aydan çox davam etməyəcəyinə dair söz verirdi. (20)

*Məclisin* topa tutulması xəbəri Təbrizdə dərhal xalqa çatdırılmadı. Bunun səbəbi isə, o zaman teleqraf idarəsinin məsulu olan tanınmış təbrizli konstitusiyaçı Mirzə xan Tərbiyyətin verdiyi qərar idi. Belə ki, o, həmin xəbəri xalqa çatdırmaq əvəzinə, qapalı iclas zamanı Şuranı bu barədə məlumatlandırmaqla Şuranın təcili müstəqil addım ataraq şəhərin bütün hissələrində öz hakimiyyətini bərqərar etməsinə imkan yaratdı. (21) Silah anbarının idarəsini öz əlinə alan Şura hələ bir neçə ay əvvəlcədən xüsusi məşğələlərdə təlim görməyə başlamış könüllüləri silahlandırmağa başladı. (22) Təbrizlilər bu bəlalı, əziyyətli günlərlə qarşılaşacaqlarını çox yaxşı bilirdilər və buna görə də, öz siyasi ideallarının müdafiəsi üçün hazırlıqsız deyildilər.

Məhəmməd Mirzənin dövlət çevrilişindən sonrakı on üç ay, yəni 1908-ci ilin iyunundan 1909-cu ilin iyuluna qədərki dövr İranda konstitusiya hərəkatının gedişatında həlledici mərhələ idi. Şahın dövlət çevrilişinin konstitusiya hökumətinin fəaliyyətinə qısa müddət üçün olsa belə böyük əngəl törətməsinə baxmayaraq, ümumiyyətlə, bu zorakı mü-

daxilənin uzunmüddətli təsiri hərəkata təkan verməkdən ibarət idi. Hərəkatın ilk günlərində maneələri daha asanlıqla aşan, hətta bir çox hallarda, xalq arasında sosial mütənasiblik və birliyin yayğın olmadığını iddia edən varlı siniflər indi bunu dərk etməyin təəccübünü yaşayırdılar. Konstitusiya hərəkatının köhnə sosial-siyasi quruluşda əsaslı dəyişikliklər etməyə qadir olduğu danılmaz bir həqiqət idi. Digər tərəfdən, adi insanlar konstitusiya hökumətinin «hər kəsin bir tikə kabab yeməsi» ilə nəticələnmədiyinin fərqinə varmağa başlayırdılar. Bu sitat inqilabın müdafiəçilərindən olan Şeyx Səlim tərəfindən işlədilmiş ifadədən gətirilmişdir. Təbrizdə, hərəkatın ilk günlərində o, xalqı konstitusiya mövcud olduqda yararlana biləcəkləri mənfəətin tək bundan ibarət olacağına inandırmışdı. (23)

Ümumiyyətlə, müharibə və aclıqla səciyyələndirilən bu on üç ay ərzində baş verənlərdə Azərbaycanın və Təbriz konstitusiyaçılarının oynadığı rol o qədər böyük və əhəmiyyətli idi ki, bu vaxtdan etibarən, bir çox İran tarixçiləri Azərbaycana gələcəkdə hər hansı mütərəqqi siyasi dəyişikliyin əsasının qoyulacağı bir mərkəz kimi yanaşırdılar. Təbriz «inqilabı» zamanı baş verən hadisələrin bilavasitə şahidlərindən olan Kəsrəvi Təbrizi Parislə müqayisə edərək yazır: «Parisdəki Fransa inqilabında olduğu kimi, Təbrizdəki Məşrutə inqilabı zamanı da mülkiyyətsiz və lüm-lüt kasıblar baş qaldırdılar. Bu insanların əsas təkanverici qüvvəsi anarxiyaya zidd idi. Onların əsas məqsədi, əvvəlcə, məhkəmənin müstəbid hakimiyyətinə son qoymaq, daha sonra isə öz qüvvələrini varlı siniflərə qarşı yönəltməkdən ibarət idi. Danton və Robespyer məhz bu kimi insanların müdafiəsinə arxalandıqları üçün hakimiyyətə gələ bildilər. Təbrizdə nə Danton, nə də Robespyer var idi. Əgər olsaydılar, onda biz öz «dəhşətli hökmranlığımızı» yaratmış olardıq. Bunun əvəzinə isə, biz qarışıqlıq, qeyri- sabitlik və qorxu içərisində yaşamışıq». (24)

Yuxarıda qeyd edildiyi kimi, Təbriz konstitusiyaçıları Tehrandan gələn xəbərlərə dərhal cavab verərək şəhərin bir hissəsində hakimiyyəti ələ aldılar. Bu arada, konstitusiyaçıların rəqibi olan mühafizəkar, şah tərəfdarı olan «İslamiyyə» qrupu şəhərin digər hissəsini öz bayrağı altında birləşdirdi. Bu qrup Təbriz əhalisinə müraciət edərək onlardan «yaşadıqları yerlərdən ağ bayraq asmaqla konstitusiyaçı Babilər və allahsızlardan ayrıldıqlarını» bildirmələrini tələb etdi. (25) Təbriz iki his-

səyə bölünmüş vəziyyətdə idi. Belə ki, Təbrizin «Perlaşesi» sayılan Əmir Xiz məhəlləsi qonşuluqdakı Məralan və Xiyaban məhəllələri ilə birlikdə konstitusiyaçıların barrikadasını əmələ gətirirdi. Şah tərəfdarları isə Əmir Xizdən başqa şəhərin bütün digər şimal hissələrini, yəni Dəvəçi, Sürxab və Şişkəlan məhəllələrini idarə edirdilər. Şəhərin bu şəkildə bölgüsü bir neçə ay müddətində qüvvədə qaldı. (26)

Belə bir vəziyyətdə, Təbriz Şurası atçılıqla məşğul olan Əmir Xizli şeyx Səttarxanın idarə etdiyi azad hərbi təşkilatla əvəz olundu. Səttarxan bənna və şeyx Bağırxanla birlikdə Məralan məhəlləsindən bütün könüllüləri bir araya toplayaraq onları silahlandırdı və beləliklə də üzvləri *Mücahid* kimi tanınan hərbyönlü qrupun əsasını qoydu. Sayları 10,000 nəfər müəyyən edilən(27) Təbriz *Mücahidləri* şah tərəfdarları ilə kiçik dəstələr halında döyüşərək «pişik və siçan» müharibəsi aparırdılar. Bu vaxt ərzində *Mücahidlər* tez-tez Tehrana öz tələblərini teleqramlarla göndərirdilər. Bu teleqramlardan biri aşağıdakı məzmunda idi: «Böhtançıların gizli məqsəd və yalanlarına baxmayaraq, talesiz azərbaycanlılar nə qorxulu üsyançı, nə də ki qiyamçıdırlar. Onlar suverenlik iddiaları ilə çıxış etmirlər. Nə müstəqillik və ya ayrılmaq axtarışında, nə də ki qanlı üsyan etmək və ya qisas almaq niyyətindədirlər. Azərbaycanlılar hər zaman həm öz düşmənlərinə, həm də bütün dünyaya öz müqəddəs məqsədlərini bəyan etmiş və amallarının İranda konstitusiyanın əbədi olmasını təmin etmək olduğunu və Tehrandakı Milli Məclisi öz istəkli Kəbələrinə bərabər tutduqlarını dəfələrlə vurğulamışlar. Bütün haqsızlıqların ədalətli mühakiməçisi və hakimi kimi onlar yalnız «Müqəddəs Kitabı», yəni konstitusiyanı qəbul edirlər». (28)

Keçmiş vali Müxbir-üs Səltənə konstitusiyaçılarla birbaşa qarşı-qarşıya durmaqda tərəddüd etdiyi zaman şah tərəfindən onun yerinə yenicə vali təyin edilən Eynüddövlə şah tərəfdarlarına başçılıq edirdi. (29) Eynüddövlə İmam Cümə və Mirzə Sadiq kimi nüfuzlu ruhanilər tərəfindən müdafiə olunmaqla yanaşı(30), başlıca olaraq yerlərdə müxtəlif tayfa qruplarının, xüsusilə də Şahsevənlərin köməyinə arxalanırdı.

Digər tərəfdən isə *Mücahidlər* həm bütün inqilabçılar, həm də Azərbaycandan kənardakı islahatçılardan mənəvi dəstək görməyin sevincini yaşayırdılar. Belə ki, sürgündə olan iranlılar tərəfindən İstanbulda yaradılmış «*Səadət cəmiyyəti*» Təbriz konstitusiyaçılarının fikirlərinin beynəlxalq səviyyədə səslənməsinə yaxından köməklik gös-

tərirdi. (31) Erməni və gürcü Sosial Demokratları azərbaycanlı həmkarlarının xahişi ilə, Təbriz «kommunaçılarını» müdafiə etmək üçün sərhədi keçirdilər. Kəsrəvi onların sayının yüzə çatdığını, xüsusilə də bomba hazırlanması sahəsində mütəxəssislərin çox olduğunu qeyd edir. (32)

Təbrizdə sosial demokratiyanın tarixi on doqquzuncu əsrin sonlarına gedib çıxır. «1898-ci ildən etibarən Təbrizdə ölkənin siyasi məsələlərinin müzakirə olunduğu bir sıra qapalı iclaslar keçirilməyə başlanılmışdı. 1904-cü ildə onlar bəyanat nəşr edərək özlərini İctemaiyyun Amiyyun (Sosial Demokratlar) adlandırdılar». (33) Təbrizin «İctemaiyyun Amiyyun»u gizli təşkil olunmuş, mərkəzi partiya olduğundan tezliklə «Mərkəz-e Ğeybi» (Gizli Cəmiyyət) kimi tanınmağa başladı. (34) Vətəndaş müharibəsi zamanı küçə döyüşlərində fəal iştirak etməklə yanaşı, təbrizli Sosial Demokratlar, eyni zamanda, şəhərin işçilərini ticarət ittifaqlarında birləşdirmək üçün təşkilati işlər görməyə də cəhd göstərirdilər. Tətillər hazırlanır və «İran inqilabının», ümumiyyətlə, nə demək olduğunun ən sadə şəkildə izah olunması üçün cəhdlər edilirdi. (35)

Vətəndaş müharibəsi uzandıqca şah sarayı maliyyə çatışmazlığı ilə nəticələnən bir sıra çətinliklərlə qarşılaşmağa başladı. Belə ki, maddi cəhətdən iflasa uğrayan hökumət qoşunun maaşının necə ödəniləcəyi təşvişi içərisində ikən bütün banklar əlavə kredit verməkdən imtina edirdilər. Şah sarayı paytaxtda öz hakimiyyətini çətinliklə saxlaya bilirdi. Lakin şahın sahib olduğu bu hakimiyyət uzun müddət davam edə bilməzdi. Bazar ətrafında baş verən tətillər şahın 1907-ci ildə İranı iki köhnə rəqib arasında öz maraq dairələrinə bölmək üçün saziş imzalayan ingilis və rus müttəfiqləri ilə birlikdə etibardan salınması ilə nəticələndi. (36)

On üç aylıq qanlı vətəndaş müharibəsindən sonra konstitusiyaçılar göstərdikləri birgə səylər nəticəsində şahın devrilməsinə müvəffəq oldular. Konstitusiyaçıların silahlı qüvvələri həm şimal, həm də cənub istiqamətində paytaxta doğru irəliləyərək «hökumətin valiləri təyin edərkən yerli *Əncümənlərlə* məsləhətləşməsi» də daxil olmaqla bir sıra tələblər irəli sürdülər. (37)

İndi konstitusiyaçıların tələblərini qəbul etsə belə, şahın vəziyyətdən çıxması üçün artıq çox gec idi. Beləliklə, şah öz səlahiyyətlərindən əl çəkməyə məcbur oldu və Rusiya konsulluğunda özünə sığınacaq tapdı. Bunun nəticəsində, şahın on iki yaşlı oğlu Əhməd yeni şah elan olundu. Bu mübarizənin mühüm siyasi nəticələrindən biri də, *Məclisdə*

sinfə və peşəyə əsasən təmsil olunma ilə bağlı seçki qanununun ləğv olunması və əyalətlərin daha çox nümayəndələrə malikolma imkanının təmin edilməsi idi. Bu dəyişikliklər əsasında ikinci *Məclis* çağrıldı.

Artıq 1909-cu ilin yayına qədər İrandakı siyasi vəziyyət dörd il əvvəllə müqayisədə əhəmiyyətli dərəcədə dəyişikliyə uğramışdı. Vətəndaş müharibəsinin dramatik hadisələri siyasi şüurluluğun və sinfi mənsubiyyətlə bağlı özünüdərkin sürətlənməsinə xidmət etmişdi. İkinci Məclis fəaliyyət göstərməyə başladıqda isə bu meyl özünü xüsusilə büruzə verdi. Beləliklə, İran yeni siyasi dövrə qədəm qoymaqda idi. Bu dövrün «azadlığın böhranı» adlandırılması son dərəcə uyğun olardı.

## İKİNCİ MƏCLİS VƏ SİYASİ PARTİYALARIN MEYDANA GƏLMƏSİ

Birinci *Məclis* partiyalardan ibarət parlament deyildi. İranda partiyalar yalnız ikinci *Məclisin* gedişatında siyasi səhnədə görünə bildilər. (38) Yuxarıda qeyd olunmuş qısa məlumatlardan da aydın olduğu kimi, İranda bir siyasi təşkilat olaraq partiyaların yaradılmasında ən mühüm və qabaqcıl rolu Sosial Demokratlar oynamışlar.

İranda Sosial Demokrat Partiyası yaratmaq üçün ilkin cəhdlərdən birini, daha sonra, İran Kommunist Partiyasının birinci katibi olan Heydərxan Əmioğlu etmişdi. O, Məşhəddə elektrik mühəndisi olaraq çalışdığı on beş ay ərzində siyasi qrup təşkil etmək üçün səy göstərsə də, buna müvəffəq ola bilməmişdi. Daha sonra, xatirələrində o, həmin günləri yada salaraq yazırdı: «Mən Xorasanda yaşadığım bütün vaxt ərzində siyasi qrup təşkil etmək üçün nə qədər çox çalışsam da, buna heç zaman nail ola bilmədim. Çünki insanlar hələ bunun üçün hazır deyildilər». (39) Xorasanda öz məqsədinə çata bilməyən Heydərxan Əmioğlu Tehrana gedərək orada Sosial Demokratların bir şöbəsini yaratdı. (40)

Yuxarıda qeyd olunduğu kimi, təbrizli Sosial Demokratlar 1904-cü ildə ilk siyasi manifestlərini nəşr edərək özlərini «*İctemaiyyun Amiyyun*» adlandırdılar. Bundan üç il əvvəl isə Sosial Demokratların Xorasan şöbəsi «*Məramname və Nezamname-ye Şobe-ye İrani-ye Cəmiyyət-e Mocahidin Motəşəkkel dər Məşəd*» (Mücahidlər Cəmiyyətinin Məşhəddəki İran Şöbəsinin Proqram və Nizamnaməsi) adlı manifest nəşr

edərək fəaliyyətə başlamışdı. Sosial Demokratlar yeni partiyanın məhəlli şöbəsinin yaradılmasını elan etmək üçün şaban ayının 15-ni (1905-ci ilin sentyabrı) on ikinci İmamın adgünü kimi qeyd etməyi qərara aldılar. (41)

Bütün bu partiyalar və eyni mövqedə olan bir sıra başqa qruplar bu və ya digər vasitə ilə 1905-ci ildə Bakıda yaradılmış «*Hezb-e Sosial Demokrat-e İran*» (İctemaiyyun Amiyyun) (İran Sosial Demokrat Partiyası) ilə əlaqə saxlayırdılar. (42) Bu partiya özü Bakıda, bir il əvvəl Zaqafqaziyanın müsəlman fəhlələrinin təşkilatlandırılması məqsədilə yaradılan başqa bir partiyanın, *Hümmətin* bir qolu idi. (43)

İkinci *Məclisin* açılmasından (15 noyabr 1909-cu il) çox keçmədən mühafizəkar deputatlar parlamentdə öz siyasi qruplarını təşkil etməyə başladılar. Erməni Sosial Demokratı Pilosiyan *Məclisdəki* mühafizəkar Azərbaycan deputatlarından olan Tağızadəyə Təbrizdən yazdığı məktubunda ondan və yoldaşlarından siyasi partiya yaratmaq səylərini artırmağı tələb edirdi. (44) Bundan az sonra, səkkiz üzvdən ibarət mərkəzi komitəyə malik «*Firqe-ye Demokrat-e İranın*» (İran Demokrat Partiyasının) əsası qoyuldu. (45) İlk vaxtlarda partiyaya verilmiş ad bəzi Sosial Demokratların narazılığına səbəb oldu. Pilosiyan Tağızadəyə yazdığı məktubunda «iranlıların xarici adlara düşmən münasibəti göstərməsi səbəbilə, ondan «Demokrat» sözünün qarşılığı kimi işlədilə biləcək hər hansı bir fars və ya ərəb sözünün olub-olmadığını» soruşurdu. (46) Lakin belə görünür ki, Tehrandakı deputatların başları parlament məsələlərinə daha çox qarışdığından dil problemlərinə lazımınca diqqət yetirə bilmirdilər.

Demokratların parlament qrupunu iyirmi yeddi nəfər təşkil edirdi ki, bunlardan on ikisi azərbaycanlılardan ibarət idi. (47) Bu qrupun tərkibinə səkkiz mülki xidmətçi, beş jurnalist, beş dini rəhbər, bir mülkədar və bir həkim daxil idi. Beş dini rəhbərdən üçü Şeyxi idi, biri isə gizli Əzəliyə mənsub idi. (48)

Demokratlar «*Mərəmname-ye Firqe-ye Siyasi-ye Demokrat-e İran – Amiyyun*» (İran Demokrat Partiyasının – Amiyyunun Məramnaməsi) adı ilə nəşr etdirdikləri ilk manifestlərində «müxtəlif zəruri islahatları həyata keçirərək iranlıların bir *millət* kimi öz azadlıq və müstəqilliklərini mühafizə etmələrinə imkan yaradacaq güclü, hüquqi və mərkəzləşdirilmiş hökumət» uğrunda mübarizə apardıqlarını bəyan edirdilər. (49) Çox

keçmədən, siyasi mərkəzləşmə, etnik qovuşma və milli vahidləşmə kimi anlayışlar Demokratların «*İran-e Nou*»(Yeni İran) adlı əsas qəzetinin «Biz bir millətik» başlıqlı məqaləsində daha geniş müzakirə hədəfinə çevrildi. Həmin məqalədən götürülmüş aşağıdakı parça isə bu kimi Demokrat dairələrində hakim olan əhvali- ruhiyyəni özündə əks etdirir:

«İstibdad quruluşu özünəməxsus çoxsaylı adlar və müxtəlif şəkillərlə bizi bir-birimizdən ayrı salmış və bir-birimizə düşmən etmişdir. İstibdad vahid, bütöv İran *millətini* həm forma, həm də mənsubiyyətcə parçalamış, bizi bir-birimizdən uzaqlaşdırmışdır... Bütün bunların nəticəsində, bir torpaqda boya-başa çatmış və istibdad havası ilə eyni dərəcədə zəhərlənmiş vahid İran *millətinin* üzvləri öz qardaşlarını sadəcə başqa bir dildə danışdıqları və ya Allaha fərqli şəkildə itaət etdikləri üçün düşmən hesab edirlər. Bütün müstəbid dövlətlər və bütün mütləq hakimlər hər zaman bu şəkildə hərəkət etmiş, dünyanın bütün məşhur zülmkarları həmişə bu cür sistem tətbiq etmişlər. Öz təcavüzkar hökumətlərinin hakimiyyətini genişləndirmək və hər kəsə qəbul etdirmək naminə dünyanın bütün zalım hökmdarları hər zaman vahid bir qrupu parçalamaq və onları bir-birinin əleyhinə çevirmək siyasətinə əl atmışlar. Bizim İrandakı zülmkarlar bu sahədə heç də geri qalmırlar. Onlar öz hakimiyyətlərini yaratmaq naminə ixtilaf toxumları əkmək tərəfdarı olan *yezuitizmin* şərtlərini çox müvəffəqiyyətlə qəbul ediblər. Bu şərtləri isə onlar heç vaxt unutmurlar».

İstibdad rejimi tərəfindən dünyanın hər yerində tətbiq edilən mürtəce siyasət həmin məqalədə bu şəkildə təhlil edildikdən sonra, İranın çox müxtəlif əhalisi üçün ən ağlabatan yeganə çıxış yolu kimi konstitusiya hərəkatı göstərilir: «Necə ki istibdad bizi bölmüş və ürəklərimizə qarşılıqlı nifrət toxumlarını əkmişdir, eyni şəkildə, keçmiş quruluşun əsaslarına qarşı yönəldilən qanlı etirazların nəticəsi olan azadlıq və mövcud konstitusiya hərəkatı aramızda bağlılıq və birlik olması üçün zəmin yaratmalıdır. Bu vətənin millət və ya dinə fərq qoymadan azadlıq və bərabərlik əldə etmək uğrunda mübarizə aparan fədakar övladlarının ölüm-dirim mübarizəsi (*mücahidat*) sayəsində öz hakimiyyətini tətbiq edən bir hökumətdə milli ziddiyyət və dini mübahisələrdən heç bir iz olmamalıdır... Çox acılar çəkmiş, iztirablı günlər yaşamış ana vətənimiz bu gün bütün övladlarına, müsəlman, yəhudi, erməni, zərdüşt, türk və ya fars olmasından asılı olmayaraq bütün iranlılara, öz kədərli

səsi ilə müraciət edir. Müxtəlif dillərdə danışıb Allaha fərqli şəkillərdə itaət etsələr də, bütün iranlılar bir millətdirlər». (50)

Demokratlar tərəfindən çıxarılan on qəzet və jurnaldan beşi Tehranda, biri isə Təbrizdə nəşr olunurdu. (51) Bunların içərisində ən nüfuzlu, gündəlik qəzet həqiqi redaktorluq və eyni zamanda baş yazıçılığını Məhəmməd Əmin Rəsulzadənin etdiyi «*İran-e Nou*» hesab olunurdu. (52)

Siyasi fəaliyyətə Bakıdakı Hümmət Partiyasına qoşulmaqla başlayan Rəsulzadə (1884 – 1955) Bakının Sosial Demokratlarından idi. O, bir müddət Hümmət Partiyasının rəsmi qəzeti olan «*Təkamül*»ə redaktorluq etmişdi. 1908-ci ildə, «*Təkamül*» qəzeti çar hökuməti tərəfindən qadağan edildikdən sonra, M.Ə.Rəsulzadə Qafqaz Sosial Demokrat Partiyasının göstərişi ilə şaha qarşı apardıqları mübarizədə İran Sosial Demokratları və Konstitusiyaçılarına kömək etmək üçün Gilanın paytaxtı olan Rəştə göndərildi. Tehranda konstitusiyaçıların yürüşündən sonra, o, Demokrat Partiyası yaratmaq məqsədilə Tehranın Sosial Demokratlarına qoşuldu. (53)

«*İran-e Nou*» qəzetindəki çoxsaylı məqalələrilə yanaşı, M.Ə.Rəsulzadə, eyni zamanda, siyasi fikir mübadilələrinin inkişaf etdirilməsində qabaqcıl mövqeyə malik idi. Onun bu mövqeyi xüsusilə *Firqe-ye Etedaliyyunla* (Mötədillər Partiyası ilə) etdiyi mübahisələrdə özünü göstərirdi. Məqalələrinin birində əvvəlcə müxtəlif rus və ingilis siyasi partiyalarının proqramlarını təhlil edən Rəsulzadə, daha sonra, Mötədillər Partiyasının proqramını tənqid edərək yazır: «Bütün bəşər cəmiyyətinin keçmiş olduğu təkamül prosesi bizim sevimli vətənimiz İran üçün də istisna edilməməlidir». Daha sonra, o, fikrini belə yekunlaşdırır: «Varlı siniflər və *millət* arasında ziddiyyət qaçılmazdır». (54)

Tezliklə bu «qaçılmaz ziddiyyətlər» əhvali-ruhiyyəsi bütün ölkəni bürüdü. Həyəcanlı parlament müzakirələri yalnız *Məclis* divarları arasında qalmırdı. Tehranın küçələri Demokratlar və Mötədillərin qanlı döyüş meydanına çevrilmişdi. Demokratlar Mötədillər Partiyasında böyük nüfuza sahib Əmin əl-Molk və tanınmış *müctəhid* ( yüksək vəzifəli din xadimi) və konstitusiya tərəfdarı Abdulla Behbahaninin ölümünə səbəb olmaqda günahlandırılırdılar. Bu zorakılıq tədricən Demokratlara əks təsir göstərməyə başladı və nəticədə onlar özləri şiddətli təzyiqlərə məruz qaldılar. Belə ki, Demokratların əsas rəhbərlərindən olan Heydərxan Əmioğlu, Tağızadə və Noubəri ölkəni tərk etməyə məcbur edildilər.

Demokratlar terroristlərə xas idarəetmə üsullarını qəbul etməklə qanunilik və plüralizmin müdafiəçiləri olmaq imkanlarını əldən verdikləri kimi, eyni zamanda, müasir İran tarixində, sonralar Abrahamiyan tərəfindən «parçalanma dövrü» kimi (55) səciyyələndirilən bir fasilənin əmələ gəlməsinə əhəmiyyətli dərəcədə imkan yaratmış oldular.

Lakin siyasi parçalanmaya gətirib çıxaran əsas amillərdən biri də xarici qüvvələrin təsiri oldu. İran siyasi təbirincə, «Cənubi Qonşu» kimi tanınan Britaniya 1910-cu ilin oktyabrında İrana ölkənin cənub bölgələrinin təhlükəsizliyinin təmin edilməsi ilə bağlı ultimatum təqdim etdi. Bu addımı atmaqla Britaniya ruslara nümunə olaraq onların da eyni şəkildə hərəkət etməsinə rəvac vermiş oldu. Bu zaman rus qoşunları ölkənin şimal əyalətlərini artıq işğal etmişdilər. Çar hökuməti ölkənin şimal ərazilərinə yarımmüstəmləkə statusu verməyə bərabər olan ultimatumu 1911-ci ilin noyabrında İrana təqdim etdi. (56) Küçələrdəki «kütlələrin» dəstəyinə arxalanan *Məclis* Rusiyanın ultimatumuna müqavimət göstərsə də, zəif İran hökuməti ultimatumu təsdiq etmək və parlamenti buraxmaq qərarına gəldi. Deputatlar yaranmış böhran vəziyyətində buna mümkün olan ən təsirli çıxış yolu kimi baxırdılar. (57)

İnqilabçıların «sevimli Məkkələrinə» bərabər tutduqları Böyük Milli Məclis məhz özlərinin ən çox «istəkliləri» tərəfindən də ləğv edildi.

## I DÜNYA MÜHARİBƏSİ: KÖHNƏ QURULUŞUN DAĞILMASI VƏ YENİ İDEYALARIN GƏLİŞİ

Birinci dünya müharibəsinin başlanması İranda siyasi parçalanma prosesinin qarşısını ala bilmədi. Əslində, xarici təzyiqin çoxalması İran siyasətində mövcud olan uzunmüddətli çatın daha da genişlənməsinə səbəb oldu. Bu arada İranın şimal və cənub əyalətlərinin rus və ingilis qoşunları tərəfindən işğal edilməsi Osmanlı qüvvələrini müharibənin başladığı ilk vaxtlarda İranın qərb və şimal-qərb ərazilərinə müdaxilə etməyə təhrik etdi. Əgər biz bu faciələrə «alman Laurensin» xüsusilə ölkənin cənub tayfaları arasındakı fəaliyyətini də aid etsək, onda İran hökumətinin bu dövr ərzində nə qədər aciz olduğunun fərqinə vararıq.

Mərkəzi hökumət o qədər parçalanmış və fraksiyalara bölünmüş vəziyyətdə idi ki, yaradılan kabinetlərin fəaliyyəti heç zaman bir neçə

aydan çox davam etmirdi. Hökumət özü də ölkədə hakimiyyətin yeganə mənbəyi deyildi. Müasir müşahidəçilərdən olan Blucherin də təsvir etdiyi kimi, «ölkədə *siyasi hakimiyyətin iki mənbəyi* var idi ki, bunlardan biri *rəsmi* hakimiyyət olmaqla hökuməti və əlaqədar idarələri, digəri isə *qeyri-rəsmi* şəkildə «milli qüvvələri» əhatə edirdi». (58)

İran hökumətinin Birinci dünya müharibəsinin başlanmasına ilkin reaksiyası 1914-cü il 1 noyabr fərmanı ilə İranın qəti bitərəfliyini bəyan etməkdən ibarət oldu. Lakin İran ərazisinin əhəmiyyətli dərəcədə böyük hissəsinin Antanta qüvvələri tərəfindən işğal edilmiş olduğu bir vaxtda hökumətin bitərəfliyini elan etməsinin nə mənası ola bilərdi ki? İranın Baş naziri Mostaf-ül Məmalek Rusiyanın hakim dairələrinə türklərin İranı işğal etməsi üçün bəhanə olan, Azərbaycanda yerləşdirilmiş rus qoşunlarının geri çəkilməsi tələbilə müraciət etdikdə, Rusiyanın Baş naziri İranın bu nöqteyi-nəzərini təqdir etdiklərini, lakin rus qoşunlarının Azərbaycandan çıxarıldığı təqdirdə türklərin burada öz qoşunlarını yerləşdirməyəcəklərinə dair heç bir təminatın olmadığını bildirir. (59)

Aydındır ki, əgər İran güclü və qətiyyətli bir hökumətə sahib olsaydı, o zaman çox sadəcə bitərəflik siyasəti yeridə bilərdi. Lakin həm 1914-cü ilin iyununda taxta çıxmış şah, həm də Mostaf-ül Məmalekin hökumət kabineti tamamilə gücsüz və aciz idi. Hökumətin bu acizliyi isə yalnız İranda mərkəzləşdirilmiş dövlətin olmaması ilə izah oluna bilər.

Bəzi iranlılar bitərəfliyi qorumaq iqtidarında olmadıqlarından ən əmniyyətli yol hesab etdikləri müttəfiqlik axtarışına üstünlük verirdilər. Coğrafi məsafə baxımından, Almaniya daha uyğun müttəfiq kimi görünürdü. Hindistandakı maraqlarına görə, İrana qarşı müdaxilə və işğal siyasəti yeridən Britaniyanın əksinə olaraq Almaniya ilk baxışda birbaşa təhlükə törətmirdi. Ruslar və osmanlılar özlərini müttəfiq kimi təqdim etdikləri təqdirdə Almaniya İranla olan əlaqələrindən hətta faydalana bilərdi. Almanların «günəş altında fəza əldə etmək» üçün böyük səylə çalışdıqları bir həqiqət idi. Lakin onlar ruslarla düşmənçilik etməməyə xüsusi diqqət göstərirdilər. (60)

Ruslar və ingilislərə qarşı əks münasibətlərin mövcudluğu Demokratların almanları ən uyğun müttəfiq hesab etmələri üçün şərait yaratdı. 1914-cü ilin dekabrında, üçüncü Məclis çağrıldığı zaman yüz otuz altı deputatdan otuzu Demokrat Partiyasının üzvlərindən ibarət idi. (61)

Demokratların Almaniyayönlü fəaliyyəti İranda işğalçı qüvvələrin sayını artırmaq qərarına gələn ruslar və ingilislərdə inamsızlıq və çaşqınlığın yaranmasına səbəb oldu. Vəziyyət o qədər gərginləşmişdi ki, Tehranın yüz mil şimal-qərbində, Qəzvində yerləşdirilən rus qoşunları Tehrana doğru irəliləyərək paytaxtı işğal edilmək təhlükəsi ilə üz-üzə qoydular. Bir sıra jurnalistlər və nüfuzlu siyasətçilər tərəfindən müşayiət olunan otuz nəfərdən ibarət Demokrat deputatlar «uzun yürüşə» başlayaraq ilk əvvəl Qumda dayandılar və «*Komite-ye Defa-e Mellinin*» (Milli Müdafiə Komitəsinin) əsasını qoydular. Daha sonra, Kaşana qayıdan Demokratlar ən nəhayət Kirmanşahı qərargah seçərək özlərini «*Hökumət-e Melli*» (Milli Hökumət) adlandırdılar. İranda yeganə qanuni hökumət və mərkəzi dövlət kimi rəsmən təsdiq edilən Milli Hökumət ingilislərin çoxalan təzyiqlərinə tab gətirə bilmədi. 1916-cı ildə Kirmanşah ingilis qüvvələrinə məğlub oldu və beləliklə də Milli Hökumət süquta uğradı.

Bu arada, bütün türk xalqı üçün daha böyük, vahid vətən vəd edən pantürkizm və panturanizm cərəyanlarından ruhlanan osmanlılar Azərbaycanda Antanta qüvvələrinə qarşı yeni cəbhə açdılar. Bunun nəticəsində, Azərbaycan I Dünya müharibəsinin əsas döyüş meydanlarından birinə çevrildi. Ruslar, ingilislər və osmanlılar hərbi strategiyalarının bir hissəsi kimi, bu əyalətdə yaşayan müxtəlif etnik və dini qruplaşmalar arasında mövcud olan düşmənçilik və ədavəti qızışdırmaq və gərginləşdirməyi güdən siyasət aparırdılar. Kürdlər, assurlar (aysorilər), ermənilər və azərbaycanlı müsəlmanlar üçün suveren dövlətlər yaradılacağına dair vədlər verilirdi. Bu cür təxribatçı, tovlayıcı hərəkətlər həmin etnik və dini qruplaşmalar arasında qanlı və vəhşicəsinə qarşıdurmalara gətirib çıxarırdı. Azərbaycan konstitusiya hərəkatının vuruşmaları zamanı islahatpərəst konstitusiyaçılar və mühafizəkar şah tərəfdarları arasında bölünmüş olsa da, müsəlman azərbaycanlılar xristian erməni və gürcülərlə öz müştərək məqsədlərinə çatmaq üçün bir araya gəlmək iqtidarında idilər. Lakin indi xarici, tovlayıcı təxribatçılıq sayəsində Azərbaycan, müxtəlif tayfa və icma başçılarının *Ümmət-e İslamı «İttihad-e İslam»* (İslam Birliyi) bayrağı altında birləşdirməklə məşğul olduğu «bölünmüş əraziyə» çevrilmişdi. (62)

Rusiyada baş verən 1917-ci il fevral inqilabı Azərbaycana nisbətən Gilana daha tez təsir göstərdi. Rus qoşunu sıralarındakı ümumi çaşqın-

lıqla yanaşı, Azərbaycanda rus ordusunun bəzi hissələrinin yerli əhaliyə qarşı münasibətinin dəyişilməsi müşahidə olunurdu. Belə ki, Təbrizdəki rus *saldatları* təbrizlilərə «dost» və ya «yoldaş» olaraq müraciət etməyə başladılar. Lakin ilk günlərdə ruslar «köklü dəyişiklik» ideyasının yayılmasına real şəkildə təşəbbüs göstərmirdilər. (63) Bundan əlavə, yeddi il davam edən müharibə və fasiləsiz hərbi işğallar nəticəsində azərbaycanlılar İran Sosial Demokratlarının şimaidan gələn inqilab dalğasına qoşulmaq çağırışına yüksək şövqlə səs verməyə meyl göstərmirdilər.

Müharibə başlandığı vaxtdan etibarən Bakıda gizli siyasi fəaliyyətlə məşğul olan İran Sosial Demokratları 1917-ci ildə «*Firqe-ye Ədalət*» (Ədalət Partiyası) adlı müstəqil siyasi partiyanın əsasının qoyulduğunu elan etdilər. Partiyanın ilk qəzeti olan «*Bayrağe Ədalət*» uzun müddət fəaliyyət göstərə bilmədi. Tezliklə bu qəzet Azərbaycan və fars dillərində çıxan «*Hürriyyət*» və «*Yoldaş*» qəzetləri ilə əvəz olundu. Bu qəzetlərin baş redaktoru və əsas himayəçisi Mir Cəfər Cavadzadə (Pişəvəri) idi.

Ədalət Partiyası 1918-ci ildə partiyanın birinci katibi Əsədullah Qafarzadənin başçılığı altında on səkkiz nəfər partiya üzvündən təşkil edilmiş bir qrupu Gilana göndərdi. Partiyanın Gilandakı «*Cəngəli*» qiyam hərəkatının rəhbəri Kuçek Xanla əlaqə yaratmaq cəhdi boşa çıxsa da tezliklə iyirmi üzvdən ibarət ikinci bir qrup təşkil edilərək Gilana göndərildi. Ədalət Partiyası Gilanın Xəzər dənizində ən böyük limanı olan Ənzəlidə, 1920-ci ilin iyununda birinci qurultayını keçirdi. (64) On yeddisi azərbaycanlılardan ibarət olan əlli bir nəfər seçici üzvün iştirak etdiyi bu qurultayda Ədalət Partiyası İran Kommunist Partiyası adlandırıldı və partiyanın minimum proqramı rəsmən təsdiq edilərək qəbul olundu. (65) Proqramın dördüncü bəndində «müstəqil, suveren və bölünməz İran Xalq Respublikasının» yaradılması nəzərdə tutulurdu. (66) İran Kommunist Partiyasının (Ədalət Partiyası) Xorasan əyalət komitəsinin bir il sonra, 1921-ci ilin iyulunda nəşr etdiyi proqramında İranın milli bütövlüyünə xüsusi diqqət yetirilərək deyilirdi: «Bizim məqsədimiz İranın bütün zəhmətkeş əhalisini təmsil edəcək hökumət yaratmaqdan ibarətdir». (67)

Aydındır ki, yarandığı ilk vaxtlarda İran Kommunist Partiyasında İran müxtəlif millətlərdən ibarət bir ərazi kimi dəyərləndirilmir, «mil-

lətlərin öz müqəddəratlarını təyin etmək» və başqalarından ayrılaraq müstəqil, milli dövlət yaratmaq hüququ ilə bağlı Leninist anlayış barəsində heç bir xatırlatma edilmirdi. (68) Bu anlayış yalnız yeddi il sonra, İran Kommunist Partiyasının Rostovda keçirilən ikinci qurultayının sonunda təsdiq edilən proqramda özünü göstərə bildi. (69) Bu proqramda ilk dəfə olaraq İran rəsmən «bir sıra millətlərin» yaşadığı ərazi kimi təsvir olunurdu. Beləliklə, bundan sonra İran Kommunist Partiyasının əsas vəzifəsi «bu millətlərin tamamilə azadlığa çıxması və hətta mərkəzi hökumətdən ayrılması uğrunda mübarizə aparmaqdan» ibarət oldu. (70)

* * *

Kommunizm əhvali-ruhiyyəsi Qafqaza doğru yayıldığı müddətdə qonşu Anadoluda rəqabətdə olan panosmanizm və panislamizm cərəyanlarını əvəz edən pantürkizm çiçəklənməkdə idi.

Pantürkizm cərəyanının kökü əsrin əvvəllərinə, həm panosmanizm, həm də panislamizmin Osmanlı imperiyası daxilində gündən-günə çoxalan çətinliklərin öhdəsindən gələ bilmədiyi bir dövrə gedib çıxır. «Osmanizm müvəffəqiyyətsizliyə düçar olmuşdu. İslami loyallıq son bir neçə əsrdə olduğu kimi, türklərin böyük hissəsinin hiss və düşüncələrinə hökmranlıq edirdi. Lakin islami loyallığın müasir təcəssümü olan panislamizmin nailiyyətləri son dərəcə məhdud idi və bundan başqa bu cərəyan Qərb təhsilli, Qərbyönlü gənc ziyalılara xitab etmirdi». (71)

*Türk* adına qarşı nifrət oyadılmasına səbəb olan ilkin şərait məhz Osmanlı-Türk *münəvvərül-fikirləri* (ziyalılar) tərəfindən yaradılmışdır. Misal üçün, Mehmet Əmin öz poeziyasında bu yeni, milli iftixar hissini belə əks etdirir:

Mən Türkəm, inamım, soykötüm və qüdrətim vardır...
Biz Türklərik, bu qanla və bu adla yaşayırıq. (72)

Həqarətlə *Türk* adlandırılmaqla başlayan bu kinli münasibət tezliklə inkişaf edərək müsbət iftixar hissinə çevrildi və ümumiyyətlə Türk milləti anlayışına şamil edilməyə başlandı. Pantürkizmi «xaç suyuna çəkənin» özünün Osmanlı imperiyasının təbəəsi olmaması son dərəcə təəccüb doğurur. Yusuf Akçura olaraq tanınan, Rusiya tatarlarından olan Akçuroğlu Yusuf 1904-cü ildə – sonralar pantürkistlərin manifestinə çevrilən – «*Üç Tərz-i Siyasət*» adlı bir kitabça nəşr etdirdi. Sürgündə olan türklər tərəfindən Qahirədə nəşr edilən bu məşhur bəyannamədə Ak-

çuroğlu Yusuf panosmanizm və panislamizm cərəyanlarının inkişafına əngəl törədən, tarixən mövcud olmuş daxili maneələri təhlil edərək *Türk millətini* mühafizə edə biləcək yeganə konsepsiya kimi *İttihad-e Etrakı* (Türklərin Birliyi, yəni pantürkizm) müdafiə edirdi. O, Osmanlı imperiyasından xaricdə, xüsusilə *Qafqaziya* və *Şimali İranda* bu ideyaların tərəfdarlarının hələ də olub-olmamasını bilmədiyini, lakin onun Türk mənsubluğu ilə bağlı görüşlərinin yaxın gələcəkdə harada yaşamasından asılı olmayaraq bir çox Türklər tərəfindən müdafiə olunacağına ümid etdiyini bildirirdi. (73)

Sonralar Akçuroğlu Yusufun *Türkçülük* adlandırdığı (74) *İttihad-e Etrak* çox keçmədən Osmanlı imperiyasının bir sıra siyasi partiyaları və «mədəni təşkilatları» tərəfindən təlim kimi qəbul edildi. 1908-ci ildə İstanbulda, «Türk adlandırılan bütün xalqların keçmişdəki və hazırkı fəaliyyət və vəziyyətlərini» tədqiq etmək üçün *«Türk Dərnəyi»* adlı təşkilatın əsası qoyuldu. (75) *Türk Dərnəyi «Türk Ocağı»* adlı başqa bir «cəmiyyətlə» müşayiət olundu. Bu cəmiyyət 1912-ci ildə verilən manifestdə əsas məqsədinin «İslam xalqının ən qabaqcıl hissəsini təşkil edən türklərin milli təhsilini inkişaf etdirməklə və eyni zamanda onların elmi, sosial və iqtisadi səviyyəsini yüksəltməklə Türk soyu və dilinin yaxşılaşdırılmasına nail olmaqdan» ibarət olduğunu bəyan edirdi. (76)

Bu «cəmiyyətlər» hələ də «Türk kimdir və onun vətəni haradır?» kimi suallarla bağlı məsələlərin müzakirəsi ilə məşğul idilər. Belə ki, *Türk Ocağının* təməlini qoyanlardan biri olan çox nüfuzlu milliyyətçi Ziya Göyalp (1876 – 1924) 1911-ci ildə nəşr olunan *«Turan»* adlı şerində Türklərin vətənini belə təsvir edir:

Türkün vətəni nə Türkiyə, nə də Türküstandır.

Onun vətəni tükənməz, əbədi torpaqlar olan *Turandır*! (77)

Sonralar Ziya Göyalp daha çox məşhurlaşmış *«Türkçülüyün Əsasları»* adlı kitabında köhnə inanc və düşüncələri təkrarlayaraq Türkləri və onların vətənini müəyyən edərkən daha həqiqətə yaxın mövqedə durur. Belə ki, «Türk» dedikdə o, «özünəməxsus mədəniyyətə sahib bir millət» nəzərdə tutur və bu səbəbdən də «bütün türklərin eyni dilə, eyni mədəniyyətə malik olduqları» qənaətinə gəlir. (78) Bütün türklərin *Turanda* cəmləşməsi ilə bağlı öz keçmiş, xəyali fikrinin üzləşdiyi maneələrin fərqinə varan Ziya Göyalp indi Türklərin nümunəvi birliyinə tatar, qırğız və özbəkləri aid etmir və əsas diqqəti Oğuz Türklərinə

yönəldirdi: «Bu gün mədəni cəhətdən vahidləşmək Oğuz Türklərinə daha asan olardı. Oğuz Türkləri türkmənlərdən ibarətdir ki, türkmənlərin də əsas hissəsini təşkil edən Azərbaycan, İran və Xarəzm türkmənləri Türkiyə Türkləri kimi Oğuz və ya Türkmən birliyinə daxildirlər». Daha sonra, o, haqqında danışdığı birliyə aydınlıq gətirir: «Siyasi birlikmi? Hələ yox... Biz bu gün gələcəkdə nələr baş verəcəyi barəsində hökm irəli sürə bilmərik. Ancaq hal-hazırda bizim ən ümdə məqsədimiz Oğuzların mədəni birliyinə nail olmaqdan ibarətdir». (79)

I Dünya müharibəsinin başlanması və Osmanlıların Rusiyaya qarşı vuruşması ilə pantürkizmin çiçəklənməsi üçün əsaslı zəmin yaranmış oldu. Pantürkistlər ruslara sadəcə *kafir* kimi yox, eyni zamanda, İslam Türk məmləkətinin bir hissəsi hesab edilən Qafqazın cənub ərazilərini zəbt etdikləri üçün işğalçı kimi yanaşırdılar. Buna görə də Rusiya əleyhinə aparılan müharibə *cihadın* bütün hökmləri tərəfindən müdafiə olunurdu.

Rusiyada 1917-ci il inqilabının baş verməsi və Rusiya imperiyasının süquta uğraması nəticəsində bir çox pantürkistlər ata yurdlarının azad edilməsi və Türk millətinin birləşdirilməsi üçün ən uyğun vaxtın gəlib çatdığına inanırdılar. Bu nikbinliyin uzun müddət davam edə bilməməsinə və bolşeviklərin imperiyanın ərazisində hər hansı bir dəyişikliyə tab gətirə bilməyəcəklərini nümayiş etdirmələrinə baxmayaraq, pantürkizmin qocaman partizanları hələ də öz köhnə xəyallarını həyata keçirmək üçün bütün mümkün vasitələrə əl atmaqla məşğul idilər.

Pantürkistlərin Azərbaycanda I Dünya müharibəsi dövründə və dərhal sonra əldə etdikləri nailiyyətlər gözlənildiyinin əksinə, çox təsirli ola bilmədi. Bu əyalət bir neçə il qismən Osmanlı qoşunlarının işğalı altında qalsa da, onların azərbaycanlılardan tam dəstək görmək üçün zəmin hazırlamaq cəhdləri boşa çıxdı. Belə ki, Azərbaycan dilində nəşr olunan «*Azərabadeqan*» kimi bir sıra pantürkist qəzetləri Azərbaycan – Osmanlı əlaqələrini inkişaf etdirməyə nail ola bilmədilər. Bundan əlavə, Osmanlılar heç bir zaman yerli siyasi partiyalar tərəfindən müdafiə olunmağın sevincini yaşaya bilmədilər. Onların Demokratlarla əlaqələri xüsusilə gərgin idi. Osmanlı qoşunlarının İrandakı uzunmüddətli varlığı Demokratlarla əlaqələri tədricən daha da pisləşdirdi. Hətta Osmanlılar Demokratların tanınmış rəhbərlərindən olan Xiyabani və Noubərini həbs edərək sürgünə göndərmək kimi tədbirlərə də əl atmaqdan çə-

kinmədilər. (80) Daha sonra onlar öz hərəkətlərinə Xiyabanini «İslami qüvvələrin əleyhdarları olan ermənilərlə əməkdaşlıq etməkdə» (81) günahlandırmaqla bəraət qazandırmağa çalışsalar da, bütün bunların nəticəsində həmin əyalətin idarəsini ələ almağa hazırlaşan Demokratlar arasında Osmanlılara qarşı mənfi münasibətin meydana gəlməsinə şərait yaratmış oldular.

### *Xiyabani üsyanı*

Konstitusiya hərəkatı günlərində, Təbrizin Məhəmməd Əli Mirzənin şahpərəst qiyamına müqavimət göstərdiyi bir vaxtda əsas yerli əyalət şurasının üzvü seçilən və sanki talenin hökmüylə məhəlli hadisələrdə son dərəcə mühüm rol oynayacaq radikal ruhlu bir gənc şeyx siyasi səhnədə görünməyə başladı. (82) Din xadimi olan Şeyx Məhəmməd Xiyabani 1880-ci ildə Təbrizin yaxınlığında yerləşən Xamnə kəndində dünyaya gəlmişdir. Onun atası Petrovskda ( Daha sonra Rusiya Sovet Federal Sosialist Respublikasında bu ad Mahaçqala ilə əvəz olundu.) idarə işləri ilə məşğul olan bir tacir idi. Öz doğma kəndində ibtidai təhsilini başa vurduqdan sonra, Xiyabani Rusiyaya gedərək bir müddət atasının idarəsində işlədi. Təbrizə qayıtdıqdan sonra isə o, təhsilini dini məktəbdə davam etdirərək tam ixtisaslı bir ruhaniyə çevrildi. (83)

Konstitusiya hərəkatının başlanğıcında Xiyabani Tələbiyyə məktəbində riyaziyyat fənnini tədris etməklə yanaşı, eyni zamanda Təbriz məscidlərinin ikisində imam kimi çalışırdı. Onun Tələbiyyə məktəbindəki mühazirələrində iştirak edənlər arasında daha sonra Xiyabaninin əleyhdarına çevrilən tanınmış tarixçi Əhməd Kəsrəvi də var idi. (84) *Əncümən-e Təbriz* və *İslamiyyə* arasında münaqişə yarandığı zaman Xiyabani konstitusiyaçıların sıralarına qoşuldu və beləliklə də o, həmin vaxtdan etibarən əsl fəaliyyətinə başlamış oldu. *İkinci Məclisə* keçirilən seçkilərdə isə o, Azərbaycan üzrə öz namizədliyini müvəffəqiyyətlə irəli sürdü və seçilmiş digər on bir deputatla birlikdə Tehrandakı *Məclisdə* yer tutmağa nail oldu.

İkinci *Məclisin* ilk günlərində, deputatların siyasi partiyalardan birinə qoşulmaq məcburiyyəti ilə qarşı-qarşıya qaldıqları bir vaxtda Xiyabani hər hansı bir xüsusi partiyanın üzvü olduğunu inkar etsə də, Demokratların parlament fraksiyalarının iclaslarında iştirak etdiyini qəbul

edirdi. (85) Onun parlamentdə etdiyi geniş nitqində həm *İctemaiyyun Amiyyun* (Sosial Demokratlar), həm də respublikaçılığa meyl edən Demokratlardan ayrıldığını açıqlaması məlumdur. Elə həmin nitqində Xiyabani, hər hansı bir siyasi partiyaya qoşulmağı nəzərdə tutmadığını parlament qarşısında bəyan etmişdi. (86)

Məlum olduğu kimi, Xiyabani bu müstəqil mövqeyini axıra kimi qoruyub saxlaya bilmədi. Yeddi il sonra, 1918-ci ilin martında o, Noubəri və Çayçı ilə birlikdə Demokrat Partiyasının bərpa edildiyini ictimaiyyətə elan etdi və daha sonra partiyanın rəsmi orqanı kimi *«Təcəddüd»* qəzetini nəşr etdirməyə başladı. (87) Xiyabaninin Rusiyanın 1911-ci il tarixli ultimatumuna qarşı sərt mövqe nümayiş etdirməsi və o vaxt *Məclisdə* bu mövzu ilə bağlı ziddiyyətli nitqlərlə çıxış etməsi sayəsində yenidən yaradılmış Demokrat Partiyası tezliklə həm Azərbaycanın daxilində, həm də xaricində geniş kütlələr tərəfindən müdafiə olunmağa başladı.

1918-ci ilin qışında, Azərbaycanın aclıqla üzləşdiyi bir vaxtda Demokratların xalqa taxıl paylanılması da daxil olmaqla bir sıra tədbirlər həyata keçirməsi təbii olaraq həm yerli əyalətdə, həm də ümumiyyətlə bütün İranda partiyanın nüfuz və şöhrətinin yüksəlməsinə səbəb oldu. Bu tədbirləri həyata keçirməkdə Demokratların məqsədi qəhrəmanlıq və qaçaqçılıq ənənəsinin dərin kök saldığı bir bölgədə Xiyabanini yeni əsrin və müasir dövrün yeni Robin Hudu kimi təqdim etməkdən ibarət idi. Belə ki, bu vaxta qədər Demokratlar artıq Təbrizin və Azərbaycanın bir sıra digər mühüm şəhərlərinin idarəsini öz əllərinə keçirməyə nail ola bilmişdilər. (88)

Bütün bunlara baxmayaraq, 1919-cu ilin yayında, Osmanlı qoşunları Azərbaycana qayıtdığı zaman Demokratlar üçün bal ayı başa çatdı. Osmanlı ordusunun mülki, siyasi müşaviri Yusif Ziya da Demokratların sıravi əsgərlərinin dağıdıldığı və pərən-pərən salındığını təsdiqləyirdi. Belə ki, *İttihad-e İslamın* endirilmiş, köhnə bayrağı bir daha yüksəklərə qaldırıldı. Xiyabani əleyhdarlarının köməyilə Yusif Ziya öz fəaliyyətini genişləndirərək xüsusilə pantürkizm kampaniyasının başladılmasına müvəffəq oldu. Pantürkizm ideallarını bütün Azərbaycan əyalətində təbliğ etmək üçün ən mühüm vasitə isə elə həmin vaxt əsası qoyulmuş *«Azərabadeqan»* qəzeti idi.

Osmanlıların gəlişindən qısa müddət sonra Xiyabani, Noubəri və Badamçı həbs olunaraq sürgünə göndərildilər. İran hökumətinin Təbrizdəki rəsmiləri Osmanlı hakim qüvvələrinin qərarına heç bir etiraz etmədiklərindən tezliklə Təbrizdə Osmanlıların əslində İran hökumətinin xahişi ilə bu şəkildə hərəkət etdikləri barəsində şayiələr yayılmağa başlandı. Bu siyasi fitnə-fəsadlarda xüsusilə şahzadə Məhəmməd Həsən Mirzənin böyük rol oynadığı güman edilirdi. (89)

Xiyabani və onun Demokrat ardıcılları yerli hökumətin düşmənlə əməkdaşlıq etmək istəyi kimi dəyərləndirdikləri bu vəziyyətdən son dərəcə narahat idilər. Belə ki, ötən il ərzində Demokratlar özlərini siyasi alternativ kimi təqdim etsələr də, hökumətlə əlaqələri gərginləşdirməmək və lüzumsuz qarşıdurmalarla üzləşməmək üçün xüsusi səy göstərirdilər. Lakin indi hökumətin onlara xəyanət etdiyini hesab edirdilər. Osmanlı qoşunlarının Azərbaycandan geri çəkilməsindən sonra sürgündən qayıdan Xiyabani Demokratların ən görkəmli rəhbərinə çevrildi. Amma o, heç vaxt unuda bilməyəcəyi acı bir dərs almışdı. Bu səbəbdən də, həmin vaxtdan etibarən Xiyabani İranda köklü dəyişiklik siyasətini əsas götürərək, xüsusilə də Azərbaycan üçün daha geniş yerli muxtariyyətin zəruriliyinə inanırdı.

Haqqında danışdığımız üsyan əslində Xiyabaninin Dördüncü *Məclisə* seçkilər üçün həyata keçirdiyi hazırlıq kampaniyası ilə başlamışdı. Seçkilər 1919-cu ilin avqust–sentyabr aylarında keçirildi. Təbriz və şəhərətrafı məntəqələri təmsil etmək üçün seçilən doqquz deputatdan altısının namizədliyi Demokrat Partiyası tərəfindən irəli sürülmüşdü ki, onların içərisində də ən tanınmışı Xiyabani özü idi. (90)

Mərkəzi hökumət seçkilərin nəticəsi ilə qane olmamışdı. Demokratların genişlənən fəaliyyətindən təşvişə düşən Baş nazir Vüsuquddövlə mərkəzi hökumətin hakimiyyətini gücləndirmək və bütün Azərbaycanda polis şöbələrini yenidən «təşkil etmək» məqsədilə iki İsveç zabitinin rəhbərliyi altında qırx üç nəfər polisdən ibarət bir qrupu Azərbaycana göndərməyi qərara aldı. (91) Britaniya konsulluğunun verdiyi məlumata əsasən, İsveç zabitləri başlanğıcdan etibarən öz kartlarını çox pis oynamış və ümumiyyətlə Demokrat Partiyasına təzyiq göstərmək niyyətlərini büruzə vermişdilər. (92)

Polis şöbəsi və Demokratlar arasında mövcud olan əlaqələr tədricən gərginləşməkdə idi. İsveç zabiti mayor Burlinqin vəzifəsi siyasi

uçuruma yuvarlanmaqda olan bir bölgədə mərkəzi hökumətin hakimiyyətini güc tətbiq edərək qəbul etdirməkdən ibarət idi. Xristian olduğundan onun üzərinə düşən bu vəzifəni müvəffəqiyyətlə icra etməsi üçün imkan çox az idi. Belə ki, Demokratlar mayor Burlinqin «Axilles dabanına» zərbə endirmək üçün hər vasitədən istifadə edir və onun əleyhinə geniş dini təbliğat apararaq ona qarşı əks münasibətin oyadılmasından məharətlə yararlanırdılar. Hətta bir dəfə, Demokratlara rəğbət göstərənlərdən biri polis tərəfindən həbs edildikdə Demokratlar onun azadlığa buraxılmasını tələb edərək bütün üzv və tərəfdarlarına silahlanmaq və partiya qəzetinin binasının qarşısında toplaşmaq çağırışı ilə müraciət etdilər. Nəticədə, bu kütlə həmin izdiham içərisində polis məntəqəsinə yürüş edərək həbs olunmuş şəxsin azadlığa buraxılmasına nail oldu. Bu hadisədən çox keçmədən Demokratlar «*Heyət-e Ectemayinin*» (İctimai Heyətin) əsasını qoyaraq «ictimai sülh və qayda-qanun» və «İranda konstitusiyanın bərpa edilməsi» tələblərinin əks olunduğu bəyannamə nəşr etdirdilər. (93) Beləliklə, Xiyabani üsyanı artıq yaxınlaşmaqda idi.

Qısa müddət ərzində Xiyabani və onun Demokrat ardıcılları yerli məsələlərin idarəsini öz hakimiyyətləri altına aldılar.

Yuxarıda haqqında danışılan hadisələrdən iki ay keçməmiş, 1920-ci ilin 24 iyununda, Xiyabani *Milli Hökumət* adlandırdığı yerli hökumətin yaradılmasını elan etdi. Bu bildiriş təntənəli mərasim şəklində mərkəzi hökumətin əyalət qərargahı olan Ala Qapıda milli himn olaraq qəbul edilmiş *Marselyozanın* müşayiəti ilə həyata keçirildi.

*Milli Hökumət* dedikdə Xiyabani bu hökumətin milliliyindən daha çox xalqa məxsusluğunu nəzərdə tuturdu. Bir çox hallarda Xiyabani öz nitq və məqalələrində bütünlükdə İran millətinə müraciət edərkən «azad və müstəqil İran *millət*i» ifadəsindən istifadə etmişdir. Millət termininin bu şəkildə işlədilməsi onun həmin vaxt ərzində xüsusilə hər hansı bir müəyyən etnik qrupa müraciət etmək niyyətində olmadığından xəbər verir. Hər kəsə bəllidir ki, o, «*milli*» və ya «*millət*» sözlərindən daimi şəkildə istifadə etmirdi. Bütün hallarda, yeni yaradılmış yerli Azərbaycan hökumətini təyin etmək üçün işlədilən «*Milli Hökumət*» adı heç də müstəqil Azərbaycan milli dövləti mənasını ifadə etmək məqsədini daşımırdı.

Britaniyanın Təbrizdəki konsulu ilə müsahibədə Xiyabanidən «Tehran hakimiyyətinə qarşı hər hansı bir etirazı olub-olmadığı» soruşulduqda, o, bu ittihamları tamamilə rədd edərək konsulu bütün vasitələrlə «Demokratların hərəkatında bölücülük ruhunun olmadığına» və bundan əlavə, «Azərbaycanı Persiyanın ayrılmaz hissəsi hesab etdiyinə» inandırmağa çalışmışdı. (94)

Xiyabani və onun Demokrat ardıcılları üçün ən əsas məsələlərdən biri də xarici qüvvələrdən mümkün olduğu qədər təcrid olunmaq üçün yollar axtarmaq idi. Osmanlılar əvvəldən Xiyabaniyə qarşı zidd mövqedə olduqlarından Demokratların onlarla olan əlaqələri soyuq və məsafəli vəziyyətdə qalmaqda idi. İngiltərənin Demokratlara qarşı əks münasibəti və onların əleyhinə apardığı uzunmüddətli siyasət sayəsində ingilislərlə də müttəfiqlik qeyri-mümkün idi. Demokratları müdafiə edəcək yeganə xarici qüvvə isə Çar Rusiyasının imperiya hökumətini devirmiş inqilabçıların təzəcə yaratdıqları dövlətdən başqası ola bilməzdi.

Azərbaycanlı Demokratlar 1917-ci il Rusiya inqilabını alqışlayaraq «öz məmləkətlərində demokratiya uğrunda mübarizə aparmaqla yanaşı, digər millətlərin təməl suverenliyinə hörmət bəsləyərək Rusiyada fəaliyyət göstərən həmin qruplarla» qarşılıqlı dostluq əlaqələri yaratmaq üçün partiyanın əyalət komitəsini təsis etdilər. (95) Lakin çox keçmədən həmin inqilabçıların Araz çayının o biri sahilində həyata keçirdikləri siyasi tədbirlər azərbaycanlı Demokratları öz nəhəng qonşuları ilə daha ehtiyatlı və sayıq münasibətlər qurmağa vadar etdi.

1918-ci il mayın 27-də Araz çayının şimal hissəsini və Zaqafqaziyanın cənub-şərqini əhatə edən ərazidə yeni Azərbaycan Respublikası yaradılarkən bu respublikaya Azərbaycan adının verilməsi İranda, xüsusilə də azərbaycanlı ziyalılar arasında böyük narahatçılığın meydana gəlməsinə səbəb oldu. Buna görə də Xiyabani və onun Demokrat ardıcılları özlərini Zaqafqaziyalılardan fərqləndirmək üçün əyalətin adını *Azadistanla* əvəz etmək qərarına gəldilər. (96) Bu qərara haqq qazandırmaq üçün isə onlar İranda konstitusiya uğrunda aparılan mübarizədə Azərbaycanın kəsb etdiyi əhəmiyyəti və «qəhrəman rolunu» vurğulayaraq buna istinadən *Azadistan* adını qəbul etdiklərini bildirdilər. (97)

Xiyabani «Azərbaycanı İrandan ayırmaq niyyətinin olmadığını»(98) hər zaman vurğulamış və dəfələrlə bu mövqeyini ictimaiyyətə bəyan etmişdi. Buna baxmayraq, əksər müşahidəçilər, xüsusilə də ingilislər

əslində onun separatçı olduğuna inanırdılar. (99) Siyasi rəqiblərinin bu cür ittihamlarına baxmayaraq, Xiyabani heç vaxt güzəştə getmirdi. O, heç bir zaman Azərbaycana İranın daxilində daha geniş muxtariyyət verilməsinə nail olmaq uğrunda mübarizə aparmaq amalından boyun qaçırmadı. Lakin məhz Xiyabaninin qarşısına qoyduğu bu məqsəd Əhməd Kəsrəvi də daxil olmaqla bir çox siyasətçilərin *Milli Hökumətdən* üz döndərməsinə səbəb oldu. Xiyabaninin Kəsrəvi kimi əleyhdarları hakimiyyətinin əsası əyalətlərdən daha çox paytaxt şəhər olan Tehranda cəmləşəcək güclü, mərkəzi hökumətin tərəfdarı idilər. Onlar İranın əyalətlərində köklü dəyişikliklər həyata keçirmək üçün ən uyğun və qanuni özülün yalnız paytaxtdan ibarət olduğuna inanırdılar. Bütün bunların nəticəsində Vüsuquddövlənin nifrət doğuran hökuməti Müşirüddövlənin xalq kabineti ilə əvəz olunduqda, Demokrat Partiyası daxilindəki müxalif olan bir qism şəxslər yeni yaradılmış hökumətin sıralarına keçməkdə və Xiyabaninin *Milli Hökumətinə* qarşı çıxmaqda tərəddüd etmədilər.

Xiyabaninin güzəştlərə getmədən yürütdüyü siyasət onun mərkəzi hökumətlə danışıqlar aparmasını imkansızlaşdırmaqla yanaşı, eyni zamanda, həmin vaxt İranda baş verən digər regional hərəkatlarla birləşərək bütün səylərin bir araya toplanılmasına da mane olurdu. O, İranın siyasi işlərinə hər hansı bilavasitə və ya bilvasitə xarici müdaxilənin qəti əleyhinə idi və bu səbəbdən də Gilandakı üsyanın rəhbəri Kuçek Xanla da əməkdaşlıq etməkdən imtina edirdi. Misal üçün, Kuçek Xan Xiyabaniyə İranda konstitusiyanın bərpa edilməsi məqsədilə birgə cəbhə yaradılması təklifi ilə müraciət etdikdə Xiyabani onu Vüsuquddövlə ilə müqayisə edərək belə cavab vermişdi: «Səninlə Vüsuquddövlə arasında nə fərq var? O, İranı ingilis qüvvələrinin köməyi ilə idarə etmək istəyir, sən isə eyni şeyi rusların dəstəyi ilə etmək istəyirsən». (100)

Müşirüddövlə Müxbir-üs Səltənə Hidayəti 1920-ci ilin avqustunda Azərbaycana vali təyin etdikdən sonra Xiyabani sayılı günlərini yaşamağa başladı. Müxbir-üs Səltənə sentyabr ayında Təbrizə gəldi və onun gəlişinin birinci həftəsi içərisində, sentyabrın on ikisində Kazak briqadasına (101) şəhərin strateji nöqtələrini ələ keçirmək üçün təlimat verildi. Qısa müddət ərzində Kazaklar öz məqsədlərinə nail olaraq Xiyabani də daxil olmaqla əlli Demokratı qətlə yetirdilər. Regionun bütün bölgələrində mərkəzi hökumətin hakimiyyəti bütövlükdə bərpa olundu. (102)

Xiyabaninin hakimiyyəti qısaömürlü olsa da, bu hərəkat İranın ümumi vəziyyətinə və siyasi düşüncə tərzinə, xüsusilə də islahatçı meyllərin artmasına əhəmiyyətli dərəcədə təsir göstərdi. Onun mərkəzi hökumətin hakimiyyətinə alternativ olaraq Azərbaycanda öz hökumətini yaratmaq təşəbbüsü islahatçı düşərgənin parçalanması üçün əsas səbəb oldu. Belə ki, *Nehzət-e Mellinin* (Milli Hərəkat) daxilində müasir cərəyan mərkəzi hökumətdən uzaqlaşaraq əyalətlərə daha geniş muxtariyyət verilməsi xəttini əsas götürdüyü halda, islahatpərəst siyasətçilər arasında mövcud olan ənənəvi cərəyanın nümayəndələri hələ də İranda güclü, mərkəzləşdirilmiş və müstəbidlikdən uzaq bir hökumətin yaradılmasını bütövlükdə müdafiə edirdilər. Xiyabani üsyanının müvəffəqiyyətlə yatırılması həmin ənənəvi cərəyana məxsus düşüncə sahiblərinin hüquqilik və qanunilik sahəsinə dair baxışlarının geniş yayılmış əlaməti hesab edilə bilər.

## III

# RZA ŞAHIN HAKİMİYYƏTİ: BİR ÖLKƏ, BİR MİLLƏT

*Bu gün Siz,* Məclisin *deputatları Sərdar-e Sepahı, Rza xanı şah elan etmək arzusundasınız. Bu şərəfli-şanlı əsilzadə indi təkcə Baş nazir yox, eyni zamanda Hərbiyyə naziri və silahlı qüvvələrin Ali Baş Komandanıdır. Bu gün bizim ölkəmiz iyirmiillik qantökmə və qırğından sonra, əski ənənə və fikirlərin geri qaytarılacağı bir mərhələyə daxil olmaq ərəfəsindədir. Eyni şəxs həm Şah, həm Baş nazir, həm Hərbiyyə naziri, həm də Ali Baş Komandan vəzifələrini yerinə yetirəcək? Hətta Zənzibarda belə dövlət məsələlərinin bu cür qurulması mövcud deyil!*

Sülalə dəyişikliyi ilə bağlı Müsəddiqin
parlament iclasındakı çıxışından,
*31 oktyabr 1925-ci il.*

### *Müasir milli dövlətin yaradılması*

Xiyabani üsyanının faciəli şəkildə bitməsi ilə həm Azərbaycan, həm də İranın digər bölgələri yaşamın bütün sahələrini əhatə edən, böyük təsirə malik dəyişikliklərin həyata keçirildiyi yeni bir tarixi mərhələyə qədəm qoydu. Xiyabaninin ölümündən sonra, bir-birini müşayiət edən iki hadisədən başqa növbəti iyirmi il ərzində Azərbaycanda, demək olar ki, hər hansı bir üsyan izinə və ya açıq qızışdırıcılıq hallarına rast gəlinmir.

Xiyabaninin məğlubiyyətindən dərhal sonra baş verən bu iki hadisədən birincisini Xiyabaninin yoldaşlarından olan Qiyaminin rəhbərlik etdiyi üsyankar bir çıxış təşkil edirdi. Qiyami bu çıxışda iştirak edənləri «*Qiyamiyyun Enteqamiyyun*» ( İntiqam qiyamçıları) adlandırsa da, onun Xiyabani üsyanının müsbət təsirini qoruyub saxlamaq cəhdləri bir nəticə verə bilmədi. O, Təbrizin şimalında yerləşən Əhər mahalında, Kəleybər adlı yerdə xüsusi fəallıq göstərirdi. (1)

Bu hadisədən ikincisi isə Təbriz jandarmasının komandiri olan mayor Lahutinin qiyamından ibarət idi. 1922-ci ilin 1 fevralında Lahuti Təbrizdə hökumətə məxsus idarələri zəbt edərək «*Komite-ye Melli*» (Milli Komitə) təşkil etməklə mərkəzi hökumətin hakimiyyətini rədd etdi. Lakin bu qiyam bir həftədən çox davam etmədi. Belə ki, fevral ayının axırlarında Lahuti canını qurtarmaq üçün Təbrizdən qaçmağa məcbur oldu. Bundan sonra, o, «Sovet torpaqlarında» sığınacaq taparaq öz fəaliyyətini inqilabi şair olaraq davam etdirməyə başladı. (2)

Rza xan Xiyabani üsyanının yatırılmasında iştirak etməsə də, Lahutinin Təbrizdəki qiyamına qarşı yönəldilmiş hərbi əməliyyata Kazak briqadasının başçısı kimi şəxsən özü rəhbərlik edirdi. Daha bir il əvvəl, 1921-ci ilin 21 fevralında Rza xan Seyid Ziya Təbatabai adlı bir jurnalistlə birlikdə Tehranda üsyana başlamağa müvəffəqiyyətlə nail ola bilmişdi. Bu hadisə Rza xanın İran şahı kimi taxta çıxmasından dörd il əvvəl baş vermişdi. Bu yolla Pəhləvi sülaləsinin əsasını qoyan Rza xan növbəti iyirmi il müddətində, 1941-ci ildə müttəfiqlərin təzyiqi ilə öz səlahiyyətlərindən əl çəkərək sürgünə göndərildiyi vaxta kimi İranda hökmranlıq etdi.

*Mərkəzləşdirmə siyasəti*

Rza şahın hökumətin hakimiyyətini mərkəzləşdirmək və İranın müasirləşdirilməsi üçün müvafiq tədbirlər həyata keçirmək siyasəti İranın şəhər əhalisinin böyük əksəriyyətinin, xüsusilə də ziyalı təbəqəsi və orta siniflərin ümidlə gözlədikləri ilə tamamilə üst-üstə düşürdü. Hələ 1914-cü ildən etibarən bir sıra tanınmış siyasətçilər ölkənin müasirləşdirilməsi məsələsini əsas götürərək bu mövqedən çıxış etməyə başlamışdılar. Mostaf-ül Məmalek ikinci kabinetinin 1914-cü ildə *Məclis* tərəfindən rədd edilmiş proqramında köhnə təqaüd sisteminin ləğv edilməsi, yeni məcəllənin tamamlanmasının sürətləndirilməsi, Ədalət Nazirliyi üçün ixtisaslı işçi qüvvəsi yetişdirmək məqsədilə dünyəvi hüquq məktəbinin açılması, qızlar üçün bir sıra məktəblərin yaradılması və teleqraf rabitəsi ilə əlaqədar yeni qanunlar verilməsi barəsində təkliflər irəli sürmüşdü. (3)

Elə həmin il Müşirüddövlə «ticarətə dair qanun layihələrinin hazırlanması, müflisliklə bağlı qanunlar barəsində qərar verilməsi, qadınlar üçün müəllimlər universitetinin təsis edilməsi, bütün məktəblər tərəfindən vahid tədris planının və ümumi dərsliklərin qəbul edilməsi, *məktəbxanaların* ( din məktəbləri) tədricən dünyəvi, ibtidai məktəblərlə əvəz olunması və Ticarət Palatasının yaradılması» (4) ilə bağlı təkliflərin əks olunduğu proqramla birlikdə öz hökumət kabinetini üçüncü Məclisə təqdim etmişdi.

Minlərlə köçərinin köçürülərək zorla başqa ərazilərdə məskunlaşdırılması kimi sərt və dağıdıcı vasitələrdən də istifadə edən mərkəzləş-

dirmə siyasəti əsasən ziyalı təbəqəsinin əksər üzvləri, xüsusilə də liberallar və solçular tərəfindən rəğbətlə müdafiə olunurdu. Bu kimi dairələr arasında ölkənin zəif inkişafı ilə bağlı gündən-günə çoxalan çətinliklərin öhdəsindən gələ bilməklə yanaşı, eyni zamanda *millətin birlik* və *suverenliyini* mühafizə etməyə qadir yeganə qüvvənin yalnız mərkəzləşdirilmiş, güclü və müstəbidlikdən uzaq bir hökumətdən ibarət olduğuna dair ortaq bir inanc mövcud idi.

«*İranşəhr*» ( İran torpağı) və «*Ayənde*» (Gələcək) jurnalları bu görüşlərin təbliğ edilməsində birinciliyi öz əllərində saxlayırdılar. «*İranşəhr*» jurnalı ilk dəfə 1922-ci ilin iyununda Berlində nəşr olunmuşdu. Jurnalın redaktoru Hüseyn Kazımzadə Avropada İranla bağlı tədqiqatlarla məşğul olan ziyalılarla yaxın əlaqədə idi. Tezliklə bu jurnal İrandakı siyasi və ziyalı dairələrə böyük təsir göstərməyə başladı. «*İranşəhr*»in fəaliyyət göstərdiyi beş il ərzində qırx səkkiz buraxılışı işıq üzü görmüşdü. Bu jurnalda Azərbaycana xüsusi diqqət yetirilirdi. Belə ki, jurnalda tamamilə bu mövzuya həsr olunmuş doqquz geniş məqalə dərc olunmuşdu.

1923-cü ildə, «*Yeni Məcmuə*» adlı türk jurnalı İstanbulda *Türk Ocağı* tərəfindən Azərbaycana həsr olunmuş konfrans keçirilməsi barəsində məlumat verdikdə, «*İranşəhr*» dərhal bu məsələyə öz münasibətini bildirdi. Həmin konfransda tanınmış pantürkistlərdən olan Rövşən bəy İran hökumətini İranda yaşayan azərbaycanlılara qarşı müstəbid, zülmkar və vəhşicəsinə siyasət yeritməkdə günahlandırmış, İranda yaşayan bütün azərbaycanlıları yenicə yaranmış Türkiyə Respublikası ilə birləşməyə çağırmışdı. (5) Buna cavab olaraq, «*İranşəhr*» jurnalında iyirminci əsrin əvvəllərinin görkəmli alman İranşünası J.Marquartın müəllifliyi ilə Azərbaycan və İranın digər bölgələri arasındakı tarixən mövcud olan əlaqələrin təhlil edildiyi bir məqalə dərc olunmuşdu. Məqalənin sonunda İranın konstitusiyaçı, radikal şairi Arifin türk dilinə təhqiramiz həqarətlər yağdırdığı bir şeri verilmişdi. Həmin şerdə deyilirdi:

Türk dili bütün kökləri ilə birlikdə məhv edilməli,
Onun söykəndiyi sütunlar bu torpaqlardan təmizlənməlidir.
Ey türk dili, Araza qarış, çıx get, qoy fars dili yaşasın!
Ey səhər küləyi, oyan! Oyan, Təbriz xalqına de ki,
Zərdüştün bu sevimli torpağında Çingizə yer yoxdur!(6)

*«İranşəhr»*in bir sıra bu kimi yazılarında məsələyə tarixi cəhətdən yanaşılmağa çalışıldığı halda, *«Ayəndə»* jurnalı bütün iranlıların bir millət şəklində «birləşdirilməsi» və «farslaşdırılması» üçün lazımi şəraiti müzakirə edərək bununla əlaqədar fikirlər irəli sürmək vəzifəsini öz öhdəsinə götürmüşdü. *«Ayəndə»*nin ilk nömrəsində jurnalın redaktoru Mahmud Əfşarın müəllifi olduğu *«Qozəşte—Emruz—Ayəndə»* (Keçmiş—Bu gün—Gələcək) adlı giriş məqaləsi dərc olunmuşdu. Bu məqalədə Əfşar İranın vahidliyi barəsində öz əndişələrini ifadə etdikdən sonra fars dilinin İranın milli dili kimi qəbul edilməsinin əhəmiyyətini vurğulayırdı. O, bunun mədəni və siyasi cəhətdən birləşə bilmək üçün yeganə təsirli vasitə olduğuna inanırdı: «Mən İranın milli birliyi dedikdə, İranın bugünkü sərhədləri daxilində yaşayan insanların siyasi, mədəni və sosial birliyini nəzərdə tuturam. Bu birliyə iki digər anlayış daxildir ki, bunlar da İranın siyasi müstəqilliyi və ərazi bütövlüyündən ibarətdir. Lakin milli birliyə nail olmaq üçün fars dili ölkənin bütün bölgələrində istifadə olunmalı, geyimdə, adət-ənənələrdə və digər bu kimi məsələlərdə mövcud olan fərqliliklər yox edilməli və *moluk ot-təvayef* ( yerli tayfa başçıları) aradan qaldırılmalıdır. Kürdlər, lurlar, qaşqaylar, ərəblər, türklər, türkmənlər və s. ayrı cür geyinərək və ya başqa bir dildə danışaraq bir-birindən fərqlənməməlidirlər. Mənim fikrimcə, İranda geyim, adət-ənənələr və sairə ilə bağlı milli birlik əldə edilmədikcə bizim siyasi müstəqilliyimiz və ərazi bütövlüyümüz daima təhlükə altında olacaq». (7)

Daha sonra, Mahmud Əfşar milli birliyə nail olmaq üçün zəruri hesab etdiyi bir sıra əməli addımlar atılması ideyasını irəli sürərək öz fikrini davam etdirir: «Fars dili İranın bütün bölgələrində istifadə olunmalı və tədricən xarici dilləri əvəz etməlidir. Bu isə yalnız hər yerdə ibtidai məktəblərin açıldığı, təhsilin məcburiliyi və pulsuzluğu ilə bağlı qanunların verildiyi və bütün bunları yerinə yetirmək üçün lazımi vəsaitin ayrılmasına dair həmin qanunların təminat yaratdığı təqdirdə baş tuta bilər». Burada o, etnik bölünmələri istisna edərək milli birliyi ön plana çəkmək məqsədilə əlavə edir: «Fars dilində yazılmış minlərlə cəlbedici kitab və elmi əsərlər ucuz qiymətlə ölkənin bütün hissələrinə, xüsusilə də Azərbaycan və Xuzistana paylanılmalıdır. Yavaş-yavaş ölkənin ən ucqar bölgələrində dövlət dilində kiçik və baha olmayan məhəlli qəzetlərin nəşr edilməsi üçün lazımi şərait yaradılmalıdır. Bütün bunlar yalnız dövlətin himayəsi altında və müvafiq plana əsasən həyata keçiril-

məlidir. Belə ki, farsdilli müəyyən qəbilələri xarici dilin danışıldığı bölgələrə köçürərək həmin ərazilərdə yaşayan xarici dilli qəbilələri fars dilinin danışıldığı ərazilərdə məskunlaşdırmaq olardı. Xarici dillərdə olan və ya Çingiz xanın, Teymurun soyğunçu hücumlarının yadigarı olaraq qalan coğrafi adlar fars adları ilə əvəz olunmalıdır. Milli birliyə nail ola bilmək üçün ölkənin inzibati bölgüsü aparılmalıdır». (8)

«*Məsələ-ye Melliyyət və Vəhdət*-e *Melli-ye İran*» («Milliyyət və İranda milli birlik məsələsi») adlı başqa bir məqalədə Mahmud Əfşar «İran millətini» əsrlər boyu eyni torpaqlarda yaşayaraq ümumi irq, din, sosial həyat və tarix əsasında bir-birilə bağları olan insanların bir qrupu kimi təsvir edir. (9) Həmin məqalədə Mahmud Əfşar çox açıq şəkildə bəyan edir ki, İran ərazisində nə qədər ki, fərqli dillərdə danışırlar, İranın milli birliyi daima zəif və natamam vəziyyətdə qalacaq. O, İranın milli birliyinin əsasını əmələ gətirmək üçün ümumi dinə sahib olmağın yetərli və ya uzun müddət təsirli olacağına şübhə ilə yanaşdığını qeyd edir. (10)

Burada müəllif iranlıların tam birliyinə nail olmaq üçün irəli sürdüyü təklifləri dəqiqliklə və daha ətraflı təhlil etsə də, həyata keçirilməsini zəruri hesab etdiyi tədbirlər əsasən əvvəlki məqalələrindəkilərlə eynilik təşkil edir. O, sadəcə bu əhəmiyyətli vəzifəni öz öhdəsinə götürərək həll edə biləcək ən uyğun hökumət şəkli barəsində söhbət açmaqla həmin məsələyə yenidən nəzər salır. O, bu vəzifəni yerinə yetirməyə qadir yeganə qüvvənin yalnız təsirli hakimiyyətə malik güclü bir hökumətdən (*müqtədir*) ibarət olduğuna inandığını bildirir. Lakin elə burada o, fikrinə əlavə kimi bu cür qabaqcıl və səlahiyyətli bir hökumətin müstəbid rejimlə qarışdırılmaması gərəkliyini də qeyd edir. (11)

Ümumiyyətlə, Rza şah Hüseyn Kazımzadə və Mahmud Əfşar kimi ziyalıların müstəbidlik barəsindəki ümidlərini doğrultmasa da, demək olar ki, onların bütün tələblərini yerinə yetirdi. Şahın təhsil sahəsindəki islahatları nəticəsində ənənəvi dini *məktəbxanalar* müasir ibtidai məktəblərlə əvəz olundu. Bu məktəblərin sayı 1922-ci ildən 1942-ci ilədək 440-dan 2401-ə yüksəldi. Bu vaxt ərzində məktəblərdə təhsil alan şagirdlərin sayı 43025-dən 244315-ə çatdı. (12) Bundan başqa, 1922-ci ildə 9308 şagirdin qeydiyyatda olduğu 40 orta təhsil məktəbi mövcud idi. Rza şahın hakimiyyətinin sonlarına doğru, fəaliyyət göstərən orta təhsil məktəblərinin sayı 320-yə qalxmışdı ki, bu məktəblərin şagirdlərinin

sayı 26812-yə çatırdı. (13) Yeni dərsliklərin hamısı Tehranda fars dilində nəşr edilmişdi. Bu dərsliklər Quranı və əvvəllər istifadə olunan klassik mətnləri əvəz etməkdə idi. Bununla yanaşı, İranda danışılan digər dillərin tədris olunması qəti qadağan edilmişdi. 1930-cu ildə hətta ərəb dili ibtidai məktəblərin tədris kursundan çıxarılaraq yalnız orta təhsil məktəblərində öyrədilməyə başlanılmışdı.

Beləliklə, fars dilinin İranın dövlət dili elan edilməsi ilə yanaşı, ölkənin bütün digər etnik dillərinə də qadağa qoyuldu. Fars dilindən başqa hər hansı bir dildə qəzet və ya kitab nəşr edilməsinə icazə verilmirdi. 1935-ci ilin iyununda baş nazir Foruqi öz kabinetinin Onuncu *Məclisə* təqdimat mərasimində fürsətdən istifadə edərək Akademiya və ya Mədəniyyət İnstitutu tipli «*Fərhəngistan*» adlı yeni bir institutun yaradıldığını elan etdi. Bu institutun vəzifəsi «ərəb və digər xarici sözləri əvəz edəcək fars sözləri yaratmaqla fars dilinin təmizlənməsinə» nail olmaqdan ibarət idi. (14) Mətbuat polis idarəsinin xüsusi şöbəsinin ciddi nəzarəti altında idi. Belə ki, həmin şöbə sadəcə nəşr edilənlərin mündəricatına senzura qoymaqla qalmır, eyni zamanda dilin təmizliyinə də nəzarət edirdi. (15)

Rza şah 1938-ci ilin yanvarında daha geniş milli birliyə nail olmaq məqsədilə «*Sazeman-e Pərvəreş-e Əfkar*» ( İctimai Fikrin Yetişdirilməsi Təşkilatı) adlı hökumət idarəsinin təşkil edilməsi üçün göstəriş verdi. Ədliyyə naziri bu yeni idarənin rəhbəri təyin edilərək gənc nəslin vətənə xidmət etməyə yönəldilməsi və bu ruhda tərbiyə olunması vəzifəsi ilə təlimatlandırıldı. (16)

Rza şahın köçəri tayfaları zorla köçürərək başqa ərazilərdə məskunlaşdırmaq siyasəti rəsmən 1932-ci ildə həyata keçirilməyə başlandı. On minlərlə kürd Mazandaran (İranın şimal bölgəsi), Xorasan ( İranın şimal-şərqi), İsfahan və Yəzddə (mərkəzi İran) çox pis şəraitdə məskunlaşdırıldı. Azərbaycanlılar Kürdüstanda, bəxtiyarilər və lurlar isə İranın mərkəz və cənub bölgələrində məskunlaşmağa məcbur edildilər. (17)

Ənənəvi olaraq İranın ərazisi coğrafi cəhətdən dörd böyük *əyalətə* və çoxsaylı *vilayətlərə* bölünmüşdü. Əvvəlcədən bu *əyalətlərdən* biri olan Azərbaycanın öz *valisi* var idi. 1937-ci ilin sonları və 1938-ci ilin əvvəllərində köhnə inzibati bölgünün ləğv edilməsinə dair iki qanun qəbul edildi. İran *ostanlara* bölündü. «*Ostan*» *Fərhəngistan* institutu tərəfindən təqdim edilən təmiz fars sözü olub ərəb dilindəki «*əyalət*» sö-

zünün qarşılığını ifadə edirdi. Ostanlar *şəhristanlara* (əyalətlərə), *şəhristanlar bəxşlərə* (rayonlara) və *bəxşlər* isə öz növbəsində *dehestanlara* (kəndlərə) bölünürdü. Hər bir *ostan ostandar* ( general qubernator, yəni vali), hər bir *şəhristan* isə *fərmandar* tərəfindən idarə edilirdi. Hər iki icra başçısı şah tərəfindən təyin edilirdi. Daxili İşlər Nazirliyi isə rayon başçıları və digər məntəqə məsullarının təyin edilməsinə cavabdeh idi.

Ölkənin bu yeni inzibati bölgüsünə əsasən, Azərbaycan iki *ostana* bölündü. Bu *ostanlardan* birincisini mərkəzi Təbriz olan Şərqi Azərbaycan, digərini isə əsas şəhəri Rezaiyə (şəhərin əvvəlki adı olan Urmiya Rza şahın şərəfinə Rezaiyə olaraq dəyişdirilmişdi) olan Qərbi Azərbaycan təşkil edirdi. Aparılan bu yerdəyişmə işləri nəticəsində, Qərbi Azərbaycan ostanının daxilinə yalnız azərbaycanlılar məskunlaşan ərazilər yox, eyni zamanda Mehabad və Sərdəşt şəhərləri ilə birlikdə Kürdüstanın bəzi hissələri də aid edildi.

* * *

Rza şahın hakimiyyəti dövründə Azərbaycan tədricən öz ticarət üstünlüyünü əldən verməyə başladı. Bir zamanlar İran ticarətinin Qərbə çıxış qapısı kimi tanınan Azərbaycan indi sadəcə olaraq İranın taxıl anbarına çevrilmişdi. Rza şahın ticarəti Tehranda mərkəzləşdirmək siyasəti ilə yanaşı, azərbaycanlı tacirlərin yeni yaranmış Sovet rejimi ilə ticarət əlaqələrində şimal sərhədi boyunca üzləşdikləri çətinliklər bu bölgənin ticarət əhəmiyyətinin azalmasına gətirib çıxaran əsas amillər idi. Vətəndaş müharibəsi ilə müşayiət olunan 1917-ci il rus inqilabı bir neçə il ərzində Rusiya və İran arasındakı ticarət əlaqələrinin inkişafına əngəl törətsə də 1927-ci ildən etibarən Rusiya yenidən İranın ən böyük ticarət ortağına çevrildi. Banani İranın şimal bölgələrinə istinad edərək dövlətin bu dövrdəki ticarət əlaqələrini aşağıdakı şəkildə yekunlaşdırır:

«İranın kənd təsərrüfatına yararlı, zəngin torpaqlara sahib şimal əyalətləri öz əlavə taxıl, düyü, tütün, pambıq, yun, gön-dəri və meyvə məhsullarının satışı üçün Rusiya bazarından asılı vəziyyətdə idilər. Əslində Rusiya xarici ticarətlə bağlı öz dövlət inhisarçılığı siyasətini İrana tətbiq etmədiyi müddətdə bu əyalətlər Rusiya bazarına kifayət qədər sərbəst çıxış əldə edə bilirdilər. Lakin daha sonra, 1928-ci ildə həmin əyalətlərə verilən bu imtiyaz qismən aradan qaldırıldı və 1930-cu ildə tamamilə ləğv edildi».(18)

Rza şahın sənayeləşdirmə siyasəti nəticəsində Xəzər dənizinin cənub sahillərində yerləşən və Şahın dünyaya gəldiyi Mazandaran əyaləti, o cümlədən İranın mərkəzi əyalətləri bir sıra güzəşt və üstünlüklər əldə etdilər. Rza şahın bu siyasəti sayəsində «İran Mançesteri» kimi tanınan İsfahan və Mazandaran İranın yun sənayesinin mərkəzinə çevrildi. Tehran isə ölkənin yüksək texniki istehsalat özəyini təşkil edirdi. Şahın bu əyalətlərə verdiyi üstünlüklərin göstəricisi kimi qeyd etmək lazımdır ki, 1931–1941-ci illər ərzində Azərbaycanın dörd şəhərində (Təbriz, Rezaiyə, Miyandab və Marağa) açılan iyirmi zavoddan sadəcə ikisi bilavasitə hökumətin himayəsi ilə tikilmişdi. (19) Həmin müddətdə ölkənin mərkəz və şimal əyalətlərində tikilən yüz otuz iki zavoddan iyirmisinə isə İran hökuməti tərəfindən külli miqdarda sərmayə qoyulmuşdu. (20)

Rza şahla təmsil olunan, təsirli hakimiyyətə malik mərkəzləşdirilmiş, güclü İran hökuməti liberal ziyalı təbəqəsinin əksər tələblərini yerinə yetirsə də həmin ziyalı təbəqəsinin varlığına tab gətirə bilmirdi. Rza şahın hakimiyyətə gəlməsi üçün bu və ya digər vasitə ilə uzun müddət ideoloji zəmin hazırlayan bu ziyalıların əksəriyyəti şahın qazandığı nailliyyətlər nəticəsində əslində ağır məhrumiyyətlərlə üz-üzə qaldılar. Bu illər ərzində çox sayda ziyalı qətlə yetirildi, həbs edildi və ya sürgünə göndərildi. Hətta Amerikanın maliyyə müşaviri kimi bir neçə il İranda yaşayan mühafizəkar müşahidəçi Milspaux da öz qeydlərində ölkədə konstitusiya qanunları, parlament və hökumət kabinetinin mövcud olmasına baxmayaraq, Rza şahın əslində tamamilə konstitusiyaya zidd hərəkət edərək əksər qanunları pozduğundan, seçkilərin şah tərəfindən idarə edildiyindən, rüşvətin simasızlaşdırdığı, qorxaq, oyuncaq parlamentin lazımi qaydada deyil, şahın göstəriş və əmrlərinə əsasən qanunlar verdiyindən, Baş nazir və digər nazirlərin şah tərəfindən təyin edilərək təlimatlandırıldıqlarından və yalnız şahın tələbilə istefaya getdiklərindən, şahın mətbuat, söz və toplaşma azadlığına qoyduğu qadağalardan bəhs edirdi. (21)

# IV

# AZƏRBAYCANDA MUXTARİYYƏT HƏRƏKATININ YENİDƏN DOĞMASI

*1320-ci ilin şəhrivər ayında (1941-ci ilin avqustu) nisbi azadlığın əldə edilməsi ilə uzun müddət diktatura pərdəsi altında durğun qalan bir sıra sosial axınlar sanki gurlayan bir selə çevrildilər. Yeni nəslin ziyalıları mövcud vəziyyəti dəyişdirmək vəzifəsini öz üzərlərinə götürmək üçün ayağa qalxsalar da hansı ideologiya uğrunda mübarizə aparacaqlarını bilmirdilər. Belə ki, ehtirasla dolub-daşan gənclərin faşizmə, yoxsa kommunizmə mənsub olmaları özlərinə belə bəlli deyildi. Onların tamamilə əmin olduqları tək cəhət hər şeyin dəyişdirilməsi və hər kəsin arzu və istəklərinə uyğun bir dünyanın yaradılmasından ibarət idi.*

**K.Maleki**, Xaterat-e Siyasi, səh. 330.

## ÇAXNAŞMA İÇƏRİSİNDƏ DOĞULAN YENİ DEMOKRATİYA

1939-cu ilin sentyabrında, Üçüncü Reyx ordusu Polşanı işğal etdiyi zaman çoxları iki ildən qısa bir müddətdə bütün dünyanın müharibə alovu ilə yanacağını güman etmirdi. Qərb cəbhələrində havada üstünlüyə nail ola bilməyən Almaniya öz gücünü şərq istiqamətinə yönəltməyə başladı. Almaniya Yuqoslaviya və Yunanıstanı işğal etdikdən sonra, 1941-ci ilin 22 iyununda 2000 millik cəbhə boyunca Sovet İttifaqına hücuma keçdi.

Müharibə başlandığı andan etibarən İran bitərəflik xəttini əsas götürdüyünü elan etdi. İranın bu bitərəf mövqeyi iki il müddətində həm ingilislər, həm də sovetlər tərəfindən hörmətlə qarşılandı. Lakin Almaniya Şərq cəbhəsində döyüşlər aparmağa başladıqda hər iki dövlət İranla bağlı siyasətlərində dəyişiklik etməyə başladı. Onların siyasətindəki bu dəyişiklik əsasən süquta uğramaqda olan Sovet İttifaqı müdafiə qüvvələrinin bərpa edilməsi cəhdi ilə əlaqədar idi. Belə ki, Sovet İttifaqını lazımi təchizatla təmin etmək üçün yüklərin daşındığı mövcud marşrutlarla (San-Fransiskodan Murmansk və ya Arxangelskə) müqayisədə Fars körfəzi və Qafqaz istiqamətindəki marşrut daha əlverişli və münasib idi. Bu səbəbdən də, həyati əhəmiyyət daşıyan bu dəhlizin sərbəst istifadəsinin hansı yolla sığortalanması gərəkliyi barədə bir sıra suallar meydana çıxdı.

İran hökumətini bitərəflik siyasətindən imtina edərək müttəfiqlərlə əməkdaşlıq etməyin yararlı olacağına inandırmağın şübhə doğurduğu və həqiqətə uyğun olmadığı çox açıq idi. İran hökuməti müttəfiqlərlə düşmənçilik etməmək üçün əlindən gələni etsə də dövlətin Almaniyayönlü siyasəti, xüsusilə də, bu iki dövlət arasında inkişaf etməkdə olan iqtisadi əlaqələr son dərəcə əhəmiyyət kəsb edirdi. Belə ki, İranın xarici ticarətində Almaniyanın payı 1941-ci ildə 45. 5%-dən 48%-ə yüksəlmişdi. (1) Həmin ildə İranın Baş nazirinin vasitəçiliyi ilə İranda işlə təmin olunmuş alman vətəndaşlarının sayı 690-a (2), ingilis mənbələrinə əsasən isə 2000-ə çatırdı. (3) Bu göstəricilərin dəqiqliyindən asılı olmayaraq, müttəfiqlər 1941-ci ilin 25 avqustunda İranı işğal altına almaqla öz hərəkətlərinə burada alman vətəndaşlarının məskunlaşması ilə bəraət qazandırdılar. Lakin bu işğala təkan verən əsas səbəb İngiltərə hökumətinin Abadanın və ölkənin cənub bölgəsinin digər neft yataqlarının nəzarətini öz əlində saxlamaq istəyi ilə əlaqədar idi. (Bu mövzu ilə bağlı İngiltərəyə məxsus sənədlərdə daim bu məsələnin üstündən sükutla keçilirdi.)

İran ordusu heç bir zaman rəsmən təşkilatlandırılmadığından və son iyirmi il ərzində bilavasitə Rza şahın şəxsiyyətindən asılı vəziyyətdə olduğundan öz gücünü toplayaraq müttəfiqlərin hərbi işğalına qarşı müqavimət göstərmək iqtidarında deyildi. İran silahlı qüvvələrinin bəzi bölmələrinin kiçik miqyaslı müqavimət göstərməsi hallarına rast gəlinsə də müttəfiqlərin işğalının nəinki sıravi əsgərlər arasında, eyni zamanda ölkənin mülki idarələrində də qarmaqarışıqlıq və nizamsızlıq yaranması ilə nəticələndiyinin şahidi oluruq.

İşğalın başlanmasından iki gün sonra Baş nazir Mənsur öz istefasını on ikinci *Məclisə* təqdim etdi. Növbəti gün, avqustun 28-də isə yaxşı təhsil almış, yüksək dərəcəli qocaman siyasətçi Foruqi *Məclisi* öz müvəqqəti hökumətinin kabineti ilə rəsmi şəkildə tanış etdi.

Foruqi çaxnaşmalar içərisində olan bir ölkədə qayda-qanunları bərpa edərək onlara riayət olunmasının təmin edilməsini öz kabinetinin ilkin vəzifəsi hesab edirdi. Bu vəzifəni yerinə yetirərkən tezliklə ingilislərin «çomaq və qoğal» siyasətinin fərqinə varan Foruqi «çomağın» artıq öz təsirini itirdiyini və bu səbəbdən də indi «qoğaldan» bərk yapışmaq gərəkliyini dərk edirdi. Çox keçmədən Foruqi Rza şahın imperatorluq taxt-tacının oğlu Məhəmməd Rza şaha verilməsinə nail oldu. 1941-ci ilin 16 sentyabrında Rza şah oğlunun xeyrinə öz səlahiyyətlə-

rindən əl çəkərək qalan ömrünü sürgündə keçirdi və 1944-cü ildə xaricdə dünyasını dəyişdi. Pəhləvilərin ikinci nümayəndəsi olan Məhəmməd Rza şah 17 sentyabrda hakimiyyətə gəlməsi münasibəti ilə Məclisdə keçirilən mərasimdə and içərək bir konstitusiyalı monarx kimi konstitusiyaya ehtiram göstərəcəyinə və atasının buraxdığı səhvləri təkrarlamamaq üçün əlindən gələn hər şeyi edəcəyinə dair İran xalqına söz verdi. Həqiqətən də o, bu cür səhvlərin düzəldilməsi üçün böyük səy göstərirdi.

Foruqi ictimai narazılıq və şikayətlərə son qoymaq məqsədilə Rza şah rejiminin köhnə müdafiəçilərinin, xüsusilə də gizli polisin məhkəməyə cəlb olunması üçün kampaniya başlatdı. Bundan əlavə, o, hökumətin qarşısında bütün siyasi məhbusların azadlığa buraxılması tələbini qoyan qanun layihəsinin *Məclis* tərəfindən təsdiq edilməsinə də nail oldu. Foruqi keçmiş şahın tərəfdarlarının müqavimətini qırmaq və eyni zamanda, ziyalı təbəqəsinin artan tələblərini yerinə yetirmək məqsədilə qəzet və jurnallara qoyulmuş ciddi senzuranı aradan qaldıraraq siyasi partiyaların təşkil olunmasının asanlaşdırılması üçün şərait yaratdı.

Müttəfiqlər İranı işğal altına aldıqları zaman ölkədə cəmi on iki qəzet və jurnal fəaliyyət göstərirdi. 1941-ci il və 1947-ci illər arasında bu rəqəm beş yüz səksənə qalxmışdı ki, bunlardan qırxını da gündəlik qəzetlər təşkil edirdi.(4) Həmin dövr ərzində siyasi partiyaların sayı da artaraq iyirmi birə çatmışdı.(5)

İngiltərə və Sovet İttifaqı yuxarıda qeyd edilmiş tədbirlərin həyata keçirilməsində Foruqini dəstəkləyirdilər. O vaxtkı İngiltərə səfirinin də qeyd etdiyi kimi, farslar başqa millətlərə qarşı daim kin bəslədiklərindən (6) müttəfiqlər özlərini köhnə rejimin əleyhdarları sırasına aid etməyə və eyni zamanda, istibdada zidd, liberal cəhətləri də özündə əks etdirən antiox təbliğat aparmaqla İranın işğal edilməsinə bəraət qazandırmağa çalışırdılar.

Sovetlər İrana gəldikləri ilk vaxtlar ölkənin gündəlik siyasi məsələlərinə birbaşa qarışmamaq siyasətini əsas götürərək nəyin bahasına olursa-olsun İngiltərə ilə əlaqələrini təhlükədə qoyacaq hər hansı bir addımın atılmasına yol verməməyə ciddi səy göstərirdilər: «Ruslar bizə qarşı öz dostluq münasibətlərini ən çox 1941-ci ildə, İngiltərə – Rusiya birləşmiş qoşunları İrana daxil olduqdan sonra nümayiş etdirdilər».(7) Müttəfiqlərin İrana qarşı yürütdükləri birləşmiş müharibə siyasətini açıq şəkildə özündə təcəssüm etdirən bu dostluğun ən bariz nümunələ-

rindən biri kimi «Mərdom-e Zedd-e Faşist» (Faşizmin əleyhinə olan insanlar) adlı qəzetin nəşr olunmasını göstərmək olar. Bu qəzetin ilk sayı 1942-ci ilin 1 fevralında buraxıldı. Qəzetin redaksiya heyətinə siyasi baxışların geniş dairəsini təmsil edən nümayəndələr daxil idi. Bunların arasında tanınmış Sovetyönlü kommunistlər İrəc İsgəndəri və Bezorq Ələvi ilə yanaşı, İngiltərə–İran neft şirkətində yüksək vəzifə tutan Mustafa Fatih kimi Britaniyaya meyl göstərən şəxslər də var idi. «Mərdom» qəzetinin redaksiya heyətinin üzvlərindən olan keçmiş marksist Ənvər Xameyi yenicə nəşr olunmuş xatirələrindən bu qəzetin yaradılmasında İngiltərə və Sovetlərin birgə səyləri barəsində söhbət açaraq Sovetlərin qəzeti kağız və digər mətbəə avadanlıqları ilə təmin etməyə dair razılığa gəldiklərini, ingilislərin isə digər ehtiyacları qarşılamaq arzusunda olduqlarını qeyd edir.(8)

İşğaldan sonrakı dövrdə İranın siyasi həyatında baş verən ən mühüm hadisə bəlkə də Tudə Partiyasının yaradılması oldu.(9) 1941-ci ilin sentyabr ayının 29-da təxminən iyirmi nəfərdən ibarət fəal siyasətçilər bu partiyanın əsasını qoymaq məqsədilə Tehranda veteran Demokrat Süleyman Mirzənin evində toplaşdılar. Bu siyasətçilərin arasında pis ad-san qazanmış, mövqesiz mənsəbə xidmət edənlər də var idi ki, bunlar da əsasən qeyri-qanuni elan edilmiş Kommunist Partiyasının üzvləri, o cümlədən, veteran Demokrat və Millətçilərdən ibarət idi. Lakin bu cəmiyyətin özəyini sonralar «Əlli üçlərin» (Pəncah-e Se Nəfər) üzvləri kimi tanınan gənc, təhsilli kommunistlər təşkil edirdilər.(10)

«Əlli üçlər» kimi tanınan bu qrup 1934-cü ildən başlayaraq üç il müddətində fəaliyyət göstərən «Dünya» jurnalının ətrafında formalaşan bir kommunist dərnəyi idi.(11) 1937-ci ildə məxfi polis tərəfindən «Dünya»nın elmi-nəzəri jurnal kimi fəaliyyət göstərmədiyi və İran Kommunist Partiyasının tribunasına çevrildiyi barəsində məlumatlandırılan Rza şah tərəddüd etmədən jurnalın dərhal qadağan edilməsinə və əlaqədar şəxslərin həbs edilməsinə dair göstəriş verdi. Həmin şəxslərin bəziləri on ilə qədər həbs cəzasına məhkum edildilər. Bu qrupun tanınmış rəhbəri, azərbaycanlı fizik Doktor Tağı Arani isə təkadamlıq kamerada onillik həbsə məhkum edildi və çox keçmədən həbsxanada öldürüldü.

Tudə Partiyası ilk bəyanatında özünü «qanuni konstitusiyaçı partiya» kimi təqdim edərək «İranın müstəqillik və suverenliyi» xəttini əsas götürdüyünü bildirirdi. Bu bildirişdə partiya əsas məqsədinin bütün

səylərini cəmləşdirərək «İran milləti ilə bağlı konstitusiyada da təcəssüm etdirilən vətəndaş azadlıqlarına» nail olacağını bəyan etməklə yanaşı, «torpaq sahibliyi, səhiyyə, vergi və təhsil sahələrində bir sıra islahatların keçirilməsini» dəstəklədiyini də qeyd edirdi. Təhsil sahəsindəki islahatlardan bəhs edərkən isə partiya təhsilin hər kəs üçün pulsuz və məcburi olmasına işarə edirdi.(12)

Tudə Partiyasının şöhrətinin artmasının, xüsusilə də şəhərdə çalışan orta siniflər tərəfindən müdafiə olunmasının əsas səbəblərindən biri ölkənin ağır iqtisadi böhranla qarşı-qarşıya qalması idi. Baş nazir Foruqini istefa verərək öz yerini Süheyliyə verməyə vadar edən səbəb də məhz ölkədəki bu çətin iqtisadi böhran olmuşdu.

Foruqinin hökumət kabineti hakimiyyətə gəldiyi ilk gündən etibarən sürətlə artan ərzaq qıtlığı, xüsusilə də ölkənin hər yerində get-gedə qəhətləşən buğda çatışmazlığı problemi ilə üzləşməkdə idi. Bir neçə zavodun birləşdirilməsi vəziyyəti daha da ağırlaşdırdı. Müttəfiqlərin işğalından sonra kəndlilər arasında qeyri-müəyyənlik əhvali-ruhiyyəsi hökm sürməyə başlamışdı. Nəqliyyatın qənaətbəxş olmaması və şəhər əraziləri ilə kəndləri əlaqələndirən yolların pis vəziyyətdə olması ərzağın paylanılmasına əngəl törədirdi. Ümumiyyətlə, ölkədə istehsal olunmuş mallar kifayət qədər deyildi. Nəhayət, 1942-ci il yanvarın 29-da Üçtərəfli İttifaq Sazişinin imzalanması(13) hökuməti İrandan keçən və ya İranda yerləşən müttəfiq qoşunlarının bütün ehtiyaclarını təmin etmək məcburiyyəti ilə üz-üzə qoydu. Belə ki, iqtisadi böhran təkcə Baş nazir Foruqinin istefasına səbəb olmaqla qalmadı, eyni zamanda, onun xələfi Süheylinin uzun müddət hakimiyyətdə davam etməsinə də imkan vermədi.

İngilislərin tələbilə Foruqinin rəhbərlik etdiyi hökumət İran rialını valyutaya nisbətdə devalvasiya edərək bir funt-sterlinqin qiymətinin 68 rialdan 140 riala yüksəldilməsi və həm ingilislərin, həm də sovetlərin tələblərinə müvafiq olaraq ölkədə pul dövriyyəsinin həcminin artırılması barədə qərar qəbul etdi. Lakin bu tədbirlər hər hansı bir iqtisadi irəliləyişə səbəb olmadı, əksinə böhranın daha da dərinləşməsinə gətirib çıxartdı. 1941-ci ildə tədavüldə olan pulun həcmi 1858 milyon rialı aşmırdı. İki il sonra bu məbləğ 6320 milyon riala çatmışdı. (14) Maliyyə sahəsində aparılan bu siyasətin yaşam bahalılığının artmasına göstərmiş olduğu təsir son dərəcə təəccüblü idi. Belə ki, 1942-ci ilin sonunda bu göstərici ilin əvvəli ilə nisbətdə 439%-dən yüksək idi. (15)

Foruqinin hökumət kabineti ölkədə qayda-qanun və intizamın bərpa edilməsinə dair öz siyasətini həyata keçirə bilmək məqsədilə son vasitə kimi əsasən Rza şahın hakimiyyətinin son günlərində təsis edilən on üçüncü *Məclisi* çağırdı. Deputatlar müəyyən edilmiş olmalarına baxmayaraq, seçilmədikləri üçün qəti etiraz etsələr də, Foruqi 1941-ci ilin 4 dekabrında on dördüncü *Məclisi* rəsmi şəkildə açıq elan etdi. Foruqinin bu addımı həm ingilislər, həm də saray tərəfindən dəstəklənsə də, hökumətin bu qərarı tezliklə İranın siyasi həyatına öz mühüm təsirini göstərməyə başladı. Belə ki, indi parlamentin yerinə böyük şəhərlərin küçələri siyasi fəaliyyət səhnəsinə çevrilmişdi. Parlamentdə səsə sahib olmaqdan məhrum edilmiş siyasi qruplar isə öz güclərini hökumətə təzyiq göstərmək üçün kütlələri hərəkətə gətirməyə yönəltmişdilər.

Küçələr yeganə siyasi döyüş meydanı deyildi. Belə ki, yüzlərlə qəzet nəşr olunmağa başlanmışdı. Siyasi düşüncələrin izhar edildiyi bu yeni vasitələr müttəfiqlərin işğalından dərhal sonra meydana gələn bir çox siyasi partiya və ticarət ittifaqının baxış və görüşlərinin ifadə olunmasına xidmət edirdi. Bu partiya və qəzetlərin əksəriyyəti xarici işğalçı qüvvələrdən biri ilə bu və ya digər şəkildə əlaqədə idi. Sovetlər Azərbaycan, Kürdüstanın bir hissəsi, Gilan, Mazandaran və Xorasan da daxil olmaqla İranın şimal bölgələrini öz təsirləri altında saxladıqları halda, ingilislər ölkənin cənub bölgələrinə nəzarət edirdilər. Bu iki xarici dövlətin birgə hərbi əməliyyata başladıqları paytaxtda – Tehranda isə hərbi vəziyyət elan olunmuşdu.

O vaxt İranda olan amerikalı nazir Dreyflus ABŞ Dövlət Katibinə ünvanlanmış məktubunda ölkədəki vəziyyəti aşağıdakı şəkildə dəyərləndirirdi: «İranın bu vəziyyəti siyasi cəhətdən ölkənin hələ tam hazır olmadığı dəyişiklikdən, yəni diktaturanın demokratik hökumətlə əvəz olunmasından və eyni zamanda, ölkənin düşmən sayılan iki qüvvə tərəfindən faktiki şəkildə işğal edilməsi səbəbilə doğan təpkidən irəli gəlir».(16)

Böyük miqyaslı iqtisadi böhran və ərzaq çatışmazlığı ilə qarşı-qarşıya qalan Foruqi öz istefasını *Məclisə* və gənc şaha təqdim edərək öz səsvermə hüququndan 1942-ci ilin 4 martında qapalı qapılar arxasında keçirilən iclasda mütləqiyyətə sadiq qalan bürokrat Süheylinin lehinə istifadə etdi.

Süheylinin bu vəzifəyə təyin olunması İranın üzləşdiyi iqtisadi böhranın ciddiliyini bir daha nümayiş etdirirdi. Şübhəsiz ki, İranda Süheyli ilə müqayisədə millətin qarşılaşdığı bu çətinliklərin öhdəsindən daha yaxşı gələ biləcək, çox etibarlı və daha qabiliyyətli siyasətçilər mövcud idi. Bu kimi siyasətçilərin Baş nazir vəzifəsini öz üzərlərinə götürmələrinə əngəl törədən əsas maneə isə on üçüncü *Məclisin* varlığı idi. Belə ki, Müsəddiq kimi bir çox tanınmış siyasətçilər on üçüncü *Məclisin* Rza şahın seçdiyi deputatlardan ibarət bir cəmiyyət olub heç bir mahiyyət daşımadığına inanırdılar. (17)

1942-ci ilin 30 iyulunda Süheyli yüz qırx dörd günlük hakimiyyətindən sonra öz vəzifəsindən imtina etməyə məcbur oldu. Onun ətrafında formalaşan kabinet ərzaq çatışmazlığı və ictimai asayişin mühafizəsi ilə bağlı problemlərin həll edilməsini özünün ən əsas vəzifəsi hesab edirdi. Lakin Nazirlər Kabineti bunların heç birinə nail ola bilmədi.

Süheyli uzun müddət gözlənilən istefasını elan etdikdə, onu əvəz edəcək uyğun birinin tapılması üçün xeyli səylər göstərildi. Lakin Süheyli kimi orta səviyyəli bir siyasətçinin bu vəzifəyə gətirilməsinə imkan yaradan İran dövlətinin siyasəti dəyişməz olaraq qaldığından bir sıra qabiliyyətli dövlət adamları və səriştə sahibləri *Məclislə* siyasi cəhətdən «təmiz əllə» əməkdaşlıq etməyə meyl göstərmirdilər. ABŞ Dövlət Katibinin İranda ölkəni təhlükə ilə üzbəüz qoyan və gündən-günə çoxalan çətinliklərin öhdəsindən gələ biləcək siyasətçilərin mövcud olub-olmadığı barəsində sualına Dreyflus belə cavab vermişdi: «İranda dürüst və etibarlı sayıla biləcək çox az sayda siyasətçi mövcuddur ki, həmin şəxslər də ya müyəssər deyillər, ya da nazirlər kabinetində yer tutmaqdan imtina edirlər». (18)

Çoxlarının milli böhranın qarşısını almağa qadir bir şəxs kimi baxdığı Əhməd Qəvvam (Qəvvam-üs Səltənə) uzun sürən danışıqlardan sonra Baş nazir vəzifəsi üçün namizəd göstərildi. Torpaq sahibləri aristokratiyasının zəngin üzvlərindən biri olan Əhməd Qəvvam uzun müddət hökumət idarəçiliyində xidmət göstərmişdi. Qəvvamın o vaxt da Baş nazir kimi fəaliyyət göstərdiyi siyasi səhnədə görünməməsindən düz iyirmi il keçmişdi. (19) Belə ki, Rza şahın hakimiyyəti dövründə o, əvvəlcə sürgünə göndərilmiş, daha sonra isə İranın şimalında, özünün geniş çay plantasiyalarında təcrid olunmuş şəkildə yaşamağa məcbur edilmişdi. (20)

Qəvvamın mülklərinin Sovetlərin işğal etdiyi ərazidə yerləşməsi onun ruslarla çox yaxşı əlaqəsinin olması barəsində şayiələrin geniş yayılmasına təkan verdi. Təxəyyül məhsulu olan bu şayiələr hər nə qədər mübaliğəli olsa da Qəvvamın müttəfiqlər tərəfindən müdafiə olunduğu bir həqiqət idi. (21) Qəvvamın Baş nazirliyini çətinləşdirən əsas amil isə onun sarayla olan əlaqələrinin gərginləşməsi idi.

Gənc şah *Təxt-i Tavusa* oturan zaman bir konstitusiyalı monarx kimi hökumətin parlament işlərinə qarışmayacağına dair and içmişdi. Atasının öz hakimiyyətindən sui-istifadə etməsi səbəbilə şahın səlahiyyətlərinə qoyulan qanuni məhdudiyyətlər onun əslində ölkənin həyatında heç bir rol oynamayan milli müqəvvaya çevrilməsinə gətirib çıxartmışdı. Buna baxmayaraq, Məhəmməd Rza şahın öz şəxsi hakimiyyətindən qeyri-qanuni şəkildə istifadə etmək üçün yollar axtardığı bəlli idi. Bu, özünü daha çox hərbi məsələlərə münasibətdə göstərirdi. Belə ki, konstitusiyaya əsasən, silahlı qüvvələr bilavasitə Hərbi Nazirliyin idarəsi altında olmalı idi. Lakin şahın hakimiyyət düşkünlüyünə bələd olan Qəvvam 1942-ci ilin 13 avqustunda öz nazirlər kabinetini *Məclisə* təqdim etdiyi zaman hərbi nazir vəzifəsini qəsdən boş buraxdı. Buna baxmayaraq, Qəvvam və saray arasındakı münaqişə elə onun hakimiyyətə gəldiyi ilk gündən etibarən başladı.

Qəvvamı əvvəlki iki sələfi kimi, hakimiyyətdən salmaq məqsədilə ölkənin üzləşdiyi iqtisadi böhrandan, xüsusilə də ərzaq çatışmazlığından öz mənafelərinə uyğun şəkildə istifadə etməkdə saray heç də çətinlik çəkmədi. Həqiqətən də Qəvvam lap əvvəldən iqtisadi çətinliklərin tez və səmərəli şəkildə aradan qaldırılmasının mühüm əhəmiyyət kəsb etdiyini başa düşürdü. Baş nazir vəzifəsini yeni yerinə yetirməyə başladığı zaman mətbuata verdiyi açıqlamada Qəvvamdan proqramının tərkibi barəsində məlumat verməsi istənildikdə o, masasından bir tikə çörək parçası götürərək belə cavab vermişdi: «Mənim proqramım budur. Əgər mən bütün iranlıların yaxşı keyfiyyətli çörəklə təmin edilməsinə nail ola bilsəm, onda digər problemlərin həlli asanlaşar». (22) Doğrudan da Qəvvam hakimiyyətdə qaldığı altı ay müddətində bütün diqqətini ərzaq çatışmazlığı ilə bağlı çətinliklərin aradan qaldırılmasına yönəltmişdi.

Qəvvamın Baş nazir vəzifəsinə başlamasından dörd ay keçməsinə baxmayaraq, ərzaq çatışmazlığı ilə bağlı problemlər həll edilməmiş və-

ziyyətdə qalmağa davam etdiyindən dekabrın 8-də Tehranın küçələrində üsyanlar başladı. Şəhərdə görülməmiş vəhşətin yaşandığı bu üsyan tam iki gün davam etdi. (23) Bu hadisənin bilavasitə şahidi olanların verdiyi məlumata görə, üsyan xarici təsirlərdən asılı olmayaraq baş vermişdi. (24) Lakin bu üsyanın başlanmasında bir sıra siyasi meyllərin həlledici rol oynadığını düşünən Amerikanın İrandakı səfiri ərzaq çatışmazlığı kimi həssas bir məsələdən yararlanan siyasi fitnə-fəsadçıların yalnız öz çıxarlarını güddüklərini, bu nümayişdən öz zabit qruplarından ibarət hərbi hökumət təşkil etməyi hədəfləyən şahın cavabdeh olduğunu hesab etdiyini qeyd edirdi. (25)

Bütün bunların nəticəsində, Qəvvam küçələrdə qayda-qanunun pozulmasının qarşısının alınması məqsədilə ordunu təlimatlandırmağa və eyni zamanda siyasi gərginliyi azaltmaq üçün qırx gün müddətinə mətbuatı yasaq elan etməyə məcbur oldu. Bu hərəkətlə o, çətin vəziyyətdən çıxmağa qadir, qətiyyətli bir siyasətçi kimi görünməyə çalışsa da onun siyasətdəki günlərinin tükənməkdə olduğu artıq bəlli idi. Beləliklə, Qəvvam hakimiyyət uğrunda şahla apardığı mübarizədə məğlub oldu. Bunun səbəbi isə onun şahın bacarığını lazımi qədər qiymətləndirməməsi ilə də bağlı idi. Nəticədə, Qəvvamın səriştə sahibi olduğuna şübhə ilə yanaşan *Məclis* 1943-cü ilin 13 fevralında onun taxt-tac əleyhinə apardığı altıaylıq mübarizəsinə xitam verdi. Bu isə Qəvvamın istefaya getməsi ilə nəticələndi. Öz qüvvələrini cəmləşdirməyə davam edən şah isə ikinci dövrənin başlanmasını həyəcanla gözləməkdə idi.

### *On dördüncü Məclis: onun formalaşması və milli təmsilolunma məsələsi*

Qəvvamın hakimiyyətdən getməsindən dörd gün sonra Süheyli ikinci dəfə eyni vəzifəyə başladı. Süheylinin birinci dəfə bu vəzifədə qalmasına səbəb olan amillər onun ikinci dəfə yenidən hakimiyyətə gətirilməsində böyük rol oynadı. Bundan başqa, onun Baş nazir seçilməsi bir sıra müşahidəçilər tərəfindən *Məclisin* Sovetlərə dost əli uzatmasının əlaməti kimi qiymətləndirilirdi. Süheyli Sovetlərin inamını qazanmaqda və onların güvəninə arxalanmaqda Qəvvamdan sonra birinci siyasətçi hesab edilirdi. (26) Sovetlərin müharibədə yavaş-yavaş, lakin əmin addımlarla irəliləməsi, xüsusilə də 1943-cü ilin yanvarında

baş verən Stalinqrad döyüşündə əlamətdar qələbə əldə etməsi *Məclisin* bu addımı atmasına siyasi cəhətdən haqq qazandırırdı.

İkinci dəfə Baş nazir vəzifəsini yerinə yetirdiyi müddətdə Süheylinin qarşısında duran ən mühüm vəzifə on dördüncü *Məclisə* seçkilərin keçirilməsini təmin etməkdən ibarət idi. Lakin bu məsələnin layiqincə həll edilməsi bir o qədər də asan deyildi. Belə ki, ölkə hələ də müttəfiqlərin iki böyük qüvvəsinin işğalı altında qalmaqda idi. Xüsusilə də Sovetlər müharibədə həlledici qələbələr əldə etmələri səbəbilə İranla bağlı öz mövqelərini dəyişdirməyə başlamışdılar. İlk əvvəllər İranın daxili işlərinə mümkün qədər az müdaxilə etmək və eyni zamanda, öz müttəfiqlərindən hər hansı biri ilə ziddiyyətə yol verməmək xəttini əsas götürən Sovetlərin bu mövqeyi get-gedə münaqişə və qarşıdurma siyasətinə çevrilməkdə idi. Əvvəllər Rusiya İrana Rusiya cəbhəsinin zəruri təchizatlarla təmin edilməsində mühüm rol oynayan «dəhliz» kimi baxır və «bu təchizat axınının dayandırılmaması» üçün böyük səy göstərirdi. (27) Lakin indi külək başqa səmtdən əsirdi və Sovet İttifaqı İranı işğal etdiyi ilk vaxtlarda olduğu kimi ehtiyatlı və tədbirli davranmırdı.

On dördüncü *Məclisə* keçirilən seçkilər son iyirmi ildə müstəqil siyasi partiyaların iştirak etdiyi ilk parlament seçkiləri idi. Abrahamiyanın da qeyd etdiyi kimi, bu seçkilər müasir İranda bu vaxta qədərki bütün seçkilərin ən uzun fasilədən sonra keçiriləni, ən böyük rəqabətin yaşandığı və ən məzmunlusu idi. Belə ki, bu seçkilərin nəticələri təkcə dövlət tərəfindən deyil, eyni zamanda bir tərəfdən sosial qüvvələrin, digər tərəfdən isə mütəşəkkil qrupların, xüsusilə də siyasi partiyaların, parlament fraksiyalarının və onların hökumət bürokratiyası daxilindəki xarici himayədarlarının da təmsil olunduğu əlaqədar orqanlar tərəfindən müəyyənləşdirilmişdi. (28)

Parlament seçkiləri üçün hazırlıq kampaniyalarına başlayan çoxsaylı siyasi partiyalar arasında siyasət meydanının əks qütblərini təmsil edən iki partiya xüsusilə fərqlənirdi. Bu meydanın sağında Seyid Ziya Təbatəbainin rəhbərlik etdiyi «*Erade-ye Melli*» (Milli İradə) partiyası dururdu. Seyid Ziya Təbatəbai Rza şahın 1921-ci il qiyamını təşkil etmiş, daha sonra isə Rza şah tərəfindən sürgünə göndərilmişdi. Rza şahın öz hakimiyyətindən imtina etməsindən çox keçmədən o, ingilislərin köməyi ilə İrana qayıtmışdı. Meydanın solunda isə 1943-cü ilin yanvarında baş vermiş Stalinqrad döyüşündən sonra tamamilə Rusiyayönlü partiyaya çevrilən Tudə Partiyası dayanırdı. (29)

Rusiyayönlü partiya kimi dəyərləndirilməsinə baxmayaraq, Tudə Partiyası «*Rəhbər*» adlı rəsmi qəzetində də bəyan edildiyi kimi, özünü kapitalistlərin himayəsini qazanmaq axtarışında olan qeyri-kommunist, konstitusiyaçı partiya hesab edirdi: «İran Tudə Partiyasına kommunist damğasının vurulması Seyid Ziyanın qrupunun səylərinin nəticəsidir. Bu yolla onlar İran kapitalistləri və tacirlərini bizdən uzaqlaşdırmağa çalışırlar. Lakin partiyaya verilmiş bu ad tamamilə yanlış və həqiqətdən uzaqdır. İran Tudə Partiyası konstitusiya tərəfdarı olan bir partiyadır, yəni konstitusiyaçı bir partiyadır. Biz İranda sosializm və kommunizm ideyalarının özünə kök tapması üçün sosial zəminin olmadığına inanırıq və əminik ki, əgər bir gün İranda Kommunist Partiyası yaransa belə, bu partiya Tudə Partiyası olmayacaq». (30)

Tudə Partiyasının seçkilərə hazırlıq kampaniyasında əsas müttəfiqi 1943-cü ilin yayında, on dörd müxtəlif qəzet və jurnalı bir araya gətirən siyasi saziş əsasında yaradılmış «*Cəbhe-ye Azadi*» (Azadlıq Cəbhəsi) idi. Azadlıq Cəbhəsinin siyasi görüşlərinin xülasəsi kimi dərc etdiyi bəyanatında aşağıdakı məsələlər öz əksini tapmışdı:

- Konstitusiyanın və milli hökumətin əsaslarından hər hansı şəkildə yayınma və sapınmalara qarşı var güclə mübarizə aparmaq.
- Cəmiyyətdə istibdad və irticaya vasitəçilik edənlərin hakimiyyətlərini məhdudlaşdırmaq.
- Diktaturanın əsasları və qanunlarının kökünü kəsərək həqiqi konstitusiya hökumətinin tələblərini yerinə yetirməyə çalışmaq.
- Millətin gücünü bir araya cəmləşdirərək azadlıq fədailəri arasında birliyə nail olmaq uğrunda mübarizə aparmaq. (31)

Bu bəyanatı imzalayanların arasında 1943-cü ilin mayından etibarən Tehranda üç həftədən bir çıxan «Ajir» (Həyəcan) qəzetini nəşr etdirməyə başlayan Cəfər Pişəvəri də var idi. (32)

Azadlıq Cəbhəsinin Tehranda, həmçinin digər əyalətlərdə Tudə Partiyasını müdafiə etməsi nəticəsində partiya *Məclisdə* on iki deputatdan ibarət bir fraksiyanın yaradılmasına nail ola bildi. Lakin onların rəqibi, İngiltərəyönlü «*Fraksiyon-e Mihən*» (Vətən Fraksiyası) Seyid Ziya da daxil olmaqla iyirmi bir sadiq deputatdan təşkil olunduğu üçün parlamentdə daha böyük nüfuza malik idi. (33)

On dördüncü *Məclis* 1944-cü ilin 26 fevralında çağrılsa da rəsmi şəkildə fəaliyyətə yalnız üç həftədən sonra, martın 16-da başladı. Par-

lament fəaliyyət göstərdiyi iki il müddətində «7 Baş nazir, 9 kabinet və 110 kabinet üzvü formalaşdırmaqla»(34) İranın parlament təcrübəsi tarixində xüsusi nüfuz qazanmağa nail ola bilsə də, bir çox deputatların nəzərində keçmişin siyasi problemləri, xüsusilə də millətin suverenliyi və ərazi bütövlüyü məsələləri həll edilməmiş qaldı.

Yeni *Məclisin* ilk işi seçilmiş deputatların etimadnamələrinin yoxlanılması oldu. Parlamentdə yer tutmuş yüz otuz altı deputatdan ikisinə etiraz edildi ki, bu iki deputat da Təbrizdən seçilmiş Xoyi və Pişəvəri idi. Əslində, etimadnaməsi rədd edilən digər bir deputat da mövcud idi. Lakin həmin deputat parlamentdəki öz yerini seçkilərin ikinci mərhələsi keçirildiyi zaman möhkəmləndirə bildi. (35) On dördüncü *Məclisə* Təbrizdən doqquz deputat seçilmişdi: Xoyi, Pişəvəri, İsgəndəri, Sadiqi, Siqətül İslam, İpəkçiyan, Pənahi, Müctəhədi və Sərtipur. Bunların ən çox tanınmışları Xoyi və Pişəvəri idi. Xoyi və Pişəvəri 47780 səsdən müvafiq şəkildə 15883 və 15780-ni toplayaraq seçki siyahısında ən yüksək yerlərin sahibinə çevrilmişdilər. (36)

*Məclisdə*, çox qızğın keçən qeyri-adi iclasda iştirak edən doxsan doqquz deputatdan qırx səkkizi Xoyinin lehinə, qırx səkkizi isə əleyhinə səs verdi. Deputatlardan üçü isə səs verməkdən imtina edərək bitərəf mövqe tutdu. (37) On gün sonra, iyulun 13-də *Məclisdə* keçirilən iclasda Təbrizdən seçilmiş ikinci bir deputatın etimadnaməsinin yenidən nəzərdən keçirilməsi məsələsi qaldırıldı. Səsvermə üsulları ilə bağlı çoxsaylı müzakirələr aparıldıqdan sonra *Məclis* səsvermənin gizli yolla həyata keçirilməsi barəsində qərar qəbul etdi. Bu nəticəyə gəlinməsi *Məclisin* sol və liberal qanadı üçün olduqca dramatik bir hadisə oldu. Səsvermə zamanı yüz nəfərdən qırx yeddisi Pişəvərinin etimadnaməsinin təsdiq olunmasına tərəfdar çıxsa da, deputatların əllisi buna etiraz etdi. (38) Səslərin qanuniliyi ilə bağlı müzakirələr isə *Məclisdə* adi hal almış səs-küy və etirazların müşayiəti altında aparıldı. (39)

Növbəti gün «*Ajir*» qəzetinin səhifələrində böyük hərflərlə dərc olunmuş baş məqalədə bu məsələ öz əksini tapdı. Belə ki, məqalədə Tudə Partiyası tərəfdarlarının Təbriz deputatının rədd edilməsi ilə bağlı etirazları qəti və hədələyici bir dillə ifadə edilirdi: «Biz şadıq ki, zorakılıq, pul düşkünlüyü, riyakarlıq və yalanın təmsilçiləri olan nümayəndələr bizim əleyhimizə səs verərək bizi öz sıralarına daxil etmədilər. Biz bu xəyanətkar addımı sosial mübarizəyə qarşı aparılan irticanın

çoxsaylı təzahür şəkillərindən biri hesab edirik. Biz öz düşmənlərimizi obyektiv şəkildə, tərəfkeşliyə yol vermədən qiymətləndiririk. Lakin millət onları mühakimə edərkən qəddar, amansız və öldürücü olacaq. Bu gündən etibarən bizim sosial mübarizəmizə tariximizdə yeni bir səhifə başlayır. İftixar hissi ilə dolub-daşan bir səhifə ...»

Daha sonra, məqalədə seçici kütləsinin siyasi iradəsinin əksinə gedərək qanuni nəticələrin bir neçə şəxs tərəfindən ləğv edilməsinə şərait yaradan qeyri- demokratik mexanizm ön plana çəkilir: «Əlli fitnəkar səs hesabına Təbrizin ürəyiaçıq və dürüst əhalisinin 16000 səsini yox etdilər. Əslində, irticaçılar bu addımı atmaqla özlərinə çox böyük zərbə vurduqlarından və bizə yaxşılıq etdiklərindən xəbərsizdirlər. Həqiqətdə qələbə sayılan bu zahiri məğlubiyyət bizi irtica qüvvələrinə qarşı başlatmış olduğumuz *«cihad-e müqəddəsdən»* (müqəddəs müharibədən) geri çəkilməyə vadar edə bilməyəcək. Ümidsizlik və inamsızlıq aciz insanlar üçün səciyyəvidir. Millətin azadlıq sevgisi ilə yoğrulmuş övladlarının sarsılmaz birliyinin gücü və mətanəti, dözüm sahibi vətənpərvər mətbuatımız sayəsində biz qəddarlıq, zorakılıq, istibdad, xəyanət və riyakarlıq sarayını darmadağın edəcək, onun yerində İranın həqiqi milli azadlıq və konstitusiyaçılıq bayrağını yüksəldəcəyik. Biz belə küləklərdə yerindən oynamağa başlayan söyüd ağacına bənzəmərik. Bizim məqsədimiz və hədəfimiz ədalətsizlik və istibdadın kökünü kəsməkdən ibarətdir. Qələbəyə gedən yol yalnız döyüş, mübarizə və fədakarlıq meydanından keçir. Gələcək bizimdir. Vuruşmağa davam edək». (40)

Tudə Partiyasının parlamentdəki rəqibləri Xoyi və Pişəvərinin etimadnamələrinin rədd edilməsinə haqq qazandırmaq üçün onları xarici qüvvələrin müdaxiləsi sayəsində seçilməkdə günahlandırırdılar. (Bu, həmin günlərdə geniş yayılmış bir vasitə idi.)

Həqiqətən də, həm sovetlər, həm də ingilislər on dördüncü *Məclisə* keçirilən seçkilərə mümkün qədər müdaxilə etmək üçün əllərindən gələni edirdilər. Lakin onlar buna hər zaman tamamilə müvəffəq ola bilmirdilər: «Cənub zonasının bəzi bölgələrindəki sağ qanad tərəfdarı olan farslar Rusiyanın dəstəklədiyi namizədlərin müqaviməti ilə rastlaşmalarına baxmayaraq, seçkilərdə qələbə qazana bildilər. Tudə Partiyası cənub bölgəsindəki bütün namizədlərinin Rusiya tərəfindən müdafiə olunacağını ümid edirdi və həqiqətən də bir çox hallarda ruslardan dəstək görürdü. Lakin rusların o vaxtkı siyasətinin hər hansı bir partiyanı

bütövlükdə müdafiə etməyə yol vermədiyini göstərən bir çox digər hallar da mövcud idi. İngilislər seçkilərə müdaxilə etməkdə heç də geri qalmırdılar. Lakin ingilislərin bu dəstəyi əsasən müəyyən bir bölgədəki nüfuzlu şəxslərə məsləhət vermək kimi metodlarla məhdudlaşırdı. (41)

Bu baxımdan, Azərbaycanda keçirilən seçkilər də istisna təşkil etmirdi. On dördüncü *Məclisin* İranın taleyini müəyyən edəcəyinə inanan Tudə Partiyası ilk olaraq Təbriz üzrə altı nəfərdən ibarət namizədlər siyahısını təqdim etdi. Namizədlikləri irəli sürülən şəxslər bunlar idi: Əli Əmir Xizi, Cəfər Pişəvəri, Rəhim Həmdad, Ağazadə Şahin, Əhməd İsfahani və Əbdülqasım Musəvi. (42) Rəqib siyasi düşərgədə isə hadisələrin öz maraqlarına uyğun şəkildə irəliləyə bilməsi naminə böyük məbləğdə pul xərcləyərək *Məclisin* toxunulmazlığına nail olmağa çalışan Gurabçı, Kalkutaçı və Xoyi kimi bir sıra mənfəət güdən sənayeçilər mövcud idi. (43) İngiltərənin Təbrizdəki baş konsulu iki siyasi qrupun qarşı-qarşıya dayandığı mövcud sosial mühit barəsində izahat verərkən öz fikirlərini aşağıdakı şəkildə yekunlaşdırırdı: «Kəndlərdə hələ də mühafizəkar düşüncələr hökm sürür. Belə ki, burada şəhər proletariatında olduğu kimi, siniflərlə bağlı ictimai şüur hələ tam formalaşmayıb. Bir neçə istisnanı nəzərə almasaq, tacirlər təbəqəsinin əksəriyyətinin inkişafın tələblərinə uyğun olaraq vergi ödəmək və sosial qanunvericilik tərəfindən məhdudlaşdırılmaq arzusunda olmadığını deyə bilərik». (44)

İran hökuməti Təbrizdə keçiriləcək seçkilərin nəticələri barəsində son dərəcə narahat idi. Belə ki, seçkiləri təxirə salmaqla hökumət Təbriz valisinin vasitəçiliyi ilə öz namizədlər siyahısı olan Sovetlərlə barışığa getməyə nail olmağı ümid edirdi. (45) İpəkçiyan, Maşinçi və Pişəvəri Sovetlər tərəfindən müdafiə olunan namizədlər idi. Onlardan təkcə Pişəvəri eyni zamanda Tudə Partiyasının seçki siyahısına da daxil idi.

Nəhayət ki, martın 2-də Təbrizdə seçkilər başlandı. Bu seçkilər on səkkiz gün davam etdi. Şəhərdəki yeganə səsvermə məntəqəsi valinin qərargahında yerləşirdi ki, bu məntəqə də zavodlarla eyni vaxtda bağlanırdı. (46) Vali tərəfindən həyata keçirilən bir sıra bu kimi tədbirlər Tudə Partiyasının seçkilərin keçirilmə üsullarına etiraz etmələrinə səbəb oldu. (47) Digər tərəfdən, Tudə Partiyasına müxalif olan namizədlər öz rəqiblərini nüfuzdan salmaq üçün yorulmadan Pişəvərini dövlət və millətə qarşı cinayətlər törətmiş keçmiş siyasi məhbus kimi qələmə

verirdilər. Onlar xüsusilə, Baş nazir və Məclisdən onun etimadnaməsini qanuni olaraq qəbul etməməyi tələb edirdilər. (48)

Əslində, on dördüncü *Məclis* Tudə Partiyasının azərbaycanlı namizədlərinə qarşı var gücü ilə hərəkətə keçməkdə heç də tərəddüd etmədi. Təbrizdən seçilən doqquz deputatdan ikisinin səlahiyyətlərinə etiraz edilməsinə dair verilmiş qərar *Məclisin* birtərəfli mövqeyini nümayiş etdirirdi. Əslində, deputatlara qarşı irəli sürülən bütün bu ittihamlar ayrı-ayrı namizədləri nüfuzdan salmaq məqsədi daşımaqdan daha çox seçkilərin keçirildiyi ümumi şəraitlə əlaqədar idi. Daha sonra, Müsəddiqin də qeyd etdiyi kimi, *Məclisin* bu hərəkətinə heç bir şəkildə bəraət qazandırmaq olmazdı. Çünki seçki qaydaları bütün deputatlar üçün eyni olmalı idi. (49)

### *On dördüncü Məclisin yaşama müddəti, ölkənin rifahı və əmin-amanlığı məsələsi*

Yeni *Məclis* 1944-cü ilin 26 fevralında rəsmən toplandı. Bu vaxtdan üç həftə keçməmiş Süheyli öz vəzifəsindən istefa verdi. Süheylidən sonra boş qalan Baş nazir vəzifəsinə altmış doqquz yaşlı azərbaycanlı diplomat Səid keçdi. Rusiyada təhsil alaraq daha sonra, Moskvada İranın səfiri kimi xidmət göstərən Səid xüsusilə Sovetlərin xarici siyasətinə yaxşı bələd olduğundan hər cəhətdən bu iş üçün uyğun idi. Lakin İran və Sovet İttifaqı arasındakı əlaqələrin qənaətbəxş vəziyyətə salınması uğrunda səkkiz ay daim mübarizə aparan Səid nəticədə məğlubiyyəti qəbul edərək öz vəzifəsini tərk etdi. Səkkizaylıq Baş nazirliyi müddətində Səidi və onun rəhbərliyi ilə yaradılmış dörd ayrı hökumət kabinetini ən çox narahat edən şey şimal qonşularının yeni tələblərinin öhdəsindən necə gəlinməsi məsələsi idi.

Hələ Süheyli istefaya getməyə hazırlaşarkən İngiltərənin Şell, Amerikanın Sdandart Vakium və Sinklar Oyl şirkətlərinin nümayəndələrinin Tehrana səfər edəcəyi barəsində məlumatlar yayılmağa başlamışdı. Daha sonra, məlum olduğu kimi, bu səfərin əsas məqsədini müstəsna hüquqa malik ingilis-fars birləşmiş neft şirkəti tərəfindən istismar edilən neft yataqlarının mövcud olduğu İranın cənub bölgəsində tədqiqat aparılması və neft çıxarılması ehtimalının araşdırılması təşkil edirdi. (50) Səid hökumətinin bu məsələyə dair ilkin münasibəti heç də mənfi və

ya çox da ehtiyatlı deyildi. Hökumət iki amerikalı müşaviri bu şirkətlərin təkliflərini nəzərdən keçirmək üçün vəzifələndirməklə heç bir tədbir tökmədən əməkdaşlıq etmək niyyətində olduğunu nümayiş etdirirdi. (51) Lakin əsasən bu məsələ ilə məşğul olan *Məclisin* qızğın bir sessiya keçirməsi hökumətin bu istəyinə heç də asanlıqla nail olmayacağını göstərirdi.

*Məclisdə* bir deputatın hökumətin bu məsələdəki məxfi mövqeyi barəsində tənqidi qeydlər etməsi ilə Tudə Partiyasının *Məclisdəki* səkkiz nəfərlik fraksiyasının aparıcı üzvü Rədmaneş ayağa qalxaraq neft güzəştləri ilə bağlı öz partiyasının siyasətini bu şəkildə açıqladı: «Mən bütün yoldaşlarım kimi xarici ölkələrə güzəştlər edilməsinin tamamilə əleyhinəyəm. Mən əminəm ki, İran necə ki, özü ölkənin dəmir yollarının inşa edilməsinə qadirdir, eyni şəkildə də xalqın dəstəyi ilə öz vəsaiti hesabına ölkənin sərvəti olan təbii ehtiyatlarını çıxarmaq iqtidarındadır». (52)

Belə tez bir vaxtda Tudə Partiyasının bu məsələ ilə bağlı mövqeyi bundan daha açıq bir şəkildə bəyan edilə bilməzdi. Lakin bir ay sonra Sovet nümayəndə heyəti İran hökumətinə yenidən eyni tələblərlə müraciət etdikdə, həm Tudə Partiyasının rəhbərliyi, həm də Baş nazir Səid öz siyasi mənsəbləri baxımından son dərəcə həlledici olacaq bir qərarın verilməsi ilə qarşı-qarşıya qaldı. Bu an xüsusilə, Tudə Partiyasının tarixində dönüş nöqtəsini təşkil edirdi.

1944-cü ilin 15 sentyabrında Sergey Kavtaradze Sovet neft nümayəndə heyətinin başçısı kimi uzunmüddətli səfər üçün Tehrana gəldi. (53) Mətbuat konfransında Kavtaradze öz hökumətinin İranın cənub bölgələrində neft güzəştləri əldə etməyə dair tələbləri ilə bağlı görüşlərini çox açıq şəkildə bəyan etdi. Belə ki, istismar edilməsi nəzərdə tutulan coğrafi ərazilərə Azərbaycan, Gilan, Mazandaran və Xorasanın bir hissəsi daxil idi. (54) Sovetlərin bu istəklərinə nail ola bilmək üçün atdığı ilkin addım Səid hökuməti ilə birbaşa danışıqlara başlamaq oldu. Qəti mövqe tutmaqda tərəddüd edən Səid isə *Məclis* daxilində mövcud olan çətinlikləri bəhanə edərək sadəcə «gözlə və gör» siyasətini qəbul etməyə üstünlük verdi.

Bu arada Sovetlər bütün diqqətlərini İran hökumətinə təzyiq etməyə yönəltdilər. Bu məqsədlə onların həyata keçirdiyi tədbirlərdən biri də Tudə Partiyasına neft güzəştləri ilə bağlı öz mövqeyini dəyişərək

Sovetlərin siyasətini müdafiə etmək xahişi ilə müraciət etmələri oldu. Tudə Partiyasının rəsmi qəzetində dərc olunan bir sıra baş məqalələrdə partiyanın əvvəlki dəyişməz mövqeyinin daha müəmmalı və ikimənalı münasibətlə əvəz olunduğu müşahidə edilirdi. Belə ki, hər bir konsessiyanın tərkibinin və qəbul edildiyi şəraitin yenidən həmin məqalələrdə nəzərdən keçirilməsi bunu sübut edirdi. (55)

Tudə Partiyasının Sovet İttifaqına neft güzəştlərinin verilməsi ilə bağlı nümayişlər edilməsinə heç bir etiraz etmədən razılıq verməsi partiyanın ictimaiyyət arasındakı nüfuzu baxımından ən fəlakətli hal sayılırdı. (56) Belə ki, 1944-cü ilin 27 oktyabrında Tehranın küçələrində Sovet qoşunlarının himayəsi altında nümayişlər keçirilməyə başladı. Bu hadisələrdə Sovetlərin iştirakı isə həm Tudə Partiyasının, həm də ümumiyyətlə, İrandakı kommunist hərəkatının siyasi gələcəyi baxımından olduqca faciəli oldu. Tudə Partiyası hələ iki ay əvvəl, birinci qurultayının sonunda xarici konsessiyalara qarşı kəskin etirazını bu sözlərlə bəyan etmişdi: «Bizim partiyamız ölkənin müstəqilliyini zəiflədən və eyni zamanda milləti iqtisadi əsarətə düçar edən bu konsessiyaların qəti əleyhinədir».(57)

O vaxt Tudə Partiyasının bütün bu bəyanatları partiyanın şöhrətinin artmasına, xüsusilə də ziyalı təbəqəsi arasındakı nüfuzunun çoxalmasına səbəb olmuşdu. Partiya özünün əvvəlki mövqeyindən uzaqlaşmaqla ziyalı təbəqəsinin əksəriyyətinin dəstəyindən dərhal məhrum oldu. (58) Partiyanın rəhbərliyi uzun müddət partiyanın mövqeyindəki dəyişikliyə haqq qazandırmağa çalışsa da, buna nail ola bilmədi. Belə ki, Tudə Partiyasının veteran rəhbərləri bu yaxınlarda nəşr olunmuş xatirələrində də öz hərəkətlərinin faciə ilə nəticələnməsini etiraf edirdilər. (60)

Tudə Partiyasının nümayişindən iki gün keçdikdən sonra Müsəddiq *Məclisdəki* geniş nitqində Tudə Partiyasının Sovetlərə neft güzəştləri verilməsi ilə əlaqədar olaraq gətirdiyi dəlillərə dair öz qəti etirazını bildirdi. Tudə Partiyası belə hesab edirdi ki, Britaniyaya İranın cənubunda neft güzəştləri verildiyindən Sovetlərə də şimalda bənzər güzəştlərə getmək lazım idi. Onların fikrincə, iki dövlət arasındakı müvazinəti saxlaya bilmək üçün bu addımı atmaq zərurət təşkil edirdi. Konsessiyanın hər hansı növünü rədd edən Müsəddiq isə heç kimə güzəştə getməmək yolu ilə müvazinəti saxlamaq mənasını verən «*Movazeneh-e Mənfi*» (Mənfi tarazlıq) anlayışını «*Movazeneh-e Mosbətə*» (Müsbət tarazlığa) alternativ kimi irəli sürərək sonuncu ilə bağlı belə açıqlama

vermişdi: «İran milləti siyasi tarazlıq arzusundadır. Lakin bu tarazlıq elə olmalıdır ki, ölkə ondan faydalana bilsin. İran milləti heç bir zaman müsbət tarazlıqla razılaşmayacaq. Mən *Məclisə* daxil olduğum ilk gündən etibarən müsbət tarazlıq nöqteyi-nəzərindən 1941-ci ilin avqustundan sonra xarici dövlətlərlə gəlinən bütün maliyyə razılaşmalarının və verilən bütün vədlərin qəti əleyhinəyəm». (61)

Səidin yürütdüyü qeyri-müəyyən və ikibaşlı siyasətdən heç də razı qalmayan Sovetlər öz məqsədlərini həyata keçirməyin yeganə yolunu daha çox təzyiq göstərə biləcəklərini ümid etdikləri yeni bir hökumətin yaradılmasında görürdülər. Səidin başçılıq etdiyi hökumət Sovet təsiri qarşısında böyük zəiflik nümayiş etdirdiyindən Baş nazir Səid *Məclisin* əksəriyyəti tərəfindən müdafiə olunmasına baxmayaraq, 1944-cü ilin 11 noyabrında öz vəzifəsindən geri çəkildi. (62)

İngilislərin Səidin istefasına göstərdikləri münasibət heç də gözlənilməz olmadı. İngilislərin Xarici İşlər Nazirliyi belə hesab edirdi ki, fars hökuməti ölkənin şimalındakı bütün neft yataqlarının Rusiyaya verilməsinə məcbur edildiyi təqdirdə böyük ehtimalla cənubda da neft güzəştləri təbii olaraq ABŞ hökumətinin maraqlarını təmin edəcək şəkildə bir amerikan şirkətinə veriləcək. (63) Belə bir vəziyyət isə «zati alilərinin hökumətinin regiondakı maraqlarını» təhlükə altında qoya bilərdi. Beləliklə, Britaniya Xarici İşlər İdarəsi İngiltərə hökumətinin «İranda Səidin neft güzəştləri ilə bağlı yeritdiyi siyasəti eynilə davam etdirəcək yeni Baş nazirin təyin olunması» barədə istəyini bəyan etmək üçün İngiltərənin Tehrandakı səfiri cənab Rider Ballarda göstəriş verdi. (64)

Sovetlərin Səidin istefasını sevinclə qarşıladığı şübhə doğurmur. Son dərəcə aydındır ki, bu məqsədə çatmaq onların yeni işğalçı hücum siyasətinin mərkəzində dayanırdı. Lakin hadisələrin gedişatından da məlum olduğu kimi, Sovetlər Səidi bu vəzifədən uzaqlaşdırmaqla çox şey qazanacaqlarına olduqca ümidlə baxır və bu məsələyə həddən artıq nikbinliklə yanaşırdılar. Əslində isə Səidin istefa verməsi İranda siyasi mübarizəyə və fitnə-fəsadlara xitam vermədi, əksinə qeyri-sabitlik dövrünün başlanğıcını qoydu.

1944-cü ilin 25 noyabrından etibarən Baş nazir vəzifəsini Bayat yerinə yetirməyə başladı. O, yüksək təbəqəyə mənsub ailədən olub uzun müddət *Məclisdə* deputatlıq etmişdi. Bayatın qısamüddətli hakimiyyətinin hələ ilk günlərində, *Məclisin* onun təklif etdiyi kabinet proqramını

müzakirə etdiyi bir vaxtda Müsəddiq hökumət qarşısında xaricilərə hər hansı bir neft güzəştinin verilməsi qadağasını qoyan məşhur qanun layihəsinin *Məclisdən* keçməsinə müvəffəq ola bildi. Bir həftə sonra, dekabrın səkkizində isə Sovet neft nümayəndə heyətinin başçısı Kavtaradze *Məclisin* verdiyi bu qanunu düşünülməmiş və qeyri-məntiqi hesab etdiyindən İrandakı uzunmüddətli səfərini başa vuraraq Sovet İttifaqına geri qayıtdı.

Tudə Partiyasının Müsəddiqin əleyhinə başlatmış olduğu kampaniya uzun müddət davam etmədi. (Tudə Partiyası onu hətta ingilis maraqlarına xidmət etməkdə günahlandırırdı.) (65) Tudə Partiyası neft güzəştləri ilə bağlı mövqeyinin hətta öz sıralarında belə narazılığa səbəb olduğunun fərqinə vardığı andan etibarən partiyaya məxsus müxtəlif orqanlar və əlaqədar qəzetlər əsas diqqətlərini konstitusiyanın mövcudluğu şəraitində ölkənin rifahı və birliyi məsələsinə yönəltməyə başladılar. Konstitusiyaya əlavələrdə öz əksini tapmış, lakin rədd edilmiş «*Əncümənha-ye Əyaləti və Velayəti*» («Əyalət və vilayət şuraları») ilə bağlı 90– 93-cü maddələrinin həyata keçirilməsi məsələsi isə bu kampaniyanın irəli sürdüyü ən mühüm tələbi təşkil edirdi.

Kampaniya müddətində baş redaktorluğunu Pişəvərinin etdiyi «*Ajir*» qəzetinin aparıcı yerdə durması heç də təəccüblü deyil. Belə ki, Pişəvəri Azərbaycan üzrə deputat seçilmiş olmasına baxmayaraq, *Məclis* tərəfindən qanuni deputat olaraq tanınmamışdı. Yuxarıda adları çəkilmiş maddələrin həyata keçirilməsi çağırışı ilə xalqa müraciət edərək əyalət və vilayətlərin öz yerli şuralarına sahibolma haqqını müdafiə edən bu qəzet konstitusiyaya olan bağlılığını nümayiş etdirməklə bərabər, eyni zamanda bu şuralara himayədarlıq etməklə *Məclisin* özünə alternativ yaratmağa cəhd göstərirdi. «*Ajir*» qəzetinin redaktorlarından biri olan Kərim Keşavərz «*Əncümənha-ye Əyaləti və Velayəti Borandehtərin Selah-e Mobareze ba Əfkar-e Təcziye-Tələbi*» («Əyalət və vilayət şuraları bölücülüyə qarşı mübarizənin ən təsirli silahı») adlı məqalədə Seyid Ziya Təbatəbainin partiyasını cənub tayfaları arasında bölücülük ruhlu təhrikçilik və qızışdırma siyasəti aparmaqda günahlandıraraq aşağıdakıları bəyan etmişdi:

«Konstitusiyaya əməl etmək ədalətli və insaflı olmaq, bilik və mədəniyyətin yayılmasına imkan yaradacaq qanunlar tətbiq etmək, insanlar üçün yaxşı maddi vəziyyət yaratmaq, onları yerli işlərin idarə olunma-

sında və nəzarətində iştirak etməyə cəlb etmək deməkdir. Bu tədbirlər müntəzəm şəkildə həyata keçirildiyi təqdirdə nəinki separatizmin yayılmasının qarşısı alına bilər, hətta bu yolla sözün əsl mənasında müstəqil, bölünməz, azad, güclü və demokratik bir İran yaradıla bilər».(66)

Tudə Partiyasının *Məclisdəki* fraksiyası da diqqəti «İranın milli birliyi» məsələsinə yönəldə bilmək üçün bütün imkanlardan istifadə etməyə başlamışdı. Belə ki, fraksiyanın üzvləri İranın milli birliyinə yalnız tam, suveren İran hökumətinin konstitusiyanın tələblərini yerinə yetirdiyi təqdirdə nail oluna biləcəyinə inanırdılar. (67) Lakin İran konstitusiyaçılığının əsaslarına olan bu möhkəm və sarsılmaz bağlılıq təzəcə Tudə Partiyası üçün əsas meyarlardan birinə çevrilmişdi ki, Baş nazir vəzifəsi Sədr əl-Əşrəfə həvalə olundu.

Əksər müşahidəçilər Bayatın Baş nazir vəzifəsini yerinə yetirdiyi beşaylıq müddəti İranda «siyasi demokratiyanın» qızıl dövrü kimi dəyərləndirirlər. Belə ki, onun hakimiyyəti dövründə ölkənin bəzi hissələrinin xarici işğal altında olması və hərbi vəziyyət elan edilməsinə baxmayaraq, siyasi partiyalar və ticarət ittifaqları misli görünməmiş ölçüdə azadlığa malik idilər. Onlara kütləvi şəkildə yığıncaqlar və hətta tətillər təşkil etmək azadlığı verilmişdi. Mətbuat ciddi senzura qorxusu olmadan istənilən mövzuda yazmaq imkanına sahib idi. Başqaları kimi Tudə Partiyası da bu açıq siyasi mühitdən yararlanırdı. Buna baxmayaraq, partiyanın keçmiş rəhbərlərindən biri bu yaxınlarda nəşr olunan xatirələrində Tudə Partiyasının siyasi dözümlülük nümayiş etdirən mövcud mühitdən lazımınca faydalana bilmədiyini qeyd edir: «Bayatın hakimiyyətdə olduğu müddətdə Tudə Partiyası bütün digər hökumətlərlə müharibə vəziyyətində keçirmiş olduğu illər ərzindəki ən parlaq və ən azad dövrünü yaşadı. Partiyanın qəzetlərinə və ümumiyyətlə, bütün mətbuata indiyə kimi görünməmiş azadlıq verilmişdi. Belə ki, qəzetlər ordu və saray da daxil olmaqla istənilən hakimiyyət dairəsinin fəaliyyəti ilə bağlı halları üzə çıxararaq yaza bilərdi. Çox təəssüf ki, partiyamız bu azadlıqdan kifayət qədər yararlana bilmədi. Partiya Bayatın hökumətinin saxlanılması uğrunda mübarizə aparmalı olduğu halda, əksinə bu hökumətin süqutunun labüdləşməsinə müəyyən dərəcədə imkan yaratmış oldu».(69)

Beşaylıq hakimiyyəti dövründə Bayatın konstitusiyaya olan sarsılmaz bağlılığı və bu məqsədlə həyata keçirməyə hazırlaşdığı bir sıra qəti tədbirlər çoxsaylı hakim qüvvələrin onun əleyhinə səfərbər olmasına

rəvac verdi. (70) Hətta əvvəllər bir-birilə barışmaz rəqabət aparan saray və Seyid Ziya Təbatəbainin rəhbərlik etdiyi sağ qanad partiyaları mövcud ziddiyyət və fərqliliklərini aradan qaldıraraq Bayata qarşı birləşmək niyyətində idilər. Beləliklə, 1945-ci ilin 17 aprelində Bayatın baş nazirliyi başa çatdı. Lakin bunun səbəbi onun əvvəlki nazirlər kimi öz vəzifəsindən istefa etməsi ilə yox, *Məclisdə* səsvermə zamanı ona etimad göstərilməməsi ilə əlaqədar idi. Doxsan deputatdan yalnız qırx dördü onun lehinə səs vermişdi ki, bu da yetərli deyildi. Xameyinin də qeyd etdiyi kimi, *Məclisin* Bayata etimadsızlıq göstərməsi və onun baş nazirliyinə qabaqkı nazirlərlə bağlı hallarda olduğu kimi, könüllü olaraq istefa verdiyinə görə deyil, həmin etimadsızlıq qərarına əsasən son verilməsi olduqca qeyri-adi və anlaşılmaz görünürdü: «Müsəddiq hökuməti istisna edilmək şərtilə Bayatın əlli üç illik Pəhləvi hakimiyyəti dövründə mövcud olan ən mütərrəqqi və ən müsbət hökumətə Baş nazirlik etdiyini söyləmək olar. O, siyasi səhnəyə böyük cəsarətlə daxil oldu, bir sıra çox əhəmiyyətli nailiyyətlər əldə etdi, hökuməti konstitusiyaya uyğun şəkildə idarə etdi, özünü qəhrəmancasına müdafiə etdi və məğlub oldu. O həm də *şəhrivər* ayından sonra, yəni Rza şahın 1941-ci ilin 16 sentyabrında öz səlahiyyətlərindən əl çəkməsindən sonra, istefaya getməyi qəbul etməyərək *Məclisin* etimadsızlıq qərarına əsasən vəzifəsindən uzaqlaşdırılan ilk Baş nazir idi».(71)

Bayatın hakimiyyətdən getməsinin ilk günündən etibarən onu əvəz edəcək münasib şəxsin axtarışı üçün bütün imkanlar işə salındı. Baş nazirlik üçün uyğun namizədin təqdim olunması *Məclisin* iki həftəsini alsa da, yeni Baş nazir bu vəzifədə dörd həftədən artıq qala bilmədi. Belə ki, Azərbaycanda böyük nüfuza sahib, hökumətdə uzun illər çalışan təcrübəli İbrahim Hakimi 1945-ci ilin 3 iyununda Baş nazir seçilməsinə baxmayaraq, öz səlahiyyətlərindən istifadə etmək imkanını əldə etmədən parlament palatasını tərk etdi. Əslində, Hakiminin baş nazirliyi Bayatın konstitusiyayönlü hökumətindən sonra mühafizəkarların yaxın gələcəkdə «güclü şəxs» hökuməti yaratmaqla bağlı məqsədlərinin həyata keçirilməsinin asanlaşdırılması üçün nəzərdə tutulmuş, heç bir rolu olmayan müvəqqəti baş nazirlikdən başqa bir şey deyildi.

Şah və Təbatəbainin tərəfdarlarından ibarət sağ qanad koalisiyası Baş nazir vəzifəsi üçün elə bir «güclü» namizəd irəli sürmək istəyirdi ki, o, qarşıdan gələn on beşinci *Məclis* seçkilərinə sədrlik edərək seç-

kilərin öz maraqlarına xidmət edəcək şəkildə keçirilməsinə nail ola bilsin. Beləliklə, çoxlarının nifrətini qazanmış yetmiş dörd yaşlı köhnə dindar, mühafizəkar siyasətçilərdən olan Möhsün Sədr (Sədr əl-Əşrəf) bu vəzifəyə namizəd göstərildi. Möhsün Sədr 1908-ci ilin iyunundan 1909-cu ilin iyuluna qədər davam edən və «*Estebdad-e Səğir*» (Qısamüddətli istibdad) kimi dəyərləndirilən dövrdə, Məhəmməd Əli Mirzənin göstərişinə əsasən çox sayda konstitusiyaçıların ölümə məhkum edilməsi ilə nəticələnən məhkəmələrin aparıldığı bir vaxtda Ədliyyə şöbəsində hakim olaraq çalışmışdı.

Sədr əl-Əşrəf bu məhkəmələrdə iştirak etməsi ilə bağlı ittihamları qətiyyətlə inkar etsə də, (72) onun düşmənləri, xüsusilə də Tudə Partiyası Sədr əl-Əşrəfi nüfuzdan salmaq və rüsvay etmək məqsədilə hər fürsətdə onun Ədliyyə şöbəsindəki keçmiş fəaliyyətini xatırladır və onu «*Cəllad-e Bağ-e Şah*», yəni «Şah bağının cəlladı» adlandırırdılar. (73)

Sədr əl-Əşrəf hakimiyyətə gəldiyi ilk andan etibarən güclü müxalifətlə üzləşdi. Belə ki, Müsəddiqin başçılıq etdiyi əlli dörd deputatdan ibarət bir qrup *Məclisdə* qalmaqal yaratmaqla parlament iclasını pozmaq və beləliklə də öz hökumət kabinetini təqdim etmək üçün Sədrə gərəkli olan yetərsayın *Məclisdən* keçməsinə mane olmaq barəsində qərarlı idi. Bu qalmaqal otuz beş gün davam etdi və yalnız Baş nazirin hökumət kabinetinin *Məclisə* təqdim olunmasından dərhal sonra istefa edəcəyinə dair söz verməsi ilə başa çatdı. (74) Lakin Sədr əl-Əşrəf bu vədinə əməl etmədi.

Sədr əl-Əşrəfin əleyhinə apardığı təbliğat kampaniyasını davam etdirən Tudə Partiyası Sədr hökumətini istibdadın və konstitusiyaya zidd hərəkatın dayağı kimi səciyyələndirir, özünü isə İran konstitusiyaçılığının həqiqi keşikçisi və konstitusiyanın əsaslarının yenilməz müdafiəçisi kimi qələmə verirdi. Məşrutə inqilabının qırxıncı ildönümünün keçirilməsi Tudə Partiyasının rəhbərlərinə öz sədaqət və dürüstlüklərini nümayiş etdirmələri və bu mövqelərini ictimaiyyətə çatdırmaları üçün şərait yaratdı. Belə ki, 1945-ci ilin 5 avqustunda Tudə Partiyası Məşrutə inqilabının ildönümünü qeyd etmək üçün kifayət qədər tərəfdarlara sahib olduğu şəhərlərdə kütləvi yığıncaqlar və küçə nümayişləri təşkil etdi. Tudə Partiyasına rəğbət bəsləyən on minlərlə tehranlı şəhərin küçələrinə axışaraq bir-birinin ardınca gələn hökumət kabinetlərinin zəruri islahatları həyata keçirməməsinə etiraz edirdilər. Bu nüma-

yişin sonunda isə, İrəc İsgəndəri digər məsələlərlə yanaşı, Tudə Partiyasının əyalət və vilayət şuralarının təsis olunmasını tələb etdiyini özündə əks etdirən qərarnaməni oxuyaraq bu kimi orqanların yaradılmasının konstitusiya inqilabının nailiyyətlərinin ayrılmaz hissəsini təşkil etdiyinə olan inanclarını dilə gətirmişdi.(75)

Tudə Partiyasının müqavimət hərəkatının öhdəsindən gələ biləcəyi ümidi ilə mühafizəkarlar tərəfindən hakimiyyətə gətirilən Sədr hökuməti indi həmin tərəfin gündən-günə artan güclü qarşıdurması ilə üzləşməli olmuşdu. Əslində, Tudə Partiyasının 5 avqustda keçirmiş olduğu nümayiş partiyanın 1945-ci ilin əvvəllərindən etibarən başlatdığı hədələyici siyasi kampaniyaya sadəcə bir misal olaraq göstərilə bilər. Almaniyanın 1945-ci ilin 7 mayında təslim olması ilə antifaşist partiyası kimi yaradılan və beşillik siyasi fəaliyyəti müddətində Roma – Berlin – Tokio oxunun məğlubiyyətini səbirsizliklə gözləyən Tudə Partiyası gələcəyin inam və ümid vəd etdiyinə, eyni zamanda partiyanın öz siyası fəaliyyətinin çiçəklənmə dövrünə daxil olduğuna inanmağa başladı. Eyni şəkildə, İngiltərədə 1945-ci ilin iyulunda İşçi Partiyası hakimiyyətə gəldiyi zaman Tudə Partiyası böyük sevinc nümayiş etdirərək bu hadisəni partiyanın qərargahında bayram etmişdi. İngiltərənin Baş naziri Klement Etliyə ünvanlanmış məktubda isə Tudə Partiyası İranda demokratiyanın bərqərar edilməsində İngiltərənin yeni hökumətindən dəstək görəcəklərinə ümidlə baxdıqlarını ifadə edirdi. (76)

Lakin Tudə Partiyasının salnaməsindəki bu uğurlu günlərin ömrü olduqca az oldu. Belə ki, hökumət partiyanın fəaliyyətini məhdudlaşdırmaq üçün bütün tədbirlərə əl atmaq və beləliklə də gələcəkdə ölkənin siyasət üfüqündə «lənətlənmiş qara gəminin» görünmə ehtimalının qarşısının alınmasını sığorta altına almaq qərarına gəldi. Hakimiyyətdən geri çəkilmək vədinə əməl etməyən Sədr əl-Əşrəf *Məclisə* öz təklifini təqdim etdi. O, İran torpaqlarında xarici qoşunların və onların bazalarının saxlanıldığı müddət ərzində parlament seçkilərinin təxirə salınmasını təklif edirdi. Həmişə olduğu kimi, bu dəfə də hökumətin parlament seçkilərinə müdaxilə etməsindən faydalanan yenə sağ qanad partiyaları oldu. İranın şimalında Sovet qoşunlarının mövcudluğu şəraitində Sədr əl-Əşrəfin bu təklifi irəli sürməsinin Tudə Partiyası və onun müttəfiqlərinin mümkün Sovet müdaxiləsindən yararlanmasının qarşısının alınması məqsədi daşıdığı son dərəcə açıq idi. (77)

23 avqustdan başlayaraq hökumətin Tudə Partiyasına qarşı hücumları daha da gücləndi. Belə ki, həmin gün partiyanın «*Rəhbər*» adlı qəzeti Tehranın hərbi komendatlığının göstərişinə əsasən bağlandı. Dörd gün sonra isə Tudə Partiyasının Tehrandakı qərargahı hökumətə məxsus silahlı qüvvələr tərəfindən zəbt olundu. Tudə Partiyasının deputatlarının hələ də parlamentdəki yerlərinə sahib olduqlarını nəzərə alsaq, partiyanın qərargahının zəbt olunması son dərəcə təəccüb doğurucu idi.

İranın mərkəz və cənub bölgələrində hökumətlə müxalif qüvvələr arasındakı bu kimi toqquşmalar davam etdiyi bir müddətdə İranın şimalının, xüsusilə də Azərbaycanın qarmaqarışıqlıq içərisində çalxalandığı xəbəri artıq paytaxtı narahat etməyə başlamışdı.

### *Azərbaycan ayağa qalxmağa hazırlaşarkən*

İran ordusunun Urmiyanın yaxınlığındakı Quşçu kəndində Sovet qoşunlarına cüzi də olsa müqavimət göstərməsi istisna edilmək şərtilə Sovetlərin 1941-ci ilin avqustunda Azərbaycanı işğal edərkən heç bir ciddi maneə ilə üzləşmədikləri söylənilə bilər. (78) Bir aydan qısa bir müddətdə Sovetlər İran torpaqlarında, Araz çayından başlayaraq Qəzvin yaxınlığındakı Şərifabad adlı kəndə qədər şərq istiqamətində uzanan geniş bir ərazidə 40000 əsgərini yerləşdirdi. (79) Azərbaycan təxminən beş il Sovet işğalı altında qaldı. Belə ki, sonuncu sovet əsgəri yalnız 1946-cı ilin mayında sərhədi keçərək öz vətəninə qayıtmışdı. Sovet işğalı altında keçirilən həmin beş il Azərbaycanın müasir tarixinin ən böhranlı dövrünü təşkil edirdi.

İranın başqa bölgələrində olduğu kimi, Azərbaycan da II Dünya müharibəsi illərində iqtisadi cəhətdən böyük maneə və çətinliklərlə üzüzə qaldı. Belə ki, tezliklə ölkədə zəruri ərzaq məhsulları qıtlaşmağa başladı. Ölkəni bürüyən bu ərzaq çatışmazlığı çox zaman əhalinin aclıq çəkməsinə və bir sıra epidemiyaların yayılmasına səbəb olurdu. Hələ 1942-ci ilin yanvarında Təbriz şəhərində 220000 sakini əhatə edən dəhşətli çörək qıtlığı meydana gəldi.(80) Çörək yerli əhalinin əsas ərzaq məhsulu hesab olunsa da, çörəkxanalarda çörək əvəzinə kartof satılmağa başlanılmışdı.(81) 17 martda qəzəblənmiş xalq küçələrə axışaraq böyük izdiham və hiddətlə valinin qərargahına doğru yürüş etdi. Onlar «Biz acıq!», «Çörək istəyirik!» və s. bu kimi sözlərlə öz tələblərini dilə gətirirdilər.(82)

Ümumiyyətlə, 1943-cü ilin hesablamalarına görə, bütün ölkədə ərzaq bahalığı 1941-ci illə müqayisədə dörd dəfə artmışdı. (83) Azərbaycan isə iqtisadi cəhətdən daha ağır vəziyyətdə idi. Belə ki, Azərbaycanın o vaxtkı iqtisadiyyatından bəhs edən bir hesabatda deyilirdi: «Ümumiyyətlə, ticarət və kommersiya fəaliyyəti olduqca məhduddur. Təzə tədarüklərin əldə edilməsində meydana çıxan çətinliklər səbəbilə bütün ərzaq məhsullarının qiyməti keçən illə müqayisədə iki, iki dəfə yarım artmışdır».(84)

Bir neçə il sonra İngiltərənin Təbrizdəki baş konsulu R.V.Urquartın təşəbbüsü ilə aparılan mühüm hesablamalar bu dövr ərzində, xüsusilə də son iki ildə çörək, düyü və qənd kimi əsas ərzaq məhsullarının qiymətində müşahidə olunan artımı açıq şəkildə nümayiş etdirirdi. Həmin hesablamalarda hər bir işçinin günlük maaşının yalnız 10 rial olduğu göstərilirdi. İkiaylıq hesabatının sonunda İngiltərənin baş konsulu kinayəli şəkildə mövcud acınacaqlı vəziyyətə işarə edərək qeyd edirdi: «İnsanlar arasında belə bir acı zarafat yaranıb ki, antifaşizm bir növ yeni çörəkdir».(85)

Ölkə ərazisində ərzaq məhsullarının qeyri-bərabər və ədalətsiz şəkildə paylanılması nəticəsində azərbaycanlılar mərkəzi hökumət üçün İranın yalnız paytaxtı Tehrandan ibarət olduğu düşüncəsinə qapılmağa başladılar. Belə ki, hökumətə ünvanlanmış rəsmi teleqramda təbrizlilər öz şikayətlərini dilə gətirərək işğaldan sonra tekstil normasının yalnız 1,5 metrdən ibarət olduğunu, lakin şəhər sakinlərinin üçdə birinin bu payı belə almadığını, bundan əlavə təbrizlilərin 1943-cü ilin son altı ayında şəkər normalarını əldə edə bilmədiklərini bildirirdilər. (86)

Bütün bunlar hökumətin kobud ayrı-seçkilik siyasəti və səriştəsizliyi kimi dəyərləndirildiyindən Tehranda hakim dairələr arasında bir sıra buna bənzər suallar meydana çıxırdı: «Paytaxtda hər ay adambaşına verilən şəkər payı 1,5 kiloqramdırsa, nəyə görə bu, Azərbaycanda 400 qramdır və nə üçün bu norma ayda bir dəfə deyil, hər fəsildən bir verilir?!».(87)

Hökumət isə bu qəbildən olan sualları cavablandırmaq niyyətində belə deyildi. Ümumiyyətlə, hökumət Azərbaycanın problemləri ilə ciddi şəkildə maraqlanmır, İngiltərənin baş konsulunun da qeyd etdiyi kimi, Təbrizi, Urmiyanı yalnız cansıxıcı, qaranlıq kənd hesab edir və bu yerlərə sadəcə Tehrana və digər cənub bölgələrinə gərəkli olan, vəsait qazanıla biləcək bölgələr kimi yanaşırdı.(88)

*Cədvəl №1*

**1938 –1943-cü illərdə Təbrizdəki bəzi ərzaq məhsullarının rialla verilən qiymətləri (89)**

| Ərzaq məhsulları (kq) | İyun(1938) | İyun(1941) | İyun(1942) | Fevral(1943) |
|---|---|---|---|---|
| Buğda | 0.59 | 1.65 | 1.11 | 13.00 |
| Çörək | 0.69 | 1.50 | 1.10 | 12.00 |
| Düyü | 3.00 | 3.30 | 6.00 | 32.00 |
| Şəkər tozu | 4.00 | 5.95 | 7.50 | 100.00 |
| Qənd | 4.30 | 7.00 | 8.50 | 113.00 |
| Qoyun əti | 2.60 | 5.20 | 6.00 | 116.00 |
| Kerosin | 1.35 | 1.65 | 2.65 | 4.00 |
| Odun | 0.21 | 0.36 | 0.30 | 0.55 |
| Kömür | 0.50 | 0.80 | 1.20 | 2.80 |
| Süd | 0.85 | 1.25 | 1.60 | 3.20 |
| Kartof | ----- | 1.00 | 1.60 | 3.60 |
| Ev quşu (sayla) | 4.00 | 10.00 | 1.60 | 40.00 |
| Yumurta (sayla) | 0.10 | 0.17 | 0.30 | 1.10 |
| Əridilmiş yağ | 10.80 | 16.00 | 36.00 | 68.00 |
| Çay | 44.00 | 70.00 | 120.00 | 180.00 |

Sovet işğalının ilk günlərində mərkəzi hökumətin Azərbaycandakı hakimiyyəti ləğv edildikdən sonra bu bölgədə bir sıra üsyanlar baş qaldırdı. Bu üsyanlardan ən çox səs-küy doğuranı Sumalı Qasımın rəhbərlik etdiyi kəndli qiyamı idi. *Azərbaycan Demokrat Firqəsinin* (ADF) aparıcı üzvlərindən olan Çeşm Azərə görə, Sovet qoşunları Azərbaycanda yerləşdirildikdən çox keçmədən Qasım həbsdən qaçaraq doğulduğu kəndə, Sərab yaxınlığındakı Biyaquş mahalının Suma kəndinə qayıtdı. Orada o, torpaqsız kəndliləri öz ətrafına toplayaraq onları yerli torpaq sahibləri və mülkədarların üzərinə qaldırmaq üçün qızışdırıcılıqla məşğul olmağa başladı. Zəngin torpaq sahiblərinin mülklərini müsadirə edərək yoxsul kəndlilər arasında bölüşdürən Qasım bu yolla bir müddət bölgədə hakimiyyəti öz əlində saxladı. *Azərbaycan Demokrat Firqəsinin* görkəmli rəhbərlərindən olan Qulam Yəhya Daneşyan öz

xatirələrində Sərab mahalında da bənzər üsyanların baş verməsi barəsində məlumat verirdi.(90) Tudə Partiyası da bu kimi üsyanların mövcudluğunu təsdiqləyirdi. Belə ki, partiyanın «*Rəhbər*» adlı rəsmi qəzetinin 24 may 1945-ci il tarixli buraxılışında aşağıda göstərilən bir sıra mülahizələr öz əksini tapmışdı: «Şəhrivər ayından sonra, yəni Rza şahın öz hakimiyyətindən əl çəkməsi və xarici işğal dövrünün başlamasından sonra, iyirmiillik əzab-əziyyətdən cana doyan kəndlilər irtica və diktaturanın nisbətən zəiflədiyini hiss edən kimi təşkilatlanaraq döyüş yolu ilə mübarizə aparmağa başladılar. Belə ki, onlar diqqəti öz üzərlərinə çəkməyə nail oldular. Hətta bəzi yerlərdə kəndlilər çaxnaşma və qarışıqlıq törədilməsinin əsas səbəbkarlarına çevrilmişdilər».(91)

Bu üsyanların müvəffəqiyyətsizliyə uğramasının əsas səbəblərindən biri də Sovet hakim dairələrinin qeyri-müstəqim təzyiqinə məruz qalmaları ilə bağlı idi. Daha öncə qeyd edildiyi kimi, Sovetlərin İranda həyata keçirdikləri ilkin siyasət ölkədə sülh və nizam-intizamın saxlanılmasını müdafiə etməklə Sovetləri zəruri tədarüklərlə təchiz edən Fars dəhlizinin öz fəaliyyətinə sakitcə davam etməsini təmin etmək məqsədini daşıyırdı. Sovetlər bu cür siyasət yeritməklə İran hökuməti ilə hər hansı bir qarşıdurmanın qarşısını almaq istəmirdilər. Təbrizə yenicə gəlmiş İngiltərənin baş konsulunun bu məsələ ilə bağlı mülahizələrinə müraciət etmək yerinə düşərdi: «Mən Təbrizdən 1937-ci ildə getmişdim. Müdaxilə illərində nə bu əyalətin, nə də ki buranın sakinlərinin zahiri görünüşündə elə böyük bir dəyişiklik olmayıb, əksinə siyasi düşüncəyə malik bütün farsların qorxduqları başlarına gəlib. Yəni ruslar artıq buradadır. Mən Londonu tərk etməzdən əvvəl, yollardakı müxtəlif məntəqələrdə, o cümlədən, Tehranda Sovetlərin qətiyyəti, fitnə-fəsadları və nadürüst metodları haqqında o qədər çox şeylər eşitmişdim ki, hər an təhlükə ilə qarşılaşmağa hazır vəziyyətdə idim. Belə ki, böyük əndişə içərisində və çətinliklə konsulluğumuzun yerləşdiyi rayona çata bildim. Düzdür, heç bir problemlə qarşılaşmadım. Lakin qeyd etməliyəm ki, əgər kimsə mənim Rusiya işğalı altında olan Azərbaycandakı iki aylıq təcrübəmdən hansısa nəticə çıxarmaq istəsə, qoy bilsin ki, ruslar mələk olmadıqları kimi div də deyillər».(92)

Rza şahın iyirmiillik mütləqiyyətçi hakimiyyətinin başa çatması ilə siyasi plüralizmin yeni bir növü ilə səciyyələnən çox mühüm bir dəyişiklik yaşandı. Uzun illər boyu yasaq edilən belə bir azadlıq xüsusilə

gənc nəsil üçün sözün əsl mənasında görünməmiş hadisə hesab olunurdu. Belə ki, hələ 1941-ci ilin oktyabrında Azərbaycanda ilk siyasi dərnək təşkil olundu. Bu dərnək «*Azərbaycan Cəmiyyəti*» adı ilə tanınırdı. Bu yaxınlarda Bakıda xatirələri nəşr olunan Çeşm Azər qeyd edir ki, bu cəmiyyət tərəfindən irəli sürülən ilkin tələblər arasında konstitusiyaya əsasən yerli əyalət və vilayət şuralarının təsis edilməsi məsələsi də dururdu.(93) Eyni mənbəyə istinadən bu cəmiyyətin əsas qurucuları kimi Axgəri, Həlal Nasiri, Rəhimi, Rəziyan, Çavuşi, Şəbüstəri və Şəmsinin adlarını çəkmək olar. (94) 1941-ci ilin 1 noyabrından etibarən «*Azərbaycan Cəmiyyəti*» Azərbaycan dilində «*Azərbaycan*» adlı öz qəzetini buraxmağa başladı.(95) Təxminən iyirmi il idi ki, Azərbaycan dilində heç bir qəzet nəşr olunmurdu. Buna görə də bu hadisə regionda baş verən siyasi irəliləyişləri izləyən müşahidəçilərin böyük diqqətinə səbəb oldu.(96)

Azərbaycan Cəmiyyətinin əsasının qoyulmasından qısa bir müddət keçdikdən sonra digər siyasi dərnək və cəmiyyətlər meydana gəlməyə başladı. Belə ki, 1942-ci ilin yanvarında müəyyən siyasi təcrübəyə malik şəxslərin də daxil olduğu səkkiz nəfər yaxşı təhsil almış qadın və kişilərdən ibarət bir qrup «*Azərbaycan Zəhmətkeşlər Təşkilatının*» yaradılması üçün Təbrizdə bir yerə toplaşdı.(97) Bu cəmiyyətin mərkəzi komitəsini Padeqan, Velayi, Qadiri, Elmdust, Mizani, Nunkrani, Hamparsumyan və Hacızadə adlı şəxslər təşkil edirdilər. Cəmiyyətin nəşr olunmuş bəyanatında isə Azərbaycanda yerli əlayət və vilayət şuralarının təsis edilməsi ilə bağlı tələbin irəli sürüldüyü müraciət də öz əksini tapmışdı.(98)

1942-ci ilin fevralında Tehranda antifaşist xarakteri daşıyan «*Mərdom*» adlı qəzetin buraxılmasına başlanıldı. Bundan dərhal sonra Azərbaycanın Ərdəbil, Marağa, Urmiya, Sərab, Əhər və Təbriz kimi bir sıra şəhərlərində antifaşist komitələrin şəbəkəsi yaradıldı. Bu şəbəkələrin əsas məqsədi Roma – Berlin – Tokio oxunun əleyhinə təbliğat apararaq müttəfiqlərə yardımçı olmaqdan ibarət idi. Tamaşa və filmlərin göstərilməsi, sərgilərin keçirilməsi və eyni zamanda «*Müttəfiqlərdən xəbərlər*» adlı yayımların şəhərin hər yerinə nəql edilməsi üçün səsucaldıcı cihazların quraşdırılması ilə məşğul olmaqla yanaşı, Təbriz komitəsi Azərbaycan dilində «*Yumruq*» adlı təbliğatçı qəzet buraxırdı.(99) Beləliklə, Azərbaycan dilində üç qəzet fəaliyyət göstərirdi ki, bunlardan üçüncüsü Sovet Təbliğat Şöbəsi tərəfindən nəşr edilən «*Vətən yolun-*

*da»* adlı qəzet idi. (100) Bütünlüklə, 1941-ci ilin oktyabrından 1945-ci ilin sentyabrına kimi Azərbaycanda çıxan qəzetlərin sayı iyirmi birə çatırdı. Bu iyirmi bir qəzetdən on dördü fars dilində, üçü Azərbaycan dilində, üçü iki dildə, biri isə erməni dilində idi. Bu qəzetlərdən altısı sağ qanad partiyalarının nəzarətində idi və hamısı da fars dilində çıxırdı. Digər qəzetlər isə ya solçular, ya da ki, liberal təşkilatlar tərəfindən idarə olunurdu.(101)

Nisbətən daha çox azadlığın yaşandığı bu ilk günlərdə mərkəzi hökumət tədricən bölgədəki idarəçilik hakimiyyətini bərqərar etməyə başladı. Belə ki, əyalətin idarəçiliyinin əldən veriləcəyi qorxusuna düşən Süheyli hökuməti 1942-ci ilin aprel ayının ortalarında Azərbaycanda həyata keçirdiyi təhdidedici kampaniyaların ilkini başlatdı. Bütün yerli qəzetlər qadağan olundu, mövcud təşkilat və cəmiyyətlərin fəaliyyətinə son verildi.(102) Sovetlərin bu məsələyə münasibəti isə onların qəbul etdikləri ümumi siyasətlə əlaqədar idi. Belə ki, onlar hökumətin bu kimi sərt tədbirlər görməsinə İranın daxili işləri kimi baxdığından yerli əhalinin müdaxilə etmək barəsindəki müraciətlərinə etinasızlıq göstərirdilər.(103)

Lakin mərkəzi hökumət əyalət ərazisində həyata keçirdiyi bu cəza tədbirlərini uzun müddət davam etdirəcək qədər güclü deyildi. Belə ki, Tehranda müttəfiq partiyalar arasında qərarsızlıq yaşandığından qeyri-qanuni elan edilmiş bir sıra cəmiyyətlər yenidən siyasi səhnədə görünməyə başladılar. Eyni zamanda, qadağan edilmiş qəzetlərin şəhərlərdə paylanılması yenidən başladı. Bundan əlavə, əvvəlkiləri müdafiə edən və onların yolunu davam etdirən bir sıra yeni siyasi qruplar meydana gəlməyə başlayırdı ki, bunlardan biri də 1943-cü ilin yayında Təbrizdə yaradılan «*Mərkəz-e Tərəfdaran-e Demokrasi*» (Demokratiya Tərəfdarları Mərkəzi) idi.(104) Qeyd etmək lazımdır ki, Tudə Partiyası və işçi hərəkatının bu əyalətdəki fəaliyyətləri nəzərə alınmadan Sovet işğalı altında olan Azərbaycanın siyasi həyatından bəhs etmək olmaz.

1942-ci ilin 7 aprelində, Tudə Partiyasının Tehranda yaradılmasından yeddi ay sonra Təbrizdə rəsmi şəkildə partiyanın «*Komite-ye Eyaləti-ye Azərbaycan-e Hezb-e Tude-ye İran*» (İran Tudə Partiyasının Azərbaycan Əyalət Komitəsi) adlı yerli şöbəsi açıldı.(105) Təbriz şöbəsinin əsas özəyini qısa müddət sonra vəfat edən Mirzə Əli Birəng və «*Şahin*» qəzetinin redaktoru Ağazadə Şahinlə (106) yanaşı, Padeqan,

Velayi, Əsədi, İsgəndəri, Kaviyan, Şəbüstəri, Kələntəri kimi bir sıra şəxslər təşkil edirdilər.(107) Çox keçmədən Tudə Partiyası Azərbaycanın digər şəhərlərində də, misal üçün, Zəncan, Urmiya, Ərdəbil, Astara, Marağa və Miyanədə öz yerli şöbələrini təsis etdi. Bu şöbələrin qurucularından bəziləri daha sonra bu bölgənin siyasi həyatında mühüm rol oynayan tanınmış şəxsiyyətlərə çevrildilər. Buna misal olaraq, Urmiya, Sərab və Miyanədə Tudə Partiyasına rəhbərlik etmiş Qulam Yəhya Daneşyanın, Çeşm Azərin və Şandərmaninin adlarını çəkmək olar.

Tudə Partiyasının Azərbaycandakı ilk konfransı «Təbriz Konfransı» adı ilə 1942-ci ilin sonlarına doğru əyalətin paytaxtında keçirildi. Keçirilmə üsulu və quruluş baxımından bu konfrans partiyanın həmin ilin oktyabr ayında Tehranda keçirdiyi konfransa olduqca çox bənzəyirdi. Təbriz Konfransında müzakirə edilən əsas məsələlərdən biri təcili olaraq əyalət qurultayının çağırılması ilə bağlı idi. Buna baxmayaraq, Tudə Partiyası yalnız iki il keçdikdən sonra belə bir qurultay təşkil etməyə nail ola bildi.

Tudə Partiyasının ilk əyalət qurultayı 1945-ci ilin 11 yanvarında Təbrizdə keçirildi. Bu qurultayda yüz qırx beş nümayəndə iştirak edirdi. (108—109) Dörd gün davam edən bu qurultayın sonunda nümayəndələrin İran konstitusiyaçılığına qırılmaz tellərlə olan bağlılığı hər kəsə aydın oldu. Lakin qeyd olunmalıdır ki, Azərbaycan dilini var gücü ilə müdafiə edən və bu dilin əyalətin fars dilindən sonra ikinci rəsmi dili kimi tanınması arzusunda olan nümayəndələr də mövcud idi.

Tudə Partiyasının 1945-ci ilin avqustunda keçirdiyi İkinci Tehran Konfransında baş verən hadisə, dil məsələsi ilə bağlı yaranmış narahatçılıq, daha mühüm əhəmiyyət kəsb etməyə başladı. Belə ki, Azərbaycandan dəvət olunmuş nümayəndə Əhməd Hüseyni dinləyicilərə fars dilində müraciət etməyi rədd etdiyindən konfransın sədri partiyanın üzvlərindən biri olan Əli Şamideyə Hüseyniyə tərcüməçilik etmək tapşırığını verməyə məcbur olmuşdu. Azərbaycan dili ilə bağlı mübahisələr sanki Tudə Partiyasının Azərbaycandakı üzvlərinin bölünməsi təhlükəsindən, daha böyük münaqişələrin meydana gələcəyindən xəbər verirdi.

Tudə Partiyasının Azərbaycandakı üzvlərinin *yerlilər* və *mühacirlər* kimi iki fərqli düşərgəyə bölünməkdə olduğu partiyanın Tehrandakı qərargahına gəlib çatan xəbərlər arasında idi. *Mühacirlər* uzun müddət,

hətta bəzən nəsilbənəsil Rusiya (daha sonralar Sovet imperiyası) ərazisində yaşayan azərbaycanlılara deyilirdi. Stalinin məcburi surətdə köçürmə siyasəti nəticəsində 1937-ci ildə həmin azərbaycanlıların böyük bir qismi sərhədi keçərək yenidən İranda məskunlaşmalı olmuşdu. Rus dili və mədəniyyətini mənimsəmiş olan *mühacirlər* Azərbaycanın Sovet işğalı altına düşdüyü ilk vaxtlardan etibarən Sovet hakim dairələrinin sıralarına qoşulmağa can atırdılar.

Tudə Partiyasının Azərbaycan şöbəsi daxilində iki cinah arasında böyüməkdə olan fikir ixtilafları və mübahisələr nəticəsində partiyanın mərkəzi komitəsi partiyanın nüfuzlu rəhbərlərindən olan Xəlil Malikini azərbaycanlı olması səbəbilə mərkəzi komitənin Azərbaycandakı müfəttişi vəzifəsinə təyin etdi. Malikinin əsas vəzifəsi Tudə Partiyasının sabitliyini təhlükə altında qoyan və partiyanın bu əyalətdəki gələcək inkişafı üçün maneələr törədən parçalanma ilə bağlı yaranmış çətinliyi məntiqi şəkildə həll etməkdən ibarət idi. Malikinin bu işinin asanlaşdırılması məqsədilə mərkəzi komitə tərəfindən ona bütün nalayiq ünsürləri partiyadan kənarlaşdırmaq üçün tam səlahiyyət verilmişdi.(110)

Partiya Malik və Qiyamiyə Malikiyə bu işində kömək etmək tapşırığını vermişdi. Lakin Malikinin yerinə yetirməli olduğu bu vəzifə heç də asan deyildi. Belə ki, o, partiyanın yerli təşkilatı daxilində kök salmış və möhkəmlənmiş Bağırov tərəfdarları ilə qarşı-qarşıya qalmışdı. (111) Malikinin götürdüyü ideoloji taktika əsasən Azərbaycanın iranlı kimliyini ön plana çəkmək və ölkənin suverenliyini əldən verməmək üçün çox mühüm əhəmiyyət kəsb edən milli birlik anlayışı üzərində mərkəzləşməkdən ibarət idi. Onun millət, milli birlik, milli suverenlik və dil məsələlərinə olan münasibəti Təbrizdə partiya üzvlərinə ünvanlanmış müraciətində çox açıq şəkildə öz əksini tapmışdır: «Hər hansı bir milləti təyin etmək üçün mühüm sayılan amillər əsasən dil birliyi, hüquqi hökumət birliyi, iqtisadi siyasətlə və ya qarşılıqlı iqtisadi maraqlarla bağlı olan birlik, ədəbiyyat və s. bu kimi sahələrin ümumiliyi ilə səciyyələnən mədəniyyət birliyindən ibarətdir. Lakin tarixə nəzər saldıqda nə keçmişdə, nə də indiki dövrdə yuxarıda adları çəkilmiş birlik növlərinin hamısına bütünlüklə sahib hər hansı bir millətin olmadığını görmək olar. Eyni şəkildə qeyd olunmalıdır ki, bu amillərin bəzilərini özündə təcəssüm etdirən çox sayda millətlər olduğu kimi, bu xüsusiyyətlərə malik olmayan millətlər də yox deyildir. Lakin hər iki halda bu,

onların milli birliyinə heç bir xələl gətirmir». Daha sonra, Maliki dil məsələsinə toxunaraq öz fikirlərini aşağıdakı şəkildə açıqlayır:

«Burada mən yalnız dil birliyindən bəhs edəcəyəm. Müxtəlif millətləri gözdən keçirdikdə aydın olur ki, dil fərqliliyi milli birlik üçün maneə törətmədiyi kimi, iki millətin eyni bir dildə danışması onların milli birliyinə də dəlalət etmir... Bundan əlavə, Azərbaycanda danışılan dilin Türk dili olması milli birliyin yaranması üçün hər hansı bir əngəl törətmir. Eyni şəkildə, azərbaycanlıların ana dilinin əllərindən alınması üçün heç bir zərurət də yoxdur. Azərbaycanlıların ana dilinə ittihamlar yağdırmaqla ölkənin milli birliyinin möhkəmləndirilməsi adına heç nə əldə edilməyəcək. Əksinə, bu tədbirlər həyata keçirilmədikcə bir azərbaycanlı özünü hər hansı bir iranlıdan daha çox iranlı kimi hiss edəcək. Şimal və cənubdan ölkəmizə yönəldilən bütün təbliğatçı, uydurma nağıllara baxmayaraq İran torpaqlarının müstəqilliyi və bütövlüyünü mühafizə etmək üçün böyük əhəmiyyət kəsb edən iranlı milli iradəsi bizim milli birliyimizin yeganə təminatçısıdır. Sosial dayağa malik bütün siyasi partiya və qruplar öz proqram və ya ideologiyalarında mövcud olan fərqliliklərə baxmayaraq İranın ərazi bütövlüyünün mühafizə edilməsi barəsində fikir ayrılığına sahib deyillər... Azərbaycanda danışılan dilin İranın bütün digər bölgələrində danışılan dillərdən fərqlənməsi milli birliyin zəifləməsi üçün səbəb ola bilməz. Millət müxtəlif sosial siniflərdən ibarətdir. Hər bir sinif isə təmsil olunduğu xüsusi partiyalar və nümayəndələr vasitəsilə ya digər partiyalarla mübarizə aparır, ya da onlarla əməkdaşlıq edir. Beləliklə, məsləhətləşmə, yardımlaşma və zehni mübarizə yolu ilə cəmiyyətin ayrı-ayrı sinifləri arasında olan əlaqələrdə tarazlıq və nizam-intizam yaradılır. Məhz bu yolla milli birliyin dağılmasının qarşısı alınır». (112)

Maliki partiyanın bəzi rəsmilərinin tutduğu vəzifələrdə yerdəyişmə işləri aparmaqla, digərlərini arzuolunmaz ünsürlər adı ilə partiyadan uzaqlaşdırmaqla (113) və partiyanın Azərbaycandakı həyatına daha çox millilik gətirməklə Tudə Partiyasının Tehran xəttini qəbul etdirməyə çalışırdı. (114) Lakin bu da bir həqiqət idi ki, partiyanın işlərinin qaydaya qoyula bilməsi üçün böyük dəyişikliklərin həyata keçirilməsi və vacib islahatların aparılması son dərəcə mühüm əhəmiyyət kəsb edirdi. (115)

Malikinin vəzifəsi Azərbaycanda Tudə Partiyası daxilində birliyin yaranmasına yardım göstərmək və partiyanın fəaliyyətinə himayədarlıq

etməklə məhdudlaşmırdı. Belə ki, ona eyni zamanda, Tudə Partiyası ilə yaxın əlaqədə olan həmkarlar ittifaqının quruluşunda dəyişikliklər aparılması tapşırığı da verilmişdi.

Təbriz şəhəri 35000 sənaye işçisinə malik olduğundan təbii olaraq Sovet işğalı dövründə Azərbaycandakı fəhlə hərəkatının mərkəzinə çevrilmişdi.(116) Bu vaxt ilk fəhlə dərnəklərini yaradanlar arasında birincilik şəhərin toxuculuq və kibrit istehsal edən fabriklərinin çalışanlarına məxsus idi.(117) Buna baxmayaraq, şəhərdəki ilk rəsmi fəhlə təşkilatının əsası Tehranın fəhlə hərəkatçılarından biri tərəfindən qoyulmuşdu. Tehranda yaradılmış «*Ettehadiye-ye Kargəran-e İranın*» (İran İşçilər Birliyinin) rəhbəri Xəlil İnqilab Azər 1942-ci ilin sentyabrında Təbrizdə həmin birliyin yerli şöbəsini təsis etdi.(118) İnflyasiya sürətlə artdığından fəhlə hərəkatının başladılması üçün olduqca əlverişli vəziyyət yaranmışdı.(119) Bu səbəbdən də İnqilab Azər şəhərin əsas işçi qüvvəsini təşkil edənlərin əksəriyyəti tərəfindən müdafiə olunurdu.

Azərbaycandakı Tudə Partiyası isə heç bir şəkildə İnqilab Azərin bu işdəki təşəbbüskarlığı ilə razılaşa bilmir, onun səylərinin müvəffəqiyyətlə nəticələnməsindən son dərəcə narahat olurdu. Tudə Partiyası hələ altı ay əvvəl Tehranda öz fəhlə birliyini təsis etmiş olsa da, müttəfiqlərin işğalı altında olan ərazilərdə yaranan buna bənzər fəhlə hərəkatını müdafiə etməyə bir o qədər də niyyətli deyildi. Təbrizin ən böyük zavodları Qızıl Ordu üçün məhsullar hazırladığından təbii olaraq partiya sənaye istehsalını təhlükə altında qoyacaq hər hansı bir birliyin fəaliyyətinə şübhə ilə yanaşırdı.

Tudə Partiyası Təbrizdə fəaliyyət göstərən rəqib fəhlə birliyi ilə qarşı-qarşıya qaldığından «*Şoura-ye Mərkəzi-ye Ettehadiyeha-ye Kargəran-e İranın*» (İran İşçilər Birliyinin Mərkəzi Şurasının) bilavasitə partiyaya bağlı olan yerli şöbəsinin yaradılmasını məqsədəuyğun hesab etdi. Yeni yaradılmış birlik tərəfindən verilən ilk bəyannamədə isə İnqilab Azər xəyanətkarlıq etməkdə günahlandırılır və yerli fabriklərin bütün işçilərinə öz işlərində qalaraq Qızıl Orduya lazım olan malların istehsalına davam etmək çağırışı ilə müraciət edilirdi.(120)

İnqilab Azərin «istənilməyən fəaliyyəti» və onun rəhbərlik etdiyi birliyin sənaye sahəsində etiraz və mübahisələrin meydana çıxmasının səbəbkarı sayılması Sovetlərin onun şəhərdən çıxarılmasını tələb etməsi ilə nəticələndi. Eyni şəkildə, Sovetlərin fəhlə şurasının rəsmi orqanı

olan «*Trud*» qəzeti də var gücü ilə rəqib fəhlə təşkilatlarına qarşı hücuma keçmiş, həmin təşkilatın qurucularından biri olan Yusif Eftexarini isə «fırıldaqçı və təxribatçı» adlandırmışdı. (121)

Bütün bunlara baxmayaraq, bir-birilə rəqabət aparan bu iki fəhlə birliyi axırda birləşərək «*Şoura-ye Mottahedeh-e Eyaləti-ye Ettehadiye-ha-ye Kargəran və Zəhmətkeşan-e Azərbaycan*» (Azərbaycan İşçiləri və Zəhmətkeşlərinin Birləşmiş Birliklərinin Əyalət Şurası) adını daşıyan yeni bir təşkilatın əsasını qoydular. (122) Bu təşkilatlar 1944-cü ilin 2 avqustunda birləşdilər. Yeni yaradılmış fəhlə birliyi iyirmi yeddi nəfərdən ibarət mərkəzi komitə tərəfindən idarə olunurdu. Mərkəzi komitə daha sonra Təbriz həcvçilərindən olan Biriyanı birliyin sədri seçdi. (123) Bir çox müşahidəçilər iki birliyin birləşməsinin Sovet İttifaqının təzyiqi nəticəsində reallaşdığına inanırdılar. (124) Bu birləşmə sayəsində Azərbaycanın qısaömürlü müstəqil fəhlə hərəkatı başa çatdı. Tudə Partiyası bu yeni birliyin yaranmasını böyük məmnuniyyətlə qarşıladı. Lakin tezliklə Tudə Partiyasının rəhbərlərinə aydın oldu ki, Biriya öz hakimiyyətindən qeyri-məhdud şəkildə istifadə etməklə və birliyin işlərini dəmir əllə idarə etməklə Tudə Partiyasının çox sayda tərəfdarlarının partiyadan soyumasına və uzaqlaşmasına səbəb olurdu. (125)

İkinci dünya müharibəsi qurtardıqda Azərbaycanın fabriklərində Qızıl Ordu üçün istehsal dayandırıldığından əyalətin iqtisadi həyatında ciddi çətinliklər yarandı. İngiltərənin baş konsuluna görə, Təbrizdəki bütün fabriklər ya vəsaitlərini tamamilə itirməkdə idilər, ya da ki, ən yaxşı halda sadəcə öz xərclərini ödəyəcək miqdarda qazancı güclə əldə edə bilirdilər. (126)

Vəziyyətin dəyişilməsindən zərər çəkən sadəcə bölgənin fabrikləri deyildi. Belə ki, yerli iqtisadiyyatın digər sahələrinə məxsus çoxsaylı müəssisələr məhz müharibənin ehtiyaclarını ödəyən bazardan asılı idilər. Amerika konsulluğunun hesabatlarında müharibədən sonra Azərbaycanda yaranan iqtisadi böhran nəticəsində bir çoxlarının Sovet İttifaqına neft güzəştlərinin verilməsinin regiona iqtisadi cəhətdən xeyir gətirəcəyinə inanmağa başlaması qeyd olunurdu.(127) Artıq 1945-ci ilin yayında geniş istehlak mallarının istehsal olunduğu bölmələrdə çalışanlar arasında işsizlik problemi özünü göstərməyə başlamışdı. Təbriz tütün fabrikində aparılan ixtisar nəticəsində 300-dən çox işçi fabrikdən çıxarılmışdı.(128) Fəhlə birliyi işsizliyin aradan qaldırılması ilə bağlı

bir sıra tədbirləri özündə əks etdirən təklifləri mərkəzi hökumətə təqdim etmişdi. Bu tədbirlər əsasən yeni iş imkanları yaradacaq layihələrdən ibarət idi. Lakin Tehranda parlamentin səsli-küylü palatalarında qarmaqarışıqlıq hökm sürdüyündən bu tədbirlərin həyata keçirilməsi üçün heç bir zaman imkan yaranmadı. Belə bir vəziyyətdə əhali yalnız yerli əyalət şuralarının yaradıldığı təqdirdə Azərbaycanın iqtisadi problemlərinin öz həllini tapacağına həmişəkindən daha çox inanırdı.

1944-cü ilin əvvəllərindən başlayaraq regiondakı siyasi yığıncaqların, demək olar ki, hamısının bir ümumi tələbi var idi. Bu tələb konstitusiyanın, xüsusilə də əyalətlərin yerli qanunverici məclisə sahibolma hüququndan bəhs edən 90–93-cü maddələrinin tətbiq edilməsi ilə bağlı idi. 1944–1945-ci illər arasında Təbriz, Ərdəbil, Meşginşəhr, Mərənd, Sərab və Urmiya şəhərlərində yerli əyalət şuralarının yaradılması tələbi ilə çıxış edən on beş siyasi yığıncaq və nümayişin keçirildiyi barəsində məlumat verilir. (129)

Azərbaycanda muxtariyyət hərəkatının geniş vüsət aldığı bir vaxtda Tudə Partiyasının rəhbərliyi bu hərəkatın bölücülük deyil, muxtariyyət uğrunda mübarizə aparıldığına açıqlıq gətirmək üçün böyük səy göstərirdi. Tudə Partiyası partiyanın yeritdiyi siyasəti Azərbaycanı İrandan ayırmaq istəyinin təzahürü kimi izah edənləri ümidsizliyə uğratmaq niyyətində idi. Ankara Radiosunun xəbərlərində Azərbaycan əyalət şurasının Azərbaycanın İrandan ayrılaraq Sovet İttifaqına birləşdirilməsi tələbi ilə çıxış etməsi barəsində verilən məlumata cavab olaraq dərhal partiyanın «*Rəhbər*» adlı qəzetində aşağıdakılar bəyan edildi: «Birincisi, Azərbaycanın əyalət şurası yoxdur. İkincisi, belə bir şura həqiqətən mövcud olsaydı, hardasa, nə vaxtsa bu kimi bəyanatlar verərdimi?! Bundan əlavə, öz sevimli məmləkəti İranın ərazi bütövlüyünə zərər gətirə biləcək hər hansı bir tələb irəli sürəcək azərbaycanlı haradadır?».(130)

Tudə Partiyası və fəhlə birliyi Azərbaycanda əyalət şuralarının təşkil olunması üçün geniş sosial dəstək qazanmağa çalışdığı halda, əyalətdəki müxtəlif sağ qanad partiyaları özlərini bu siyasətdən tamamilə uzaqlaşdırmışdılar. Təbrizdə «*Vətən*» və «*İstiqlal*» partiyaları kimi bir sıra partiyalar, Miyanədə isə «*Əncümən-e Xeyriye*» (Xeyriyyə Cəmiyyəti) adlı cəmiyyət davamlı olaraq Tudə Partiyasını «sosial dəyişikliyə» səbəb olmaqda, qarışıqlıq və iğtişaş yaratmaqda, əhalini İrandan ayrılmağa çağırmaqda günahlandırırdı. Amerikanın Təbrizdəki baş konsulu

S.G.Eblinqin də qeyd etdiyi kimi, yerli «əsilzadələr» və yaxud da qədim kökə malik ailələrin təmsilçiləri, hökumət işçiləri, polis, mövcud iqtisadiyyatda və siyasi təşkilatlanmada hər hansı bir islahatın keçirilməsinin qəti əleyhinə olan Məhəmmədpərəst molla və müctəhidlər torpaq sahibkarlarının, mülkiyyətçilərin mürtəce meyllərinə ortaq idilər.(131)

İrandan ayrılma məsələsinə gəldikdə isə qeyd olunmalıdır ki, regionun sağ qanad partiyalarının İranın ərazi bütövlüyünə olan bağlılıqlarının şübhə doğurucu olmadığına inandırmaq üçün Tudə Partiyasının yerli şöbəsi əlindən gələni edirdi. Tudə Partiyasının nümayəndələrindən biri Sovet İttifaqının qonşuluqdakı əraziləri özünə birləşdirmək siyasəti ilə bağlı mübahisəli məsələnin aradan qaldırılması məqsədilə, qonşu Türkiyəni işğalçı arzu və cəhdlərinə görə aşağıdakı şəkildə tənqid etməklə partiyasının İrana olan sədaqət və bağlılığının möhkəmliyini bir daha nümayiş etdirmək niyyətində idi:

«Bir müddətdir ki, Türkiyə hökumətinə başçılıq edənlər Şərqdə liderliyə nail olmaq iddiasındadırlar və buna böyük ümidlər bəsləyirlər... Pantürkizmin qapanmış xəritəsini təzədən açmağa çalışan Türklər gözlərində peşmançılıq və təəssüflə, eyni zamanda istək və əzmlə bütün fikirlərini bu məsələ üzərində cəmləşdirməkdədirlər. Qoy, onlar bilsinlər ki, bir azərbaycanlı öz doğma vətəninin ərazi bütövlüyünün zərərinə barmağını belə tərpətməz... Bir azərbaycanlı öz məmləkəti olan İranı hər hansı bir iranlıdan daha çox sevir və onun azadlığı, müstəqilliyi, ərazi bütövlüyünü qorumaq naminə bütün fədakarlıqları etməyə canla-başla hazırdır».(132)

Bütün bu təminat və inandırmalara baxmayaraq, Tudə Partiyası öz rəqiblərinin qorxularını azaltmağa nail ola bilmədi. Rəqib düşərgələr arasında mövcud olan nisbi sakitlik mühiti uzun müddət davam etmədi. Belə ki, 1945-ci ilin ortalarına doğru regionun rəqib siyasi qrupları arasındakı toqquşmaların artıq həyəcanverici həddə çatdığı barəsində məlumatlar var. Tudə Partiyasının üzvləri və partiya qərargahları sağ qanadçıların hücumlarının əsas hədəfini təşkil edirdi. Sağ qanad tərəfdarları olan Zülfüqar və Şahsevən tayfalarının xanları bu kimi hücumedici kampaniyaların əsas təşkilatçıları kimi göstərilirdilər.(133)

Həmin günlərdə geniş vüsət almış qarışıqlıq və nizamsızlıqla bağlı Tudə Partiyasının «*Rəhbər*» adlı rəsmi qəzetində Azərbaycanda hərbyönlü fəaliyyətlərin genişləndiyi, şiddət və vəhşətin get-gedə çoxalma-

sı barəsində aşağıdakı məlumatlar verilirdi. Zəncanda silahlanmış Zülfüqarilər Tudə Partiyasının əleyhinə hücuma keçərək təxminən bütün yerli hakimiyyətə yiyələnmişdilər. (134) Ərdəbildə isə Şahsevənlərin tanınmış xanı Yurtçu xan yerli mollalar tərəfindən hərtərəfli müdafiə olunurdu. O, bölgədə Tudə Partiyasının əleyhinə *cihadın* – müqəddəs müharibənin elan olunacağından əmin olmaq istəyirdi. Eyni şəkildə, varlı torpaq sahibləri olan İsfəndiyari və Müzəffər Solati Marağada bir araya gəlmiş kütlələri silahlandırmaqda idilər. (135) Miyanədə isə Xeyriyyə Cəmiyyəti öz hərbi qruplarının təşkil olunması ilə məşğul idi. (136) Tudə Partiyasının tanınmış fəallarından olan Qulam Yəhya Daneşyan Sərabda bələdiyyənin ixtiyarında olan qüvvələr tərəfindən xəncərlə yaralanmışdı.(137) Son olaraq isə, Urmiyada vali kolonel Zəngani Tudə Partiyasının fəaliyyətini tamamilə qadağan etdikdən sonra, bir sıra Tudə tərəfdarlarının evləri oda verilmişdi. (138)

Bu toqquşmaların ən şiddətlisi isə avqust ayının onunda, Tudə Partiyası tərəfdarlarından ibarət bir qrupun Konstitusiya inqilabının ildönümünü qeyd etmək adı ilə Təbrizin yaxınlığında yerləşən Liqvan kəndinə yürüş etdikləri gün baş verdi. Bu regionun əsas torpaq sahibi sayılan Hacı Ehteşam Liqvani nümayişçilərə hücum edərək ildönümü mərasiminin şənliklərlə qeyd olunmasına mane olmuşdu. Tudə Partiyası tərəfdarları bu məsələni Təbrizdə məhkəmə səviyyəsinə qaldıraraq kütləvi yürüş üçün qanuni icazə almış və yenidən Liqvan kəndinə doğru hərəkət etməyə başlamışdılar. Lakin bu dəfə onlar məhkəmənin magistrat üzvləri tərəfindən müşayiət olunurdular. Kənddən kənarda baş verən silahlı toqquşmada isə Hacı Ehteşam Liqvani də daxil olmaqla səkkiz nəfər həlak olmuşdu. (139)

Azərbaycandakı sol qanad partiyaları ilk dəfə olaraq Liqvan hadisəsində öz düşmənlərinə qarşı silahlanmaq qərarına gəlmişdilər. Belə ki, partiyanın Azərbaycan şöbəsi Tehran hökumətinə göndərdiyi teleqramda bəyan edirdi ki, Liqvan «yumruğa yumruq, qana qan» şüarının əməli tətbiq olunduğu ilk səngər idi və bundan sonra da bu şüar Azərbaycan döyüşçüləri üçün keçərli olaraq qalacaq. (140)

Bundan əlavə, «*Rəhbər*» qəzetində qeyd edilirdi ki, Təbrizdə keçirilən məşvərətçi konfransın sonunda Tudə Partiyasının Azərbaycandakı otuz üç yerli şöbəsindən olan yüz on beş nümayəndə qeyd-şərtsiz şəkildə aşağıdakıları bəyan etmişdi: «Əyalət və vilayət şuraları üçün seçki-

lərin keçirilməsi hansı yolla olursa-olsun təmin edilməlidir. Artıq otuz yeddi ildir ki, bu şuraların yaradılması təxirə salınır. Azərbaycan xalqı (əhali) konstitusiyanın nəticəsiz və səmərəsiz qalmasına icazə verməyəcək». (141)

Baş nazir Sədr isə bu kimi bəyannamələrə açıqca etinasızlıq nümayiş etdirirdi. O, parlamentdə, iclasların birində çıxış edərkən bildirmişdi ki, Tehrana bu kimi teleqramlardan yüzü də göndərilsə, bunların heç birinə məhəl qoymayacaq. (142) Bu arada Təbrizdən «Azərbaycanın qaynadığı və üsyana qalxmağa hazır vəziyyətdə olduğu» ilə bağlı xəbərlər paytaxta yetişməkdə idi. (143) Əgər mərkəzi hökumət əvvəlcədən Azərbaycanın əmin-amanlığı üçün narahatlıq göstərmiş olsaydı və Azərbaycanla maraqlansaydı, gərginlik heç bir zaman bu həddə gəlib çatmazdı. Bir çox azərbaycanlılar mərkəzi hökumətin onların islahatlar və dəyişikliklər barəsində etdikləri müraciətlərə biganəliklə yanaşdığına inanmaqla yanaşı, eyni zamanda Süheylinin Baş nazirliyindən başlayaraq hökumətin bu əyalətdə açıq repressiya siyasəti apardığı düşüncəsində idilər. Sədrin Baş nazirliyi dövründə isə hökumətin bu siyasəti ən yüksək zirvəyə çatdığından hər hansı bir qarşıdurmanın yaranması qaçılmaz olduğu kimi, belə bir vəziyyətin qarşısının alınması məqsədilə hər hansı bir siyasi güzəştə gedilməsi də olduqca gec idi.

# V

# AZƏRBAYCAN DEMOKRAT PARTİYASI

*İranda sosial siniflər, xüsusilə də fəhlələr, kəndlilər, xırda ticarətçilər və sənətkarlar kimi aşağı siniflər bir-birindən bir o qədər də uzaq deyillər. Əksər vaxtlarda onların maraqları ümumilik təşkil edir və bir-birilə üst-üstə düşür. Bu səbəbdən də, İranda sözün əsl mənasında hər hansı bir sosial sinfə əsaslanan siyasi partiyanın yaradılması üçün zəmin yoxdur. İndiki vəziyyətdə ölkədə yalnız yuxarıda adları çəkilmiş siniflərin ümumi maraqlarını mühafizə etməyi qarşısına məqsəd qoymuş hər hansı bir partiya və ya partiyaların mövcudluğu ilə nəyə isə nai olmaq olar.*

**C.Pişəvəri**, «İranda həqiqi partiya vardırmı?»,
*«Ajir», sayı 156.*

## *Partiyanın yaranması*

İran tarixi hələ qədim zamanlardan başlayaraq mərkəzləşdirilmiş və mərkəzləşdirilməmiş hökumətlərin vaxtaşırı bir-birini əvəz etməsi ilə səciyyələndirilir. Şübhəsiz ki, güclü və təsirli hakimiyyətə malik mərkəzi hökumətin olmadığı dövrlərdə mərkəzdənqaçma qüvvələrinin İranın ayrı-ayrı bölgələrində müxtəlif növ bölücü siyasi inkişaf meyllərinin əsas təkanverici qüvvəsinə çevrilməsi daha az əngəllənmiş olurdu. Bu isə nəticədə çox vaxt qeyri-bərabər siyasi inkişafa gətirib çıxarır, xüsusilə də milli siyasi şüurun formalaşmasına maneçilik törədirdi. Belə bir vəziyyətdə mərkəzi hökumət üçün bütün ölkədə ardıcıl milli siyasət aparmaq son dərəcə çətin olduğu kimi, siyasi müxaliflər də daima eyni xitabət kürsüsündən çıxış etməkdə çətinlik çəkirlər. Həm hökumət, həm də müxalifət işə yarayacaq «milli» proqrama malik «milli» partiyaya gərəkli olan dəstəyin ən uyğun şəkildə necə qazanılacağı çətinliyi ilə qarşı-qarşıya qalır. İranda siyasi partiyaların yarandığı ilk gündən etibarən partiya siyasilərini, xüsusilə də müxalif düşərgədəki siyasi strategiya tərəfdarlarını ən çox narahat edən məsələ də məhz bu idi.

I Dünya müharibəsindən dərhal sonra erkən demokratlar ümummilli şəkildə tətbiq edilə biləcək siyasət yeritmək problemi ilə üzləşdilər. Eyni şəkildə, II Dünya müharibəsi dövründə də Tudə Partiyası ardıcıl milli siyasət aparmaq barəsində çətinliklərlə qarşı-qarşıya qalmışdı. Yalnız bir sinfə, yəni proletariata xidmət edən partiya kimi deyil, daha

çox «Birləşmiş Cəbhə» kominterni modelinə əsasən yaradılan (1) Tudə Partiyası bir sinfə məxsus hərəkat zəminində milli siyasət yeritmək niyyətində idi. Lakin çox keçmədən Tudə Partiyasının rəhbərliyi bu cür qanuniləşdirilmiş siyasət aparmaqla milli səviyyədə tərəfdar qazanmağın qeyri-mümkün olduğunu başa düşdü. Belə ki, Tudə Partiyası Tehrandakı partiya qərargahında öz bayrağını iftixar hissi ilə nümayiş etdirmək imkanına sahib olsa da, İsfahan kimi bir sıra yerlərdə partiya üzvləri öz siyasi görüşlərini açıq şəkildə ifadə edə bilmirdilər. Ölkənin cənubunda partiyanın üzvləri və tərəfdarları öz təhlükəsizliklərini təmin etmək üçün *təğiyye* (gizli) şəraitdə yaşamağa məcbur olduqları halda, şimal əraziləri boyunca yerləşən partiya şöbələri «azad olunmuş torpaqlar» adlandırılan yerlərdə yaşamağın üstünlüklərindən faydalanırdılar.

Belə bir şəraitdə, Pişəvəri kimi Tudə Partiyasının proqramını qəbul etməyərək bir təbəqəyə xidmət edən, siyasətdən daha çox milli siyasət aparmağa tərəfdar olan bir sıra veteran kommunistlər də var idi. Pişəvəri bu mərhələdə Azərbaycan da daxil olmaqla İranda yaşayan bütün insanlara müraciət edərkən açıq-aydın «*millət*» terminindən istifadə edirdi. Bu qocaman bələdçinin əsas fikir və görüşləri aşağıdakı şəkildə ümumiləşdirilə bilər:

a) İran cəmiyyətində siniflərin fərqləndirilməsi lazımi səviyyəyə çatmadığından və bunun nəticəsində də sinfi şüurluluq yetəri qədər inkişaf etmədiyindən *sinfi maraqlardan* və ya *sinfi mübarizədən* danışmağın heç bir mənası yoxdur;

b) İranın iqtisadi və siyasi cəhətdən inkişafının qabağına əsl sədlər çəkənlərə ölkənin milli mülkiyyət sahibləri sinfi yox, məhz xarici imperialist qüvvələrin özləri aid edilməlidir.

«*Ajir*» qəzetində dərc olunan bir sıra məqalələrdə Pişəvəri İranda hər hansı bir sinfə əsaslanan siyasi partiya anlayışını qəbul etmədiyini açıqca ifadə edərək qeyd edir ki, inkişaf etməkdə olan ölkələrdə şəxslərin, hətta qrup və siniflərin sosial sabitliyə malik olduqlarını demək olduqca çətindir. Məsələn, elə bizim öz İranımızda sosial siniflər çox nadir hallarda dünyanın inkişaf etmiş yerlərində qəbul edilən klassik formaya uyğun olmuşlar. Belə ki, böyük torpaq sahibləri ilə kəndlilər arasında çox sayda xırda torpaq sahibləri durur ki, bu sahibkarlar da iki sinif arasındakı boşluğu fərqli ölçülərdə doldurur. Əslində, xırda torpaq sahibləri bu iki sinfi müəyyən dərəcədə bir-birilə bağlayır və əlaqələn-

dirir. Şəhərdə çalışanların böyük əksəriyyəti hələ də sənətkarlıqla məşğul olaraq şagirdləri ilə birlikdə öz emalatxanalarında işləməyə davam edirlər. Sənaye kapitalistlərinin isə əksəriyyəti hələ də ya ticarətlə, ya da böyük miqyaslı torpaq sahibliyi ilə məşğuldurlar.(2)

Bundan əlavə, Pişəvəri İranda mövcud olan siyasi partiyalarla bağlı mülahizələrinə açıqlıq gətirərək bunları əlavə edir: «İran kimi inkişaf etməmiş ölkələrdə siniflərə əsaslanan hər hansı bir siyasi partiyanın yaranışı sözün əsl mənasında qeyri-mümkündür. Belə bir təşkilat mövcud olsaydı belə, çox güman ki, olduqca zəif olardı. İnkişaf etmiş ölkələrdəki əksər siyasi partiyalar məhz bu özül əsasında, yəni sinfi həmrəylik əsasında qurulduğundan milli və kütləvi hərəkat səviyyəsinə yüksəlməyə nail ola bilmişlər». (3)

Bir il sonra, 1945-ci ilin sentyabrında, *Azərbaycan Demokrat Firqəsinin* (Azərbaycan Demokrat Partiyası) yaranmasından bir neçə gün keçdikdən sonra Pişəvəri «*Firqəmizin tarixi işi*» başlıqlı məqalədə Tudə Partiyasını aşağıdakı şəkildə dəyərləndirirdi: «Əslində, Tudə Partiyası siniflərə əsaslanan bir partiya şəklində meydana gəlmişdi. Belə ki, yalnız fəhlələrə, kəndlilərə və aşağı təbəqəyə məxsus ziyalılara partiya sıralarına daxil olmağa icazə verilirdi. Partiyanın vəzifələri və şüarları yalnız bu sinif və qrupların maraqlarına muvafiq olaraq müəyyən olunmuşdu. Bu səbəbdən də insanlar Tudə Partiyasını solçu partiya adlandırırdılar. Partiyanın üzvləri də solçu şüarlardan istifadə edirdilər. Biz isə milli azadlığı qoruya bilmək məqsədilə hər kəsə, həm torpaq sahiblərinə, həm kəndlilərə, həm fəhlələrə, həm də kapitalistlərə öz kömək əlimizi uzadırıq. Biz hamımız Azərbaycanın rifah və xoşbəxtliyinə gedən yolda böyük səy göstərəcək və canla-başla çalışacağıq».(4)

Həqiqətən də Pişəvəri, Şəbüstəri, Padeqan, o cümlədən ADF-nin ilkin bəyannaməsini imzalayan digər şəxslər öz bildirişlərində sinif ayrılığı məsələsinə bu və ya digər şəkildə toxunmamağa böyük əhəmiyyət verir və bəyannamədə yazılanların geniş sosial dairələri əhatə və təmsil edəcək tərzdə ifadə edilməsinə xüsusi diqqət göstərirdilər. 3 sentyabr 1945-ci ildə bu bəyannamə Təbrizdə iki dildə, fars və Azərbaycan dillərində nəşr olundu. Yuxarıda adlarını qeyd etdiyimiz üç şəxsdən əlavə, torpaq sahibləri, tacirlər və digər nüfuz sahibləri də daxil olmaqla iyirmi səkkiz nəfər bu bəyannaməyə imza atmışdı. (5) ADF-yə məxsus sənədlərdə göstərilir ki, Pişəvəri *şəhrivərin əvvəllərində*, yəni

1945-ci ilin avqust ayının sonlarında Şəbüstəri ilə uzunsürən, ətraflı məsləhətləşmələrə başlamışdı. Daha sonra isə o, *«Ajir»* qəzetinin idarəçiliyini Tehrandakı həmkarlarından birinə təslim edərək Təbrizə gəlmiş, Şəbüstəri ilə yanaşı Tudə Partiyasının Azərbaycan Komitəsinin sədri Padeqanla da müzakirələr apararaq onu Azərbaycanda yeni bir siyasi partiyanın yaradılmasının zərurət təşkil etdiyinə inandırmağa çalışmışdı. (6)

ADF-nin «layihəsinin» Sovetlər tərəfindən ortaya atıldığı və nəzarət edildiyi qənaətində olanlardan biri də Ənvər Xameyi idi. Xameyiyə görə, Pişəvəri avqustun axırlarında yox, iyulun ortalarından avqustun əvvəllərinə qədər olan vaxtda Tehranı tərk edərək Təbrizə gəlmiş, Təbrizdə olduğu müddətdə isə Bağırovyönlü siyasətə qarşı çıxan Ovanisyanın və onu müşayiət edən qrupun şəhərdən çıxarılmasına təsir göstərmişdi. Bundan əlavə, Pişəvəri Tudə Partiyasının Azərbaycan Komitəsinin sədri Padeqanın Əmir Xizi ilə əvəz edilməsinə nail ola bilmişdi. (7)

ADF-nin ilkin bəyannaməsi on iki maddədən ibarət idi. Bəyannamədə partiyanın İranın müstəqilliyi və ərazi bütövlüyünün saxlanılmasına olan sarsılmaz bağlılığı əks etdirildikdən sonra *Firqənin* Azərbaycan xalqı üçün daxili azadlıq və mədəni muxtariyyət tələb etdiyi ifadə olunurdu. Bununla əlaqədar olaraq, bəyannamədə qeyd olunurdu ki, ibtidai məktəblərdə ilk üç il ərzində dərslər yalnız Azərbaycan dilində tədris olunmalı, daha sonra isə fars dili «dövlət dili» kimi təqdim edilməli, ali təhsil zamanı isə bu dillərin hər ikisi işlədilməlidir. ADF eyni zamanda həm də əyalət və vilayət şuralarına ilkin seçkilərin keçirilməsi çağırışı ilə çıxış edirdi. Azərbaycanın iqtisadiyyatına gəldikdə isə partiya yerli məhsulların ixracı üçün yeni «tranzit kanallar» üzə çıxarmaq arzusunda olduğunu bəyan edərək köhnə sənaye sahələrini saxlamaqla yanaşı yeni sənaye sahələrinin əsasının qoyulmasına dair vədlər verirdi. Buna əlavə olaraq qeyd olunurdu ki, Azərbaycanda toplanan vergilər yerli əyalətin rifah və əmin-amanlığının təmin olunması üçün xərclənəcək. Torpaq sahibliyi ilə əlaqədar olaraq, partiya yalnız Azərbaycandan çıxıb getmiş sahibkarların tərk etdikləri torpaqlarını müsadirə etməklə kifayətlənəcəyini bildirirdi. Daha sonra isə bəyannamədə mülkiyyətlərin heç bir məhdudiyyət qoyulmadan həmin torpaqlarda çalışan əkinçilər arasında bölüşdürüləcəyi, torpaq sahiblərinin özləri tərəfindən icad edilən qanunsuz vergilərin ləğv edilməsi istisna edilmək

şərtilə bütün torpaq vergilərinin köhnə qaydalara əsasən həyata keçiriləcəyi göstərilirdi. Nəhayət, bəyannamədə *Məclisdə* təmsilolunma məsələsinə də toxunulurdu. Azərbaycanın *Məclisdə* təmsilolunma şərtlərinə etirazları əks etdirən doqquzuncu maddədə deyilirdi ki, İranda dörd milyon azərbaycanlı yaşadığından Azərbaycan *Məclisdə* sadəcə iyirmi yerə sahib olmalı deyil, əksinə parlamentdəki yerlərin təxminən üçdə birini tutmalıdır.

«Ölkəsində qayda-qanunun bərqərar olması arzusunda olan hər bir kəsin ilk öncə öz evində hər şeyi qaydaya qoymağa başlamalı olması son dərəcə təbiidir» sözlərilə partiyanın fəaliyyətinə bəraət qazandıran bu bəyannamə demokratik Azərbaycanın, azad və müstəqil İranın alqışlanması, xüsusilə də Azərbaycanın və ümumiyyətlə bütün İranın azadlığının həqiqi keşikçisi kimi göstərilən *Azərbaycan Demokrat Firqəsinin* təriflənməsi ilə qurtarır. (8)

Növbəti il ərzində ADF bu ilkin tələbləri bir-bir yerinə yetirməyə başlasa da, sentyabr bəyannaməsində (*şəhrivər müraciətnaməsi*) qoyulan əsas məsələ partiyanın qarşısında duran başlıca çətinlik olaraq qalmaqda idi. İranlı mühacirlərin əksəriyyəti belə hesab edirdi ki, Azərbaycan dilini əyalətin rəsmi dili kimi təsdiqləyən qərarın qəbul edilməsi barəsində irəli sürülən tələb ən həlledici məsələ sayılırdı. (Azərbaycan dilinin «dövlət» dili kimi deyil, əyalətin rəsmi dili kimi qəbul edilməsi nəzərdə tutulurdu.) Əksər iranlıların, hətta siyasi səhnənin liberal qanadını təşkil edənlərin fikrincə belə fars dilindən başqa hər hansı bir digər dilin rəsmi dil olaraq qəbul edilməsi parçalanmaya aparıb çıxaran yolda atılan ilk addımdan başqa bir şey deyildi.

Konstitusiyaçılıq mərhələsindən sonrakı dövrdə, yəni İranın parçalanma dövrünü yaşadığı və Rza şahın mərkəzi hökumətinin parçalanmaqda olan hissələri bir araya gətirə biləcək gücə sahib yeganə qüvvə hesab olunduğu bir vaxtda böyümüş iranlı ziyalılarının əksəriyyəti fars dili amilinə ölkənin ərazi bütövlüyünün başlıca təminatçısı kimi baxırdılar. «*Azadeqan*» («*Azadfikirlilər*»), «*Araz*», «*Dərya*» və «*İran-e Ma*» («*Bizim İran*») kimi bir sıra liberal qəzetlər öz səhifələrində ADF-nin ilkin tələblərini rəğbətlə qarşıladıqlarını dərhal əks etdirsələr də, dil məsələsi ilə əlaqədar olaraq partiyanın mövqeyi ilə razılaşmırdılar. (9)

«*Zəban-e Melli-ye Həmmihənan-e Azərbaycani-ye Ma Parsi Əst*» («Bizim azərbaycanlı həmvətənlərimizin milli dili fars dilidir») başlıqlı

məqalədə «*İran-e Ma*» qəzeti ADF-ni dəstəklədiyini bir daha təsdiqləyərək mərkəzi hökuməti və *Məclisi* təkidlə partiyanın irəli sürdüyü «ədalətli tələblərə» müsbət cavab verməyə çağırırdı. Lakin buna baxmayaraq, daha sonra məqalədə Azərbaycan Demokratlarının müəyyən terminləri xüsusi mənada işlətməsindən doğan narazılıq dilə gətirilirdi: «Burada biz sözlər üzərində mübahisə etmək niyyətində deyilik. Lakin biz belə hesab edirik ki, Demokrat Partiyasının yaradıcılarının həm yazıda, həm də danışıqda «*millət-e Azərbaycan*» (Azərbaycan milləti) əvəzinə «*mərdom-e Azərbaycan*» (Azərbaycan xalqı) ifadəsindən istifadə etməsi daha çox məqsədəuyğun olardı». (10)

Həmin məqalədə dil məsələsi ilə bağlı aşağıdakılar qeyd olunurdu: «Bizim yazıçılarımızın fikrincə, Azərbaycanın yerli dilinin təqdirəlayiq bir dil olması son dərəcə açıqdır. Buna heç bir şübhə yoxdur. Lakin biz belə hesab edirik ki, Azərbaycan dilinin bizim azərbaycanlı həmvətənlərimizin milli dili olaraq tanınması qeyri-mümkündür. Çünki biz Azərbaycan xalqına özümüzdən və bütün digər həmvətənlərimizdən ayrı bir millət kimi baxmırıq». (11)

Digər tərəfdən, sentyabrın beşindən etibarən ADF-nin rəsmi orqanı kimi iki dildə nəşr olunmağa başlayan «*Azərbaycan*» qəzetinin ilk sayında Azərbaycan dilinin əyalətin rəsmi dili olaraq qəbul edilməsi məsələsi ilə bağlı partiyanın güzəştə getməyəcəyi açıqca bəyan edilirdi: «İllər boyu bir çox xəyanətkarlar və xaricilər bizim dilimizi məhv etmək və ya onun inkişafına mane olmaq üçün böyük səy göstərmişlər. Bu kimi meyllər xüsusilə də azadlıq düşməni Rza şah rejimi dövründə daha geniş vüsət almışdı. Amma biz öz dilimizdən dönməyəcəyimizi artıq hər kəsə göstərmişik». (12)

Köhnə Azərbaycan Demokratlarının dil məsələsinə olan münasibətinin ADF-nin bu məsələ ilə bağlı öz bəyannaməsində də ifadə olunan mövqeyi ilə müqayisə edilməsi Azərbaycan dilinin adi ünsiyyət vasitəsindən milli mənsubiyyətin təmsilçiliyinə doğru necə inkişaf yolu keçirdiyini açıqca nümayiş etdirir. Nə Xiyabani, nə onun yoldaşları, nə də ki, Pişəvəri ADF-də fəaliyyət göstərməyə başlamazdan əvvəl Azərbaycan dilinin istifadəsinin genişləndirilməsi üçün xüsusi səy göstərməmişdi. Rza şah tərəfindən fars dilindən başqa bütün digər dillərin sıxışdırılması məqsədilə həyata keçirilən qəti tədbirlərin qeyri-farsdilli ziyalılar təbəqəsinin nümayəndələri arasında narazılığın meydana gəlməsi-

nə səbəb olduğu inkar edilə bilməz. Lakin şahın dil sahəsində apardığı siyasətinin doğurduğu narazılıq heç vaxt bu məsələnin ADF-nin bəyannaməsində qoyulduğu şəkildə geniş bir proqram halını alması ilə nəticələnməmişdi. Ümumiyyətlə, etnik və milli mənsubiyyətin digər rəmzləri ilə yanaşı, dil də ictimai dəstək və inamın qazanılmasında xüsusi əhəmiyyət kəsb edir və dildən «sadə kütlələri tarixə gətirmək» üçün istifadə etmək olar. Pişəvəri də 1945-ci ilin sentyabrında məhz bunu edirdi.

1945-ci ilin sentyabrındakı Pişəvəri bir neçə il əvvəl, hətta bir neçə ay əvvəlki Pişəvəriyə qətiyyən bənzəmirdi. Belə ki, bu vaxta kimi o, Tehranda fars dilində nəşr olunan «*Ajir*» qəzetinin redaktoru kimi çalışmaqda idi. Eyni zamanda, Pişəvəri azərbaycanlıların kütləvi şəkildə etnosiyasi hərəkata qoşulmaları üçün israrla vurğulana biləcək və sinfi ayrılığı arxada qoyaraq azərbaycanlıları bütün digər iranlı həmvətənlərindən fərqləndirməməyə qadir birləşdirici amilə ehtiyac duyulduğunu başa düşürdü. Azərbaycan dilinin müdafiə olunması əyalətin əhalisinin bir arada birləşməsi üçün ən təsirli və cəmləşdirici nöqtə oldu. Bəziləri bu fikri irəli sürürdülər ki, Pişəvərinin dil məsələsi ilə bağlı narahatlığının birdən-birə üzə çıxması Sovet Azərbaycanının, xüsusilə də Bağırov və eyni zamanda daha böyük Azərbaycanın tərəfdarlarından olan Sovet yazıçısı Mirzə İbrahimov kimi şəxslərin təsiri ilə bağlı idi. (13)

Azərbaycanlılıq mənsubiyyəti üzərində qurulacaq yeni bir partiyanın təşkil olunmasında qarşıya çıxan əsas maneə Tudə Partiyasının mövcudluğu idi. Belə ki, mütərəqqi siyasi düşüncə sahiblərinin əksəriyyətini öz sıralarına cəlb etmiş Tudə Partiyası əyalətdə böyük nüfuza malik yeganə solçu partiya idi. Bu səbəbdən də, ilk baxışda ADF-nin köhnə milli solçu partiya olan, ən önəmlisi isə Sovet İttifaqı tərəfindən müdafiə edilən Tudə Partiyası ilə müvəffəqiyyətlə rəqabət aparması qeyri-mümkün görünürdü. Bundan əlavə, Tudə Partiyasının nizamnaməsi partiya üzvlərinə hər hansı bir digər siyasi partiyanın sıralarına qoşulmağa icazə vermədiyindən ADF-nin yaradıcıları üçün Tudə Partiyasının Azərbaycan əyalət komitəsini ləğv edərək onun üzvlərini ADF-yə daxil etməyə cəhd göstərməkdən başqa çıxış yolu qalmamışdı. Çox maraqlıdır ki, əyalət komitəsinin rəhbərliyi arasında bu kimi irəliləyişlərin son məqamda Tudə Partiyasının maraqlarına xidmət edəcək növdən olduğuna inanan şəxslər də mövcud idi. Onların fikrincə, bu yolla Tudə Partiyasının mərkəzi hökumətlə ziddiyyətli münaqişələrə girmə-

sinin qarşısı alınır və beləliklə də partiyanın paytaxtda öz hüquqi statusunu saxlamasına imkan yaranırdı.

Pişəvəri, Padeqan və Şəbüstəri arasında aparılan ilkin məsləhətləşmələrdən sonra Tudə Partiyasının əyalət komitəsinin sədri Padeqana komitənin buraxılması barəsində göstəriş verildi. Padeqanın Tehrana qısamüddətli səfərinin əsl səbəbi də Tudə Partiyasının Mərkəzi Komitəsinə artıq qəbul edilmiş bu qərar haqqında məlumat verməkdən ibarət idi. Bununla əlaqədar olaraq mərkəzi komitənin üzvlərindən və partiyanın *Məclisdəki* deputatlarından olan Firudin Keşavərz aşağıdakıları yazırdı: «Azərbaycan Demokrat Partiyasının elan edilməsindən bir gün əvvəl Tudə Partiyasının Mərkəzi Komitəsi mənim evimdə toplandı. Partiyanın qərargahı əsgərlər tərəfindən zəbt edildiyindən komitə mənim parlament toxunulmazlığımdan yararlanaraq evimdə toplanmışdı... Mən çağrıldığım zaman iclasda idim. Çünki partiyanın Azərbaycandakı əyalət təşkilatının katibi Padeqan Təbrizdən gəlmişdi və çox vacib işlərlə məşğul idi... Mən onu toplantıya apardım... O, toplantıda bunları dedi: «Mən Təbrizdən təzəcə gəlmişəm və dərhal geri dönməliyəm. Mən gəlmişəm ki, sizə bizim Azərbaycandakı partiya təşkilatımızın İran Tudə Partiyasından ayrılaraq Sovet həmkarlarımızın da razılığı ilə sabah elan olunacaq Azərbaycan Demokrat Partiyasının sıralarına qoşulacağı barəsində məlumat verim». Mərkəzi Komitə İrəc İsgəndəriyə Sovet İttifaqının Kommunist Partiyasına ünvanlanacaq etiraz məktubu yazılmasına dair tapşırıq verdi. Lakin bu məktuba heç vaxt cavab alınmadı». (14)

O vaxt Tudə Partiyasının birinci katibi vəzifəsində çalışan İrəc İsgəndəri öz xatirələrində Keşavərzin ADF-nin yaradıcılarının bu addımını «düşüncəsiz hərəkət» adlandıraraq heç bir sübut və dəlilə əsaslanmadan bəyanat verməsini təsdiqləyirdi. O yazırdı: «Tudə Partiyası bu *Firqənin* yaradılmasından tamamilə xəbərsiz idi. Bu səbəbdən də bu, onlar üçün olduqca gözlənilməz hadisə oldu... Biz artıq öz həllini tapmış bir məsələ ilə qarşı-qarşıya qalmışdıq. Biz tamamilə bunun əleyhinə idik».(15)

Sentyabrın yeddisində, ADF-nin yaradılmasından dörd gün keçdikdən sonra Tudə Partiyasının əyalət komitəsinin konfransı çağrıldı. Gündəlikdə duran yeganə məsələ əyalət komitəsini son yolculuğa uğurlamaq və komitə üzvlərinə ADF sıralarına qoşulmaq çağrışı ilə müraciət etməkdən ibarət idi.(16)

Əyalət komitəsinin fövqəladə konfransı partiyanın Azərbaycandakı 65700 üzvünü «təmsil edən» yüz on nəfərdən ibarət partiya fəallarının iştirakı ilə Təbrizdə açıq elan olundu. (17) ADF-nin yaradılmasının zəruriliyi uzun müddət müzakirə olunduqdan sonra konfransda ADF-nin əyalət komitəsini təşkil edəcək nümayəndələrdən beş nəfərin Tudə Partiyasının əyalət komitəsindən olması şərtilə ADF-yə birləşmə çağırışını özündə əks etdirən təklif irəli sürüldü. Nəticədə isə Qiyami, Padeqan, Şeyx Həsən Bürhani, Vaqif və Yadullah Kələntəri yeni vəzifələrə seçildilər. Eyni zamanda, Tudə Partiyasının üzvlüyündən kənar şəxslər kimi Pişəvəri, Şəbüstəri, Rəfiyi və Biriyanın əyalət komitəsinə namizədlikləri irəli sürüldü. Partiyanın bir sıra köhnə üzvləri üçün nə qədər çətin olsa da, ADF-yə birləşmə başa çatdı və ADF-nin üzvlərinin sayı 50-dən 65750-yə yüksəldi. (19)

ADF-nin yaradılması və Tudə Partiyasının əyalət komitəsi ilə birləşməsi Azərbaycanın hər yerində eyni dərəcədə rəğbətlə qarşılanmadı. Belə ki, Urmiya şəhərində ən çox etibar və nüfuz sahibi olan altı nəfərdən ibarət bir qrup partiyanın bəyannaməsində müəyyən kiçik dəyişikliklərin edilməsi şərtilə ADF-ni müdafiə etməyə razılıq verdi. (20) Zəncanda isə partiya şöbəsi ADF sıralarına qeyd-şərtsiz qoşulmağa tərəddüd göstərirdi. (21) Lakin bu meylsizlik və könülsüzlük halları ADF rəhbərliyini narahat edən məsələlərin ən kiçiyi hesab olunurdu. «*Azərbaycan*» qəzetində dərc olunan «*Güc birlikdədir*» başlıqlı məqalədə müəllif əyalət komitəsinin ADF-yə birləşmək qərarını alqışladıqdan sonra hələ də Tudə Partiyasının «prinsiplərinə» inananlara müraciət edərək onları əmin etməyə çalışırdı ki, Tudə Partiyasının əyalət komitəsinin *Firqəyə* birləşdirilməsi heç də partiyanın prinsiplərinin ADF-yə qəbul etdirilməsi demək deyil. Əksinə, bu ADF-nin proqramının qəbul edilməsi deməkdir. Daha sonra müəllif sözünə belə davam edirdi: «Bizim seçdiyimiz yol hər kəsə aydındır. Biz sinfi mübarizə aparmaq niyyətində deyilik. Bizim *Firqəmiz* milli firqədir. Xəyanətkarlardan və konstitusiyaya etiraz edənlərdən başqa hər bir azərbaycanlı *Firqəyə* daxil ola bilər». (22)

İngiltərənin Təbrizdəki baş konsulu da siyasi irəliləyişlərdə baş verən ən son dəyişiklikləri təsdiq edirdi. Tudə Partiyasını ADF ilə müqayisə edərkən o, ADF-nin açıq qapı siyasətini aşağıdakı şəkildə şərh edirdi: «Hər kəs Tudəyə aid ola bilməsə də, Demokrat olmaq imkanına sahibdir». (23)

ADF-nin 13 sentyabr 1945-ci il tarixdə keçirdiyi ilk konfransında Pişəvərinin rəhbərlik etdiyi on bir üzvdən ibarət əyalət təşkilat heyəti seçildi və partiyanın birinci qurultayının iyirmi gün ərzində keçirilməsi təklif olundu. (24) ADF-nin ilk qurultayı 2 oktyabrda Təbrizdə keçirildi. Bu qurultayda ölkənin otuz səkkiz mahalını, bələdiyyə və dairə komitələrini təmsil edən iki yüz qırx yeddi nümayəndə iştirak edirdi. (25) Nümayəndələrin müxtəlif tərkibə malik olması maraq doğururdu. Müxalifətə məxsus mənbələrə əsasən qurultayda iştirak edənlər arasında *hacı*, *molla*, *bazarqan*(tacir), *rəis-e il*(tayfa başçısı), *rouşənfekr*(ziyalı) və *Kommonest-e vəcih ol-melli* (tanınmış kommunist) kimi çox müxtəlif sosial vəziyyətə malik şəxslər var idi. (26)

ADF-nin üç gün davam edən qurultayının 5 oktyabrda bitməsi ilə partiyanın əlli bir maddədən ibarət nizamnaməsi nəşr olundu. ADF-nin yaradılmasının zəruriliyi və əhəmiyyətinin vurğulandığı geniş müqəddimədən sonra nizamnamədə ümumi siyasət, iqtisadiyyat, kənd təsərrüfatı, təhsil, incəsənət, ədalət, hərb və milliyyət kimi bir çox məsələlərdən bəhs edən hissə başlayırdı. Bu nizamnamədə qeyd olunan məsələlər ilkin bəyannamədə irəli sürülənlərdən bir o qədər də fərqlənmirdi. Həmin nizamnamədə öz əksini tapmış əsas məsələlər aşağıdakılardan ibarət idi:

- ADF özünü tamamilə İranın müstəqilliyi və ərazi bütövlüyünün mühafizəsinə həsr etməklə yanaşı, eyni zamanda Azərbaycanda mülki, iqtisadi və mədəni muxtariyyət anlayışlarını ehtiva edən *milli* və *yerli* muxtariyyətin yaradılmasına nail olmaq niyyətindədir.
- ADF bütün ölkədə demokratiyanın bərqərar olması üçün böyük səylə çalışacaq. Bu səbəbdən də, ADF ölkədə parlament seçkilərinə əsaslanan demokratik mərkəzi hökumətin yaradılmasının möhkəm tərəfdarıdır.
- ADF mövcud seçki qanunlarında dəyişikliklər aparmaqla səsvermə hüququnun ilk dəfə olaraq qadınlar da daxil olmaqla iyirmi yaşdan yuxarı hər kəsə şamil edilməsinə nail olmaq arzusundadır. İyirmi yeddi—səksən yaşları arasında olan istənilən şəxs isə seçilə bilər.
- ADF günlük iş vaxtını səkkiz saatla məhdudlaşdıran, uşaq əməyindən istifadəni qadağan edən, ticarət ittifaqlarını tanıyan və sosial müavinət hüququnun əsasını qoyan əmək qanunvericiliyinin qəbul edilməsini müdafiə edir.

- Azərbaycandan çıxıb getmiş torpaq sahiblərinin bütün torpaqları əyalət hökuməti tərəfindən müsadirə olunacaq və bütün qeyri-qanuni torpaq vergi növləri ləğv ediləcək.
- Azərbaycanda yaşayan azlıqların (məsələn, ermənilər, assurilər, kürdlər) öz ana dillərində oxumaq hüquqlarını da nəzərə alan ümumi, məcburi və azad təhsil yaradılacaq.
- Mövcud hərbi quruluşla bağlı olaraq bəzi demokratik tədbirlər həyata keçiriləcək.
- Azərbaycanlılar kimi başqalarından fərqlənən hər hansı bir *millətə* öz dilində danışmaq və eyni zamanda əyalət və vilayət şuraları vasitəsilə öz milli və yerli muxtariyyətlərindən istifadə etmək hüququ veriləcək. (27)

Əvvəl də qeyd edildiyi kimi, ADF-nin təsdiq olunmuş nizamnaməsi partiyanın ilkin bəyannaməsindən əsaslı surətdə fərqlənmirdi. Nizamnaməyə ümumi səsvermə hüququnun müəyyən edilməsi və orduda müəyyən islahatların aparılması kimi bir sıra yeni məsələlər əlavə olunmuşdu. Nizamnamədə «*millət*» termininden xüsusi şəkildə istifadə olunması da diqqət cəlb edirdi. Belə ki, ilkin bəyannamədə azərbaycanlılar *xalq* adı ilə təsbit olunurdularsa, bu nizamnamədə onlar İranda yaşayan digər *millətlər* kimi ayrıca bir *millət* olaraq təsvir olunurdular. Azərbaycanlılarla əlaqədar bu yeni terminin işlədilməsinə başlanılması heç də təsadüfü deyildi. Belə ki, ADF-nin nizamnaməsi nəşr olunmazdan hələ bir neçə gün əvvəl *milliyyət* və *vətəndaşlıq* məsələsi «*Azərbaycan*» qəzetində dərc olunan bir məqalədə ilk dəfə olaraq hərtərəfli şəkildə müzakirə olunmuşdu. Mahmud Əfşarın İranın birliyi və iranlılıq milli mənsubiyyətinə dair bir az əvvəl yazmış olduğu məqalədə bu məsələni xüsusilə vurğulamasına cavab olaraq «*Azərbaycan*» qəzetinin icmalçısı ADF-nin istifadə etdiyi istilahların mahiyyətindən tamamilə xəbərdar olduğunu belə açıqlayırdı: «*Milliyyət* və *vətəndaşlıq* istilahları tamamilə fərqli anlayışları əhatə edir. Biz özümüzü İranın *vətəndaşı* hesab etsək belə, öz azərbaycanlı *milliyyətimizi* də qoruyub saxlayırıq». (29)

ADF-nin ilk qurultayında nizamnamə ilə yanaşı Firqənin əsasnaməsi də tərtib olundu. Qurultayda da ifadə edildiyi kimi, ADF-nin təşkilat quruluşu Tudə Partiyasının iyerarxiya quruluşundan əhəmiyyətli dərəcədə fərqlənmirdi. Belə ki, təşkilatın ən aşağı təbəqəsi beş –yeddi

üzvdən ibarət idi və *hövzə* adlanırdı. *Hövzə* on beş –iyirmi bir üzvdən ibarət Mahal Komitəsi və iyirmi bir –iyirmi yeddi üzvdən ibarət Dairə Komitəsi ilə müşayiət olunurdu. Daha sonra isə otuz bir-qırx beş üzvü olan Mərkəzi Komitə gəlirdi. Bilavasitə Mərkəzi Komitə tərəfindən seçilən İcraedici Komitə yeddi –on bir üzvdən ibarət olmaqla *Firqənin* işlərinin aparılmasına cavabdeh idi. (30)

Qurultayın sonuncu iclasında nümayəndələr Pişəvərinin, həmçinin İntizam Komitəsinin on iki üzvünün rəhbərlik edəcəyi qırx bir üzvdən ibarət Mərkəzi Komitə seçdilər. (31) Mərkəzi Komitə tezliklə on bir nəfərdən ibarət İcraedici Komitə üçün səsvermə keçirsə də, *Firqənin* işlərinin aparılmasına əsasən beş nəfər –Pişəvəri, Şəbüstəri, Biriya, Cavid və Padeqan nəzarət edirdi. (32) Bunlardan da yalnız ikisi –Biriya və Padeqan daha əvvəl Tudə Partiyasında fəaliyyət göstərənlərdən idi.

Qurultaydan sonrakı bir ay ADF üçün qısa fasilə dövrü hesab olunur. Belə ki, bu vaxt ərzində ADF hücuma keçmək üçün hazır vəziyyətdə dayanmışdı. Öz təşkilatını genişləndirərək bütün Azərbaycana yayan partiya rəhbərliyinin indi qarşısına qoyduğu əsas məsələ irəliyə doğru daha bir addım ataraq əyalətin hakimiyyətini tamamilə ələ keçirmək idi. 8 noyabrda *Firqənin* Mərkəzi Komitəsi özünün ilk plenumunu çağırdı. ADF-nin rəsmi orqanı olan «*Azərbaycan*» qəzetində dərc olunan «*İkinci dövrənin şüarları*» başlıqlı məqalədə plenumun gedişatı təsvir olunur və onun çox mühüm nəticələr verəcəyinə olan inam ifadə edilirdi. Bu plenumun nəticələri həmin məqalədə aşağıdakı şəkildə yekunlaşdırıldı:

- ADF-nin tarixində ilk mərhələ hesab olunan, *Firqənin* əsasən öz təşkilatının bütün əyalətə genişləndirilməsi ilə məşğul olduğu bu dövr indi başa çatmışdır.
- ADF-nin əvvəlcədən həyata keçirdiyi bütün tədbirlər ikinci mərhələyə keçə bilmək üçün zəruri sayılan əməli addımların atılması ilə əlaqədar idi. İkinci mərhələ isə muxtariyyət quruluşuna əsaslanan hökumətin təsis edilməsindən ibarət olacaqdır.
- ADF-nin görəcəyi növbəti tədbir Azərbaycanda əyalət və vilayət şuralarının yaradılması olacaqdır.
- Əyalət və vilayət şuraları təsis edildikdən sonra bu yaxınlarda formalaşdırılacaq on beşinci *Məclisə* Azərbaycandan deputatların seçilməsi vaxtı gəlib çatacaq . (33)

«*Azərbaycan*» qəzetində dərc olunan bu məqalədə gözlənildiyi kimi, plenumun hərb sahəsində əməli tədbirlərin alınması məsələsi ilə əlaqədar qəbul etdiyi qərara da toxunulur. Mərkəzi Komitənin üzvlərindən olan Çeşm Azərə görə başı siyasi fərmanların verilməsinə qarışan plenumun qarşı-qarşıya qaldığı ən böyük çətinlik bu tədbirlərin əməli olaraq necə həyata keçirilməsi sualı ilə əlaqədar idi. (34)

Belə görünür ki, plenumda iştirak edənlər arasında hərbi əməliyyata başlanılmasının əleyhinə çıxan yox idi. Lakin əsas məsələ Təbrizdə və bir sıra digər böyük şəhərlərdə eyni zamanda silahlı qiyama başlanılmasına üstünlük verilməsi, yoxsa əyalətdə mərkəzi hökumətə məxsus bütün kazarmaları tərk-silah etmək uğrunda mübarizə aparmaq məqsədi daşıyan kiçikmiqyaslı və qısamüddətli partizan hərəkatına başlanılması barəsində strategiyanın qəbul edilməsi ilə əlaqədar idi. Mərkəzi hökumət bu məsələyə olduqca gözlənilməz münasibət göstərdiyindən plenum partizan hərəkatına başlanılmasına üstünlük verərək bu variantı seçdi. (35)

Plenum keçirildikdən qısa müddət sonra ADF *Fədailər* adlanan qeyri-nizami qoşun şəklində silahlı qrupların təşkil edilməsinə başladı. Bir neçə ay sonra *Qızılbaş* adı ilə daha çox nizami qoşunu xatırladan ordu yaradılsa da, *Fədai* silahlı dəstələri ADF-nin hərbi dayağı kimi qarşıdan gələn hadisələrdə həlledici rol oynamağa davam etməkdə idi. *Fədailəri* təşkil edənlər əsasən kənd yerlərindən toplanmışdı. Onlar ölkənin jandarmasına alternativ olaraq təqdim olunurdular.

*Fədailərin* sıralarına yeni cəlb olunanların təlimatlandırılması vəzifəsini öz üzərinə götürən zabitlərin əksəriyyəti mərkəzi hökumətə məxsus ordunu tərk etmiş şəxslər idi. Bu zabitlər İranın müxtəlif hissələrindən gəlmişdilər. Lakin onların əsasını hələ bir neçə ay əvvəl İranın şimal-şərqində partizan müharibəsinə başlamaq barəsində uğursuz cəhd göstərdikdən sonra Sovet İttifaqına qaçan xüsusi qiyamçı zabitlər təşkil edirdilər. (36) Şahoğlanda yaşayan iyirmi səkkiz zabitin yeddisindən ibarət ilk qrup İran Azərbaycanı sərhədini keçərək noyabr ayının ortalarında Təbrizə yetişdilər. Bu qrup iki polkovnik, üç kapitan və iki leytenantdan ibarət idi. Tezliklə, on nəfər leytenantdan ibarət ikinci bir qrup həmin yolla sərhədi keçərək bu zabitlərə qoşuldu. Artıq 1945-ci ilin dekabr ayının əvvəllərində bu zabitlərin, demək olar ki, hamısı Azərbaycanın fərqli bölgələrində fəaliyyət göstərməyə başlamışdı. Çox

maraqlıdır ki, bu zabitlərin əksəriyyətini İranın qeyri-Azərbaycan dilli bölgələrindən gələnlər təşkil edirdilər. Bu səbəbdən də onlar öz yerli yoldaşları kimi mübahisə doğuran dil məsələsindən bilavasitə təsirlənmirdilər. (37) Başlanğıcda bu zabitlərin böyük əksəriyyətinin Azərbaycan əsilli olmaması bir o qədər mühüm məsələ sayılmasa da, muxtar hökumətin mövcudluğunun sonlarına yaxın zabitlərin etnik kökləri ADF-nin rəhbərliyindən də bir sıra üzvlərin daxil olduğu ayrıca bir qrup üçün həyati əhəmiyyət kəsb etməyə başladı.

Artıq noyabrın axırlarında *Fədailərdən* ibarət silahlı dəstələr əyalətin qərb və şimal-qərb ərazilərində öz hücumlarına başlamışdılar. *Fədailər* tərəfindən tutulan ilk şəhərlərə Marağa, Mərənd, Miyanə, Sərab və Ərdəbil daxil idi. Noyabrın 25-də partizan qüvvələri paytaxt Tehrandan qərbdə, iki yüz mildən az bir məsafədə yerləşən Zəncan şəhəri yaxınlığındakı mövqelərə doğru irəlilədilər. Zəncan şəhəri inzibati cəhətdən Azərbaycan əyalətinə daxil olmasa da, əhalisinin böyük əksəriyyəti azərbaycanlılardan ibarət olduğundan mədəniyyət nöqteyi-nəzərindən Azərbaycanın qərb sərhədi hesab olunurdu.

*Fədailərin* bu şəhərlərdə hakimiyyəti ələ keçirərkən qazandıqları müvəffəqiyyətlər qismən də olsa, hələ də əyalətdə öz nüfuzunu qoruyub saxlayan Sovet ordusu tərəfindən qeyri-fəal şəkildə müdafiə olunmalarından irəli gəlirdi. ADF-ni dəstəkləmək məqsədilə Sovet ordusunun həyata keçirdiyi ilkin tədbirlərə misal olaraq 1941-ci il işğalı zamanı müsadirə olunmuş İran ordusuna məxsus silahların *Fədailərə* təslim olunması və eyni zamanda Azərbaycanda yerləşən mərkəzi ordunun tədarüklə təchiz olunmasında çətinlik yaratmaq üçün nəqliyyatın gedişatına maneçilik törədilməsini qeyd etmək olar. (38) Yerli qarnizonları möhkəmləndirmək məqsədilə Azərbaycana doğru hərəkət edən İran hökumətinə məxsus qoşunlar Tehran yaxınlığında Sovet yoxlama məntəqəsində dayandırıldığı vaxtdan etibarən *Fədailərin* Sovetlər tərəfindən müdafiə olunması yeni və daha fəal mərhələyə qədəm qoymuş oldu.

İran Xarici İşlər Nazirliyi tərəfindən 17 noyabrda Sovet hakim dairələrinə göndərilən rəsmi memorandumda Sovet İttifaqına İranın daxili işlərinə müdaxilə etməmək barəsində öhdəliyin qəbul edildiyi 1942-ci il 29 yanvar tarixli Üçtərəfli Müttəfiqlik Sazişini imzalamış olması xatırladılır və İran tərəfinin etirazı ifadə edilirdi. Elə həmin memorandumda Sovet İttifaqına bildirilirdi ki, mərkəzi hökumət Azərbaycanda

yerli hökumət qüvvələrini möhkəmləndirmək və nizam-intizamı bərpa etmək məqsədilə əyalətə iki batalyon və jandarmalardan təşkil olunmuş xüsusi dəstə göndərmək niyyətindədir. (39) Buna baxmayaraq, bir neçə gün sonra yuxarıda adları çəkilmiş qoşunlar Tehrandan Azərbaycana doğru hərəkət etmək üçün yola çıxdıqda gözlənilməz şəkildə Şərifabadda Qırmızı Ordu tərəfindən dayandırıldı. Bir çox müşahidəçilər tərəfindən bu vəziyyət təhlükəli hal kimi dəyərləndirilsə də(40), ADF-nin ulduzunun yüksəlişdə olduğu son dərəcə açıq idi.

10 noyabrdan 20 noyabra qədər keçən on gündə ADF kütlələrin, çoxluğun maksimum dəstəyini qazanmaq üçün böyük səylə çalışırdı. Həmin on gün ərzində Azərbaycanın əksər böyük şəhərlərində eyni vaxtda yaxşı planlaşdırılmış yığıncaqlar təşkil olunurdu. Bütün bu toplaşmaların əsasında əyalət və vilayət şuralarının ən qısa vaxt ərzində yaradılması ilə bağlı tələblər dururdu. (41) Əksər toplaşmalar isə yığıncaq iştirakçılarının yaxın gələcəkdə Təbrizdə çağırılması planlaşdırılan məclisdə onları təmsil edəcək nümayəndə heyətinin üzvlərinin təyin edilməsi üçün seçkilərin keçirilməsi ilə bağlı təhrikedici müraciəti ilə başa çatırdı.

1945-ci ilin 20 noyabrında 150000 azərbaycanlını təmsil edən 724 nəfər «nümayəndə» ilk əvvəllər Azərbaycan Milli Konqres adlandırılan yığıncaqda iştirak etmək üçün Təbrizə gəldilər. Qurultayın ikinci iş gününün sonunda nümayəndələr daha qətiyyətli və hörmətli səslənən Azərbaycan Konstitusiya *Məclisi* adını qəbul etdilər. (42) *Məclisin* səlahiyyətinin qanunilik baxımından mübahisəli olmasına baxmayaraq (43) *Məclis* tərəfindən «Əlahəzrət Şahənşaha, *Məclisin* sədri cənablarına və Baş nazir cənablarına» ünvanlanmış müraciətdə baş vermiş hadisələrin səbəbi aşağıdakı şəkildə izah olunurdu: «Tarixən başına burada adlarının çəkilməsi mümkün olmayan saysız-hesabsız işlər və böyük hadisələr gəlmiş Azərbaycan xalqının öz milliyyəti, dili, adət-ənənələri və bir sıra digər özünəməxsus xüsusiyyətləri vardır. Bütün bu xüsusi keyfiyyətlər Azərbaycan xalqına İranın müstəqilliyinə və ərazi bütövlüyünə hörmət etməklə yanaşı, Atlanta sazişində də göstərilənlərə əsasən dünyanın bütün digər millətləri kimi azad yaşamaq və öz müqəddəratını təyin etmək hüququ verir. Azərbaycan xalqı siyasi, iqtisadi və mədəni tellərlə İranın digər əyalət və vilayətləri ilə bağlılığa malikdir. İran hökumətinin yaradılmasında böyük fədakarlıqlar edən Azərbaycan xalqı indi *milli muxtariyyət* axtarışındadır. Qeyd etmək lazımdır ki,

mövcud İran hökumətinin əsası həqiqətdə azərbaycanlılar tərəfindən qoyulmuşdur. Lakin azərbaycanlılar *milli muxtariyyət* arzularının həyata keçirilməsinə nail olmaqla, hər hansı şəkildə İranın öz ərazilərini itirməsinə və ya parçalanmasına səbəb olmaq niyyətində deyillər. Azərbaycan xalqı İranda konstitusiya ilə səciyyələnən demokratiyanın dönməz tərəfdarıdır. İranın bütün digər əyalətləri və şəhərləri kimi, Azərbaycan da *Məcles-e Şura-ye Melliyə* (Milli Parlament) öz nümayəndələrini göndərərək sadəcə vergilərin ödənilməsində iştirak edəcək». (44)

Daha sonra həmin nitqə Azərbaycan Muxtar Hökumətinin funksional quruluşu aşağıdakı şəkildə təsvir olunmaqla davam edilir: «Azərbaycan Milli Konqresi tərəfindən Azərbaycanın daxili işlərini idarə edəcək otuz doqquz nəfərdən ibarət Milli Komissiya seçiləcək. Bu Komissiya millətin arzularını həyata keçirmək və Mərkəzi Hökuməti təmsil edən səlahiyyətli şəxslərlə müzakirələr aparmaq üçün bütün lazımi tədbirləri alacaq. Eyni zamanda, bu Komissiya *Azərbaycan Milli Məclisinə*, həmçinin Milli Parlamentə seçkilərin keçirilməsini təmin edəcək». (45)

Sonralar Konstitusiya Məclisi adlandırılan Milli Konqres öz işini başa vurarkən həqiqətən də, Şəbüstərinin rəhbərliyi ilə otuz doqquz nümayəndədən ibarət *Heyət-e Melli* adlanan Milli Komissiya seçdi. Komissiyanın əsas vəzifəsi əyalət məclisinə, yəni *Milli Məclisə* seçkilərin keçirilə bilməsi üçün lazımi zəmin hazırlamaq və eyni zamanda bütün zəruri tədbirləri həyata keçirməkdən ibarət idi. (46) Konqresin gedişatını əks etdirən sənədlərə görə bəzi deputatlar yaradılacaq məclisin adının əvvəlki kimi, yəni *Əncümən-e Əyaləti* (Əyalət Şurası) kimi saxlanılmasını dəstəkləsələr də bir sıra «radikallar» onun *Milli Məclis* kimi adlandırılmasının qəbul edilməsinə müvəffəq oldular.

Beş gün davam edən seçkilər 27 noyabrda başlandı. Bu seçkilər İran parlament tarixində qadınların da iştirak etdiyi ilk seçkilər idi. (47) ADF-yə məxsus sənədlərdə *Milli Məclisə* keçirilən seçkilərdə verilən səslərin sayı barəsində heç bir məlumat yoxdur. Qeyd edilən yeganə dəqiq məlumat Təbriz şəhərindəki seçkilər zamanı namizədlikləri irəli sürülmüş on iki deputata verilən səslərin sayı ilə əlaqədar idi. Bu rəqəmi 23951 səs təşkil edirdi. (48) Həmin səslərin verildiyi on iki namizəd isə Pişəvəri, Biriya, Qiyami, Padeqan, Cavid, Rəfiyi, Şəbüstəri, İlhami, Nikcu, İpəkçiyan, Maşinçi və Azimidən ibarət idi.

Belə bir məqamda 200000 nəfər üzvə (49) və 100 nəfərdən ibarət regional parlamentə (50) sahib olan ADF bütün əyalətdə idarəçiliyə yiyələnmək üçün hazır vəziyyətdə idi. Pişəvəri tərəfindən verilən rəsmi bəyannamədə ADF-nin tarixində başlanan yeni dövr aşağıdakı sözlərlə ifadə olunurdu: «Allah köməyə yetişdikdə və qələbə anı gəlib çatdıqda, görəcəksiniz ki, insanlar dinə qoşulacaqlar, onların sıraları get-gedə artacaq. (Quran) Azərbaycan öz tarixində yeni bir mərhələyə qədəm qoymuşdur. *Milli Məclisə* keçirilən seçkilərdə əldə edilən böyük müvəffəqiyyət indi hakimiyyəti ələ keçirmək üçün ən uyğun vaxtın gəlib çatdığını açıqca nümayiş etdirir». (51)

On səkkiz ay əvvəl, Tehranda *Məclis* tərəfindən Pişəvərinin etimadnaməsinin qanuniliyinin mübahisəli məsələ kimi müzakirə olunduğu və onun sərt və hədələyici dili ilə diqqəti öz üzərinə çəkən, 16 iyun 1944-cü il tarixli məşhur bəyanatının nəşr edildiyi bir vaxtda, Pişəvəri ağlına belə gətirə bilməzdi ki, iki ildən qısa bir müddətdə *Baş vəzir (*Baş nazir) vəzifəsini tutaraq Azərbaycanda öz hökumət kabinetinin başında duracaq. Pişəvəri mötədil siyasətçi surəti yaratmağa müvəffəq ola bilmişdi. Belə ki, o, Azərbaycanın müasir cəmiyyətində İslami dəyərlərin mövcudluğunu yaxşı dərk edirdi və zamanı gəldikdə onlardan lazımi şəkildə istifadə etmək qabiliyyətinə malik idi. (52) Eyni şəkildə, o, daha geniş ictimai kütlələrə xitab edən siyasi təşkilatın yaradılmasına ehtiyac duyulduğunu və bu təşkilatın müraciət etdiyi kütlələrin sayının hətta siyasi cəhətdən solçu partiya olan Tudə Partiyasınınkı ilə müqayisədə çoxluq təşkil etməli olduğunu başa düşürdü. ADF-nin quruluşu və yeritdiyi siyasət qocaman Pişəvərinin baxış və görüşlərindəki dəyişiklikləri özündə əks etdirirdi. Belə ki, bu baxışlar gənc Pişəvərinin görüşlərindən tamamilə fərqlənirdi. Çünki bir kommunist kimi gənc Pişəvərinin siyasi təşkilat barəsindəki təsəvvürləri başlıca olaraq inqilabçılara həsr edilmiş təməl üzərində qurulan bir anlayışa əsaslanırdı.

## PARTİYA RƏHBƏRLİYİNƏ BİR BAXIŞ

İrandakı konstitusiya dövrünün səciyyəvi xüsusiyyətlərindən biri də, cəmiyyət barəsindəki anlayışları Qərb, yəni Avropa mənşəli sosial-siyasi ideyalara əsaslanan ziyalı təbəqəsinin meydana çıxması idi. Həmin ziyalıların siyasi baxışlarında mövcud olan müxtəlifliklərə baxma-

yaraq, onları, iranlı ziyalı təbəqəsinin «mostəfrəng» adlanan, yəni Qərbə meyl göstərən üzvlərini ölkənin öz daxilində yetişən əksər təhsilli və savadlı fərdlərdən ayıran ümumi cəhət onların düzgün hesab etdikləri cəmiyyət quruluşu barəsindəki anlayışlarından ibarət idi. Cəmiyyətin Qərb, yəni Avropayönlü modeli isə millət və dövlət anlayışlarının fərqli cəhətləri ətrafında birləşən, bir-birilə əlaqəli sinif və təbəqələrdən ibarət cəmiyyətin yaradılmasını nəzərdə tuturdu. İfrat mühafizəkar sağçılardan tutmuş radikal solçulara qədər siyasi düşüncə sahibi olan bütün iranlı ziyalılar siyasi fəaliyyətin bu iki anlayışın, yəni millət və dövlət anlayışlarının əsl mahiyyəti arasındakı əlaqələrin tənzimlənməsindən ibarət olması barəsində yekdil fikrə sahib idilər.

Ayrı-ayrı siyasi düşərgələrə mənsub olmalarına baxmayaraq mühafizəkar konstitusiyaçı Seyid Həsən Tağızadə də, daha liberal düşüncəli ziyalı Mahmud Əfşar da, 1930-cu illərin görkəmli marksisti Tağı Ərani də cəmiyyətə milli mənsubiyyət nöqteyi-nəzərindən deyil, sinfi cəhətdən yanaşırdılar. Tağızadə İngiltərədə mühacirətdə olmuş, Əfşar öz ali təhsilini Fransada almışdı. Ərani isə ilk dəfə olaraq marksizmlə Veymar Respublikası dövründə Almaniyada tanış olmuşdu. Bu üç şəxsin siyasi taleyi bir o qədər bənzər olmasa da, onların Qərbdə, yəni Avropada əldə etdikləri təcrübə oxşar sosial-siyasi ideyalara malik olmalarına gətirib çıxartmışdı. Əgər bu ziyalıların siyasi düşüncələri Çar Rusiyasından, sonralar isə inqilabi Sovet İttifaqından qaynaqlanmış olsaydı, onların baxışları da tamamilə fərqli olardı.

Əvvəl də qeyd edildiyi kimi, islahatçı demokratlar arasında əyalət səviyyəsində siyasi dəyişikliklərə nail olmağa çalışan ilk siyasi şəxsiyyət Xiyabani idi. Bu dəyişiklikləri həyata keçirmək məqsədilə Xiyabani öz keçmiş yoldaşları olan Bahar və ya Süleyman Mirzə İsgəndərinin yolu ilə getməmək üçün əlindən gələni edirdi. İrandakı «millətlərin» öz müqəddəratını təyin etmək hüququnu müdafiə edən bir sıra İran Kommunist Partiyası rəhbərləri siyasi baxış cəhətdən Xiyabani ilə aralarında mövcud olan fikir ayrılığına tab gətirə bilmədiklərindən sonralar Xiyabaninin regional hərəkat və mərkəzi hökumət barəsindəki ideyalarını davam etdirməyə başlamışdılar. Qeyd etmək lazımdır ki, Xiyabani və Kommunist Partiyasının sonrakı rəhbərlərinin əksəriyyəti Çar Rusiyasındakı mövcud sosial mühitlə yaxından tanış idilər. Belə ki, onlar həyatlarının böyük bir hissəsini Rusiyanın müstəmləkəliyi altında olan Qafqazda keçirmişdilər.

Digər tərəfdən, Tudə Partiyasının rəhbərləri isə Rza şah dövründə böyümüş və Qərbi Avropa məktəbinə məxsus siyasi biliklərə dərindən yiyələnmişdilər. Belə ki, onlar marksist olmalarına baxmayaraq, partiyanın fəaliyyətə başladığı ilk günlərdə Kommunist Partiyasındakı sələflərinin izi ilə getmək yerinə iranlı ziyalı təbəqəsinin «mostəfrəng» ənənəsini davam etdirirdilər. Qeyd etmək lazımdır ki, Tudə Partiyasının əsasının qoyulmasında iştirak edən on beş görkəmli siyasətçidən altısı ali təhsilini Qərbi Avropada, ikisi isə Tehranda almışdı. Onlardan yalnız ikisi Sovet İttifaqında təhsil almışdı.(53) Abrahamiyan Tudə Partiyasının rəhbərlərini kommunizmə Bolşevik Partiyasının leninizmi vasitəsilə deyil, Qərbi Avropanın marksizmi yolu ilə gələn fars ziyalıları kimi təsvir edərkən bu siyasətçilərin xaricdə təhsil almalarının əhəmiyyətini xüsusilə vurğulayırdı.(54)

Bütün bunlardan fərqli olaraq, ADF rəhbərliyində bilavasitə Qərblə, yəni Avropa ilə əlaqədə qazanılan təcrübəyə əsaslanan, keçmişə sahib kimsə yox idi. Belə ki, ADF-nin yeddi mühüm rəhbərinin yeddisi də (Pişəvəri, Şəbüstəri, Padeqan, Cavid, Kəviyan, Daneşyan və Biriya) ya Çar Rusiyasında, sonralar isə Sovet İttifaqında oxumuş, təhsil almış ya da ki siyasi fəalliyyətlərinin böyük bir qismini orada keçirmişdi.

Əvvəllər Cavadzadə Xalxali olaraq tanınan Mir Cəfər Pişəvəri 1892-ci ildə Şərqi Azərbaycanın Xəzər dənizi yaxınlığında yerləşən Xalxal şəhərində anadan olmuşdur.(55) 1905-ci ildə o, İranı tərk edərək Qafqazdakı neft yataqlarında özünə iş axtaran atası ilə birlikdə Bakıya getmişdi. Pişəvəri bir jurnalist kimi öz fəaliyyətinə 1917-ci ildə, Bakıda Azərbaycan dilində çıxan «Açıq söz» qəzetində məqalə yazmaqla başlamışdı.(56) Daha sonra isə o, *Firqe-ye Demokrat-e İranın* (İran Demokrat Partiyasının) Bakı Komitəsinin rəsmi orqanı olan *«Azərbaycan-e Coze-la-Yənfək-e İran»* («İranın ayrılmaz hissəsi Azərbaycan») qəzetində məqalələr yazmaqla öz jurnalistika fəaliyyətini davam etdirirdi. (57)

Firqe-ye Ədalətə (Ədalət Partiyasına) qoşulduqdan sonra Pişəvəri 1919-cu ilin ortalarında partiyanın iki dildə çıxan «Hürriyət» qəzetinin və eyni qəbildən olan «Yoldaş» qəzetinin baş redaktoru təyin olundu. Onun məqalələri, adətən, İran hökumətinin yeritdiyi siyasətin tənqid edilməsi və «proletariat inqilabının» təbliğ olunması ilə yanaşı sosial dəyişikliyə duyulan ehtiyacın ifadə olunması ilə başlanırdı. O, məqalələrini vətənpərvər ruhda yazmaqla yanaşı, eyni zamanda İranın gör-

kəmli tarixə və milli mənsubiyyətə malik millətə sahib olduğunu vurğulayırdı. «İranda inqilabi fikir lazımdır» başlıqlı məqalədə Pişəvəri «İranın adət-ənənələrindən» fəxrlə bəhs etdikdən sonra aşağıdakıları əlavə edirdi: «Məlum faktdır ki, iranlılar qədim tarixə malik millətdirlər. Keçmişdə yaşadığı hədsiz-hesabsız acılara, bütün eniş və çıxışlara, qəbul etdiyi bir çox dinlərə və inanclara baxmayaraq, İran milləti altı min illik mədəniyyəti və adət-ənənələrini mühafizə edib saxlaya bilmişdir».(58) Onun öz fikrini yekunlaşdırarkən gəldiyi nəticə heç də gözlənilməz deyildi. Məqalənin sonunda o, qeyd edirdi ki, yalnız proletariat inqilabı İran tarixinin davam etdirilməsinə nail olmağa qadirdir.(59)

İranın şimal əyaləti olan Gilanda Cəngəlinin qiyamı nəticəsində baş verən çevriliş bir inqilabi jurnalist kimi Pişəvərinin fəaliyyətinə son qoydu. Belə ki, 1920-ci ilin may ayının axırlarında o, Kuçek Xanla «əlaqələr yaratmaq» məqsədilə Firqe-ye Ədalətin İkinci missiyasının üzvü kimi Gilana göndərildi. (60) Gilanda partizan müharibəsinin davam etməsi mərkəzi hökumətin bu bölgədəki hakimiyyətini sarsıdırdı.

1920-ci ilin iyununda Kommunist Partiyası ilə əməkdaşlıq nəticəsində Gilanda «Sovet Sosialist İran Respublikası» kimi tanınan respublikanın qurulması Cəngəli hərəkatının tarixində ən yüksək nöqtəni təşkil edirdi. Olduqca qısa ömür sürən bu hökumətin ilk kabinetində Kuçek Xan respublikanın baş komissarı vəzifəsini daşıyırdı. Lakin kommunistlər və cəngəlilərin bal ayı uzun müddət davam edə bilmədi. Belə ki, Kommunist Partiyası tərəfindən təşkil olunmuş qiyam nəticəsində Kuçek Xan devrildi və ikinci kabinet yaradıldı. Bu kabinetdə Pişəvəri də yer alırdı. Belə ki, ona respublikanın Daxili İşlər Komissarlığının idarə edilməsi həvalə olunmuşdu.(61) Bundan əlavə, öz jurnalistika fəaliyyətinə davam edən Pişəvəri Kommunist Partiyasının Gilanın paytaxtı olan Rəştdə nəşr edilən «Komonist-e İran» (İran Kommunisti) adlı qəzetinə redaktorluq edirdi.(62) Lakin bu qəzetin fəaliyyəti cəmi bir neçə ay davam etdi.

1920-ci ilin sentyabrında Bakıda Şərq zəhmətkeşlərinin məşhur qurultayı keçirildi.(63) Qurultayda iştirak edən iranlı nümayəndələrin siyahısında Pişəvərinin (Cavadzadə) adı çəkilməsə də (64), iştirakçılardan birinin verdiyi məlumata görə Pişəvəri qurultayda iştirak etmək üçün Kommunist Partiyası tərəfindən təyin edilən qrupun üzvləri arasında idi.(65)

İrana qayıtdıqdan sonra Cəngəli hərəkatının dərin böhranla qarşı-qarşıya qaldığını görən Pişəvəri yenidən Sovet İttifaqına getdi. Lakin bu dəfə o, İran Kommunist Partiyasının Təbriz Komitəsinin nümayəndəsi kimi Kominternin (Kommunist İnternasionalı) 1921-ci ilin iyun–iyul aylarında Moskvada keçirilən III qurultayında iştirak etmək məqsədilə Sovet İttifaqına getmişdi.(66)

1922-ci ildə ikinci dəfə İrana geri dönən Pişəvəri Tehranda yaşamağa başladı. Burada o, ölkədə yenicə yaranan ticarət ittifaqı hərəkatının fəal iştirakçılarından birinə çevrilərək həmin hərəkatla əlaqədar olan və tezliklə böyük nüfuz qazanan *«Həqiqət»* adlı qəzetin nəşrinə başladı.(67) Bu qəzetin hökumət tərəfindən bağlanması Pişəvərinin həyatında yeni bir mərhələnin başlanmasına təkan verdi. Belə ki, növbəti səkkiz il ərzində o, tədricən peşəkar və yorulmaz inqilabçılıq fəaliyyətindən uzaqlaşaraq özünü özəl sektorda qətiyyətli və çalışqan bir xidmətçi kimi möhkəmləndirməyə başlamışdı. Lakin bəziləri həmin dövrdə Pişəvərinin hələ də, gizli Kommunist Partiyası ilə əlaqədə olduğuna inanırlar.(68) 1930-cu ildə Pişəvərinin həbs edilməsi onun tamamilə qeyri-fəal hesab edilən siyasi həyatına son qoydu.(69) Pişəvəri həyatının növbəti on ilini keçirdiyi həbsxanada marksistlərin «Əlli üçlər» kimi tanınan məşhur yeni, gənc nəsli ilə yaxından tanış olmaq imkanı əldə etdi. Pişəvəri onların fikirləri ilə heç də həmişə razılaşmırdı. Əslində, Pişəvəri bu gənc marksistlərin siyasi təcrübələrinin kifayət qədər olmadığı və arxalarında himayədar burjuaziyanın dayandığı düşüncəsində olduğundan, onlarla münasibətində barışmazlıq xəttini əsas götürmüşdü. Pişəvərinin onlara qarşı belə tənqidi münasibətdə olması onun Tudə Partiyası ilə gələcək əlaqələrinə də öz təsirini göstərmişdi.(70) 1940-cı ildə onun həbs cəzası daxili sürgünlə əvəz olundu. Beləliklə, Pişəvəri Kaşanda yaşamağa məhkum edildi. Lakin bir il sonra o, yenidən Tehrana qayıtdı və «Ajir» adlı növbəti qəzetinin işıq üzü görməsi üçün hazırlığa başladı.(71)

Pişəvəri 29 sentyabr 1941-ci ildə Süleyman Mirzənin evində yeni Tudə Partiyasının əsasının qoyulması məqsədilə təşkil olunmuş toplantıda iştirak etsə də, həmin anda partiyaya qoşulmaqdan imtina etmişdi. (72) İrəc İsgəndəri qeyd edir ki, Pişəvərinin Tudə Partiyasına qoşulmaq barədə tərəddüdləri uzun çəkmədiyi kimi, onun partiya üzvlüyündə qalması da bir o qədər çox davam etmədi. Yenə də İrəc İsgəndəri qeyd

edir ki, Tudə Partiyasının I qurultayında Pişəvərinin partiyadan çıxarılması barədə qərar qəbul edildi. Belə ki, Pişəvəri keçmiş şahın ölümü ilə əlaqədar olaraq başsağlığı dərc etdirdiyindən, partiyanın prinsiplərinə zidd hərəkət etməkdə günahlandırılırdı.(73)

Pişəvərinin həyatı ilə bağlı mübahisəli məsələlər təkcə onun fəaliyyətinin ilkin dövrü ilə məhdudlaşmır. Belə ki, onun ölümü həm ADF-nin köhnə müdafiəçiləri, həm də Stalin dövrü üzrə mütəxəssisləşən Sovet tarixçiləri tərəfindən şübhəli qarşılanmış və bir çox sualların meydana çıxmasına səbəb olmuşdu. Pişəvəri 1947-ci ildə, Azərbaycan Muxtar Hökumətinin süquta uğraması və ADF rəhbərliyinin ölkədən qaçmasından bir il sonra Sovet Azərbaycanında həyatını itirmişdi. Sovet hakim dairələri rəsmi şəkildə onun ölüm səbəbini avtomobil qəzası olaraq göstərmişdilər. Lakin Pişəvərinin avtomobil qəzasından sonra aparıldığı xəstəxanada Stalin və Bağırovun göstərişi ilə qətlə yetirildiyini iddia edən son dərəcə tutarlı mənbələr də mövcuddur.(74)

Hacı Mirzə Əli Şəbüstəri 1898-ci ildə Təbrizin şimal-qərbində yerləşən Şəbüstər şəhərində anadan olmuşdur. Ənənəvi dini məktəb olan məktəbxanada təhsilini başa vurduqdan sonra o, atası kimi bazarda xırda tacir olaraq çalışmağa başlamışdı. O, Xiyabani üsyanında iştirak etdiyindən Sovet Azərbaycanına qaçmış və 1941-ci ilə qədər orada yaşamışdı.(75) 1941-ci ilin oktyabrında İrana qayıdan Şəbüstəri Azərbaycan Cəmiyyətinin əsasını qoymuş və bir ay sonra Azərbaycan dilində çıxan «Azərbaycan» adlı günlük qəzetin nəşrinə başlamışdı. 1942-ci ilin fevralında o, Azərbaycan antifaşist cəmiyyətinə qoşulmuş, iki ay sonra isə Tudə Partiyasının Azərbaycandakı ilkin özəyinin üzvü kimi fəaliyyət göstərməyə başlamışdı. Lakin onun Tudə Partiyasındakı üzvlüyü olduqca qısaömürlü olmuşdu. Belə ki, 1943-cü ildə o, partiya sıralarından uzaqlaşdırılmışdı. Şəbüstəri heç bir zaman icraçı bir vəzifə daşımasa da Azərbaycan Milli Məclisinin başında durduğundan ADF daxilində böyük nüfuza sahib şəxslərdən biri hesab olunurdu.

Sadiq Padeqan isə 1899-cu ildə Təbrizdə anadan olmuşdur. Məktəbxananı bitirdikdən sonra o, Rusiyaya getmiş və 1938-ci ilə qədər orada yaşayaraq ticarətlə məşğul olmuşdu. (76) İrana geri döndükdən sonra da o, Təbriz bazarında tacir olaraq çalışmağa davam etmişdi. Padeqan Azərbaycanda Tudə Partiyasının yaranmasından çox keçmədən elə həmin şəhərdə də öz siyasi fəaliyyətinə başlamışdı. (77) Tezliklə, öz

idarəetmə qabiliyyətini nümayiş etdirən Padeqan Tudə Partiyasının Azərbaycan Əyalət Komitəsinin sədri vəzifəsinə kimi yüksəlmiş, ADF və Tudə Partiyasının birləşdirilməsindən sonra isə ADF-də Pişəvərinin müavini olaraq çalışmağa başlamışdı. O, bu vəzifəsini hətta ADF rəhbərliyi Sovet İttifaqına qaçdıqlan sonra da qoruyub saxlaya bilmişdi.(78)

Əvvəllər Mədədzadə kimi tanınan Salamullah Cavid 1898-ci ildə Xalxalda anadan olmuşdur. O, on yaşında ikən Bakıya köçmüş və orada iranlı Sosial Demokratların təsis etdiyi «Ettehad-e İraniyan» adlı məktəbdə oxumağa başlamışdı. 1916-cı ildə Qafqaz Müsəlman Tələbələri Cəmiyyətinə qoşulmuş, daha sonra isə Bakıda İranlı tələbələrin ilk korpusunu təşkil etmişdi.(79) Heydərxan Əmioğlu ilə tanış olduqdan sonra o, Firqe-ye Ədalətin (Ədalət Partiyası) üzvlüyünə daxil olmuş və daha sonra Şeyx Məhəmməd Xiyabani ilə əlaqə yaratmaq üçün Firqənin nümayəndəsi kimi Təbrizə göndərilmişdi. Lakin onun Təbrizə gəlişi Xiyabani üsyanının yatırılması ilə eyni vaxta təsadüf edirdi.(80) Lahuti üsyana qalxdığı zaman Cavid hələ də Təbrizdə idi. Bu üsyana qoşulan Cavid üsyanın məğlubiyyətə uğramasından sonra Bakıya qaçmışdı. Növbəti doqquz il ərzində Bakıda qalan Cavid Bakı Universitetində tibb sahəsində təhsil almış və öz inqilabçılıq fəaliyyətinə Sovet Azərbaycanında yeni yaradılmış Kommunist Partiyasının çərçivəsi daxilində davam etmişdi.(81) 1929-cu ildə, İrana qayıtdıqdan altı ay sonra, Rza şahın məxfi polisi tərəfindən həbs edilmiş və iki il həbsxanada saxlanılmışdı. Daha sonra o, 1941-ci ilə kimi, yəni tamamilə azad edildiyi vaxta qədər Kaşanda «daxili sürgündə» yaşamağa məhkum edilmişdi.(82) Cavid heç vaxt Tudə Partiyasının sıralarına qoşulmamış, yalnız ADF yaradıldıqdan sonra ADF-nin icraedici komitəsinin üzvü olaraq fəaliyyət göstərməyə başlamışdı. Muxtar hökumətdə onun başçılıq etdiyi Daxili İşlər Nazirliyi sonralar mərkəzi hökumət tərəfindən Azərbaycan Valiliyi olaraq dəyişdirildiyindən o, Azərbaycanın valisi vəzifəsini yerinə yetirməyə başlamışdı. Muxtar hökumətin süqutundan sonra isə Cavid Tehranda yaşamağa başlayaraq həkimlik peşəsini davam etdirirdi.

Azərbaycan Muxtar Hökumətində xalq qoşununa rəhbərlik edən Cəfər Kaviyan 1900-cü ildə Təbrizdə anadan olmuşdur. Onun hərbi fəaliyyətə başlaması hələ Xiyabani üsyanı zamanı hərbyönlü qruplara başçılıq etdiyi vaxtlara gedib çıxır. Xiyabani üsyanı yatırıldıqdan sonra Kaviyan diqqətini ticarət ittifaqı hərəkatına yönəldərək «Hezb-e Kar-

gəran» (Fəhlə Partiyası) adlı fəhlə təşkilatı yaratmışdı.(83) Yalnız fəhlələrə bu təşkilata üzv olmağa icazə verilirdi.(84) Cavidlə birlikdə Lahutinin qiyamında iştirak edən Kaviyan üsyanın məğlubiyyətə uğramasından sonra Sovet Azərbaycanına qaçmışdı. Qısa müddət Bakıda qaldıqdan sonra, 1927-ci ildə o, yenidən İrana qayıdaraq solçu bir dərnək təşkil etmişdi. Bu səbəblə həbs edilən Kaviyan yeddi il azadlıqdan məhrum edilmişdi.(85) Daha sonrakı illərdə o, «daxili sürgündə» yaşamağa məhkum edildiyi Zəncanda çörəkxana işlətməyə başlamışdı. O, yalnız İran müttəfiqlər tərəfindən işğal edildiyi zaman Təbrizə geri dönə bilmişdi.(86) Cavid kimi, Kaviyan da heç bir zaman Tudə Partiyasının sıralarına qoşulmamış, ADF-nin isə əsas qurucularından birinə çevrilmişdi.

ADF və ya ümumiyyətlə, Azərbaycan Muxtar Hökumətindən bəhs etdikdə iranlıların ağlına gələn ilk iki ad şübhəsiz ki, Pişəvəri və Qulam Yəhyadır. Qulam Yəhya Daneşyan 1906-cı ildə Təbrizin qərbində yerləşən Sərab şəhərində anadan olmuşdur. 1918-ci ildə o, Bakıda yaşayan və Balaxanı neft yataqlarında işləyən atasının yanına getmişdi. Azərbaycanda Sovet Hökuməti qurulduqdan sonra o, komsomola qoşularaq Sovet Azərbaycanının Kommunist Partiyasının nəzdində fəaliyyət göstərən «kadr hazırlayan kurslarda» iştirak etməyə başlamışdı. Daha sonra o, Kommunist Partiyasının Bakının yaxınlığında yerləşən Sabunçu Rayon Komitəsinə rəhbərlik etməyə başlamış və on beş il, yəni 1937-ci ildə İrana qayıtdığı vaxta qədər bu vəzifədə qalmışdı.(87)

Daneşyan İrana qayıtdıqdan az sonra həbs edilmiş və altı ay həbsdə saxlanılmışdı. 1941-ci ildə isə o, Sərab mahalında torpaq sahiblərinə qarşı üsyana qalxan torpaqları əllərindən alınmış kəndlilərin təşkilatlandırılmasına cəhd göstərmişdi. (88) Daha sonra o, Təbrizin cənub-qərbində yerləşən Miyanə şəhərinə köçərək Tudə Partiyasının yerli şöbəsində və partiyanın əlaqədar fəhlə təşkilatında çalışmağa başlamışdı.(89) ADF yaradıldığı zaman tərəddüd etmədən bu partiyanın sıralarına qoşulan Daneşyan tezliklə «Fədailər» adlanan hərbyönlü qüvvələrin əsas təşkilatçılarından birinə çevrilmişdi.

Süquta uğramış hər hansı bir siyasi qurumun ən faciəvi cəhəti adətən tarixi şəraitin qurbanları hesab edilən bir və ya iki baş qəhrəmanın adı ilə əlaqədar olması sayılır. Bu baxımdan, Azərbaycandakı muxtariyyət hərəkatında yer alan belə şəxsiyyətlərdən birinin də Biriya olduğu-

nu söyləmək olar. Məhəmməd Biriya Hacı Qulam oğlu 1914-cü ildə Təbrizdə anadan olmuşdur.(90) Onun atası dülgərliklə məşğul olmaqla öz həyatını təmin edirdi. 1930-cu ildə Biriya artıq Sovet Azərbaycanına qaçmış və Bakıda öz təhsilini davam etdirməyə başlamışdı.(91) Daha sonra o, İrana qayıtmış, Təbriz Bələdiyyəsində, sonralar isə İran dəmir yollarında çalışmışdı. (92) Tudə Partiyası yaradıldıqdan sonra Biriya partiyanın üzvlüyünə keçmiş və tezliklə partiyanın əlaqədar təşkilatlarından olan «Fəhlə Təşkilatı»nın fəallarından birinə çevrilmişdi. ADF və Tudə Partiyasının birləşməsi ərəfəsində Biriya Azərbaycan İşçiləri və Zəhmətkeşlərinin Mərkəzi İttifaqının birinci katibi vəzifəsini daşıyırdı.

İdarəçilik qabiliyyətinə sahib olmaqla yanaşı, Biriya həm də inamlı bir müsəlman və şair idi. Onun Azərbaycan və fars dillərində yazdığı şerləri kobud ifadə tərzinə, eyni zamanda ədəbi məziyyətə malik olması ilə səciyyələndirilmiş, özü isə İngiltərənin Təbrizdəki baş konsulu tərəfindən «Tudə Partiyasının həcvçisi» adlandırılmışdı. (93) Muxtar hökumətdə Biriya Mədəniyyət naziri təyin olunmuşdu. O, eyni zamanda Pişəvərinin müavini idi. O, bu iki vəzifəni yerinə yetirməklə yanaşı, həm də Fəhlə Birliyinin birinci katibi kimi fəaliyyət göstərməyə davam edirdi. Lakin onun Pişəvərinin müavini olaraq çalışması uzun çəkmədi. Belə ki, muxtar hökumətin süqutundan bir az əvvəl, Pişəvərinin olmadığı bir vaxtda Biriya ADF-nin rəhbəri təyin edildi. Lakin o, bu vəzifədə bir neçə gündən artıq qala bilmədi.(94)

Dil məsələsinə gəldikdə isə Nəsrullah Cahanşahlı Əfşar göstərir ki, Mirzə İbrahimovun hamisi kimi Biriya çox keçmədən Azərbaycan dilinin qatı tərəfdarlarından biri olduğunu açıqca nümayiş etdirdi. Cahanşahlı Əfşar həmçinin qeyd edir ki, hətta bir neçə dəfə Biriya Böyük Azərbaycan ideyasını müdafiə etdiyini ictimai şəkildə bəyan etmişdi. Təbii ki, bununla o, İran Azərbaycanının İrandan ayrılaraq Sovet Azərbaycanı ilə birləşməsini nəzərdə tuturdu.(95) Muxtar hökumətin süqutundan sonra Təbrizdə qalan Biriya mərkəzi hökumətin tərəfdarlarından ibarət bir qrup tərəfindən həmləyə məruz qalmış və ciddi şəkidə yaralanmışdı. Amerikanın Təbrizdəki vitse-konsulu R. Rovsov da daxil olmaqla bu hadisənin yaxından şahidi olanların əksəriyyəti Biriyanın qətlə yetirildiyini hesab edirdilər.(96) Həqiqətdə isə Biriya bu hadisədən sağ çıxmış və Sovet Azərbaycanına qaçmışdı. Həyatının ən ağır dönəmini Sovet Azərbaycanında keçirən Biriya yalnız 1979-cu il İslam

inqilabından sonra İrana geri dönə bilmiş və 1985-ci ildə Təbrizdə vəfat etmişdi. Biriya sürgündəki həyatına ADF-nin Bakıda nəşr olunan «Azərbaycan» adlı rəsmi qəzetinə redaktorluq etməklə başlamışdı. O, eyni zamanda Sovet Azərbaycanından İrana yayımlanan, təbliğat xarakterli radio verilişinin hazırlanmasına başçılıq edirdi. Biriya iki il Sovet Azərbaycanında sürgündə yaşadıqdan sonra 1948-ci ildə İrana qayıtmaq üçün icazə istəmişdi. Lakin görünür, o, Sovet hakim dairələrinin bu məsələyə olan münasibətini lazımi qədər qiymətləndirmirdi və çox keçmədən İran hökuməti ilə gizli şəkildə əlaqə saxlamaqda günahlandırılaraq Sibirdə sürgün həyatı yaşamağa məhkum edilmişdi.

Sonrakı illərdə Biriyanın ideoloji düşüncələri tamamilə dəyişildi və o, əvvəlki kimi möhkəm əqidəli bir müsəlmana çevrildi. Bu dövrdə onun yazdığı şerlərin böyük əksəriyyəti Məhəmməd Peyğəmbərin, İmam Əlinin və Rza şahın təriflənməsinə həsr olunmuşdu. Stalinin ölümündən sonra, yəni Stalinçilik dövrünün müəyyən dərəcədə başa çatmasından sonra, 1955-ci ildə Biriyaya bəraət verildi. Beləliklə, onun yenidən Bakıya qayıda bilməsi üçün heç bir manеə qalmadı. Lakin Biriya bu dəfə möhkəm əqidəli bir müsəlman kimi başını yenidən bəlaya salaraq sovet hakim dairələrinin narazılığına səbəb oldu. Belə ki, xüsusilə kasıb, gənc oğlanların yeməklə təmin edilməsinə xidmət edən xeyriyyə fəaliyyətlərində iştirak etdiyinə görə, Biriya uşaqbazlıqda ittiham olunaraq həbs edilmiş və beş il azadlıqdan məhrumedilmə cəzası almışdı. Beşillik həbs cəzasına məhkum edilməsinə baxmayaraq o, həbsdə yeddi il saxlanılmışdı. Azadlığa buraxıldıqdan sonra isə yenidən Bakıda yaşamağa başlamış və yalnız 1979-cu ildən sonra İrana qayıda bilmişdi.

Yuxarıda ADF rəhbərliyinin özəyini təşkil edən ən nüfuzlu yeddi nəfərin keçmişi və fəaliyyətinin qismən də olsa, təfsilatına varmağa çalışdım. Bu şəxslərin hamısı orta təbəqəyə və ya işçi sinfinə mənsub idi. Bu yeddi nəfərin yeddisi də İranda doğulmuşdu. Lakin onların hamısı etnik mənsubiyyət cəhətdən azərbaycanlı idi. ADF yarandığı zaman bu qrupu təşkil edənlərin orta yaşı qırx dörd idi. Qeyd etmək lazımdır ki, onlardan hər biri bir neçə il Rusiyada, sonralar isə Sovet İttifaqında yaşamışdı. Yeddi nəfərdən beşi Cəngəli hərəkatında, Xiyabani üsyanında və yaxud da ilkin Kommunist hərəkatında fəal iştirak edənlərdən ibarət idi. ADF-nin yaranması ərəfəsində onlardan yalnız üçü Tudə Partiyasının üzvü idi.

Əgər ADF-nin iyirmi beş nəfərdən ibarət böyük rəhbər qrupu barəsində ən mühüm məlumatların verildiyi 2 №-li cədvələ nəzər salsaq, onda görərik ki, Abedin Nəvai istisna edilmək şərtilə, ADF-nin rəhbərliyini təşkil edən şəxslərin hamısı İranda doğulmuş azərbaycanlılardan ibarət idi. Onların orta yaşı otuz doqquz idi, 36%-i orta təbəqəyə və ya işçi sinfinə, 48%-i orta və ya yüksək təbəqəyə mənsub ailələrdən, 16%-i isə Qacar və digər zadəgan tayfalarından gəlmə idi. Onların 11%-i ali təhsilli olmağın faydalarından bəhrələnirdi. Lakin qalanları ya ənənəvi-dini məktəb olan məktəbxanalarda təhsil almış, ya da ki bir neçə il orta məktəbdə oxumuşdular. Faiz nisbətinə əsaslanmaqla yuxarıda verilmiş məlumatlar içərisində ən çox diqqəti cəlb edən cəhət cəmiyyətin orta və aşağı təbəqələrinə mənsub şəxslərin İranın siyasi həyatında oynadığı mühüm rolun əhəmiyyətli dərəcədə artması ilə əlaqədar idi.

Əvvəlki müdiriyyətlə çalışanlar da ADF sıralarına və muxtar hökumətin heyətinə cəlb edilmişdilər. Belə ki, muxtar hökumətdə vəzifə tutan şəxslər arasında əvvəllər İran Ordusunda xidmət etmiş yetmişdən çox hərbi zabitlə yanaşı, nazirliyə bağlı iki idarə rəisi və keçmiş valinin də daxil olduğu yüksək rütbəli mülki xidmətçilər də var idi.

ADF rəhbərliyini təşkil edənlərin siyasi keçmişinə nəzər saldıqda aydın olur ki, ADF Tudə Partiyasının yerli Azərbaycan şöbəsi ilə birləşmədən bir siyasi partiya kimi müvəffəqiyyət qazana bilməzdi. Yuxarıda da qeyd edildiyi kimi, ADF-nin mərkəzi özəyini təşkil edən şəxslərin yalnız kiçik bir qismi Tudə Partiyasının keçmiş üzvləri sırasına daxil idi. Lakin muxtar hökumətin rəhbərliyinin təxminən 68%-i ya Tudə Partiyasının üzvü olmuş, ya da ki əvvəllər partiyanın fəhlə ittifaqı ilə əlaqədar olaraq çalışmışdı. Tudə Partiyasının yerli Azərbaycan şöbəsinin keçmiş üzvləri onun qərargahı ilə artıq sıx əlaqələr saxlamırdılar. Belə ki, Tudə Partiyası ilə ən ümdə maraqlarının belə üst-üstə düşmədiyini hiss edən bu şəxslərin böyük əksəriyyəti indi Qərb təfəkkür tərzi aşılayan və «Qərb tamı» ilə dadlandırılmış siyasi hədəflərə xidmət edən maraqların ardınca getməkdə idi.(97)

*Cədvəl № 2 (97)*

**ADF və Azərbaycan Muxtar Hökumətinin rəhbərlərinin sosial və siyasi keçmişləri**

| Ad | Doğum yeri | Doğum tarixi | Etnik mənşəyi | Sinfi mənsubiyyəti | Təhsili | ADF-yə qoşulmazdan əvvəlki peşəsi | Yaşayış yeri | Keçmiş siyasi mənsubiyyəti |
|---|---|---|---|---|---|---|---|---|
| Pişəvəri | Xalxal | 1892 | Azərbaycanlı | İşçi sinfi | Orta məktəb | Jurnalist | Tehran | Kommunist Partiyası, Cəngəli. |
| Şəbüstəri | Şəbüstər | 1898 | Azərbaycanlı | Şəhərli orta təbəqə | İbtidai məktəb | Tacir/Jurnalist | Təbriz | Xiyabani |
| Padeqan | Təbriz | 1899 | Azərbaycanlı | Şəhərli orta təbəqə | İbtidai məktəb | Tacir | Təbriz | Tudə |
| Cavid | Xalxal | 1898 | Azərbaycanlı | Şəhərli aşağı təbəqə | Tibb | Tibbi həkim | Tehran | KP |
| Kaviyan | Təbriz | 1900 | Azərbaycanlı | İşçi sinfi | İbtidai məktəb | Çörəkçi | Təbriz | KP, Xiyabani |
| Daneşyan | Sərab | 1906 | Azərbaycanlı | İşçi sinfi | İbtidai məktəb | Filiz sənayesi işçisi | Miyanə | Tudə, Fəhlə İttifaqı |
| Biriya | Təbriz | 1914 | Azərbaycanlı | İşçi sinfi | İbtidai məktəb | Fəhlə | Təbriz | Tudə, Fİ |
| Qiyami | Təbriz | 1891 | Azərbaycanlı | Şəhərli nisbətən yuxarı orta təbəqə | Hüquq | Azərbaycanın valisi | Təbriz | KP,Xiyabani, Tudə |
| Kəbiri | Marağa | 1889 | Azərbaycanlı | Qacar zadəganları | Orta məktəb | Mülki xidmətçi | Təbriz | Heç biri |
| Cahanşahlı Əfşar | Tehran | 1913 | Azərbaycanlı | Tayfa zadəganları | Tibb | Universitetdə mühazirəçi | Tehran | Əlli üçlər, Tudə |
| Şahin | Təbriz | 1916 | Azərbaycanlı | Şəhərli orta təbəqə | Orta məktəb | Mülki xidmətçi | Təbriz | Əlli üçlər, Tudə |
| Şamideh | Xalxal | 1914 | Azərbaycanlı | İşçi sinfi | Orta məktəb | Heç nə | Tehran | KP, Tudə, Fİ |

| | | | | | | | | |
|---|---|---|---|---|---|---|---|---|
| Çeşm Azər | Təbriz | 1920 | Azərbaycanlı | Şəhərli nisbətən aşağı orta təbəqəsi | İbtidai məktəb | Heç nə | Təbriz | Tudə |
| Pənahiyan | Təbriz | 1904 | Azərbaycanlı | Şəhərli orta təbəqə | Hərbi | Polkovnik | Tehran | Tudə |
| Vəlayi | Təbriz | 1911 | Azərbaycanlı | Kəndli orta təbəqə | İbtidai məktəb | Heç nə | Təbriz | Tudə |
| İbrahimi | Astara | 1918 | Azərbaycanlı | Şəhərli orta təbəqə | Hüquq | Heç nə | Təbriz | Tudə |
| Azima | Təbriz | 1911 | Azərbaycanlı | Şəhərli orta təbəqə | Hüquq | Hakim | Təbriz | Heç biri |
| İlhami | Təbriz | 1904 | Azərbaycanlı | Şəhərli yuxarı təbəqə | Siyasət elmi | Təbrizin şəhrdarı | Təbriz | Tudə |
| Azər | Məşhəd | 1903 | Azərbaycanlı | Hərbi | Hərbi | Polkovnik | Tehran | Tudə |
| Məhtaş | Osku | 1912 | Azərbaycanlı | Kəndli orta təbəqə | Baytarlıq | Kənd təsərrüfatı idarəsinin rəisi | Təbriz | Tudə |
| Orəngi | Təbriz | 1910 | Azərbaycanlı | Şəhərli orta təbəqə | Tibb | Səhiyyə idarəsinin rəisi | Təbriz | Heç biri |
| Nəvai | Tehran | 1906 | Fars | Şəhərli nisbətən yuxarı orta təbəqə | Hərbi | Polkovnik | Məşhəd | Tudə |
| Rəsuli | Təbriz | 1904 | Azərbaycanlı | Şəhərli nisbətən yuxarı orta təbəqə | Orta məktəb | Mülki xidmətçi | Təbriz | Heç biri |
| Pişnəmazi | Sərdrud | 1905 | Azərbaycanlı | Kəndli aşağı təbəqə | Orta məktəb | Tacir | Təbriz | Tudə |
| Rəfiyi | Təbriz | 1886 | Azərbaycanlı | Qacar zadəganları | İbtidai məktəb | Mülki xidmətçi | Təbriz | Tudə |

*Cədvəl №3*

**Azərbaycan Muxtar Hökuməti rəhbərlərinin tutduğu vəzifələr və hökumətin süqutundan sonrakı məşğuliyyətləri**

| Ad | ADF-də və Muxtar Hökümətdəki (M.H.) fəaliyyəti | Daha sonrakı taleyi |
|---|---|---|
| Pişəvəri | ADF-nin sədri; M.H-də Baş nazir | Sovet Azərbaycanında qətlə yetirilmişdir |
| Şəbüstəri | ADF-nin İcraedici Komitəsinin üzvü; Milli Məclisin sədri | Siyasətlə məşğul olmuş və daha sonra təqaüdə çıxaraq İranda qalmışdır |
| Padeqan | ADF sədrinin müavini; ADF-nin İcraedici Komitəsinin üzvü | Sovet Azərbaycanında vəfat etmişdir |
| Cavid | M.H-də Daxili İşlər naziri; ADF-nin İcraedici Komitəsinin üzvü | Siyasətlə məşğul olmuş və daha sonra təqaüdə çıxaraq İranda qalmışdır |
| Kaviyan | M.H-də Silahlı Qüvvələr Komandanı; ADF-nin İcraedici Komitəsinin üzvü | Sovet Azərbaycanında vəfat etmişdir |
| Daneşyan | *Fədailərin* baş komandanı; Xaricdəki ADF-nin sədri | Sovet Azərbaycanında vəfat etmişdir |
| Biriya | M.H-də Mədəniyyət naziri; ADF-nin İcraedici Komitəsinin üzvü | İrana qayıtmış və Təbrizdə vəfat etmişdir |
| Qiyami | M.H-də Hüquqi Məhkəmənin sədri; ADF-nin İcraedici Komitəsinin üzvü | Sovet Azərbaycanında vəfat etmişdir |
| Kəbiri | M.H-də Poçt naziri; ADF-nin İcraedici Komitəsinin üzvü | M.H-in süqutundan sonra Təbrizdə edam edilmişdir |
| Cahanşahlı Əfşar | M.H-də Baş nazirin müavini; ADF-nin İcraedici Komitəsinin üzvü | Uzun müddət Sovet İttifaqında qaldıqdan sonra Qərbə mühacirət etmişdir |
| Şahin | M.H-də Baş nazirin birinci müavini; M.H-in Urmiyadakı valisi | Bakı Akademiyasında tarixçi olaraq çalışmışdır |
| Şamideh | ADF-nin Miyanə Komitəsinin sədri | Bakı Akademiyasında tarixçi olaraq çalışmışdır |
| Çeşm Azər | M.H-də Baş nazirin baş müşaviri | Xaricdəki ADF-nin sədri |
| Pənahiyan | M.H-də *Etat-Mayorun* komandiri | Moskvada vəfat etmişdir |
| Vəlayi | ADF-nin Təbriz Komitəsinin sədri | Sovet Azərbaycanında vəfat etmişdir |

| | | |
|---|---|---|
| İbrahimi | M.H-də prokuror | M.H-in süqutundan sonra Təbrizdə edam edilmişdir |
| Azima | M.H-də Ədliyyə naziri | İrandan Qərbə mühacirət etmişdir |
| İlhami | M.H-də Maliyyə naziri | Sovet Azərbaycanında vəfat etmişdir |
| Azər | M.H-də *Etat-Mayorun* komandiri | İrana qayıtmış və vəfat etmişdir |
| Məhtaş | M.H-də Kənd Təsərrüfatı naziri | İrana qayıtmışdır |
| Orəngi | M.H-də Səhiyyə naziri | İranda qalmışdır |
| Nəvai | M.H-də Silahlı Qüvvələrin Maliyyə Şöbəsinin rəisi | İrana qayıtmışdır |
| Rəsuli | M.H-də İqtisadiyyat naziri | İranda qalmışdır |
| Pişnəmazi | M.H-in Silahlı Qüvvələrində zabit | Sovet Azərbaycanında vəfat etmişdir |
| Rəfiyi | ADF-nin İcraedici Komitəsinin üzvü | İranda qalmışdır |

# VI

# AZƏRBAYCAN MUXTAR HÖKUMƏTİ

*Demokratikləşmə dövlətlər və rejimlərin qanuniliyinin, mövcud vəziyyətdən narazılıq olsa belə, həmin dövlətin bütün vətəndaşlarına necə çatdırılması ilə bağlı çətinliyin aradan qaldırılmasına mexaniki olaraq kömək edə bilər. Belə olduqda təbii ki, dövlət öz sakinləri ilə ünsiyyət saxlaya bilmək üçün ən güclü müəssisələri işə salacaqdır. Ən əhəmiyyətlisi isə odur ki, dövlət millətin nüfuzu və irsini genişləndirmək, millətə olan bağlılığını nümayiş etdirmək üçün gərəkli hər bir şeyi həyata keçirmək, ölkəyə və bayrağa sədaqətlə bağlanmaq və bu məqsədə nail olmaq üçün ənənələr, hətta millətlər icad etmək kimi bütün ilkin vasitələrə əl atacaqdır.*

**E.C.Hobsbavn,**
«Millətlər və 1780-ci ildən sonra millətçilik»,
*səh. 89.*

## MUXTARİYYƏTİN ƏSASININ QOYULMASI

Yalnız bir neçə ay əvvəl gerçəkləşməsi mümkün olmayan bir xəyal kimi görünən bu fikir artıq 1945-ci ilin payızının sonunda həqiqət olmuşdu. Yəni həmin ilin 12 dekabrında yüz bir deputatdan ibarət Azərbaycan Milli Məclisi yetmiş beş deputatın iştirakı ilə rəsmi şəkildə açıq elan edilmişdi. Milli Məclisə seçilmiş yüz bir deputatdan on altısı fəhlə və sənətkarlardan, iyirmi altısı əkinçilərdən, iyirmi dördü ziyalı təbəqəsinə aid edilən müəllim, jurnalist, həkim və mühəndislərdən, on üçü mülki xidmətçilərdən, ikisi fabrik sahiblərindən, yeddisi tacirlərdən, on biri mülkədarlardan, ikisi isə müsəlman ruhanilərindən ibarət idi.(1) Deputatlardan qırx yeddi yaşlı Hacı Mirzə Şəbüstəri Məclisin sədri seçildi. Sədr seçildikdən sonra Məclisdə Parlament İdarə Komitəsi kimi fəaliyyət göstərəcək və yenicə seçilmiş Heyət-e Mellini (Milli Heyəti) əvəz edəcək orqanın üzvlərinin müəyyənləşdirilməsi üçün səsvermə keçirildi. (2) Məclisin atdığı növbəti addım icraedici hakimiyyət qurumunun yaradılmasından ibarət oldu.

Azərbaycan Milli Hökuməti Milli Məclisin əyalətdə mövcud olan bütün icraedici hökumət idarələrinin təyin edilməsi üçün rəsmi şəkildə qəbul etdiyi ad idi. Hərbi və siyasi altqurumların da daxil olduğu bütün bu icraedici hakimiyyət qurumları Azərbaycan Milli Məclisində öz təcəssümünü tapan qanunvericilik hakimiyyətindən tamamilə ayrı müəyyən edilirdi.(3)

İcraedici hakimiyyət Azərbaycan Milli Muxtar Dövləti tərəfindən həyata keçirilirdi. Milli Muxtar Dövlətin nümayəndələrindən ibarət on iki nazirdən təşkil olunacaq Heyət-e Dövlətin (Kabinetin) yaradılması üçün planlar işlənib hazırlanmışdı. Kabinetə daxil olan on nazir—Daxili İşlər, Maliyyə, Xalq Qoşunu, Ədliyyə, Kənd Təsərrüfatı, Səhiyyə, Poçt-Teleqraf və Yollar, Ticarət və İqtisadiyyat, İş və Zəhmət, Mədəniyyət nazirliklərinə başçılıq edirdi.(4) Qeyd etmək lazımdır ki, Milli Məclisin verdiyi fərmanlara Xarici İşlər Nazirliyinin yaradılması daxil deyildi. Bu isə Demokratların mərkəzi hökumətin bu sahədəki hakimiyyətini tanıdığını göstərməklə yanaşı, eyni şəkildə, onların müstəqillik deyil, muxtariyyət axtarışında olduğunu nümayiş etdirirdi.(5)

Pişəvəri Məclis tərəfindən Baş vəzir (Baş nazir) vəzifəsinə təyin edilmişdi. Hökumət kabinetinin formalaşdırılması və Məclisin müzakirəsinə təqdim edilməsi Pişəvəriyə həvalə olunmuşdu. Pişəvərinin başçılığı ilə yaradılan hökumət kabinetində Cavid Daxili İşlər naziri, Kaviyan Xalq Qoşunu naziri, Məhtaş Kənd Təsərrüfatı naziri, Biriya Mədəniyyət naziri, Orangi Səhiyyə naziri, İlhami Maliyyə naziri, Azima Ədliyyə naziri, Kəbiri Poçt-Teleqraf və Yollar naziri, Rəsuli isə Ticarət və İqtisadiyyat naziri olaraq fəaliyyət göstərirdi.(6) Bundan əlavə, Pişəvəri Qiyamini Azərbaycan Ali Məhkəməsinin Baş Hakimi, Firudin İbrahimini isə Azərbaycanın Baş Prokuroru vəzifəsinə təyin etmişdi.(7)

Pişəvərinin kabinetində yer alan on bir nəfərdən yeddisi əvvəlki idarəçilik sistemində də vəzifəyə sahib idi. Əslində, bu yeddi nəfərdən ikisinə «İdarə rəisi» əvəzinə Nazir adı verilmiş, bu yolla da onlar öz keçmiş vəzifələrində saxlanılmışdı. On bir nəfərdən yeddisi fəal siyasətçilərdən idi ki, bu yeddi nəfərdən də beşi Tudə Partiyasının keçmiş üzvləri olmuşdu. İngiltərənin Təbrizdəki baş konsulu yeni təyin olunmuş on bir nazirdən bəhs edərkən onların hamısının yaxşı tanınmış ictimai şəxsiyyətlər olmadığını qeyd edərək yazırdı ki, bütün kabinetdə yalnız iki nəfər—Baş nazir Pişəvəri və Mədəniyyət naziri Məhəmməd Biriya nəzərə çarpacaq bacarığa malikdirlər. (8)

Azərbaycan Milli Hökuməti yaradıldıqdan sonra hökumətin iyirmi maddədən ibarət proqramı ayrıca nəşr olundu. Proqramda İranın müstəqilliyi və ərazi bütövlüyünə olan bağlılığını dilə gətirən və İranın suverenliyinə xələl gətirəcək hər hansı bir addım atmaq niyyətində olmadığını təkrar olaraq ifadə edən Azərbaycan Milli Hökuməti, daha sonra

Azərbaycanda bir sıra mühüm islahat və dəyişikliklər həyata keçirmək məqsədində olduğunu bəyan edirdi. Həyata keçirilməsi nəzərdə tutulan həmin islahat və dəyişikliklərin ən mühümləri aşağıda göstərilənlərdən ibarət idi:

* Əyalət şuralarına üzvlərin seçilməsi üçün əsas hazırlanması.
* Jandarmanın və polis şöbəsinin arzuolunmaz ünsürlərdən təmizlənməsi.
* Mövcud vergi məbləğlərinin yenidən nəzərdən keçirilməsi və əyalətin illik büdcəsinin çıxarılması.
* Xalq Qoşunu və Fədailərin müvafiq, mərkəzləşdirilmiş təşkilatının yaradılması planının işlənib hazırlanması.
* Məktəblərdə Azərbaycan dilindən rəsmi dil kimi istifadə olunmasının təmin edilməsi.
* Mülkədarlar və kəndlilər arasındakı əlaqələrin tənzimlənməsi üçün zəruri tədbirlərin həyata keçirilməsi.
* Əhatəli əmək qanununun verilməsi.
* Kapitalistlərin özəl sahəyə sərmayə qoymaları üçün həvəsləndirici işlərin aparılması və paytaxtın təhlükəsizliyinin təmin edilməsi.(9)

Sözsüz ki, yeni hökumətin tələb etdiyi muxtariyyət «yerli muxtariyyət» termininin ifadə etdiyi mənadan daha geniş anlayışı əhatə edirdi. Bu xüsusilə, özünü ölkənin silahlı qüvvələrinin yenidən təşkil olunması sahəsində göstərirdi. Rza şahın öz hakimiyyətindən əl çəkməsindən sonra İrandakı islahatçı dairələr tərəfindən səsləndirilən bir sıra tələblər, xüsusilə də torpaq islahatlarının keçirilməsi ilə bağlı irəli sürülən tələblər Milli Azərbaycan Hökumətinin proqramında öz əksini tapan məsələlər sırasına daxil idi. Hökumət əyalətin hər yerində geniş kütlələrin dəstəyinə arxalanmaq istədiyindən tədbirli davranaraq hər hansı bir ayrıca sosial qrupu öz sıralarından təcrid etməyəcək, mötədil bir proqramın təqdim olunmasına səy göstərirdi. Azərbaycan Milli Hökuməti əhatəli əmək qanununun veriləcəyini və torpaq sahibkarlığı sahəsinə təsir edəcək islahatların keçiriləcəyini vəd etməklə yanaşı, eyni zamanda xüsusi mülkiyyətə hörmətlə yanaşacağını və həm mülkədarlar, həm də kəndlilər üçün ədalətli dəyişikliklərin həyata keçiriləcəyini açıqca bəyan edirdi.

Üsyana hazırlıq Demokratların siyasi strategiyasının əsasını təşkil etsə də onlar köhnə idarəçilik quruluşunu dəyişdirərək tamamilə yenisi

ilə əvəz etmək niyyətində deyildilər. Amerikanın Təbrizdəki baş konsulu bu məsələ ilə əlaqədar olaraq qeyd edirdi: «Ümumiyyətlə, köhnə daxili idarəçilik quruluşu olduğu kimi saxlanılmışdı. Kiçik, mülki xidmətçilərin isə əksəriyyəti əvvəlki qaydada öz fəaliyyətlərinə davam etmələri barəsində Pişəvərinin etdiyi müraciətə əməl edərək keçmiş vəzifələrində qalmışdılar». (10—11)

Mülki idarəçilikdə hakimiyyəti tezliklə ələ alan Azərbaycan Muxtar Hökuməti hərb sahəsində öz nəzarətini tətbiq etməyə bir o qədər də asanlıqla nail ola bilmədi. Belə ki, Demokratlar iki həftə içərisində bütün jandarma qüvvələrini məğlub edərək Sərabdan Miyanəyə və Miyandoba qədər uzanan əksər ərazilərdə, eyni zamanda Təbrizlə Fars arasındakı bütün kommunikasiya xətləri boyunca hakimiyyəti ələ keçirsələr də (12), Urmiyada, Ərdəbildə və Təbrizdəki hərbi qarnizonların nəzarətini öz əllərinə almağa çalışdıqları zaman bir sıra çətinliklərlə qarşılaşdılar.

Təbriz qarnizonunun təslim olması rəsmi şəkildə dekabrın 13-də elan olundu. Bir neçə həftə davam edən mübahisə və qarışıqlıqdan sonra Təbriz qornizonunun baş komandiri polkovnik Derəxşani və danışıqlarda özünü Azərbaycan Daxili Hökumətinin rəhbəri kimi təqdim edən Pişəvərinin birgə səyləri nəticəsində qarnizonun aşağıda göstərilən şərtlərlə təslim edilməsini nəzərdə tutan bildiriş nəşr olundu:

* Qarnizona məxsus artilleriya və silahların hamısı daxili hökumətə təslim ediləcək.

* Daxili hökumət Azərbaycanda qalmaq arzusunda olmayan zabitlərin təhlükəsiz şəkildə əyalətdən çıxarılması üçün bütün lazımi tədbirlərin həyata keçirilməsini təmin edəcək.

* Hərbi heyətin yeni hökumətlə əməkdaşlıq etmək niyyətində olan üzvlərinin əvvəlki kimi saxlanılması daxili hökumətə sadiq qalacaqları barəsində and içdikləri təqdirdə məqbul sayılacaq.(13)

Urmiyadakı qarnizon təslim olmamışdan əvvəl xeyli müqavimət göstərdi. Hətta qarnizonun əsgərləri və Fədailər arasında silahlı toqquşmalar da baş verdi. Təbriz qarnizonunun təslim olmasından sonra Urmiya qarnizonunun baş komandiri olan və Qərbi Azərbaycanın baş valisi sayılan polkovnik Zəngənə Demokratlara ciddi müqavimət göstərməyə başlamışdı. Lakin bir həftə boyunca kiçik dəstələr halında döyüşlər aparan Zəngənənin hərbi tədarüklərlə təchiz olunması olduqca aşağı

səviyyədə idi. Onların Sovet qüvvələrinin arasıkəsilməz təzyiqlərinə məruz qalmaları isə bu baxımdan daha böyük təsirə malik idi. İngiltərənin Təbrizdəki baş konsulunun verdiyi məlumata görə, Sovet qüvvələrinin bu sahədə fəaliyyət göstərdiyini sübut edəcək hər hansı bir dəlilin mövcud olmamasına baxmayaraq, onların sadəcə varlığının belə Fədailərin qələbə çalmasına şərait yaratdığı şübhəsiz idi.(14) Nəhayət ki, Urmiya qarnizonu muxtar hökumətə təslim oldu. Qarnizonun tabe edilməsindən sonra baş komandir polkovnik Zəngənə həbs olunaraq Təbrizə göndərilmiş və orada məhkəmə qarşısına çıxarılaraq on il azadlıqdan məhrumedilmə cəzasına məhkum edilmişdi.(15) Beləliklə, 1945-ci ilin 21 dekabrında Urmiya qarnizonunun təslim olması ilə muxtar hökumətin öz hakimiyyətini bütün Azərbaycan ərazisində tətbiq edə bilməsi üçün heç bir maneə qalmadı.

Azərbaycan xalqı muxtar hökumətin yaradılmasını ruh yüksəkliyi və şövqlə deyil, daha çox əndişə və təlaşla qarşıladı. Azərbaycan Milli Hökumətinin vəd etdiyi islahatların böyük bir qismi əksər azərbaycanlılar tərəfindən razılıqla qarşılansa da, Demokratların bu islahatları həyata keçirmək üçün istifadə etdikləri üsul və vasitələr onların həyəcanına səbəb olurdu.(16) Lakin Demokratlara necə münasibət bəslədiklərindən asılı olmayaraq, xalq içərisindəki nisbətən daha şüurlu siyasi düşüncəyə malik şəxslər mərkəzi hökuməti öz hərəkətlərində günahlandırırdılar. Belə ki, əhalinin əksər hissəsi axır vaxtlarda baş vermiş hadisələrdən məhz mərkəzi hökumətin cavabdeh olduğu düşüncəsində idi. Bu hadisələrin canlı şahidlərindən biri qeyd edirdi: «Əyalətdə ünsiyyətdə olduğum hər kəs, hətta Demokratlara qarşı olan və onların hazırkı proqramı ilə heç bir şəkildə razılaşmayan insanlar belə şikayət edirlər. Bu insanların hamısı yekdilliklə bu fikirdədirlər ki, üsyançıların haqlı şikayətlərinin səbəbi elə mərkəzi hökumətin özüdür».(17) Bu səbəbdən də Demokratlar hakimiyyəti ələ keçirmək üçün lazımi addımlar atarkən ilk əvvəl əyalətin hər yerində əhalinin mərkəzi hökumətdən həddən artıq narazı olması amilini nəzərə almışdılar. Qeyd etmək lazımdır ki, siyasətdə bu taktikaya kifayət qədər tez-tez müraciət olunur.

Demokratlar muxtar hökumətin hakimiyyətini bütün Azərbaycanda möhkəmləndirmək sahəsində işə başladıqları bir zamanda Tehrandakı mərkəzi hökumət ADF-nin verdiyi vədlərin əsassız və puç olduğunu

təbliğ etməklə məşğul idi. Bununla yanaşı, mərkəzi hökumət nüfuzlu və etibarlı bir şəxsi Demokratları öz ilkin nailiyyətlərini bir tərəfə qoymağa və bu fikirlərindən daşınmağa təhrik edəcəyi ümidilə Azərbaycanın baş valisi vəzifəsinə təyin etmək qərarına gəlmişdi. Sədr hökumətinin süqutundan sonra, 1945-ci il 25 oktyabrda yenidən hakimiyyətə gələn Hakimi təqribən noyabr ayının ortalarında keçmiş Baş nazir Bayatı Azərbaycanın baş valisi təyin etdi. Bayatın bu vəzifəyə təyin edilməsi Hakiminin Tehran və Təbriz arasında mövcud olan düşmənçiliyə son qoymaq üçün səy göstərmək niyyətində olduğundan xəbər verirdi.

Məsələlərə yüksək nikbinliklə yanaşan Bayat Təbrizə gəldikdən sonra memorandum nəşr etdirərək mərkəzi hökumət barəsindəki şikayət və təklifləri dinləməyə hazır olduğunu xalqa bəyan etdi. Bununla yanaşı, həmin memorandumda Bayat barışdırıcı mövqedən çıxış etmək niyyətində olduğunu da ifadə edirdi.(18) Lakin Bayatın ilk vaxtlardakı bu nikbin əhvali-ruhiyyəsi uzun müddət davam etmədi. Belə ki, ADF-nin rəhbərləri ilə, yəni Pişəvəri, Şəbüstəri və Biriya ilə ikinci dəfə görüşdükdən sonra Bayat mövcud vəziyyətin öhdəsindən gəlmək iqtidarında olmadığını və məsələnin həllinin yalnız ən yüksək səviyyədə həyata keçirilə biləcəyi düşüncəsində olduğunu şəhərdəki Amerika elçisinə etiraf etmişdi.(19) Vəziyyət belə olduqda, Bayatın Azərbaycanı tərk etməkdən başqa əlacı qalmamışdı. Beləliklə, dekabr ayının 11-dən təqribən bir ay ərzində göstərmiş olduğu bütün cəhdlərin uğursuzluq və müvəffəqiyyətsizliklə nəticələndiyini görən Bayat üzərinə götürdüyü barışdırıcılıq vəzifəsini yerinə yetirə bilmədiyini boynuna alaraq Tehrana qayıtdı. (20)

Bayatın «bu məsələnin yalnız ən yüksək səviyyəyə qaldırıldığı təqdirdə həll edilə biləcəyini» qeyd etməsi, əslində dolayı şəkildə də olsa, mərkəzi hökumətin Azərbaycandakı hakimiyyətinin bərpa edilməsinin yeganə yolunun məsələnin milli səviyyədə deyil, beynəlxalq səviyyədə həll edilməsindən ibarət olduğuna işarə idi. Bayata həvalə edilmiş vəzifənin uğursuzluqla nəticələndiyini görən Hakimi Tehranda Amerika səfirinə «məlumat» verərkən Azərbaycanda cərəyan edən hadisələrin səbəbkarı kimi Sovetləri günahlandırmaqda heç də tərəddüd etmədi. Adı çəkilən «məlumatda» Hakimi Azərbaycan xalqının İran Konstitusiyasında və ona edilən əlavədə göstərilən demokratik hüquqlardan yararlandığını bir daha təsdiqləyərək üsyançıların heç bir sosial dayağa

malik olmadığını, lakin yerli əhalinin həddən artıq çox qorxudulması səbəbilə hər hansı bir müxalif qüvvənin mövcudluğunun çətinliyini qeyd edirdi. Daha sonra o, belə davam edirdi: «Əgər Azərbaycanda yerləşən İrana məxsus qüvvələr hərəkatın azadlığından faydalansaydılar, onda bu qiyam asanlıqla yatırıla bilərdi. Sovetlərin İranın təhlükəsizlik qüvvələrinə müdaxilə etməsi isə Üçtərəfli Sazişin pozulması deməkdir». Sonda isə Hakimi Sovetləri İranın daxili işlərinə müdaxilə etməyi dayandırmağa çağıraraq onlardan öz qoşunlarını ölkə ərazisindən geri çəkməyi tələb edirdi.(21)

19 yanvarda Hakimi İranın BMT-dəki nümayəndəliyinə bu məsələnin Təhlükəsizlik Şurasının müzakirəsinə çıxarılması barədə tapşırıq verdi. Həmin vaxt İranın BMT-dəki nümayəndəliyinə başçılıq edən tanınmış azərbaycanlı veteran konstitusiyaçısı Həsən Tağızadə «Rusiyanın İranın daxili işlərinə müdaxilə etməsinin» araşdırılmasını tələb edən məktubu BMT-nin o vaxtkı baş katibinə təqdim etdi.(22) Beş gün sonra Sovet İttifaqının BMT-dəki nümayəndəliyinə rəhbərlik edən Andrey Vişinski buna cavab olaraq, sərt bir şəkildə Tağızadənin ittihamını təkzib edərək Sovet hərbi qüvvələrinin İrandakı mövcudluğuna 1921-ci ildə bağlanan İran—Sovet müqaviləsini (23) və 1942-ci ildə bağlanan Üçtərəfli Sazişi(24) xatırlatmaqla bəraət qazandırdı və İranın müraciətinin əsassız olduğunu iddia etdi. Buna əlavə olaraq o, iki hökumət arasında həyata keçirilən danışıqların nəticələrinin olduqca qənaətbəxş hesab edilə biləcəyini qeyd edirdi. (24)

Təbii ki, Hakimi Vişinskinin «danışıqlar» adını verdiyi görüşlərdə iştirak etməmişdi. Əslində, Hakiminin məğlubiyyətinin əsas səbəblərindən biri onun Sovetlərlə danışıqlar aparmağa təşəbbüs etməməsi idi. Sovetlərlə danışıqlara girəcək ən uyğun şəxs məhz Hakiminin rəqibi olan Qəvvam hesab olunurdu. Gələcəkdə Baş nazir vəzifəsinə yiyələnmək üçün zəmin hazırlamağa başlayan (25) Qəvvam Sovetlərin danışıqlar aparmaq istədiyi yeganə şəxs sayılırdı.(26)

Üç ay hakimiyyətdə qalan Hakimi 21 yanvar 1946-cı ildə öz istefasını Məclisə təqdim etdi. Onun hakimiyyəti tərk etməsi, demək olar ki, ölkənin siyasi səhnəsindəki bütün partiyalar tərəfindən razılıq hissi ilə qarşılandı. Hətta Hakiminin istefa edəcəyi təqdirdə şahla yola getməyən Qəvvamın qarşısına Baş nazir seçilmək üçün daha geniş imkanların açılacağından qorxan və bunu yaxşı dərk edən Məclisdəki saray tərəf-

darları belə Hakiminin Baş nazir vəzifəsini yerinə yetirdiyi son günlərdə də tərəddüd etmədən onu müdafiə etməkdən əl çəkdilər. Məclisdə Baş nazirin təyin edilməsi məqsədilə keçirilən seçkilərin nəticələri Hakimiyə qarşı olan münasibəti bir daha nümayiş etdirdi. Belə ki, istefa verməsinə baxmayaraq, Hakiminin namizədliyi Qəvvamın və Pirniyanınkı ilə birlikdə 26 yanvarda Məclisdə keçirilən Baş nazir seçkilərində yenidən irəli sürüldü. Seçkilərdə iştirak edən yüz dörd deputatdan yalnız biri Hakimiyə səs verdi. Qəvvam əlli iki səslə birinci yeri, Pirniya isə əlli bir səslə ikinci yeri tutdu.(27)

Hakiminin istefa etməsi paytaxtda müxtəlif siyasi partiyalar və mətbuat tərəfindən böyük razılıq hissi ilə qarşılansa da Azərbaycanda Milli Hökumətin yaradılmasına göstərilən münasibət hər zaman eyni olmurdu. Belə ki, şah sarayının xətti ilə hərəkət etməyə başlayan bir sıra sağçı partiyalar Demokratların Azərbaycandakı fəaliyyətinə maneçilik törətmək və onları nüfuzdan salmaq məqsədilə 1945-ci ilin noyabr ayının axırlarından etibarən onların əleyhinə kampaniya başlatdılar. Bu partiyalar hətta Demokratlara böhtan atmaqdan da çəkinmir və onları «mərkəzi hökumətin ölkənin şimal sərhədlərində öz hakimiyyətini tətbiq edə bilməməsindən istifadə edərək Azərbaycan sərhədini keçmiş və əyalətə daxil olmuş yabançılar» kimi qələmə verirdilər. Həmin sağçı partiyalar yuxarıdakı iddiaya əlavə olaraq təkidlə Azərbaycan Milli Hökumətini heç bir qanuniliyə sahib olmayan, əyalətdə ictimaiyyət tərəfindən müdafiə edilməyən və yalnız dost olmayan qonşu ölkələrin səyləri nəticəsində meydana gələn qondarma bir hökumət olduğunu təbliğ edirdilər. Bundan əlavə, bəzi sağçı partiyalar mərkəzi hökumətin qarşısında Azərbaycanda uzunmüddətli əmin-amanlığın bərpa edilməsi naminə Demokratların əyalətdəki təhlükə doğurucu fəaliyyətinə son qoyulması və bunun üçün mümkün olan bütün tədbirlərin həyata keçirilməsi tələbi ilə çıxış edirdilər.(28)

Digər tərəfdən, gözlənildiyinin əksinə olaraq həm solçu partiyalar, həm liberallar, həm də mətbuat ilk vaxtlarda Demokratlara qarşı barışmaz mövqedən çıxış edərək onların Azərbaycandakı fəaliyyətini olduqca soyuq qarşıladı. Tudə Partiyası ilə əlaqədar olan müxtəlif qəzetlər ilk əvvəl Azərbaycanda baş verən hadisələrə açıq münasibət göstərməkdən və mövcud vəziyyəti şərh etməkdən çəkinirdilər. Tudə Partiyasının rəhbərliyi partiyanın Azərbaycan şöbəsinin Firqə ilə birləşdiri-

lərək ləğv edilməsi səbəbilə partiya ziyalıları arasında narazılığın meydana gəldiyini yaxşı başa düşürdü. (29) Bu səbəbdən də partiya rəhbərliyi Azərbaycanda Milli Məclisin və Milli Hökumətin yaradılmasına az maraq göstərirdi, ya da ki bu maraq özünü ictimai şəkildə büruzə vermirdi. Mətbuatda solçu mövqedən çıxış edən qəzetlərin səhifələrində isə Azərbaycanda baş verən hadisələrlə bağlı dərc edilən xəbərlər ya yerli Azərbaycan qəzetlərindən, ya da xarici radio verilişlərindən alınan məlumatları əhatə edirdi. Tudə Partiyasının Azərbaycanda cərəyan edən hadisələrə soyuq münasibət göstərməsinə təsir edən ikinci bir amil Tudə Partiyasının hələ də özünü ölkədə qayda-qanunun bərqərar edilməsini müdafiə edən konstitusiyaçı partiya hesab etməsi ilə əlaqədar idi. Məhz buna görə partiya rəhbərliyi Demokratların Azərbaycandakı fəaliyyətinə qanuni cəhətdən bəraət qazandırmaqda çətinlik çəkir, hətta bunu qeyri-mümkün hesab edirdi.

Solçu və Sovetyönlü partiya kimi tanınan Tudə Partiyası Azərbaycanda baş verən hadisələrlə bağlı öz mövqeyini müəyyən etməkdə çətinlik çəkirdi. Bunun əksinə olaraq, İranda liberal xətti rəhbər tutan siyasətçilər bu məsələyə göstərdikləri münasibəti daha açıq şəkildə nümayiş etdirirdilər. Belə ki, onlar Azərbaycanda görülən işlərin arxasında tutarlı səbəblərin dayandığı faktını qəbul edirdilər. Buna baxmayaraq, liberalların Məclisdəki fraksiyası ilə yaxın əlaqədə olan «İran-e Ma» qəzeti ADF-nin irəli sürdüyü tələbləri ədalətli və haqlı hesab etsə də «mərkəzi hökumətə etiraz etmək» üçün Demokratların həyata keçirdiyi «qeyri-konstruktiv tədbirləri» açıq-aydın tənqid etməkdən də çəkinmirdi.

«İran-e Ma» qəzetində dərc olunan «İrtica düşərgəsi Azadixahların (azadlıq sevərlərin) nöqsanlarından faydalanmağa hazırdır» başlıqlı məqalədə «həmvətənlər» kimi müraciət olunan azərbaycanlılar aşağıdakı şəkildə tərif edilirdi: «Bütün ömürlərini İranın azadlığı və ad-sanı uğrunda fəda edən azərbaycanlı həmvətənlərimiz Azərbaycanın coğrafi mövqeyinin əlverişli olması üstünlüyündən yararlandıqlarından, yəni istibdad süngüsü üçün əlçatmaz sayıldıqlarından azadlıq hərəkatının sevincini yaşamaqdadırlar». Lakin daha sonra məqalədə azərbaycanlılara Farsda və ölkənin digər bölgələrində istibdad süngüsü altında yaşayan həmvətənlərini yaddan çıxarmamaq və özləri üçün ciddi problemlərə səbəb olacaq səhvlərə yol verməmək barəsində xəbərdarlıq edilirdi.

Məqalədə mötədilliyə, yəni orta mövqe tutulmasına dair tələblər irəli sürülsə də Demokratlara rəğbətlə yanaşılırdı. Onlar aşağıdakı şəkildə müdafiə edilirdi: «Əgər azərbaycanlı Demokratlar dil məsələsində ifrata varmasalar, Konstitusiyada əyalət və vilayət şuraları ilə bağlı maddələrdə muxtariyyət məsələsi öz əksini tapmış olsa belə, bunun üzərində bu qədər durmasalar, böyük ehtimalla İran əhalisinin 80%-nin inamını asanlıqla qazana bilərlər».(30)

Milli Hökumətin yaradılması barədə xəbərlər Tehrana yetişdiyi zaman «İran-e Ma» qəzeti Demokratları bu məsələdə müdafiə etdiyini bir daha açıqca bəyan etdi: «Azərbaycan məsələsi və orada yetişməkdə olan hərəkat İranın tarixində xüsusi mərhələlərdən birini təşkil edəcək. Bu hərəkatın düşmənləri, hakim dairələrin üzvləri və mürtəce ünsürlər bu barədə istədiklərini deyə də bilərlər, edə də bilərlər. Lakin çox keçmədən tarix göstərəcəkdir ki, Azərbaycanda yetişməkdə olan mövcud hərəkat bütün nöqsanlarına və çatışmazlıqlarına baxmayaraq şərəfli bir hərəkatdır və məhz bu hərəkat İranın məhrumiyyətlərə düçar edilmiş, bəxtiqara təbəqələrinə rahatlıq və xoşbəxtlik bəxş edəcək, İran cəmiyyətinə əsl azadlığı, müstəqilliyi və bugünkü bəşəriyyətin əldə etmiş olduğu mədəniyyəti, inkişafı gətirəcək».(31)

«Fraksiyon-e Monfəredin» (Fərdlər fraksiyası) kimi tanınan otuz deputatdan ibarət qeyri-müəyyən parlament koalisiyasını təmsil edən Müsəddiq Məclisdə çıxış edərkən Azərbaycanda baş verən hadisələrə kəskin münasibət bəslədiyini qəti şəkildə bəyan etdi. (32) Demokratların üsyana qalxmasının səbəblərini aydınlaşdırmaq məqsədilə Azərbaycandakı fərqli qruplardan aldığı çoxsaylı şikayətləri öz çıxışında sadalayan Müsəddiq daha sonra deputatlara Azərbaycanda cərəyan edən hadisələrin inkişaf tərzi ilə heç bir şəkildə razılaşmadığını bildirdi: «Mən dünyanın ABŞ və İsveçrə kimi bəzi ölkələrində muxtar dövlətlərin olduğunu inkar etmirəm. Mən sadəcə muxtar hökumətin yaradılıb-yaradılmaması zəruriliyinin ümumi referendumun nəticələrinə əsaslanaraq müəyyən edilməsinin gərəkliliyini düzgün hesab edirəm. Hazırkı konstitusiyamıza görə belə bir dövlət yaradıla bilməz. Lakin referendum keçirilməsi mümkün hesab edilir. Millətimizin razılıq verdiyi təqdirdə İran da ABŞ və İsveçrə kimi federativ dövlətə çevrilə bilər. Bir ölkənin bir hissəsində federativ, digər hissəsində isə mərkəzi hökumətə əsaslanan hakimiyyət quruluşunun mövcud olması qeyri-müm-

kündür. Konstitusiya kollektiv müqavilədir. Bu kollektiv müqaviləyə düzəlişlər edilmədikcə və ya bu müqavilə ləğv edilmədiyi müddətdə konstitusiya qüvvədə qalır. Mən özüm İranın federativ dövlətə çevrilməsinin əleyhdarı deyiləm. Bəlkə də, hər bir əyalətin mərkəzi hökumətlə əlaqə saxlamaq şərtilə müəyyən dərəcədə daxili muxtariyyətə sahib olacağı və mərkəzi hökumətin yalnız beynəlxalq əlaqələrin tənzimlənməsi ilə məşğul olacağı federativ dövlətin yaradılması daha yaxşı təsirə malik olardı. Lakin konstitusiya ilə bağlı ediləcək ən kiçik dəyişiklik belə yalnız ümumi referendumun nəticələrinə əsaslanmalıdır». (33)

Azərbaycanda isə Demokratların vəziyyəti yaxşılığa doğru inkişaf etməkdə idi. Yerli mətbuat nəzarət altında saxlandığından Tehrandakı siyasətçilərin açıq tənqid və ittihamları ictimaiyyətə çatdırılmırdı. Azərbaycan muxtar hökuməti isə yenicə sahibləndiyi icraedici hakimiyyətdən istifadə etmək üçün hazır vəziyyətdə dayanmışdı.

## NİKBİNLİK GÜNLƏRİ

Yeni il ərəfəsində, yəni 1946-cı ilin lap əvvəllərində Demokratlar artıq Azərbaycanda yeni bir dövrün başlamaqda olduğuna inanırdılar. Belə ki, bu dövrdə onlar hər hansı bir maneə ilə qarşı-qarşıya qalmadan öz hakimiyyətlərini tam həyata keçirmək imkanına sahib olacaqlarına böyük ümid bəsləyirdilər. Ümumiyyətlə, əyalət əhalisi son dörd ildə yaşadığı iqtisadi və siyasi qərarsızlıqdan, dəyişkənlikdən olduqca yorulmuşdu. Bundan başqa, xalq kütlələri arasında Tehrandakı mərkəzi hökumətin Azərbaycana və onun problemlərinə etinasızlıq və laqeydliklə yanaşdığına dair ümumi fikir geniş yayılmışdı. Xalq siyasi durğunluğa və iqtisadi tənəzzülə son qoyacaq bir sıra əsaslı islahatların keçirilməsi arzusunda idi. Mərkəzi hökumətin xalqın bu istəklərinin yerinə yetirilməsində oynayacağı rola gəldikdə isə əhalinin əksər hissəsi mərkəzi hökumətin öz hakimiyyətini paytaxtdan kənarda tətbiq edə bilməyəcək qədər zəif olduğuna və həddən artıq bölündüyü üçün Məclisin belə eyni səviyyəli milli siyasət aparmaq iqtidarında olmadığına inanırdı. Bütün bunlara əlavə olaraq xalq arasında şahın hər hansı bir təsirə malik olmadığı düşüncəsi də geniş yayılmışdı. Şahın haqqında belə deyilirdi: «O, başqalarının göstərişi ilə hərəkət etməyə o qədər adət etmişdir ki, müstəqil şəkildə qərar qəbul etmək onun üçün olduqca çətindir». (34)

Demokratlar arasında nikbin əhvali-ruhiyyənin mövcud olmasına səbəb olan amillərdən biri də onların beynəlxalq səviyyədə, Asiya və Avropanın ən güclü dövlətləri tərəfindən müdafiə edilməsi ilə əlaqədar idi. (35) Belə ki, II Dünya müharibəsi başa çatdıqdan sonra, Qırmızı Ordu Berlindən başlayaraq Sofiyaya qədər bütün Avropada yerləşdirilmiş, eyni zamanda uzaq Şərqdə Mancuriya və Şimali Koreyanı da öz nəzarəti altına almışdı. «Sosializmin dünyanın yalnız bir ölkəsində mövcud olduğu» dövrə son vermək üçün Sovet İttifaqı II Dünya müharibəsindən sonra dünyanın, xüsusilə də Avropanın müharibədən öncəki siyasi xəritəsində dəyişikliklər etməyə həmişəkindən daha çox can atırdı. Bu səbəbdən də, Sovet İttifaqının Milli Hökumətin yaradılmasını «Azərbaycan xalqının arzu və istəklərinin təzahürü» kimi dəyərləndirməsi heç də təəccüb doğurucu deyildi. (36)

Muxtar hökumət daxilində nikbin əhvali-ruhiyyənin hakim olduğu ilk günlərdə Demokratlar bütün səylərini xalq kütlələrinin geniş dəstəyini qazanmağa yönəltmiş olsalar da, Tehrandakı hökumətin təşəbbüsü ilə yaradılacaq müxalifət qüvvələrinin diqqətə alınmasının gərək olduğunu yaxşı başa düşürdülər.

Baş nazir vəzifəsinə gəlməmişdən əvvəl Qəvvam özü haqqında ölkə daxilində gündən-günə çoxalmaqda olan problemləri həll etməyə qadir yeganə Baş nazir namizədi fikrini oyatmışdı. Həmin vaxt İranın qarşı-qarşıya qaldığı problemlərin ən böyüyü və ən əhəmiyyətlisi «Azərbaycan böhranı» hesab olunurdu. Dövlət və bir neçə yerə bölünmüş Məclis arasında əməkdaşlığın qeyri-mümkün olduğu bir vaxtda, siyasi baxımdan bu böhranın öhdəsindən gəlmək üçün yeganə yol qalmışdı ki, o da Məclisin buraxılması idi.

Beləliklə, on dördüncü Məclisin 1946-cı ilin mart ayının ortalarına doğru bağlanması barədə qərar qəbul edildi. Lakin deputatların bir qrupu mövcud Məclisin bağlanma tarixinin uzadılmasını tələb edirdi. Seyid Ziya Təbatəbainin rəhbərlik etdiyi bu qrup qarşısına qoyduğu məqsədə nail olmaq üçün mümkün olan bütün vasitələrə əl atmağa hazır idi. Məclisdəki digər fraksiyalar, xüsusilə də Tudə fraksiyası isə Seyid Ziyanın və onun tərəfdarlarının qəti əleyhinə idi.

Tudə Partiyası Qəvvamın Baş nazir vəzifəsinə gətirilməsini böyük razılıq hissi ilə qarşıladı. Çünki Tudə Partiyası ona ölkəni böhran vəziyyətindən sülh yolu ilə çıxarmağa qadir son alternativ kimi baxırdı. (37)

Növbəti Məclisdə öz deputatları üçün daha çox yer qazanacağından arxayın olan Tudə Partiyası Seyid Ziyanın mövcud Məclisin bağlanma tarixinin uzadılması ilə bağlı planını pozmaq məqsədilə geniş kampaniya başlatdı. Hansı səbəblərlə çıxış etməsindən asılı olmayaraq, Tudə Partiyası Baş nazirə verdiyi dəstəyi gücləndirməklə sonunda bu işdən özü qazanclı çıxmış oldu. Belə ki, qalmaqalçı nümayişlərin, yığıncaqların və hətta küçə toqquşmalarının baş verməsi nəticəsində Məclisin bağlanma tarixinin uzadılması planı məğlubiyyətə uğradıldı. Beləliklə də 1946-cı ilin 11 martında on dördüncü Məclis buraxıldı. (38)

Tudə Partiyası xalq içərisində Qəvvam hökumətinə dəstək əldə etmək üçün müvəffəqiyyətlə iş apardığı bir vaxtda Qəvvam «iki ölkə arasındakı əlaqələrdə meydana çıxan problemləri həll etmək» məqsədilə Sovet İttifaqı ilə birbaşa danışıqlara başlamışdı. (39) 1946-cı ilin fevral ayının 19-da Qəvvam Moskvaya on doqquz günlük səfərə getdi. Qəvvam Moskvadan İrana qayıtdıqdan sonra onun Sovet İttifaqına etdiyi səfər uğursuzluqla və heç bir nəticə verməməsi ilə səciyyələndirilsə də aparılan ilkin danışıqlar zamanı hər iki tərəf danışıqların daha da inkişaf etdirilməsi üçün zəruri hesab etdikləri şərtləri irəli sürərək anlaşmaya nail olmuşdu. İran nümayəndə heyəti Azərbaycan məsələsi ilə bağlı öz mövqeyini açıqca belə ifadə etmişdi: «Azərbaycan əyaləti daim İranın ayrılmaz bir hissəsi olmuşdur və bu indi də belədir. Türk dili hər zaman məhəlli xarakteri daşımışdır. Azərbaycanın mədəniyyəti və ədəbiyyatına məxsus hər bir əsər ta qədim zamanlardan indiyədək yalnız fars dilində yazılmışdır. Azərbaycanda şairlər, mirzələr, bütün idarələr və kitablar fars dilini öz ana dilləri olaraq qəbul edirlər. Bu səbəbdən də İranın müstəqilliyi və ərazi bütövlüyünün qorunub saxlanılması elə İranın müstəqilliyi və ərazi bütövlüyünün dönməz tərəfdarı olan, lakin bu sahədə İranın zərərinə hərəkət edənlərin özündən asılıdır. Şübhəsiz ki, dövlətimiz Azərbaycanda lazımi islahatların keçirilməsi üçün gərəkli köməkliyi göstərəcək, lazım gəlsə bunun uğrunda fədakarlıq etməkdən də çəkinməyəcək, əyalətin idarəçiliyini yaxşılaşdırmaq və möhkəmləndirmək üçün bütün mümkün islahatçı təklifləri qəbul edəcək, əyalət və vilayət şuralarının təsis edilməsini ehtiva edən qanunun həqiqətən qüvvəyə minməsi üçün səy göstərəcək və Azərbaycan xalqının ehtiyaclarını qarşılayacaqdır». (40)

Sovetlər İran hökumətinin Azərbaycanla bağlı mövqeyinə münasibət bildirərkən böyük ehtiyatlılıq və təmkinlilik göstərdilər. Sovetlər Azərbaycanda baş verən siyasi hadisələri İranın «daxili işlərinə» aid etdiklərini və bu məsələnin yalnız İran hökumətini maraqlandırdığı düşüncəsində olduqlarını bəyan etsələr də əyalətdə bəzi dəyişikliklərin edilməsi barədə təkliflər irəli sürməkdə tərəddüd etmədilər. Lakin Sovetlər bu məsələ ilə bağlı təkliflərində gözlənildiyindən fərqli olaraq daha çox orta mövqedən çıxış edirdilər: «İran dövlətinin öz daxili işi olan İran Azərbaycanı məsələsinə gəldikdə biz məsləhət görərdik ki, əyalətdə sosial, iqtisadi islahatların keçirilməsi və mədəniyyətə verilən diqqətin artırılması üçün bütün lazımi tədbirlər həyata keçirilsin. Bizim fikrimizcə, Milli Məclisin adı əyalət və vilayət şurası adı ilə əvəz olunmalı və Azərbaycanın yerli Baş naziri İranın mərkəzi hökumətinin əyalətdəki valisi vəzifəsini yerinə yetirməlidir. Əyalətin gəlirinin 25%-i mərkəzi hökumətə təslim edilməli, yerdə qalan hissə isə əyalətdə mədəniyyət sahəsi ilə bağlı, eyni zamanda sosial və iqtisadi islahatların keçirilməsinə xərclənməlidir. Əyalətdə Hərb Nazirliyi və Xarici İşlər Nazirliyi olmamalıdır. Bu iki nazirliyin yaradılması səlahiyyəti yalnız mərkəzi hökumətə məxsus olmalıdır». (41)

Sovetlərin Azərbaycan məsələsinə dair tutduqları mövqe bir-birinə zidd iki meyli özündə əks etdirməsi ilə səciyyələnirdi. Belə ki, bir tərəfdən İranın daxili işlərinə birbaşa müdaxilə etmək istəməyən Sovetlər digər tərəfdən də gələcəkdə Azərbaycanda baş verəcək siyasi hadisələrə olan maraqlarını gizlətmirdilər. Sovetlərin İranın daxili işlərinə qarışmamaq istəyi Avropaya həddən artıq çox müdaxilə etməsi səbəbilə Sovet İttifaqının beynəlxalq ictimaiyyətin gündən-günə çoxalan təzyiqlərinə məruz qalması ilə izah edilə bilər. Sovetlərin İran Azərbaycanında baş verən hadisələrə maraq göstərməsi Sovet İttifaqı Kommunist Partiyası daxilində mövcud olan hakimiyyət quruluşu ilə bilavasitə əlaqədar idi. Belə ki, Sovet Azərbaycanındakı Kommunist Partiyasının birinci katibi olan Bağırovun rəhbərlik etdiyi fraksiya Sovet İttifaqı Kommunist Partiyası daxilində böyük nüfuza və təsirə malik idi. Bağırov İran Azərbaycanında baş verən siyasi hadisələrə böyük maraq göstərirdi. Hətta Bağırovun bu məsələyə göstərdiyi münasibət tədricən inkişaf etmiş və Azərbaycanda muxtar hökumətin yaradılmasını da ötüb keçmişdi.

Qəvvamın Sovetlərlə apardığı danışıqlarda Azərbaycana muxtariyyət verilməsi məsələsi ilə yanaşı, iki digər mühüm məsələ də müzakirə edilmişdi. Bunlardan biri, Sovetlərin İranın şimalında Sovet İttifaqına neft konsessiyası verilməsini tələb etməsi ilə, digəri isə İran tərəfinin Sovet hərbi qüvvələrinin İrandan çıxarılması ilə bağlı qaldırdığı mühüm məsələ ilə əlaqədar idi. Hər iki tərəf tezliklə neft konsessiyası ilə bağlı qarşılıqlı güzəştə getməkdə razılığa gəldi. Belə ki, bu razılaşmaya əsasən İran–Sovet səhmdar şirkətinin yaradılması nəzərdə tutulurdu. Sovet qoşunlarının İrandan çıxarılmasına gəldikdə isə, bu məsələnin həll olunması daha çətin idi.

İranın 1941-ci ilin avqust ayında müttəfiqlərin, yəni İngiltərə və Sovet İttifaqının qoşunları tərəfindən işğal edilməsindən sonra İngiltərə, Sovet İttifaqı və İran arasında 1942-ci ilin yanvarında Üçtərəfli Saziş imzalanmışdı. Həmin sazişin beşinci maddəsində deyilirdi: «Müttəfiqlərin birləşmiş silahlı qoşunları İran ərazisindən müttəfiqlərlə Almaniya və onun müdafiəçiləri arasında mövcud olan bütün düşmənçiliyə son qoyulmasından, yəni müvəqqəti barışıq və ya daimi sülh müqaviləsinin imzalanmasından ən geci altı ay sonra çıxarılacaq».(42)

Almaniya 7 may 1945-ci ildə, Yaponiya isə həmin ilin sentyabr ayının 2-də təslim olduğundan müttəfiqlərin qoşunlarının İrandan çıxarılması üçün qoyulan altıaylıq müddət 1946-cı ilin 2 martında başa çatmalı idi. ABŞ və İngiltərə öz qoşunlarını İran ərazisindən təyin edilmiş vaxt müddətinin tamamlanmasından öncə çıxartsa da(43), mart ayının 1-də Moskva radiosu ilə yayımlanan bildirişdə Sovet qoşunlarının sabahkı gün bir sıra bölgələri (Xorasan, Şahrud və Semnan) tərk edəcəyi, lakin İranın şimalındakı mövcud yerli siyasi vəziyyətə açıqlıq gətirilənədək digər şimal bölgələrinin işğal altında saxlanılmasına davam ediləcəyi elan edildi.(44)

Sovetlərin İran ərazisindəki işğalçı qoşunlarının yalnız bir hissəsini ölkədən çıxaracaqlarını elan etmələri İran siyasətçiləri arasında böyük qalmaqala səbəb oldu. Belə ki, Müsəddiq Məclisdəki çıxışı zamanı İranın Sovet qoşunlarından təmizlənməsi məsələsinin artıq bağlandığını və İran hökumətinin bu məsələ ilə bağlı danışıqlar aparmağa haqqının olmadığını deputatlar qarşısında bəyan etmişdi.(45) Müsəddiqin əsasən Sovet qoşunlarının İrandan çıxarılması məsələsindən bəhs etdiyi bu kəskin çıxışı gözlənildiyi kimi, Məclisin əksəriyyəti, həm mühafizə-

karlar, həm də liberallar tərəfindən güclü alqış və qeyri-adi həyəcanla qarşılanmışdı. Bu səbəbdən də Moskvada Sovetlərlə apardığı danışıqları davam etdirməkdə olan Qəvvamın bu məsələ ilə bağlı tutduğu mövqenin İranda siyasətçilər tərəfindən geniş ölçüdə müdafiə olunduğunu hiss etməsi onun öz fikrinin üstündə möhkəm dayana bilməsi cəhətdən olduqca müsbət hal sayılırdı.(46)

Qəvvam İrana qayıtdıqdan sonra Sovetlər tərəfindən son təkliflərin irəli sürülməsini gözləməyə üstünlük versə də, bununla yanaşı o, öz sələflərinin apardığı siyasəti davam etdirərək Sovet qoşunlarının İrandan çıxarılması ilə bağlı mübahisəli məsələni beynəlxalq ictimaiyyətin nəzərinə çatdırmaqla Sovet İttifaqına təzyiq göstərməyə başladı. Belə ki, şah sarayı ilə yaxından əlaqəsi olan və BMT-dəki İran nümayəndə heyətinə rəhbərlik edən Hüseyn Əla 18 martda İranın ikinci rəsmi şikayət məktubunu Təhlükəsizlik Şurasına təqdim etdi.(47) Sovet İttifaqının BMT-dəki səfiri Andrey Qromıko isə buna cavab olaraq Təhlükəsizlik Şurasına bu məsələyə baxılmasının 10 aprel tarixinə qədər təxirə salınması xahişi ilə müraciət etdi. Səfir «bu məsələnin həllinə adi kanallarla nail olunması üçün hazırlıqların getməkdə olduğunu» səbəb gətirərək, nə üçün məsələnin müzakirəsinin sonraya saxlanılması ilə bağlı müraciət etdiyinə dair izahat vermişdi. Andrey Qromıko təzəcə nəşr olunmuş xatirələrində də BMT-də Sovet nümayəndə heyətinə rəhbərlik etdiyi vaxtlarda Sovet qoşunlarının İrandan çıxarılması məsələsinin gündəlikdə olduğunu qeyd edərək vəziyyəti aşağıdakı şəkildə şərh etmişdi: «Müharibə başa çatdıqdan sonra SSRİ bir sıra mühüm məsələləri həll etmədən, xüsusilə də İngiltərənin İraq və Hindistanda, ABŞ-ın isə SSRİ sərhədlərinin yaxınlığında çoxsaylı bazalar yerləşdirməyə davam etdiyi və ingilis hərbi-dəniz qüvvələrinin Fars körfəzində rahatca hərəkət etdiyi bir vaxtda Sovet qoşunlarının İran ərazisindən geri çəkilməsini düzgün hesab etmirdi. Bu səbəbdən də SSRİ öz qoşunlarını daha bir müddət üçün İran ərazisində saxlamaq niyyətində olduğunu elan etdi. Birdən-birə antisovet dalğası kükrəməyə başladı və bu məsələ Təhlükəsizlik Şurası səviyyəsinə qaldırıldı. Vaşinqton və Londonun istədiyi də elə bu idi. Mən Moskvadan bu təlimatı aldım: Əgər bu məsələ gündəliyə çıxarılsa, demək lazımdır ki, Sovet qoşunlarının İranda saxlanılmasının səbəbi əvvəlcədən gözlənilməyən vəziyyətin yaranması ilə əlaqədardır».(48)

Məsələnin həllinə nail olmaq üçün hazırlıqların getməkdə olduğunu qeyd edərkən Qromıkonun işlətdiyi «adi kanallar» ifadəsi Qəvvamın Moskva səfərinin sonunda imzalanmış birgə bəyannaməni nəzərdə tuturdu. Belə ki, bu bəyannaməyə əsasən, dostluq şəraitində həyata keçirilmiş danışıqlar Sovet İttifaqının İrandakı yeni səfiri vasitəsilə davam etdiriləcəkdi.(49)

1946-cı ilin 20 martında Sadçıkov təkliflər paketi ilə Tehrana gəldi. Bundan iki həftə sonra, 4 apreldə Baş nazir Qəvvam və Sovet səfiri tərəfindən imzalanmış birgə bəyannamə nəşr olundu. Həmin bəyannamədə aşağıdakı məsələlər üzrə razılığa gəlindiyi qeyd olunurdu:

* 1946-cı ilin 24 martından etibarən öz qoşunlarını İran ərazisindən çıxarmağa başlayan Qırmızı Ordu bir ay yarım içərisində ölkə ərazisini tamamilə tərk etmiş olacaq.

* Birgə İran—Sovet neft şirkətinin yaradılmasını nəzərdə tutan təklif ratifikasiya olunmaq üçün 24 mart 1946-cı il tarixindən keçən yeddi ay ərzində on beşinci Məclisə təqdim olunacaq.

* İranın öz daxili işi olan Azərbaycan məsələsi ilə bağlı problemlərlə əlaqədar İran hökuməti və Azərbaycan xalqı arasında İrandakı mövcud qanunlar çərçivəsində islahatların həyata keçirilməsini nəzərdə tutan xoşniyyətli, sülhməramlı danışıqlar aparılacaq.(50)

4 aprel 1946-cı ildə nəşr olunan bu bəyannamə İran hökumətinin Azərbaycan məsələsi ilə bağlı atdığı addımların ən mühümü hesab edilirdi. Belə ki, bəyannamədə də qeyd edildiyi kimi, Qəvvam Sovetlərə gələcəkdə yaradılması nəzərdə tutulan on beşinci Məclis tərəfindən təsdiq ediləcək konsessiyanın verilməsi ilə razılaşmışdı. Bunun əvəzində mərkəzi hökumət Sovet İttifaqının Azərbaycan məsələsinə «İranın öz daxili işi» kimi baxmasına nail ola bilmişdi. Həqiqətdə isə Sovetlər Qəvvama Azərbaycan yolundakı «uzun yürüşünü» tamamlamaq üçün gərəkli olan hər şeyi təklif edirdilər.

22 aprel 1946-cı ildə İran hökuməti Nazirlər Şurasının Azərbaycanla bağlı qəbul etdiyi qərarla yanaşı, öz bəyannaməsini də nəşr etdirdi. Həmin bəyannamədə deyilirdi:

Azərbaycanda əyalət və vilayət şuralarının yaradılması ilə bağlı konstitusiyaya edilmiş əlavəni əsas götürərək aşağıdakıların həyata keçirilməsi nəzərdə tutulur:

* Kənd təsərrüfatı, ticarət, sənaye, nəqliyyat, mədəniyyət, səhiyyə, polis və ədliyyə şöbələrinin rəhbərlərinin seçilməsi Tehrandakı mərkəzi hökumət tərəfindən müəyyən edilmiş nizamnaməyə əməl etmək şərtilə əyalət və vilayət şuralarının öz öhdəsinə buraxılacaq.

* Valinin təyin edilməsi əyalət şuralarının da fikrinin nəzərə alınması şərtilə hökumətə həvalə olunacaq. Silahlı qüvvələrin komandirinin və jandarmaların təyin edilməsi səlahiyyəti də hökumətə veriləcək.

* Azərbaycanın rəsmi dili İranın digər bölgələrində olduğu kimi, fars dili olaraq qalacaq. Yerli hökumət idarələrində və Ədliyyə Şöbəsində işlər fars və Azərbaycan dillərində aparılacaq. İbtidai məktəblərdə isə ilk beş il boyunca dərslər Azərbaycan dilində tədris olunacaq.

* Vergilər və ölkənin büdcəsindən ayrılacaq kreditlər müəyyən edildikdə, hökumət Azərbaycan şəhərlərinin rifah içərisində və firavan yaşaması və mədəniyyət, səhiyyə və s. sahələrin inkişaf etdirilməsi üçün bütün lazımi tədbirləri həyata keçirəcək.

* Ölkənin digər bölgələrində olduğu kimi, Azərbaycanda da demokratik təşkilatların, müxtəlif birliklərin azad şəkildə fəaliyyət göstərməsinə icazə veriləcək.

* Azərbaycan Muxtar Hökumətinin yaradılmasında əməyi olan və bu hökuməti müdafiə edən şəxslər keçmişdə demokratik hərəkatda iştirak etmələri səbəbilə hər hansı bir təqibə və ya cəzalandırmaya məruz qalmayacaq.

* Azərbaycanın parlamentdəki nümayəndələrinin sayı artırılaraq əyalətin əhalisinin həqiqi sayına görə müəyyən ediləcək. Belə ki, on beşinci qanunverici sessiya başlayan kimi bu məsələnin həllini nəzərdə tutan təklif Məclisin müzakirəsinə veriləcək. Bu məsələ Məclis tərəfindən təsdiq edildikdən sonra həmin sessiya üçün keçiriləcək seçkilərdə Azərbaycanı təmsil edəcək nümayəndələrin sayında mövcud olan yetərsizlik aradan qaldırılacaq.(51)

Mərkəzi hökumət yuxarıdakı bəyannaməni nəşr etdirdikdən sonra Azərbaycanla bağlı mübahisəli məsələni həll etmək məqsədilə ilkin addımları atmaq üçün Azərbaycandan Tehrana nümayəndə heyəti dəvət etməyə təşəbbüs göstərdi. Mərkəzi hökumətin bu təşəbbüsü cavabsız qalmadı. Belə ki, Pişəvərinin rəhbərliyi ilə Demokratlardan təşkil olunmuş yeddi nəfərdən ibarət nümayəndə heyəti mərkəzi hökumətlə

ilkin rəsmi danışıqlara başlamaq məqsədilə 1946-cı ilin 28 aprelində artıq Tehranın Qale Morgi hava limanında idi.(52)

Qəvvamın Azərbaycan məsələsi ilə bağlı tutduğu mövqe Tehranda mühafizəkar dairələr tərəfindən böyük şübhə hissi ilə qarşılansa da solçu və liberal fraksiyalar Qəvvamın məsələnin həllinə danışıqlar yolu ilə nail olmaq niyyətini «İranda demokratiyanın bərqərar edilməsi uğrunda apardıqları uzunmüddətli mübarizənin ümumxalq qələbəsi» kimi qiymətləndirirdilər. Belə ki, İrandakı ən mühüm fəhlə birliyinin tribunası sayılan «Zəfər» qəzetində dərc edilən «Demokratiyanın bərqərar edilməsi Azərbaycan məsələsinin həlli deməkdir» başlıqlı məqalədə hökumətdən Azərbaycanda həyata keçirilməsi nəzərdə tutulan tədbirlərin eyniliklə ölkənin digər hissələrinə də aid edilməsi tələb olunurdu: «Biz ölkəmizin parçalanmamasının tərəfdarıyıq. Biz bütün həmvətənlərimizin sülh və əmin-amanlıq içərisində, demokratiya şəraitində yaşadığını görmək arzusundayıq. Bu səbəbdən də Azərbaycanlı və ya Kermanlı olmasından asılı olmayaraq hər bir İranlının düşündüyü kimi və Firqe-ye Demokratın rəhbərlərinin də dəfələrlə bəyan etdiyi kimi biz hamımız bir cəbhədə birləşməli və İranı əsl konstitusiya ölkəsinə çevirməliyik». (53)

Tudə Partiyasının bu məsələyə göstərdiyi münasibət fəhlə birliyinin «Zəfər» qəzetindəki məqalədə əks etdirilən mövqeyi ilə çox oxşar idi. Belə ki, «Rəhbər» qəzetində dərc edilən bir məqalədə hökumətin verdiyi bəyannamə ilə bağlı Tudə Partiyasının görüşləri ifadə olunurdu. Ənvər Xameyinin müəllifi olduğu bu məqalədə azərbaycanlılara müraciət edərkən «millət» terminindən deyil, «xalq» və ya «əhali» terminlərindən istifadə olunması təkidlə vurğulanırdı. Ənvər Xameyinin bəyannamə ilə bağlı əsas tənqidləri nəzərdə tutulan islahatların həyata keçirilməsini təmin edəcək hər hansı bir icraedici hakimiyyət quruluşunun yaradılması üçün hökumətin heç bir tədbir görməməsi ilə əlaqədar idi. Hökumətin Azərbaycandakı Xalq Qoşununun mövcudluğuna əhəmiyyət verməyərək onun qorunması naminə heç bir addım atmaması da Ənvər Xameyinin tənqidi yanaşdığı məsələlərdən biri idi.(54) Bütün bu mənfiliklərə baxmayaraq, üç gün sonra Xəlil Maliki hökumətə daha çox təzyiq göstərmək məqsədilə elə həmin qəzetdə dərc edilən başqa bir məqalədə təxribatçı mövqedən çıxış edərək bütün İranlılara azərbaycanlı həmvətənlərini müdafiə etmək və ölkədə konstitusiyanın

tətbiq edilməsi üçün mübarizəyə qalxmaq çağırışı ilə müraciət etdi: «Azərbaycandakı mövcud vəziyyət uzunmüddətli və arasıkəsilməz mübarizə sayəsində meydana gəlmiş və olduqca geniş yayılmış milli, demokratik və kütləvi hərəkatın nəticəsi və yekunudur. Birgə mübarizə aparılması və mütərəqqi şəxslərin güclü, milli partiya halında bir araya toplanması nəticəsində Azərbaycan xalqı konstitusiyaya uyğun hüquqlar əldə etməyə nail olmuşdur. Əgər digər əyalət və vilayətlər Azərbaycanı özləri üçün nümunə götürmək istəsələr, onda onlar gərək Azərbaycanın getdiyi yolla hərəkət etsinlər».(55)

Tudə Partiyasının radikal mövqeyinin əksinə olaraq İrandakı liberal qüvvələr hökumətin Azərbaycanla bağlı siyasi manevrləri ilə əlaqədar daha orta mövqedən çıxış edərək ehtiyatlı davranmağa üstünlük verirdilər. Müsəddiqin Məclisdəki fraksiyası ilə yaxından əlaqədar olması ilə tanınan «Cəbhə» və «Hezb-e İran» (İran Partiyası) partiyalarının rəsmi orqanlarında Qəvvam hökumətini insanların arzusunu həyata keçirdiyi üçün təqdir etdiyini və Azərbaycan məsələsi ilə bağlı hökumətin verdiyi bəyannaməni böyük razılıq hissi ilə qarşıladığı ifadə olunurdu. Buna baxmayaraq, İran Partiyası hökumətin muxtariyyət məsələsi ilə bağlı güzəştə getməsinin İranın gələcək siyasi həyatını təhlükə altında qoyacaq təsirləri barəsindəki narahatlığını aşağıdakı şəkildə ifadə etmişdi: «Milli hökumətin yaradılması millətə milli məclisə və əyalət şurasına nümayəndələr seçmək, beləliklə də öz taleyini müəyyən etmək hüququnun verilməsi deməkdir. Muxtar hökumətin yaradılması və mərkəzi hökumətin tabeçiliyindən çıxması mərkəzin əyalət üzərində heç bir hakimiyyətinin qalmaması deməkdir ki, bu da İranın maraqlarına tamamilə ziddir. Çünki İran, əhalisi bir o qədər də çox olmayan kiçik bir ölkədir. Əgər İranın hər bir əyaləti sadəcə yerli dilə və ənənələrə sahib olduğu üçün muxtar hökumət qurmağa cəhd göstərsə, mənim fikrimcə, bu heç də ölkəyə xeyir gətirməz».(56) Həm solçular, həm də liberallar Qəvvamın təklif etdiyi islahatların ölkənin bütün bölgələrində həyata keçirilməsi fikrini yekdilliklə müdafiə edirdilər.(57)

Bu vaxt Azərbaycan Muxtar Hökumətinin başı yerli məsələlərin həll edilməsinə qarışmışdı. Bu kimi məsələlərə ilk əvvəl kəndlilərin birinci dəfə keçiriləcək milli qurultaya cəlb edilməsi(58), İran ordusunun və qeyri-nizami tayfa birləşmələrinin şərq sərhədi ətrafındakı fasiləsiz hücumlarını dəf etmək üçün əlavə qoşun hissələrinin təşkil edil-

məsi(59), mərkəzi hökumətin Tehranla Təbriz arasındakı ticarəti dayandırmaq məqsədilə Zəncan yolunda yaratdığı blokadanın aradan qaldırılması(60) və s. daxil idi. Qəvvamın bəyannaməsi Azərbaycanda bir o qədər də maraq doğurmadı. Belə ki, bu bəyannamə ADF-nin rəsmi qəzeti olan «Azərbaycan» qəzetində belə dərc olunmadı. Lakin Demokratların siyasi ritorikasındakı ani dəyişiklik diqqətləri öz üzərinə toplayırdı. Belə ki, onlar daha mülayim və qətiyyətsiz mövqedən çıxış edərək öz mübarizələrini İran millətinin demokratiya mübarizəsi kimi qələmə verirdilər: «Azərbaycan bütün İran millətinin bayraqdarıdır. İran millətinin azadlığının Azərbaycanın azadlığından asılı olduğunu bütün iranlılar yaxşı bilir».(61)

## İSLAHATLARIN HƏYATA KEÇİRİLDİYİ TƏNƏFFÜS

Azərbaycanda geniş xalq kütlələrinin dəstəyini qazanan milli hökumət ADF-nin ilkin proqramında vəd edilən bir sıra islahatları həyata keçirməyə başladı. Bu islahatların ən mühümünü torpaq sahəsində keçirilən islahatlar təşkil edirdi.

Demokratlar tərəfindən tərtib edilən qiymətləndirməyə görə, 1945-ci ilin dekabr ayına qədər Azərbaycandakı məhsuldar torpaqların 80%-i böyük mülkədarların əlində cəmlənmişdi. Məhsuldar torpaqların 12%-i xəlisə torpaqları, yəni dövlət mülkləri hesab olunurdu. Torpaqların qalan 8%-i isə xırda mülkədarların sahibliyində idi.(62) 1946-cı ilin 16 fevralında Azərbaycan Milli Məclisinin Rəyasət Heyəti Məclisin adından çıxış edərək torpaqsız kəndliləri sakitləşdirmək məqsədilə iki qanun qəbul etdi. Birinci qanun mülkədarlara məxsus bütün torpaqların və suların (çaylar, bulaqlar və arxlar) müsadirə olunmasını nəzərdə tuturdu. Həmin qanun aşağıdakıları ehtiva edirdi:

* Milliyyətcə azərbaycanlı olub-olmamasından asılı olmayaraq, Azərbaycandakı azadlıq hərəkatının əleyhinə vuruşmuş və ya Azərbaycan Milli Hökumətinin yaradılmasına qarşı müqavimət göstərmiş bütün mülkədarlar torpaq mülklərindən məhrum ediləcək.

* Azərbaycandakı azadlıq hərəkatına xələl gətirməyə və Azərbaycan Milli Hökumətini sarsıtmağa yönəldilmiş təbliğat kampaniyalarında

iştirak etmək üçün Azərbaycanı tərk edərək Tehrana və ya başqa bir yerə getmiş bütün mülkədarların torpaq mülkləri müsadirə olunacaq.

* Yuxarıda göstərilmiş səbəblərə görə, müsadirə olunmuş torpaqlar yoxsul kəndlilər arasında bölüşdürüləcək.(63)

Xəlisə torpaqlarının kəndlilərə paylanmasını nəzərdə tutan ikinci qanunda isə aşağıdakı şərtlər irəli sürülürdü: «Hökumətə məxsus bütün torpaqlar və sular (çaylar, bulaqlar və arxlar) həmin torpaqlarda yaşayan kəndlilər arasında bölüşdürüləcək. Bundan başqa, bu torpaqlardakı bütün çəmənliklər həmin yerlərin sakinlərinin ümumi istifadəsinə veriləcək».(64)

Bu iki qanunun yerinə yetirilməsi nəticəsində əvvəllər ayrı-ayrı mülkədarların sahibliyində olan 437 kəndin və hökumətə məxsus 373 kəndin torpaqları kağız üzərində olsa belə, bir milyondan çox kəndli arasında bölüşdürüldü. Belə olduqda, 380000 hektar torpaq sahəsinin pulsuz olaraq yeni torpaq sahibləri olan kəndlilərə paylanılması qərarlaşdırıldı. Beləliklə, muxtar hökumətin torpaq islahatları keçirməsi və torpaqla bağlı verdiyi qanunları yerinə yetirməsi nəticəsində Azərbaycandakı hər bir ailə təxminən üç—beş hektarlıq torpaq sahəsi sahibinə çevrildi.(65)

Azərbaycan Muxtar Hökuməti tərəfindən verilən başqa bir qanun birgə məhsul yığımı metodunun islah olunması məqsədi daşıyırdı. Belə ki, İranda birgə məhsul yığımı ənənəvi olaraq beş nəsəq adlanan bir sistemə əsaslanırdı. (Nəsəq məhsulun yetişdirilməsi üçün gərəkli olan vasitələrə deyilirdi. ) Beş nəsəq sisteminə torpaq, su, işçi qüvvəsi, toxum və öküzlər daxil idi. Bu qaydaya görə, məhsulun toplanıldıqdan sonra kəndlilər və mülkədarlar arasında bölüşdürülməsi məhsulun becərilməsi üçün hər birinin qoyduğu nəsəqin sayına əsasən müəyyən edilməli idi. Həqiqətdə isə mülkədar məhsulun becərilməsi üçün kəndlini torpaq, su, toxum və bəzən də öküzlərlə təmin etdiyindən məhsulun beşdə üçünə və ya beşdə dördünə sahiblənirdi. Demokratların qəbul etdiyi yeni qanun bu qaydanı dəyişdirdi. Belə ki, beş pay sistemi əvəzinə, yeddi paya əsaslanan yeni qayda tətbiq olunmağa başlandı. Bu qaydaya görə, su artıq pay hesab olunmur, işçi qüvvəsi isə üç paya bərabər götürülürdü. Öküzlər iki pay kimi, toxum və torpaq isə bir pay kimi hesablanırdı. Belə olduqda, kəndlilərə qalan məhsulun miqdarı 20%-dən ən azı 43%-ə qədər artırdı.(66)

Demokratların proqramının ən mühüm hissəsini təşkil edən və hələ də öz əhəmiyyətini eyni dərəcədə saxlayan digər bir məsələ Azərbaycan dili və əyalətin təhsil sistemində onun tutacağı yer ilə bağlı idi. Milli hökumətin verdiyi ilkin qanunlardan biri də məhz bu məsələ ilə bağlı idi. Belə ki, bu qanun Azərbaycan dilini əyalətin rəsmi dövlət dili elan etməklə yanaşı, həm də yerli rəsmi idarələrdə, təhsil və ticarət müəssisələrində Azərbaycan dilindən başqa hər hansı bir dildən istifadə olunmasını qəti qadağan edirdi.(67) Azərbaycan Mədəniyyət naziri tərəfindən verilən fərman isə Azərbaycan dilində bütün lazımi dərsliklərin hazırlanmasında vəzifələndirilən xüsusi komissiyanın yaradılmasını nəzərdə tuturdu.(68)

Azərbaycan Muxtar Hökuməti azərbaycanlıları parlaq gələcəyə inandırmaq və onları xoş günlərin gözlədiyindən əmin etmək üçün bir sıra tədbirlər həyata keçirirdi. Lakin qiyam nəticəsində yaranan hər bir yeni hökumət kimi Azərbaycan Muxtar Hökuməti də özünü geniş xalq kütlələrinə arxalanan qanuni hökumət kimi təqdim edə bilmək üçün böyük səy göstərirdi. Bu səbəbdən də milli hökumət xalqı gündəlik siyasi məsələlərdə iştirak etməyə həvəsləndirmək məqsədilə seçkilər və seçicilərin tərkibi ilə bağlı bir sıra islahatlar keçirdi.

1946-cı il 8 yanvarda Azərbaycan Milli Məclisi əyalət, vilayət, regional və bələdiyyə şuraları ilə bağlı seçki qaydalarının nizama salınması məqsədi ilə yeni qanunlar qəbul etdi.(69) Bu qanunlara əsasən, İran tarixində ilk dəfə olaraq qadınlara da seçilmək hüququ verildi. Bu qanunlar qəbul edildikdən sonra muxtar hökumət böyük təbliğat kampaniyası başladaraq bütün azərbaycanlıları öz talelərini müəyyən etmək üçün seçkilərdə iştirak etməyə və öz səslərindən istifadə etməyə çağırdı. Pişəvərinin verdiyi məlumata görə, on gün davam edən seçkilərdə yüz minlərlə seçici iştirak edirdi.(70) Amerikanın Təbrizdəki vitse-konsulu Robert Rossov isə seçkilərlə bağlı öz şərhlərini verərkən seçicilərin sayının bu qədər çox olmasının heç bir məna kəsb etmədiyini qeyd edirdi.(71) Seçkilərin düzgünlüyünə şübhə ilə yanaşan Rossov Demokratların keçirdiyi bu seçkilərdə hər hansı bir yeniliyin hiss olunmadığını və seçkilərin gedişatında köhnə fars ənənələrindən bir o qədər də kənara çıxılmadığını söyləyirdi.(72)

Demokratlar cəmiyyətdəki dini ünsürlərin dəstəyini qazanmaq üçün Rza şahın imperiya taxtına çıxdığı ilk günlərdən etibarən bəzi dini mə-

rasimlər üzərinə qoyulan qadağaların ləğv edilməsi barədə qərar qəbul etdilər. Bu kimi adət-ənənələrə olduqca geniş yayılmış dini mərasimlər daxil idi. Xüsusilə, İmam Hüseynin şəhid olduğu Məhərrəm ayında keçirilən Sinezəni ( sinə döyülməsi), Zəncirzəni (bədənin zəncirlə döyülməsi), Qəmezəni (bədənin xəncərlə yaralanması) və Taziyye (dini tamaşalar) kimi matəm mərasimlərinə qoyulan qadağalar aradan qaldırıldı. Bundan başqa, Rza şahın 1930-cu ildə verdiyi qərara əsasən, qadınların örtük örtməsinə qoyulan qadağa da ləğv edildi. Həmin vaxt Təbrizdə səfərdə olan Amerikanın mətbuat katibi də bu barədə məlumat verərkən dini mərasimlərin və adət-ənənələrin azad şəkildə bərpa edilməsi üçün Demokratların yaratdığı imkanları vurğulayır, Təbrizdə olarkən Demokratların Məhərrəm ayı səbəbilə matəm nümayişlərində iştirak etməsinə şahid olduğunu qeyd edirdi.(73)

Demokratların dini məsələlərə böyük dözümlülük nümayiş etdirməsinin səbəbi onlara qarşı daim kin bəsləyən dini iyerarxiya ilə barışmaq niyyətində olmalarından xəbər verirdi. Lakin Demokratlar bir neçə mollanı öz ətrafına toplamaqla və ənənəvi dini mərasimlərin keçirilməsi üçün muxtar hökumət tərəfindən heç bir manea yaradılmayacağına dair təminat verməklə öz qapılarının din xadimlərinə açıq olduğunu elan etdilər və beləliklə də onlara güzəştə getmiş oldular.(74)

Hökumətin fəaliyyətini bütün bu dəyişiklik və islahatlarla davam etdirən Demokratlar öz proqramlarını həyata keçirə bilmək üçün siyasi sakitlik və sabitlik dövrünə ehtiyac duyurdular. Digər tərəfdən, adi azərbaycanlıların əksəriyyəti həyata keçirilən islahatların nəticəsində əmələ gələn sosial və iqtisadi dəyişiklik qarşısında çaşqınlıq hissi keçirirdi. Başqa sözlə, öz ideallarının reallaşması üçün göstərməli olduqları qeyrət və səy onları heyrətə və dəhşətə gətirirdi.

## KÜRD QALMAQALI

İran kürdləri təxminən Azərbaycanlı Demokratlarla eyni vaxtda İran Kürdüstanında muxtar hökumət yaratmaq məqsədilə kampaniya başlatdılar. (75) Bu bölgədə qədim köklərə malik tayfa cəmiyyətinə xas qanunlar hökm sürdüyündən Kürdüstana muxtariyyət verilməsi məqsədilə başladılan kampaniya Azərbaycanda olduğu kimi yalnız bir etnik mənsubiyyətə xidmət etmirdi. Belə ki, bu kampaniya daha çox

tayfa münasibətləri üzərində qurulmuşdu. Kürdlərin muxtariyyət hərəkatının tayfa hərəkatı xarakteri daşıması kürdlər və azərbaycanlılar arasındakı onsuz da gərgin olan əlaqələri daha da pisləşdirdi.

Qonşu əyalətlər olan Azərbaycan və Kürdüstan əhalisi arasında bir neçə dəfə etnik münaqişələr yaşanmışdı. Xüsusilə də bu əyalətlərin eyni bölgədə yanaşı yaşayan qonşu icmaları arasında torpaq sahibliyi sahəsində bir sıra anlaşılmazlıqlar meydana gəlmişdi. Keçmişdə də bu iki əyalətin əhalisi arasında mövcud olan məzhəbi fərqliliklər, yəni azərbaycanlıların şiə, kürdlərin isə sünni olması amili bu kimi münaqişələrin daha da kəskinləşməsinə gətirib çıxarmışdı.

1945-ci il 25 avqust tarixində Kürdüstan Demokrat Partiyasının yaradılmasından dərhal sonra kürd Demokratları yeddi maddədən ibarət bir manifest nəşr etdirdi.(76) Həmin manifestin altıncı maddəsində deyilirdi: «Kürdüstan Demokrat Partiyası Azərbaycan xalqı və orada yaşayan azlıqlarla tamamilə qardaş münasibətləri yaratmaq üçün əlindən gələni edəcək».(77)

Öz azərbaycanlı demokrat həmkarlarına bəslədikləri «qardaş» münasibətini nümayiş etdirmək məqsədilə kürd Demokratlarının atdığı ilk rəsmi addım 1945-ci ilin 3 sentyabrında Təbrizdə Tudə Partiyasının ADF ilə birləşməsinin qeyd edildiyi mərasimdə iştirak etməsi üçün Kürd nümayəndə heyətinin Təbrizə göndərilməsindən ibarət oldu.(78) Elə həmin tarixdə Kürdüstan Demokrat Partiyası Təbrizdə Azərbaycan Milli Məclisinin rəsmi açılışında iştirak etmək üçün başqa bir nümayəndə heyətini Təbrizə göndərmişdi. Lakin kürd nümayəndə heyətinin üzvləri qonşu, dost əyalətdən gəlmiş nümayəndələr kimi deyil, Azərbaycan əyalətinin tərkibində olan bir mahalı təmsil edən deputatlar kimi qarşılandığından böyük ümidsizliyə uğradılar.(79) Azərbaycanlı Demokratlardan olduqca narazı qalan kürd Demokratları Mahabada qayıtdıqdan sonra Kürdüstan Muxtar Hökumətinin yaradılması üçün geniş kampaniya başlatdılar. Beləliklə, 1946-cı ilin 22 yanvarında Kürdüstan Muxtar Hökuməti rəsmi surətdə yaradıldı.

Azərbaycan Muxtar Hökuməti və özünü Kürdüstan Respublikası adlandırmış kürd muxtariyyət qurumu arasındakı qardaşlıq əlaqələri uzun müddət davam etmədi. (80) Hər iki partiya Urmiya gölündən qərbdə və cənub-qərbdə yerləşən qarışıq əhalili ərazilərə iddia edirdi. 1946-cı ilin fevral ayının ortalarında iki qonşu əyalət arasındakı gərgin-

lik ən yüksək nöqtəsinə çatmışdı. Hətta silahlı münaqişənin baş verməsi təhlükəsi belə var idi.(81) Lakin Sovetlərin vasitəçiliyi ilə hər iki tərəf sonunda silahları yerə qoymaq və problemləri sülh yolu ilə həll etmək üçün danışıqlara baş vurmaq barəsində qarşılıqlı razılığa gəldi.(82)

Azərbaycan və Kürdüstan Milli Hökumətləri arasında aparılan ardıcıl danışıqlardan sonra 1946-cı ilin 23 aprelində Milli Hökumətlərin yüksək rütbəli nümayəndələrinin iştirakı ilə iki hökumət arasında Dostluq və Müttəfiqlik Sazişi imzalandı. Sovetlərin təzyiqi altında imzalanmış, bir o qədər də anlaşıqlı olmayan bu müqavilənin şərtlərinə əsasən, tərəflər regionda sülhün və əmin-amanlığın bərqərar edilməsi naminə qarşılıqlı əməkdaşlıq etmək niyyətində olduqlarını bəyan etməklə yanaşı, həm də Kürdüstanda azərbaycanlı azlıqların, Azərbaycanda isə kürd qruplarının yaşadığı faktını qəbul edirdilər. Bu saziş hər iki qurumu azlıq anklavlarının öz idarəçiliyinə sahib olduğu əraziləri diqqətə almağa çağırırdı.(83) Qeyd etmək lazımdır ki, bu müqavilənin ən mühüm hissəsi kürdlərlə azərbaycanlılar arasındakı əlaqələrin tənzimlənməsinə deyil, hər iki partiyanın mərkəzi hökumətlə olan əlaqələrinin qaydaya salınmasına həsr olunmuşdu. Qəvvamın «parçala və hökmranlıq et» siyasətinə əl atmasından qorxan kürdlər və azərbaycanlılar bağladıqları Dostluq və Müttəfiqlik Sazişində hər iki muxtar hökuməti gələcəkdə Tehranla danışıqlar aparacaq birgə nümayəndə heyətinin təşkil edilməsində fəallıq göstərməyə çağırırdılar.(84)

## BƏDBİN GÜNLƏR

Demokratların Tehranda mərkəzi hökumətlə apardıqları danışıqlar iki həftə davam etdi. Pişəvəri Tehrana getməzdən əvvəl Təbriz hava limanındakı çıxışında böyük cəsarət nümayiş etdirmiş və mərkəzi hökumətə aşağıdakı xəbərdarlığı etmişdi: «Fədailərin qanı bahasına əldə etdiyimiz azadlığı heç kim əlimizdən ala bilməyəcək. O vaxt biz Tehrana gəlib bütün İranı azad etmək üçün Tehrandakı mürtəce hökumətə son qoya bilərdik. Amma beynəlxalq vəziyyət buna imkan vermədi».(85)

Pişəvəri Tehranda hökumət məsulları ilə görüşdükdən və Azərbaycana aid problemlərin müzakirəsinə başladıqdan sonra Tehranın mərkəzdənqaçma qüvvələrinə qarşı son dərəcə ciddi və qəti mövqedən çıxış etmək niyyətində olduğunu başa düşdü. Belə ki, danışıqlardan sonra

Pişəvəri Tehranın əks mövqeyini yetərincə qiymətləndirmədiyi qənaətinə gəldi. Həqiqətən də mərkəzdənqaçma qüvvələrinin ölkənin hansı hissəsində və hansı şəkildə özünü göstərməsindən asılı olmayaraq mərkəzi hökumət öz hakimiyyətini əldən verməmək üçün var gücü ilə çalışmaqda son dərəcə qərarlı idi. Çünki mərkəzi hökumət öz hakimiyyətinə İranın suveren bir dövlət kimi yaşaya bilməsinin yeganə təminatçısı kimi baxırdı.

Demokratlar otuz üç maddədən ibarət təkliflər paketi irəli sürməklə Azərbaycan hökumətinə hər hansı bir muxtar hökumətin səlahiyyətlərindən daha üstün hakimiyyətin verilməsinə nail olmaq istəyirdilər.(86) Belə ki, Demokratların əsas məqsədi Azərbaycanı İranın sərhədləri daxilində suveren bir dövlətə çevirməkdən ibarət idi. Onlar yerli ordunun nəzarəti də daxil olmaqla bütün regional işlərin idarəçiliyinin muxtar hökumətə həvalə olunmasını, mərkəzi hökumətin isə yalnız xarici əlaqələrlə məşğul olmasını istəyirdilər. Demokratlar bu tələbləri irəli sürərkən İran konstitusiyasından daha çox Atlanta Xartiyasına istinad edirdilər. Belə ki, onlar məhz Atlanta Xartiyasında əks etdirilənləri xatırlatmaqla öz tələblərinə haqq qazandırmağa çalışırdılar.(87)

Digər tərəfdən, mərkəzi hökumət Demokratlarla ilkin danışıqlara başladı. Azərbaycan məsələsi ilə əlaqədar olaraq Qəvvam tərəfindən imzalanmış bəyanat (88) çərçivəsində danışıqlara başlayan mərkəzi hökumət ilkin mərhələdə Demokratların bəzi tələblərini, xüsusilə də müəyyən torpaq islahatlarının keçirilməsi və Azərbaycanda Demokratlara məxsus hərbi qüvvələrin sayının artırılması ilə bağlı irəli sürülən tələbləri qəbul etdi. Bunun müqabilində, Demokratlar öz tələblərini konstitusiyaya uyğunlaşdırmaq və muxtariyyət məsələsi ilə bağlı daha fərqli mövqedən çıxış etmək barəsində öz razılıqlarını bildirdilər. Onlar eyni zamanda mərkəzi hökumətin Milli Məclisin adının Azərbaycan Əyalət Şurası ilə, Nazirlər Şurasının adının isə Müdirlər Şurası ilə əvəz edilməsi və yerli nazirlərə Hökumət Şöbələrinin yerli müdirləri kimi müraciət olunması tələbini də qəbul etdilər. Bütün bunlara baxmayaraq, məsələnin tamamilə həll edilməsini çətinləşdirən iki mühüm maneə hələ qarşıda idi. Bunlardan biri torpaq islahatları, digəri isə əyalətin hərbi qüvvələrinin yenidən təşkil olunması ilə əlaqədar idi.

Qəvvam 10 may 1946-cı ildə nazirlər kabinetinə Demokratlarla ilkin razılığa gəlindiyini bildirsə də nazirlərin əksəriyyəti bu razılaşma-

nın əleyhinə səs verərək Baş nazirdən daha əvvəl verilmiş bəyanatda göstərilən şərtlərin üzərində möhkəm dayanmasını tələb etdilər. Bir neçə gün sonra, Demokratlardan ibarət nümayəndə heyətinə bu barədə aşağıdakı açıqlama verildi: «Hökumətdəki bir sıra məsuliyyətsiz ünsürlər və ölkənin silahlı qüvvələrinin ali baş komandanı (şah nəzərdə tutulurdu) danışıqların müvəffəqiyyətsizliklə nəticələnməsinin yeganə səbəbkarıdırlar. Onlar sözü gedən mübahisəli məsələnin həlli üçün hökumətin atdığı hər bir addıma mane olmaq məqsədilə mümkün olan bütün tədbirlərə əl atırlar».(89)

Demokratlar Azərbaycan Muxtar Hökuməti tərəfindən həyata keçirilən torpaq islahatları ilə bağlı məsələnin müzakirə edilməsinə heç bir ehtiyac görmürdülər. Çünki onlar bu məsələnin artıq həll edildiyi və xüsusilə də hökumətə və ayrı-ayrı mülkədarlara məxsus torpaq sahələrinin kəndlilər arasında bölüşdürülməsi ilə əlaqədar hər hansı bir dəyişikliyin edilməsinin imkansız olduğu düşüncəsində idilər. Belə olduqda mərkəzi hökumətə yalnız islahatların keçirilməsini nəzərdə tutan qanunları təsdiq etmək qalırdı. Lakin mərkəzi hökumət bu məsələ ilə bağlı ikili mövqeyə malik idi. Belə ki, hökumətə məxsus torpaq sahələrinin həmin torpaqlarda yaşayan kəndlilər arasında bölüşdürülməsi ilə razılaşan mərkəzi hökumət ayrı-ayrı mülkədarların xüsusi mülkiyyəti sayılan torpaqların kəndlilərə paylanılmasına gəldikdə isə bu məsələnin həllinin gələcəkdə çağrılacaq on beşinci Məclisin yurisdiksiyası altında təmin edilməsini düzgün hesab edirdi. Mərkəzi hökumət Azərbaycanın özünəməxsus hərb qüvvələrinin təsis edilməsi ilə bağlı bu fikirdə idi ki, Fədailər əyalətdə ölkənin milli ordusu, jandarma və polis qüvvələri ilə bərabər funksiyalara malik olmalıdır. Demokratlar isə öz növbələrində ordu daxilində bir sıra islahatlar həyata keçirilmədiyi təqdirdə keçmiş silahlı qüvvələrin əyalətə buraxılmayacağını hökumətə bildirdilər.(90)

1946-cı ilin 13 mayında danışıqların müvəffəqiyyətsizliklə nəticələndiyi artıq hər kəsə məlum idi. Buna baxmayaraq, tezliklə mərkəzi hökumət Demokratlarla aparılan danışıqların yekunlaşdırılması üçün təlimatlandırılan diplomatik heyətin Təbrizə göndərilməsinə dair göstəriş verdi. Demokratların Tehrandakı nümayəndə heyətinin öz üzərinə götürdüyü vəzifəni yerinə yetirə bilməməsi nəticəsində Azərbaycan Muxtar Hökuməti tarixində qarışıqlıq və qeyri-müəyyənliyin hökm sürməsi ilə səciyyələndirilən yeni bir mərhələnin başlanğıcı qoyuldu. Belə

ki, azərbaycanlı Demokratlar muxtar hökumətin yaradılmasından altı ayın keçdiyi bu mərhələdə əyalətdə öz hakimiyyətlərini heç bir maneə ilə üzləşmədən tətbiq edə bildikləri qızıl dövrün artıq başa çatmaqda olduğunu və siyasi həyatın yeni, amma daha təhlükəli bir dövrünə qədəm qoyduqlarını başa düşürdülər.

Azərbaycanın özündə isə Demokratlar xalqın narazılığı və həyəcanları ilə üz-üzə qalmışdı. Belə ki, muxtar hökumətin vəd etdiyi islahatları böyük razılıq hissi ilə qarşılayan və ötən yeddi ay ərzində əvvəlki vaxtlara nisbətən maddi cəhətdən daha yaxşı təmin olunan xalq(91) Demokratların daha sərt mövqedən çıxış etməsi və geniş xalq kütlələrinə xitab edən fəaliyyətinə son verməsi nəticəsində tədricən onlardan uzaqlaşmağa başlayırdı.(92)

Demokratlar Azərbaycanda xalqın həyəcanlarını yatırmaqla yanaşı, həm də öz siyasi rəqiblərini tərk-silah etmək üçün hər fürsətdən istifadə edən və bu məqsədlə bütün milli və beynəlxalq siyasi vasitələri işə salan mərkəzi hökuməti də diqqətə almalı idi.

Bütün bunlara əlavə olaraq, Demokratlar həm də Sovetlərdən birbaşa dəstək və yardım ummaq meyllərindən uzaqlaşmalı idilər. Çünki Sovetlər beynəlxalq üstünlüklər əldə edə biləcəkləri regionun İran sərhədlərindən kənarda yerləşdiyini başa düşmüş və Şərqi Avropada möhkəmlənmək naminə İrandakı mərkəzi hökumətə güzəştə getmək qərarına gəlmişdilər.

Sovet İttifaqı 1946-cı ilin ortalarından etibarən Orta Şərqdə, xüsusilə də İranda müharibədən sonra apardığı siyasəti artıq davam etdirmək iqtidarında olmadığını başa düşməyə başlamışdı. Belə ki, əgər Sovetlər 1946-cı ilin əvvəllərində Orta Şərqə «yarpaqlarını bir-bir yeyəcəkləri bir ənginar» (93) kimi baxırdılarsa, artıq həmin ilin yayında onlar ənginarı dünyanın digər super güclərinin ixtiyarına vermək üçün Orta Şərqi tərk etmək və Şərqi Avropada öz paylarına düşənlə kifayətlənmək qərarına gəlmişdilər. Əvvəllər Tehranın siyasi səhnəsindəki əsas rollar İngilterəyönlü siyasətçilərə məxsus olsa da, 1945-ci ilin sonlarından etibarən mərkəzi hökumətdə aparıcı rolu Sovetlərlə yaxşı münasibətlərdə olan Qəvvam və Firuz kimi şəxslər oynamağa başladı. Dövlət işlərinin bu tərzdə qurulması Sovetlərin Azərbaycan Muxtar Hökuməti ilə bağlı mövqeyinin dəyişilməsinə gətirib çıxardı. Beləliklə, Sovetlərin işi daha da asanlaşmış oldu.

İran hökuməti və azərbaycanlı Demokratlar arasında aparılan danışıqların ilkin mərhələsinin müvəffəqiyyətsizliklə nəticələnməsindən təxminən bir ay sonra Sovetlərin vasitəçiliyi ilə, daha doğrusu, Sovet İttifaqının Tehrandakı səfiri Sadçıkovun təzyiqi ilə 11 iyun 1946-cı ildə Təbrizdə danışıqların ikinci mərhələsinə başlanıldı. Mərkəzi hökumətin nümayəndə heyətinə Baş nazirin müavini Müzəffər Firuz başçılıq edirdi. Nümayəndə heyətinə iki yüksək rütbəli zabitlə yanaşı yeddi yüksək mülki xidmətçi də daxil edilmişdi. Danışıq masasının digər tərəfində isə Pişəvəri, Cahanşahlı Əfşar və Kürdüstan Muxtar Hökumətinin başçısı Məhəmməd Qazi var idi.(94)

Yeni təyin olunmuş elçilər mərkəzi hökumətin Demokratlarla apardığı danışıqların ilkin mərhələsinin müvəffəqiyyətsizliklə nəticələnməsinə nazirlər kabinetindəki şah tərəfdarlarının hökumətlə Demokratlar arasında əldə edilən razılaşmaya etiraz etmələrinin səbəb olduğunu bildiklərindən yalnız bu məsələ ilə əlaqədar bütün kabinetin razılığını aldıqdan sonra Təbrizə yola düşdülər. Məclisin hər hansı bir çətinlik törətməyəcəyindən və sarayın müvəqqəti də olsa, bu məsələyə müdaxilə etməyəcəyindən əmin olan Qəvvam Azərbaycan məsələsinin qənaətbəxş şəkildə həll edilməsi üçün ikinci dəfə kampaniya başlatdı.

Danışıqlar bir o qədər də uzun müddət davam etmədi. Belə ki, 1946-cı ilin 13 iyununda Dövlət (mərkəzi hökumət) və Azərbaycan nümayəndələri arasında razılaşma əldə edilməsi barədə bəyanat verildi. Növbəti gün bir ay əvvəl Tehranda hökumət və Demokratlar arasında əldə edilmiş ilkin razılaşma əsasında yeni müqavilə tərtib olundu. Bu sənədin rəsmiləşdirilməsi üçün Müzəffər Firuz və Pişəvərinin öz möhürlərindən istifadə etməsi olduqca maraqlıdır. Çünki həm Müzəffər Firuz, həm də Pişəvəri qarşılıqlı qəbul edilmiş terminologiya barəsində hər hansı bir narazılığın meydana gəlməsinə yol verməmək üçün danışıqlar zamanı öz rəsmi hökumət titullarından istifadə etməməyə səy göstərirdi.(95)

Qeyd etmək lazımdır ki, Qəvvam bu müqavilənin imzalanması zamanı yenə də özünün «inşallah» siyasətini yeritməyə çalışırdı. İranda «inşalah» ifadəsi, adətən kinayə ilə, boş vədlərə işarə etmək məqsədilə işlədilir. Qəvvam Sovetlərlə danışıqlar apararkən də özünün «inşallah» siyasətindən uğurla istifadə etmişdi. Belə ki, İran ərazisindəki Sovet qoşunlarının dərhal geri çəkilməsi müqabilində o, Sovetlərə neft

konsessiyaları verilməsi məsələsinin gələcəkdə çağrılacaq on beşinci Məclisdə qaldırılacağına və Məclisin Sovetlərə həmin konsessiyaları verməsini təmin edəcəyinə dair söz vermişdi. Qəvvam azərbaycanlı Demokratlarla danışıqlar apararkən və sözü gedən müqaviləni müzakirə edərkən də azərbaycanlı həmkarlarının güzəştə getmək niyyətində olmadığını başa düşdüyündən mübahisəli məsələlərin müzakirəsinin başqa bir vaxta keçirilməsini təklif etdi və gələcəkdə keçiriləcək danışıqlar zamanı həmin məsələlərə baxılacağına dair söz verdi.

Mərkəzi hökumət torpaq islahatları ilə bağlı əvvəlki mövqeyində qalmaqda idi. Belə ki, on beş maddədən ibarət müqaviləyə görə, mərkəzi hökumət hökumətə məxsus torpaq sahələrinin həmin torpaqlarda yaşayan kəndlilər arasında bölüşdürülməsini təsdiq edirdi. Lakin bu müqavilə muxtar hökumət tərəfindən müsadirə edilmiş xüsusi torpaq mülkiyyətlərinin müqabilində mülkədarlara külli miqdarda təzminat ödənilməsini də nəzərdə tuturdu. Danışıqlar zamanı müzakirə edilən digər həssas bir məsələ isə əyalətin hərbi qüvvələrinin yenidən təşkil olunması ilə əlaqədar idi. Bu məsələ ilə bağlı müqavilədə yerli silahlı qüvvələrin gələcək fəaliyyətini təhlil edəcək, eyni zamanda Fədailərin keçmiş Azərbaycan jandarması ilə birləşdirilməsinin mümkünlüyünü nəzərə alacaq birgə komissiyanın təşkil edilməsi və bu komissiyaya həm mərkəzi hökumətdən, həm də əyalət şurasından nümayəndələrin daxil edilməsi nəzərdə tutulurdu.

Demokratların əksəriyyəti bu müqaviləni narazılıq hissi ilə qarşıladı. Belə ki, əksər Demokratlar bu müqaviləyə razılıq verməklə muxtar hökumətin həddən artıq çox güzəştə getdiyinə inanırdılar. Bəziləri isə bu müqaviləni təslimçi müqavilə hesab edirdilər. Pişəvəri Təbriz radiosu ilə yayımlanan və «tarixi nitq» hesab edilən müraciətində əlqı Demokratların hər hansı bir təslimçi addım atmadığına inandırmağa çalışmışdı. Buna baxmayaraq, Pişəvərinin nitqindən aydın olurdu ki, o, ADF-nin tərəfdarlarının və düşmənlərinin bu müqaviləyə tənqidi münasibət göstərməsindən olduqca narahat idi. Həmin müraciətdə deyilirdi: «Hal-hazırda çox söz-söhbətlər gedir və yanlış şayiələr yayılmışdır. Hətta cənab Qəvvamüs-Səltənənin Demokratları aldatdığını deyənlər belə var. Bəziləri bu fikirdədirlər ki, cənab Qəvvamüs-Səltənə öz hakimiyyətini əldən verməmək naminə özünü Demokratların ayağı altına atmış və Azərbaycana pənah gətirmişdir. Biz gərək bu sözlərə

əhəmiyyət vermiyək. Nə cənab Qəvvamüs-Səltənə bizə qarşı hiylə işlətmişdir, nə də ki biz onu aldatmışıq. Bütün bu danışıqların hamısı açıq-aydın cəfəngiyyatdır! Bizim mərkəzi hökumətlə müqavilə imzalamağımıza təslimçilik kimi baxanlar da var. Bəziləri bəlkə də, özlərini göstərmək üçün Azərbaycanı istila etdikləri iddiası ilə çıxış edirlər. Biz isə, bunlara gülüb keçirik və bu cür düşünənləri axmaq hesab edirik. Heç kim heç kimə təslim olmayıb və heç kim Azərbaycanı zəbt etməyib».(96)

Müqavilənin imzalanmasından sonra muxtar hökumətin edəcəyi başqa bir şey qalmamışdı. Belə ki, muxtar hökumət özünü dövlət işlərinin yeni quruluşuna uyğunlaşdırmış və mərkəzi hökumətin tabeçiliyi altında olan yerli əyalət idarəsi kimi fəaliyyət göstərməyi qəbul etmişdi. Şəbüstərinin sədrlik etdiyi Milli Məclisin adı Azərbaycan Əyalət Şurası ilə əvəz olunmuşdu.(97) Muxtar hökumətin keçmiş nazirləri artıq mərkəzi hökumətin yerli şöbələrinin rəhbərləri hesab olunurdular.(98) Qəvvam tərəfindən verilən bəyannaməyə əsasən Salamollah Cavid Azərbaycanın yeni valisi təyin edilmişdi. Pişəvəri isə hökumətdə vəzifə tutmaqdan imtina edərək ADF-nin baş katibi olaraq qalmağa üstünlük vermişdi.(99)

Azərbaycanlı həmkarlarının əksinə olaraq Qəvvam Azərbaycan müqaviləsinin imzalanmasını mərkəzi hökumət üçün qələbə hesab edirdi. Qəvvam Tehran radiosu ilə yayımlanan çıxışında Azərbaycan məsələsini hakimiyyətə gəldiyi vaxtdan bəri üzləşdiyi ən ciddi problem hesab etdiyini bəyan etmiş, bu səbəbdən də azərbaycanlı Demokratlarla imzalanmış müqaviləni İranın azadlığı və milli birliyinə gedən yolda atılan mühüm bir addım kimi səciyyələndirmişdi.(100) Rəqiblərinin mənfi münasibətinə və tənqidlərinə məruz qalacağını bilən Qəvvam öz nitqində bütün Azadixahları (azadlıq tərəfdarlarını) Köhnəpərəstlər (mühafizəkarlar) və Mürtəceynlərin (irticaçılar) əleyhinə başladılan geniş kampaniyanın ətrafında birləşməyə və bu işdə ona tam dəstək verməyə çağırırdı.(101)

Qəvvamın dəstək axtarışına təkcə Tudə Partiyası deyil, həm də bir çox liberallar müsbət münasibət göstərdi. Belə ki, liberal mətbuat Qəvvama «Naci-ye Mellət» (Millətin xilaskarı) və «Nəxost Vəzir-e məhbubolqolub» (hər kəsin sevimlisi olan Baş nazir) adını vermişdi. (102) Liberallar və solçular Qəvvamı müdafiə etdikləri halda, müxalif mövqe-

dən çıxış edən mühafizəkarlar onun yeritdiyi siyasətin qəti əleyhinə idilər. Qəvvam 1946-cı ilin iyun ayının ortalarında, siyasi həyatının zirvəsini yaşadığı bir məqamda öz siyasi təşkilatını yaratmaq qərarına gəldi. Bu təşkilat «Hezb-e Demokrat-e İran» (İran Demokrat Partiyası) adlanırdı. Abrahamiyan qeyd edir ki, belə bir yeni təşkilat yaratmaqda Qəvvamın iki bir-birinə zidd və qeyri-müəyyən məqsədi var idi. Bir tərəfdən o, bu təşkilatdan və Daxili İşlər Nazirliyindən istifadə etməklə gələcək seçkilərdə şah tərəfdarları olan, həmçinin İngiltərəyə meyl edən namizədlərə qalib gəlmək, beləliklə də on beşinci Məclisi öz tərəfdarları ilə doldurmaq istəyirdi. Digər tərəfdən isə o, bu təşkilat vasitəsilə kommunist olmayan islahatçıları hərəkətə gətirərək solçuların malik olduğu üstünlüyü əllərindən almağa, beləliklə də Tudə Partiyası ilə solçular arasında tarazlıq yaratmağa ümid edirdi. Partiyaya «Hezb-e Demokrat-e İran» adının verilməsi isə bu partiyanın köhnə Demokrat Partiyasının varisi və Azərbaycan Demokrat Partiyasının rəqibi olduğuna işarə idi.(103)

Demokrat Partiyasının yaradılmasından sonra da Qəvvam öz solçu siyasətini davam etdirərək liberallar və solçuların uzun müddətdən bəri tələb etdikləri bir sıra tədbirlərin həyata keçirilməsinə dair göstəriş verdi. Həyata keçirilməsi nəzərdə tutulan ən mühüm tədbirlər bunlar idi: əmək qanunu; Əmək Nazirliyinin yaradılması; şaha məxsus torpaqların bölüşdürülməsinə dair ilkin planların hazırlanması; İngiltərəyə meyl edən bəzi siyasətçilərin ev həbsində saxlanılması; Sovetyönlü siyasətçilər kimi tanınan bəzi siyasətçilərin hökumətdə yüksək vəzifələrə təyin edilməsi. (104)

Qəvvam sonralar da liberallar və solçularla əməkdaşlıq etməyə davam etdi. Belə ki, 1946-cı ilin avqustunda o, Demokrat Partiyası, Tudə Partiyası və İran Partiyasının üzvlərindən ibarət koalisiya hökumətinin yaradılmasına nail oldu. Tudə Partiyasının üç üzvü—İrəc İsgəndəri, Mürtəza Yəzdi və Firudin Keşavərz müvafiq olaraq Ticarət və Sənaye naziri, Səhiyyə naziri və Təhsil naziri vəzifələrinə təyin edildi. İran Partiyasını təmsil edən Allahyar Saleh isə Ədliyyə naziri təyin olundu. İrəc İsgəndərinin də qeyd etdiyi kimi, bu koalisiya hökumətində iştirak etməkdə Tudə Partiyasının əsas məqsədi azərbaycanlı Demokratların öz hakimiyyətlərini bərqərar etmələrinə mane olmaqdan ibarət idi.(105)

Qəvvam Daxili İşlər naziri vəzifəsini özünə saxlamaqla Azərbaycan məsələsi ilə bağlı aparılan danışıqlara birbaşa nəzarət edilməsini öz əlin-

də cəmləşdirmiş oldu. O, Təbrizdəki müzakirələr zamanı həll edilməmiş müxtəlif məsələlərlə bağlı danışıqların davam etdirilməsi üçün azərbaycanlı nümayəndələri paytaxta dəvət etdi. Bununla o, digər nazirlərlə əməkdaşlıq etmək niyyətində olduğunu nümayiş etdirmək istəyirdi.

Şəbüstərinin rəhbərlik etdiyi Azərbaycan nümayəndə heyəti 21 avqustda Tehrana göndərildi. Nümayəndə heyətinin tərkibinə Padeqan, Cavid və general Pənahiyan kimi nüfuzlu Demokratlar daxil idi.(106) Gündəlikdəki əsas məsələlər Xalq Qoşununun gələcək fəaliyyəti və Fədai qüvvələrinin jandarma sıralarına daxil edilməsi ilə əlaqədar idi. Lakin tezliklə aydın oldu ki, öz gücündən əmin olan və ötən vaxt ərzində əldə etmiş olduğu etibarına güvənən mərkəzi hökumət Demokratlara hər hansı bir güzəştə getmək niyyətində deyil. Qəvvam hələ bir neçə həftə əvvəl ABŞ-ın Tehrandakı səfiri ilə müzakirələr apararkən bu məsələyə münasibətdə böyük qətiyyət göstərmiş və danışıqların bir nəticə vermədiyi təqdirdə Azərbaycanın İran millətinə geri qaytarılması naminə güc tətbiq etməkdən belə çəkinməyəcəyini açıq şəkildə bəyan etmişdi.(107) ABŞ səfiri ilə görüşündə Qəvvam Azərbaycana və Tudə Partiyasına münasibətdə indiyə qədər həddən artıq barışdırıcı və güzəştli mövqedən çıxış etməsinin səbəbi kimi İran ordusundan tam əmin olmamasını göstərmişdi. O, eyni zamanda mərkəzi hökumətin qarşısını kəsən bu çətinliyin aradan qaldırıldığını, yəni artıq ordunun gücündən əmin olduğunu da öz sözlərinə əlavə etmişdi.(108)

Danışıqların yeni mərhələsi aşağıda göstərilən tədbirlərin həyata keçirilməsini nəzərdə tutan müqavilə imzalanması barədə tərəflər arasında razılaşma əldə edilməsi ilə nəticələndi:

* On min nəfər azərbaycanlı İran ordusuna daxil edilərək Azərbaycanda yerləşdiriləcək. Azərbaycandakı Negəhbanın (köhnə jandarma) keçmiş üzvləri arasından seçiləcək dörd min nəfər də Azərbaycanda yerləşdiriləcək.

* Azərbaycan Bölməsinin komandiri Təbriz əyalət şurası tərəfindən seçiləcək. Komandir seçimi Tehran tərəfindən namizədlikləri irəli sürülən üç zabit arasında aparılacaqdır. Təbriz qarnizonunun hazırkı komandiri general Pənahiyan baş qərargah rəisi olacaq. Fədailərin indiki komandiri general Daneşyan isə Negəhban (mühafizə) qüvvələri rəisinin birinci müavini təyin ediləcək.

* Azərbaycan silahlı qüvvələri Zəncandan çıxarılacaq. Bunun müqabilində Kürdüstandakı Sərdəşt və Təkabın nəzarəti onların ixtiyarına veriləcək.

* Bütün gəlirlər Milli Bankda cəmləşdiriləcəkdir. Bütün hökumət agentliklərinin ödəmələri həmin bankda saxlanılacaq.

* Gömrük gəlirlərinin 35%-i Təbrizin, 65%-i isə Tehranın payına düşəcək.(109)

Müqavilənin şərtləri barəsində qarşılıqlı razılıq əldə edilsə də bu müqavilə yazıya köçürülmədi və imzalanmadı. Belə ki, bu müqavilə şifahi müqavilə olaraq qaldı. Azərbaycan nümayəndə heyəti isə Təbrizə geri döndü. Nümayəndə heyətinin üzvləri Qəvvamla yaxşı şəxsi münasibətləri olan Azərbaycan valisi Cavidin yarımçıq qalan danışıqları ən yaxın gələcəkdə tamamlayacağına ümid edirdilər.(110)

1946-cı ilin yayından etibarən ölkədəki mühafizəkarların əvvəlki fəaliyyətsizlik dövrü başa çatır və onların birliyi yaranırdı. Öz siyasi rəqiblərinin, xüsusilə də Tudə Partiyasının son zamanlarda əldə etmiş olduğu nailiyyətlərə ləkə yaxmaq strategiyasının bir hissəsi kimi mühafizəkarlar ən azı qısa bir müddət üçün regional münaqişələri qızışdırmaq və digər regional muxtar hərəkatlara dəstək vermək niyyətində idilər. Bu kimi bölücü meyllərin İrandakı siyasi sabitliyin pozulmasına gətirib çıxaracağına ümid edən mühafizəkarlar nəticədə Qəvvam hakimiyyətinin devrilməsinə və onun Tudə Partiyasındakı müttəfiqlərinin məğlub edilməsinə nail olmaq istəyirdilər.

Pişəvəri ilə Firuz arasında müqavilə imzalanmasından iki gün sonra Əncümən-e Əyalət-e Xuzistan (Xuzistan Əyalət Şurası) Qəvvama teleqram göndərmiş və mərkəzi hökumət tərəfindən azərbaycanlılara verilən muxtariyyət hüquqlarının eynilə Xuzistan əhalisinə də verilməsini tələb etmişdi.(111) Xuzistanlıların bu müraciətindən sonra Komite-ye Əyalət-e Demokrat-e Fars (Fars Əyalətinin Demokratik Komitəsi) da buna bənzər tələblərlə çıxış etməyə başladı.(112) 1946-cı ilin 18 mayında isə iki Qaşqay xanı «İrandakı təhlükəli siyasi vəziyyəti müzakirə etmək» və Tudə Partiyasının qaşqayların yaşadığı bölgə ilə sərhəddə yerləşən Xuzistan əyalətindəki fəaliyyətindən narazı olduqlarını bildirmək məqsədilə ABŞ-ın Tehrandakı səfirliyinə gəlmişdi. Qaşqay xanları Azərbaycan hökumətinin tələblərini əsassız hesab etmədiklərini, lakin Pişəvəri hökumətinə həddən artıq çox güzəştlərə gedildiyi təqdirdə

qaşqaylara da eyni münasibətin göstərilməsi tələbilə çıxış edəcəklərini və bu məsələnin üzərində təkidlə dayanacaqlarını bəyan etmişdilər.(113)

Qaşqay xanları Bəxtiyari tayfasının başçıları ilə məsləhətləşdikdən sonra Tudə Partiyasının və İranın cənub bölgələrindəki Tudə Partiyası ilə bağlı fəhlə birliklərinin əleyhinə böyük hərbi kampaniya başlatdılar. Qaşqaylar mərkəzi hökumətin hakimiyyətindən də razı deyildilər. Bu səbəbdən də qaşqaylar etiraz əlaməti olaraq aşağıdakı tələblərdən ibarət bəyannamə nəşr etdirmişdilər:

* Tudə Partiyasını təmsil edən nazirlərin hökumət kabinetindən kənarlaşdırılması və səriştəsiz başçıların ordudan uzaqlaşdırılması.

* Fars əyalətinin inzibati, hərbi və mülki işlərinin idarəçiliyinin Farsın öz əhalisinin ixtiyarına verilməsi.

* Əyalətin mərkəzində və vilayətlərdə əyalət və vilayət şuralarının yaradılması.

* Əyalətin əhalisinin sayına uyğun olaraq Məclisdəki nümayəndələrin sayının artırılması.

* Yerli mədəniyyətin inkişaf etdirilməsi və səhiyyə xidmətinin yaxşılaşdırılması üçün əyalətin lazımi qədər maliyyə vəsaiti ilə təmin edilməsi.

* Konstitusiyaya əks olan qanunların yenidən gözdən keçirilməsi.

* Mərkəzi dəmiryolunun Şiraza və Buşəhrə qədər uzadılması və yolların asfaltlanması.(114)

Qəvvam həmişə Qaşqay xanları ilə yaxşı münasibətdə olmuşdu.(115) Buna görə də Qəvvam Nazirlər Kabineti ilə məsləhətləşmədən cənub tayfaları ilə danışıqlar aparması və mübahisəli məsələləri həll etməsi üçün general Zahidini mərkəzi hökumətin xüsusi elçisi kimi 13 oktyabrda Farsa göndərdi. Üç gün davam edən müzakirələrin sonunda Mərkəzi Hökumət tayfa başçılarının bütün xırda tələblərini qəbul etsə də, Tudə Partiyasını təmsil edən nazirlərin hökumət kabinetindən kənarlaşdırılmasının, ordu rəhbərliyində hər hansı bir dəyişikliyin edilməsinin, Farsın inzibati, hərbi və mülki işlərinin idarəçiliyinin yerli əhalinin ixtiyarına verilməsinin mümkün olmadığını açıqca bəyan etmişdi.(116)

Gözlənildiyi kimi, Qəvvamın tayfa başçıları ilə danışıqlara girmək istəyi hökumət kabinetindəki nazirlər tərəfindən razılıq hissi ilə qarşılanmadı. Qeyd etmək lazımdır ki, qaşqayların mərkəzi hökumət qarşısında etiraz bəyannaməsi və tələblərlə çıxış etməsinin ən əsas səbəblərindən biri kimi Xəlil Malikinin bütün iranlıları öz azərbaycanlı həm-

vətənləri kimi İran konstitusiyasında göstərilən hüquqlarının yerinə yetirilməsini tələb etməyə çağırdığı müraciət göstərilir.(117) Bu hadisələrdən bir neçə ay sonra, Nasir Qaşqay «İran-e Ma» qəzetinə verdiyi müsahibədə İrandakı siyasi vəziyyəti aşağıdakı şəkildə şərh etmişdi: «Demokratların Azərbaycan hökuməti İranın müstəqilliyi üçün əsl təhlükə yaratdığından və mərkəzi hökumət əsasən solçu və radikal partiyalar tərəfindən idarə edildiyindən biz öz hərəkətimizə bəraət qazandıracaq elmi və mədəni özülə sahib olmamağımıza baxmayaraq siyasi manevr hesab edilən cənub hərəkatını başlatdıq».(118)

Bir dəfə şah Azərbaycan valisi Cavidlə görüşərkən Tudə Partiyasının regional muxtariyyət məsələsi ilə bağlı ikili mövqedən çıxış etməsini çaşqınlıq hissi ilə qarşıladığını bildirmişdi. Şah Cavidə Tudə Partiyasının bu ziddiyyətli mövqeyinin nə ilə izah oluna biləcəyi barəsində sual verdikdə isə Cavid birbaşa cavab vermək və vəziyyəti açıqca dəyərləndirmək əvəzinə öz siyasi maraqlarını dilə gətirmişdi: «Şübhəsiz ki, biz demokratik hərəkatın bütün İranı bürüməsi arzusundayıq. Lakin Xuzistanda irəli sürülmüş tələblər həqiqətən də Xuzistan əhalisinin və oradakı demokratik təşkilatların mənafeyinə xidmət edirmi sualı aydınlaşdırılmalıdır. Bəlkə də bu tələblərin yerinə yetirilməsinə nail olmaqla bir sıra mürtəce mülkədarlar demokratiya əleyhinə silahlanmaq istəyirlər».(119)

Baş nazirin Nazirlər Kabinetinin üzvləri ilə məsləhətləşmədən «Cənub böhranı» ilə bağlı müstəqil şəkildə qərar qəbul etməsi Tudə Partiyasının üzvləri arasında böyük narazılığa səbəb olmuşdu. Tudə Partiyasının üzvləri öz narazılıqlarını bildirmək üçün hökumət kabinetinin iclaslarında iştirak etməkdən imtina etmişdilər.(120) Baş nazirin dost münasibətinə arxayın olan Tudə Partiyasının üzvləri Qəvvamın tezliklə onların fikrilə razılaşacağından və Cənub Müqaviləsini ləğv edəcəyindən əmin idilər. Lakin Qəvvam tamamilə başqa cür hərəkət etdi. Belə ki, 17 oktyabrda Qəvvam Nazirlər Kabinetinin istefasını şaha təqdim etdi. Həmin istefanı qəbul edən şah yeni hökumətin təşkil olunmasını yenə də Qəvvama həvalə etdi.

Cəmi yetmiş yeddi gün davam edən koalisiya hökuməti Qəvvama öz siyasi ssenarisinin birinci hissəsini həyata keçirə bilməsi üçün münasib şərait yaratdı. Belə ki, bu vaxt ərzində Qəvvam İranda liberal düşüncəli konstitusiyaçı kimi böyük etibar qazanmış və özünə milli səviyyədə inam yaratmışdı. Bundan başqa, Qəvvam kağız üzərində olsa

belə, bir sıra radikal islahatçı tədbirlərin həyata keçirilməsini nəzərdə tutan qərarlar qəbul etməklə Tudə Partiyasını sosial dəyişikliklər və siyasi islahatlar sahəsində sahib olduğu inhisarçılıqdan məhrum etmiş oldu. Tudə Partiyasının icraedici hakimiyyətdə iştiraka birbaşa cəlb edilməsi ilə Qəvvam həm də Tudə Partiyasının üzvlərini müxalif mövqedən çıxış etdikləri zaman sahib olduqları və rahatlıqla istifadə etdikləri «daha üstün» mövqedən məhrum etmiş oldu. Həm liberalların, həm də solçuların güvənini qazanan və şəhərlərdə orta təbəqələr tərəfindən müdafiə olunan Qəvvam sonunda şahın nüfuzunu sarsıtmağa və sarayın təsir dairəsini məhdudlaşdırmağa nail ola bildi.

Beynəlxalq səviyyədə isə Qəvvam neft konsessiyaları ilə bağlı müsbət tarazlaşdırma siyasəti yeritməklə dünyanın üç əsas qüvvəsinin (ABŞ, İngiltərə və Sovet İttifaqı) dəstəyini qazanmağa müəyyən dərəcədə nail ola bilmişdi. Onun neft konsessiyaları ilə bağlı mübahisəli məsələnin, eyni zamanda Azərbaycan böhranının öhdəsindən bu şəkildə gəlməsi hətta bu hadisələrin diqqətcil müşahidəçisi olan ABŞ-ın İrandakı səfirinin belə bu qənaətə gəlməsinə səbəb olmuşdu: «Əgər İranın dövlət gəmisini indi üzməkdə olduğu təhlükəli sulardan çıxarmağa və irəli aparmağa qadir yeganə şəxs varsa, o da Qəvvamdır».(121)

Azərbaycanda isə Demokratlar Qəvvamın açıq-aydın qələbə çalmasını ümidsizlik və acı kədər hissi ilə qarşıladılar. Azərbaycan nümayəndə heyətinin danışıqlardan boş əllə qayıtmasından sonra Demokratlar mərkəzi hökumətin qarşısında ciddi maneələr yaratdıqları və öz hakimiyyətlərini sərbəst tətbiq etdikləri günlərin başa çatdığını bir daha başa düşdülər. Əslində, Demokratlar ölkənin siyasi səhnəsində mərkəzi hökumətlə yanaşı, onların mövcudluğu üçün böyük təhlükə sayılan digər qüvvələrin də görünməyə başladığını yaxşı başa düşürdülər.

## DEMOKRATLAR ÇIXILMAZ VƏZİYYƏT QARŞISINDA

Hakimiyyətdə olduqları vaxt ərzində Demokratların üzləşdikləri ən böyük maneələrdən biri də əyalətin hər bir guşəsində böyük nüfuza malik olan dini təsisatların təsirinin artması ilə əlaqədar idi. Əsasən, şiə iyerarxiyasının hakim mövqe tutduğu və müsəlmanların üstünlük təşkil etdiyi bir cəmiyyətdə dini müxalifət qüvvələri bütün diqqətləri Demok-

ratların əksəriyyətinin inqilabçı marksistlər kimi tanınması faktına yönəldir və Demokratların iştirakı ilə yaradılan hər hansı bir hökumətin Marksist ideologiyasına xidmət edən bir dövlət quruluşuna malik olduğunu iddia edirdilər. Din xadimləri ən çox Rza şahın hakimiyyətdən getdiyi ilk gündən etibarən Demokratların yeniləşdirmə cəhdləri ilə çıxış etməsi nəticəsində mövcud sosial quruluşda müəyyən dəyişikliklərin meydana gəlməsindən ehtiyat edirdilər. Müxtəlif dini vergilər və ayrı-ayrı şəxslərdən, xüsusilə də əyalətin mülkədarlarından toplanan rüsumlar din xadimlərinin əsas gəlir mənbəyini təşkil etdiyindən dini iyerarxiyanın üzvləri Azərbaycandakı mövcud torpaq sahibliyi sistemindən birbaşa asılı idilər.

Dini mərasimlərin keçirilməsinə və qadınların geyimdə çadradan istifadə etməsinə qoyulan qadağanın aradan qaldırılmasının təmin edilməsini nəzərdə tutan ilkin tədbirləri həyata keçirməkdə Demokratların əsl məqsədi, dinə münasibətdə səbirlilik göstərmək niyyətində olduqlarını din xadimlərinin nəzərinə çatdırmaq, bununla da dini təsisatların həyəcanlarının sakitləşdirilməsinə nail olmaqdan ibarət idi. Lakin nə Demokratların bütün bu təşəbbüsləri, nə də ki muxtar hökumətin öz ətrafına bəzi mollaları toplamaq cəhdləri din xadimləri ilə «saziş qapısını» aça bilmədi. Belə ki, Azərbaycanda muxtar hökumətin yaradıldığı ilk gündən etibarən dini rəhbərlər öz etirazlarını açıq surətdə bəyan edərək özlərini əhl-e küfr (allahsız, kafir) adlandırdıqları Demokratların qəti əleyhdarları kimi təqdim etdilər.

Amerika Birləşmiş Ştatlarının prezidenti və İngiltərənin Baş nazirinə ünvanlanmış bir məktubda Seyid Məhəmməd Bəhbəhani və Hacı Seyid Məhəmməd İmam Cümə adlı tanınmış din xadimləri Azərbaycanda baş verən siyasi irəliləyişləri vaxtı yetişməmiş və uğursuz hadisələr kimi qələmə vermiş və mövcud siyasi vəziyyəti aşağıdakı şəkildə şərh etmişdilər: «Ölkəmizin ABŞ, Sovet Rusiyası və İngiltərə hökumətlərinin ayrı-ayrılıqda və bir yerdə verdiyi təminata əsasən bərqərar edilmiş bütövlüyü indi təhlükə altındadır. Hər gün bu ölkədə məsum insanlar həyatlarını itirir və böyük itkilər verirlər». Məktubun davamında isə din xadimləri müttəfiqləri öz qoşunlarını dərhal İran ərazisindən geri çəkməyə çağırırdılar. Çünki onlar buna İran xalqının həyəcanlarını azaltmağın, insanların qatlaşdığı acılara son verməyin və mərkəzi hökumətə ölkədə daxili vəziyyətin yaxşılaşdırılması və ictimai təhlükə-

sizliyin bərpa edilməsi ilə məşğul olmaq üçün azad şərait yaratmağın yeganə yolu kimi baxırdılar.(122)

Siqətül İslam kimi bəzi din xadimləri isə Azərbaycan Muxtar Hökumətini amansız tənqid atəşinə tutmağa ara vermədən davam etmək niyyətində idilər. Yüksək rütbəli mollalardan olan Siqətül İslam Demokratları həqiqi İranlı olmamaqda günahlandırmış (123) və onları hakimiyyətdən uzaqlaşdırmaq üçün mərkəzi hökumətin bütün lazımi tədbirləri həyata keçirməsinin böyük əhəmiyyət kəsb etdiyini bəyan etmişdi. Siqətül İslamın bu bəyanatları əhali arasında müəyyən çəkiyə malik idi. Bunun səbəbi isə onun atasının 1911-ci ildə Təbrizin çar qüvvələri tərəfindən işğal edilməsi zamanı şəhid olması ilə bağlı idi.

1946-cı ilin yay aylarının əvvəllərindən etibarən Demokratlar ilk vaxtlarda sahib olduqları inqilabi simalarını itirməyə başladılar. Belə ki, tədricən həm partiyanın öz üzvləri, həm də ki daha geniş xalq kütlələri arasında Demokratlara qarşı inamsızlıq yaranmaqda idi. Demokratlar hakimiyyətə gəldikləri ilk günlərdə köhnə siyasi quruluşu tamamilə yenisi ilə əvəz etmək xəyalına qapılsalar da Tehrandan boş əllə qayıtdıqdan sonra köhnə siyasi və sosial quruluşda dəyişikliklərin aparılmasını nəzərdə tutan islahatların həyata keçirilməsinin qeyri-mümkün olduğunu başa düşmüşdülər.

Demokratlar inqilabi əhvali-ruhiyyəni qoruyub saxlamaq məqsədilə mədəniyyət sahəsində başladılan təbliğat kampaniyasının genişləndirilməsinə ehtiyac duyulduğunu hiss edirdilər. Bu səbəbdən də 1946-cı ilin aprel ayının 7-də ilk dəfə olaraq Azərbaycan, kürd və fars dillərində gündəlik proqramların yayımlandığı, Azərbaycan Milli Hökumətinin səsi adlı radio xidməti yaradıldı.(124) Eyni şəkildə Azərbaycan dilində nəşr olunan qəzet və jurnalların sayı on altıya qaldırıldı. Fars dilində çıxan bütün qəzetlərin fəaliyyətinə son verildi. Azərbaycan və fars dillərində nəşr olunan ikidilli qəzetlərin də hamısı bağlandı. Məsələn, hər zaman Demokratların ən nüfuzlu qəzeti sayılan və 10000 tirajla buraxılan «Azərbaycan» qəzeti ilk vaxtlarda iki dildə çıxırdı.(125) Lakin ADF-nin rəsmi orqanı kimi fəaliyyət göstərməyə başladıqdan sonra bu qəzetin iki dildə buraxılması dayandırıldı. Belə ki, bu vaxtdan etibarən qəzet yalnız Azərbaycan dilində çıxmağa başladı.(126)

Bütün bunlara əlavə olaraq, 1946-cı ilin yayında yerli məktəblərdə tədris edilməsi üçün altı cilddə «Vətən dili» adlı dərs kitabları nəşr

olundu. Qeyd etmək lazımdır ki, Azərbaycanın tarixi və mədəniyyətinin ardıcıl şəkildə və bütün təfərrüatı ilə əks etdirildiyi bu kitablarda İranın tarixinə və ya İranla Azərbaycan arasındakı sosial və mədəni bağlara dair hər hansı məlumata rast gəlinmir.(127)

Gözlənildiyinin əksinə olaraq Demokratlar Azərbaycan dilinə xüsusi əhəmiyyət verməklə və yerlərdə etnik mənsubiyyət hissini möhkəmləndirmək məqsədilə mədəniyyət sahəsində təbliğat kampaniyası başlatmaqla bütün xalqın milli hökumətin bayrağı altında toplanmasına nail ola bilmədilər. Əksinə, bu tədbirlərin həyata keçirilməsi xalqın böyük hissəsinin Azərbaycanla İranın digər əraziləri arasında olan bağların tamamilə kəsildiyi düşüncəsinə qapılmasına gətirib çıxardı. Bundan başqa, əhali arasında yavaş-yavaş xalqın gələcək taleyinin nəticədə qonşu Qafqazın taleyindən asılı olacağına və Azərbaycanın Sovet İttifaqı tərəfindən idarə ediləcəyinə dair qorxu yaranmaqda idi.(128) Bu səbəbdən də hökumətin yuxarıda qeyd edilmiş tədbirləri həyata keçirməsindən sonra azərbaycanlıların farsdilli əhaliyə göstərdikləri münasibət əhəmiyyətli dərəcədə dəyişməyə başladı. Hətta Demokrat Partiyasının öz sıralarında belə farsların azlıqdakı qrupu xalqın daha çox rəğbətini qazanmışdı. Belə ki, xalq azlıqda olan farslara onların azərbaycanlı həmkarlarına, xüsusilə də Mühacirlər kimi tanınan Demokratlara nisbətən daha çox rəğbət göstərirdi. Bu isə zaman-zaman İran ordusunu tərk edərək muxtar hökumətin Xalq Qoşunu sıralarına qoşulan və daha çox Fars əfsərləri (Fars zabitləri) kimi tanınan fars qiyamçı zabitləri ilə qeyri-nizami Fədai qüvvələri arasında toqquşmaların meydana gəlməsinə gətirib çıxarırdı.(129)

Demokratların mədəniyyət sahəsində başlatdıqları bu yeni kampaniya əyalətdə böyük əks-səda doğurdu. Xalqın bu məsələyə belə münasibət göstərməsi Demokratları son dərəcə narahat edirdi. Bununla yanaşı, Demokratlarla ölkənin liberal siyasi qüvvələri arasında mövcud olan fikir ayrılıqlarının böyüməsi təhlükəsi də Demokratları narahat edirdi. Tehranda baş verən siyasi irəliləyişləri yaxından izləyən Demokratlar İranın digər müxalifət qrupları ilə daha möhkəm bağlara sahib olmağın siyasi cəhətdən daha faydalı olacağını və onların maraqları ilə üst-üstə düşəcəyini başa düşürdülər. Bu səbəbdən də Demokratlar Qəvvamdan uzaqlaşmaq və müxalifətə qoşulmaq qərarına gəldilər. Bu vaxta kimi Azərbaycan Muxtar Hökuməti Tehrandakı bir sıra siyasi

partiyalar tərəfindən müdafiə olunmasına baxmayaraq siyasi ittifaq yaratmamaq siyasətinə üstünlük vermiş və Tehranla yalnız hökumət səviyyəsində əlaqələr saxlamaqla kifayətlənmişdi.

İndi isə Demokratlar ilk vaxtlarda İrandan ayrılmaq çağırışları ilə çıxış etdiklərini inkar edərək əsas diqqətlərini İranın ərazi bütövlüyünün qorunmasına yönəltmək qərarına gəldilər. Bununla yanaşı onlar ölkənin digər siyasi partiyaları ilə əməkdaşlıq etmək arzusunda olduqlarını da açıqca bəyan etdilər. 29 oktyabr 1946-cı ildə ADF, Kürdüstan Demokrat Partiyası və nisbətən kiçik partiya olan Cəngəli Partiyası birləşərək «Cəbhe-ye Motalef-e Əhzab-e Azadixah» (Mütərəqqi Partiyaların Birləşmiş Cəbhəsi) adını qəbul etdilər.(130) «Mütərəqqi Partiyaların Birləşmiş Cəbhəsi» adlı təşkilatın əsası əslində 1946-cı ilin iyununda Tehranda Tudə Partiyası və İran Partiyası tərəfindən qoyulmuşdu. Demokratların bu hərəkəti liberallar və solçular tərəfindən böyük razılıq hissi ilə qarşılansa da, İranın bütün siyasi dairələrində azərbaycanlı Demokratların təşəbbüsü ilə hələ bir il əvvəl kəsilmiş əməkdaşlıq əlaqələrinin bərpa edilməsi üçün artıq çox gec olduğu düşüncəsi hökm sürürdü.

## AZƏRBAYCAN MUXTAR HÖKUMƏTİ SÜQUTA DOĞRU

Demokratların başı üstünü qara buludlar almışdı. Onların hakimiyyətdəki günlərinin sayı bitməkdə idi. Buna baxmayaraq, Azərbaycan Demokrat Firqəsi Azərbaycan hökumətinin yaradılmasının birinci ildönümünü qeyd etməyə hazırlaşırdı. Əyalət «öz tarixinin ən böyük və misli görünməmiş məhsul yığımı» ilə məşğul olduğu bir vaxtda(131) Pişəvəri on beşinci Məclisə keçiriləcək seçkilərdə uğurla iştirak etmək və qələbə çalmaq üçün bütün Demokratları aralarındakı ixtilafları bir tərəfə qoyaraq öz ətrafında birləşməyə çağırdı.(132) Həmin ərəfədə Demokratlar çox böyük çətinliklərlə üzləşsələr də, bir aydan da qısa müddətdə hakimiyyətdən birdəfəlik gedəcəklərini və milli hökumətin süqut edəcəyini ağıllarına belə gətirmirdilər.

1946-cı ilin payızının ortalarına doğru Qəvvamın siyasi hakimiyyəti öz təsirini genişləndirməkdə idi. Bu fakt hətta onun apardığı siyasətə müxalif mövqedən yanaşan siyasətçilər tərəfindən belə təkzibedilməz

bir həqiqət kimi qəbul edilirdi. Şahın on beşinci Məclisə seçkilərin keçirilməsini nəzərdə tutan fərmanı imzalamış olmasından arxayın olan və möhkəmləndirilmiş, yeni İran ordusuna arxalanan Qəvvam öz siyasi ssenarisinin ikinci hissəsini həyata keçirmək üçün ən uyğun vaxtın gəlib çatdığını düşünürdü.

Beləliklə, 1946-cı ilin noyabr ayının axırlarında mərkəzi hökumət Azərbaycana qarşı hücuma keçdi. Daha əvvəl Tehranda aparılan danışıqlar zamanı tərəflər arasında əldə edilən razılaşmaya əsasən Azərbaycan əyalət şurasının (əvvəlki Milli Məclis) 11 noyabr 1946-cı ildə keçirilən iclasında Zəncanın mərkəzi hökumətə güzəştə gedilməsi barədə qərar qəbul edildi.(133) Fədailərin on gün ərzində şəhərdən çıxarılması barədə qərar qəbul edilməsi isə Demokratlar üçün olduqca çətin idi. Çünki Demokratlar bu qərarın Fədailər arasındakı radikal ünsürlər tərəfindən böyük qəzəb və hiddətlə qarşılanacağını bilirdilər. Bununla yanaşı, Demokratlar şəhərdəki tərəfdarlarının əleyhinə qisasçı hərəkətlərin həyata keçirilməsi ehtimalının ciddi təhlükə doğurduğunu da diqqətə almalı idilər.(134) Zəncan həm sosial, həm də siyasi baxımdan qisasçılıq ənənələrinin dərin kök saldığı bir bölgə olduğundan paytaxtda Azərbaycanın idarəçiliyinin hərb yolu ilə ələ keçirilməsi üçün mühüm hazırlıqların getməkdə olduğu barəsində xəbərlər şəhərdəki Demokratların böyük həyəcanına səbəb olmuşdu.

Paytaxtda mühüm hərbi hazırlıqların aparılması və bu məsələ ilə əlaqədar olaraq bir sıra digər tədbirlərin həyata keçirilməsi mərkəzi hökumətin Azərbaycanla bağlı təcavüzkar planlarından xəbər verirdi. 12 noyabr 1946-cı ildə Qəvvam Tehranı tərk edərək istirahət etmək adı ilə Gilana getdi. Qəvvamın Gilanda çay plantasiyaları var idi. Ölkəni siyasi böhranın bürüdüyü bir vaxtda Qəvvamın paytaxtı tərk edərək Gilana getməsi bir jurnalist tərəfindən belə dəyərləndirilmişdi: «Qəvvam əslində Tehranı tərk etməklə xarici qüvvələrlə qarşı-qarşıya qalmaq ehtimalının qarşısını almağa çalışır».(135) Qəvvamın Gilana getməsindən doqquz gün sonra İran ordusu şahın göstərişi ilə Tehran yaxınlığında hərbi manevrlər həyata keçirərək öz bacarıqlarını nümayiş etdirmişdi.(136) Elə həmin gün mərkəzi hökumət İran Partiyasının ən nüfuzlu qəzeti sayılan «Cəbhə» qəzetinin bütün idarələrini bağlamış və beləliklə də müxalifət mətbuatı əleyhinə senzura kampaniyası başlatmışdı.(137)

Zəncanın mərkəzi hökumətə təslim edilməli olduğu tarixə *(23 noyabr 1946-cı il)* çox az müddətin qaldığı bir vaxtda İran ordusu şəhərdəki Fədai qüvvələrinə qarşı qəflətən hücuma keçərək hökumətə məxsus bütün yerli idarələri zəbt etdi.(138) İran ordusunun bu hücumları Demokratların siyasi vəziyyəti baxımından olduqca dağıdıcı təsirə malik idi. Bununla əlaqədar olaraq ABŞ-ın Təbrizdəki baş konsulu aşağıdakıları qeyd edirdi: «Bu hücumun psixoloji təsiri böyük idi. Bu hücum Demokratların zirehini çatladan zərbə oldu. Çünki burada ilk dəfə olaraq Demokratlar öz vətənlərində məğlubiyyətə uğradıldılar».(139)

Zəncan faciəsi həm Demokratlar, həm də Təbriz əhalisi üçün böyük sarsıntı oldu. Qeyri-müəyyənlik və ümidsizliyin hökm sürdüyü bir şəraitdə xalq mərkəzi hökuməti Zəncanın işğal edilməsini böyük hərbi qalibiyyət kimi qələmə verməkdə günahlandırırdı.(140) Həqiqətən də, mərkəzi hökumət Zəncanı müqaviləyə əsasən ələ keçirmiş olmasına baxmayaraq, şəhərin işğal edilməsini özünün böyük hərbi qalibiyyəti kimi təbliğ etməyə çalışırdı. Təbriz radiosu ilə yayımlanan verilişlərdə bütün məhdudiyyətlər aradan qaldırılmışdı. Qəzetlərdə nəşr olunan məqalələr isə daha sərt dildə yazılırdı. (141) Məsələn, Zəncanın işğal edilməsindən az sonra «Azad Millət» qəzetində dərc olunan bir məqalədə Qəvvama qəti xəbərdarlıq edilirdi. Məqalədə Qəvvamın təcavüzkarlıq siyasətini təkidlə davam etdirdiyi təqdirdə mərkəzi hökumətə məxsus qoşunların güclü silahlı müqavimətlə qarşılaşacağı aşağıdakı sözlərlə ifadə olunurdu: «Biz bütün azadlıq tərəfdarları ilə birlikdə qanımızın son damlasına kimi irticaçılara qarşı müqavimət göstərəcəyik... Qoy Tehran bilsin ki, biz irticaçıların qəsbkarlığını sakitcə izləmək niyyətində deyilik».(142)

Mərkəzi hökumətin öz qoşunlarını Zəncanda yerləşdirməsindən sonra Qəvvam yaxında keçiriləcək seçkilərlə bağlı aparılan hazırlıqlardan bəhs edən manifest verdi. Həmin manifestdə Qəvvam bəyan edirdi: «Milli Şura Məclisi seçkilərin sakit və nizam-intizamla keçirilməsini təmin etmək üçün tam məsuliyyət daşıdığından mərkəzi hökumət də qayda-qanuna riayət olunması və təhlükəsizliyin qorunması üçün seçkilərin keçirildiyi yerlərə yetərincə Negəhban (jandarma) qüvvələrinin, lazım gəldikdə isə ordu hissələrinin göndərilməsinə cavabdehlik daşıyır. Mərkəzi hökumət lazımi qoşunları Tehrandan göndərəcəkdir. Bu tədbir istisnasız olaraq İranın bütün bölgələrində həyata keçiriləcəkdir».(143)

Mərkəzi hökumətin bu manifesti son dərəcə açıq idi. Burada hər şey dəqiqliyi ilə bəyan edilmişdi. Buna baxmayaraq, Azərbaycanın valisi təyin edilmiş Cavid Qəvvama teleqram göndərmiş və mərkəzi hökumətin Azərbaycana da qoşun göndərməyi nəzərdə tutub-tutmadığını öyrənmək istədiyini bildirmişdi.(144) Belə bir sualla qarşılaşacağını əvvəlcədən bilən və həmin sualın verilməsini gözləyən Qəvvam dərhal Azərbaycan valisinin sualını müsbət cavablandırmış və bu tədbirlərin həyata keçirilməsindəki yeganə məqsədinin seçkilərdə qayda-qanunlara riayət edilməsini və ölkənin hər yerində hər kəsə bərabər seçki hüquqlarının verilməsini təmin etməkdən ibarət olduğunu sözlərinə əlavə etmişdi.(145)

Mərkəzi hökumətin bu bəyanatı Demokratların hamısı tərəfindən heç də eyni şəkildə qarşılanmadı. Demokratlar bu bəyanata olduqca fərqli münasibət göstərdilər. Əslində, Demokratların bölünməsi ehtimalı get-gedə artmaqda idi. Hələ milli hökumətlə mərkəzi hökumət arasında qarşıdurma davam edərkən Demokratların iki düşərgəyə bölünmə prosesi başlanmışdı. Bir tərəfdə ADF rəhbərliyi və Fədailərdən ibarət yerli silahlı qüvvələr, digər tərəfdə isə əyalət şurasının üzvləri və yerli idarəçilik orqanlarında çalışanlar dururdu.

İyun razılaşmasının dərc edilməsindən sonra ADF rəhbərliyi özünü əyalətin hökumət işlərindən tamamilə təcrid etmişdi. Belə ki, ADF-nin sədri kimi öz fəaliyyətinə davam edən Pişəvəri hökumət işlərinə qarışmadığını nümayiş etdirmək məqsədilə muxtar hökumətdə hər hansı bir vəzifə tutmaqdan imtina etmişdi. Əyalət şurasının üzvlərini təşkil edən keçmiş Milli Məclis deputatları və yerli hökumət şöbələrinə rəhbərlik edən keçmiş nazirlər isə Pişəvərinin əksinə olaraq özlərini mərkəzi hökumətin birbaşa təmsilçiləri olmasa belə, mülki xidmətçiləri hesab edirdilər.

Bu səbəbdən də Demokratların bu iki qrupunun «Zəncan faciəsi»nə göstərdikləri münasibət bir-birindən əsaslı surətdə fərqlənirdi. Misal üçün, Pişəvəri «Neyçün gəlirlər?» adlı məqaləsində bütün qəzəbini dilə gətirmiş, Qəvvamı yalançı adlandırmış və onu son altı ayda Azərbaycana qarşı xəyanətkar siyasət həyata keçirməkdə günahlandırmışdı. Qəvvamın bu mübahisəli məsələni sülh yolu ilə həll edəcəyinə dair vədlər verməklə yanaşı hərbi hazırlıqlar aparmasını xəyanət kimi dəyərləndirən(146) Pişəvəri daha sonra məqaləyə Qəvvamı hədələmək və ona «atəşlə oynamaması» barədə xəbərdarlıq etməklə davam edirdi: «Bizim xalqımız əldə etdiyi azadlığı nəyin bahasına olursa-olsun itirmə-

mək üçün and içmişdir... Biz öz sözümüzün üstündə durmuşuq. Bizim azadlığımızı zor gücünə tapdalamaq, öz ayaqları altında əzmək arzusunda olanlar isə kim olmaqlarından asılı olmayaraq xalqımızın öz biləyinin gücü ilə əziləcək və geri oturdulacaqdır. Bu mənim son sözümdür: Ölmək var, dönmək yox!»(147)

Əyalət şurası isə Pişəvərinin əksinə olaraq mərkəzi hökumətlə münasibətdə daha mötədil və barışdırıcı mövqedən çıxış edirdi. Belə ki, hökumət qoşunlarının Azərbaycana göndərilməsini nəzərdə tutan bəyanata cavab olaraq əyalət şurasının sədri Şəbüstəri «İyun Müqaviləsi»nə əsasən, Azərbaycandakı yerli silahlı qüvvələrin İran ordusunun tərkib hissəsinə çevrilməsi səbəbilə əyalətə hökumət qoşunlarının göndərilməsini zəruri hesab etmədiyini qeyd etmiş və daha sonra aşağıdakı təklifi irəli sürmüşdü: «Biz mərkəzi hökumətə məxsus qoşunların Azərbaycana göndərilməsini məsləhət bilmirik. Çünki hökumət qoşunlarının gəlişi Azərbaycanda ictimai asayişi və təhlükəsizliyi pozacaqdır. Əgər Zati-alilərinin məqsədləri həqiqətən də xoşniyyətlidirsə, onda o, öz vəzifəsini Azərbaycana müfəttişlər göndərməklə yerinə yetirə bilər. Beləliklə, o, həm də seçki qanunvericiliyində göstərilən otuz səkkizinci maddəyə də əməl etmiş olar».(148)

Şəbüstərinin Qəvvama göndərdiyi teleqram bir növ məsləhət xarakteri daşıyırdı. Lakin Baş nazir Şəbüstərinin bu təklifini diqqətə belə almadı. Qəvvam Cavidə cavab olaraq göndərdiyi teleqramda təkcə mərkəzi hökumətin əyalət şurasının sözlərinə heç bir əhəmiyyət vermədiyini qeyd etməklə qalmamış, həm də şuranın bu məsələyə qarışmaq hüququnun olmadığını qətiyyətlə bəyan etmişdi: «Əyalət şurasının Azərbaycana silahlı qüvvələrin göndərilməsi məsələsi ilə bağlı müsbət və ya mənfi rəy verməsinin heç bir əhəmiyyəti yoxdur... Hazırda Azərbaycanda yerləşən silahlı qüvvələrin bütün qayda-qanunlara əməl edəcəyi heç də inandırıcı deyil. Ümumiyyətlə, onların təşkilatlanması da kafi sayıla bilməz. Bu səbəbdən də hökumət Azərbaycandakı silahlı qüvvələrin vəziyyətini qənaətbəxş hesab etmir. Onlar bu vəzifənin yerinə yetirilməsində mərkəzi hökuməti kifayət qədər qane etmədiyindən seçkilərin nizam-intizamla həyata keçirilməsini təmin etmək üçün Azərbaycana lazımi qoşun hissələri göndəriləcəkdir».

Cavidə ünvanlanmış teleqramda Qəvvam əyalət şurasına ciddi xəbərdarlıq etmiş və öz sözlərinə aşağıdakıları əlavə etmişdi:

«Mərkəzi Hökumətin bu qərarı müsbət qarşılandığı halda heç bir yanlış anlaşılmaya yol verilməyəcək. Belə olduqda hər hansı bir narahatçılığın yaranması üçün səbəb də qalmayacaq... Hökumət qüvvələrinə hər hansı şəkildə müqavimət göstərildiyi təqdirdə isə bütün ağır nəticələrin məsuliyyəti əyalət işlərinin idarəsinə cavabdeh olan şəxslərin üzərinə düşəcək».(149)

Beləliklə, gələcəkdə tərəflər arasında hər hansı bir barışığın əldə edilməsi üçün bütün qapılar açıq-aydın bağlandı. Belə olduğu halda, sözü gedən hərbi qarşıdurmanın gerçəkləşməsi qaçılmaz hala çevrildi. 7 dekabr 1946-cı ildə ADF-nin Mərkəzi Komitəsi Pişəvəri tərəfindən imzalanmış bəyanatı nəşr etdirdi. Həmin bəyanatda mərkəzi hökumətə qarşı müharibə elan edilirdi. Pişəvəri bütün İranlı həmvətənlərinə müraciətlə imzaladığı bu bəyanatda qətiyyətlə və var gücü ilə döyüşməyə hazır olduğunu bu sözlərlə ifadə etmişdi: «Biz açıq şəkildə bildirmişik ki, Azərbaycanda heç kim müharibə istəmir. Amma əgər Cənab Qəvvam-üs Səltənə bizlə topların dili ilə danışmaq istəsə, biz öz azadlığımızı qoruyacağıq».

Daha sonra Pişəvəri öz bəyanatında bütün İranlı qardaşlarını ayağa qalxmağa çağırır, onları həm demokratiyanın, həm də ölkənin azadlığının qorunması naminə döyüşə səsləyirdi. O, İran millətinin öz azadlığına qovuşmaq arzusunun gerçəkləşdirilməsinə nail olmaq üçün irticaçıların hücumunu dəf edəcəyinə dair söz verir və bəyanatı bir sıra vətənpərvər ifadələrlə sona yetirirdi:

Yaşasın azad və müstəqil İran!

Yaşasın Azadlıq Tərəfdarları Cəbhəsi!

Yaşasın şərəfli Azərbaycan adı, İran azadlıq hərəkatının daşıyıcısı!

Yaşasın qanlı səngərlərdə Azərbaycanın və o cümlədən bütün İranın azadlığının keşiyində dayanan azadlıqsevər Fədai əsgərləri və zabitləri!(150)

Pişəvərinin İranlı qardaşları onun bu müraciətini cavabsız qoydular. Onlar Pişəvərinin səsinə səs verib ayağa qalxsaydılar, bəlkə də münaqişə tamamilə başqa bir şəkildə həll edilə bilərdi. Azərbaycanlı Demokratlar İranlı qardaşlarından kömək görməsələr də oturub gözləməklə qalmadılar. Belə ki, onlar məğlubiyyəti heç də asanlıqla qəbul etmək niyyətində deyildilər. Hökumət qoşunlarına qarşı silahlı müqavimət göstərməyə hazırlaşan Demokratlar hazırlıqların bir hissəsi kimi mövcud Qızılbaş və Fədaiyan qoşun birliklərinə əlavə olaraq Babək

adının verildiyi hərbi bölmənin yaradılmasına başladılar.(151) Təbrizdə baş verən hadisələrin yaxından şahidi olmuş Amerikanın baş konsulu öz qeydlərində aşağıdakı məlumatları verirdi: «Demokratlar milli hökumətin son günlərində qorxmayırmış kimi görünməyə çalışsalar da güclü hərbi hazırlıqlar aparırdılar. Şəhərin meydanında mülki şəxslərə hərbi məşğələlər keçirilirdi. Hətta son dərəcə mənasızdır ki, qadınlar bir əlləri ilə silah tutur, digəri ilə isə üzlərindəki örtüyü saxlayırdılar. Təchizatların, xüsusilə də kiçik silahlar və hərbi sursatların miqdarı artırılırdı. Təbrizin silos quyusu torpaqla doldurulurdu. Bütün bunlar mühasirənin uzunmüddətli olacağını və mərkəzi hökumətə çox baha başa gələcəyini sübut edirdi».(152) Amerikanın Təbrizdəki baş konsulu sözlərinə belə davam edirdi: «Yeganə çatışmayan cəhət rəhbərlərin qanlarının son damlasına kimi vuruşacaqlarını təkrar-təkrar bəyan etməklə insanlarda oyatmağa çalışdığı inam duyğusu idi».(153)

Milli Hökumətin son günlərində ADF rəhbərliyindəki mövcud qarışıqlıq və nizamsızlıq vəziyyətinin daha da kəskinləşməsi Demokratlara Azərbaycanı qorumaq üçün «qanlarının son damlasını» axıtmağa faktiki olaraq imkan vermədi. Belə ki, 10 dekabr 1946-cı ildə Qəvvam bu məsələyə yekun vuracaq fərman imzalayaraq İran ordusunun Təbrizə daxil olmasına dair göstəriş verdi.(154) Həmin tarixdə ADF rəhbərləri sonuncu dəfə olaraq məşvərətçi iclas çağırdılar. Bu iclasda iştirak edənlərdən Şəbüstəri və Cavidin tamamilə təslim olmaq barədə irəli sürdükləri təklif Pişəvəri və Padeqan başda olmaqla digər partiya üzvləri tərəfindən qəti surətdə rədd edildi.(155) Daha sonra, Quliyevin vasitəçiliyi ilə Sovet İttifaqının Təbrizdəki konsulluğunun hərbi attaşesi Biriya ADF-nin birinci katibi seçildi. Pişəvəri, Padeqan və Cahanşahlı Əfşara isə İranı tərk edərək Sovet Azərbaycanına getmək məsləhət görüldü.(156)

Təbrizin mərkəzi hökumətə təslim edilməsinə dair «Azərbaycan» qəzetinin 11 dekabr 1946-cı il tarixdə çıxmış sonuncu sayında dərc olunan bəyanatda deyilirdi: Cənab Qəvvam-üs Səltənənin xoşniyyətli məqsədlərini və Azərbaycan əyalət şurasının verdiyi fərmanı nəzərə alaraq aşağıdakı qərar qəbul edilmişdir:

* Qardaş qanının axıdılmaması naminə hökumətə məxsus təhlükəsizlik qüvvələri Təbrizə daxil olduğu vaxt onlara qarşı hər hansı bir şəkildə düşmənçilik nümayiş etdirilməyəcək və hər şey nəzarət altında saxlanılacaq.

* Azərbaycan Demokrat Partiyası əvvəllər də olduğu kimi İranın müstəqilliyinin və ərazi bütövlüyünün qorunmasının və İran xalqının xoşbəxtliyinin təmin edilməsinin tərəfdarı olaraq qalacaqdır.

* Ticarət ittifaqları və Firqəyə məxsus bütün digər təşkilatlar əvvəlki gündəlik fəaliyyətlərini davam etdirəcəklər.

Yaşasın müstəqil İran!(157)

12 dekabr 1946-cı ildə, Azərbaycanda Demokratların hakimiyyətə gəlməsindən bir il sonra milli hökumət süquta uğradı. Həmin gün şəhərdə «əyalətin idarəçiliyinin xalqın ixtiyarına verildiyi şərəfli günün» qeyd olunması məqsədilə mərasimlərin keçirilməsi nəzərdə tutulmuşdu. İran ordusu uzun müddət Demokratların ciddi müqaviməti ilə üzləşməli olacağını güman edirdi.(158) Lakin gözlənilənin əksinə olaraq ordu əyalətin hakimiyyətini ələ keçirərkən hər hansı bir ciddi maneə ilə rastlaşmadı. İran ordusu sadəcə bir neçə dəfə azərbaycanlıların silahlı müqaviməti ilə qarşılaşdı.(159) Bəziləri azadlıq ordusu kimi tanınan bu ordunun Azərbaycanda əslində işğalçılıqla məşğul olduğu və amansızca hərəkət etdiyi qənaətində idilər.(160) Nəticədə, mərkəzi hökumətə məxsus qoşunların Azərbaycana daxil olması səbəbilə meydana gələn iğtişaş və qarmaqarışıqlıq günlərində çox sayda insanlar tələf oldular. Bununla yanaşı, insanlar kütləvi surətdə Sovet Azərbaycanına köçməyə başladılar.(161) Muxtar hökumətin süqutu ərəfəsində İranı tərk etmək sadəcə ADF-nin rəhbərlərindən bir neçəsinə məsləhət görülmüş olsa belə, sonrakı günlərdə İrandan Sovet Azərbaycanına mühacirət edərək tərki-vətən olanların sayı 15000-i aşdı.

## MACƏRANIN SONU

Demokratların gözlənilməz şəkildə təslim olması və mərkəzi hökumətə tam tabeçilik göstərməsi bəzi müşahidəçilər və tarixçilərin Azərbaycan böhranının sona yetməsində böyük xarici dövlətlərin təzyiqlərinin əsas rol oynadığı qənaətinə gəlib çıxmalarına səbəb oldu.(162) Belə ki, tarixçilərin əksəriyyəti Sovet İttifaqının İranla bağlı siyasətinin istiqamətini dəyişdirməsinin əsas səbəbini ABŞ prezidenti Harry S. Trumenin bu məsələ ilə əlaqədar Sovetlərə təzyiq göstərməsində görürdülər. Müşahidəçilər və tarixçilər belə hesab edirdilər ki, məhz ABŞ prezidentinin təzyiqləri nəticəsində Sovetlər azərbaycanlı Demokratları

sıxışdırmağa başladılar və məhz bu səbəbdən muxtar hökumətin tarixinin sonuncu səhifəsinə möhür vuraraq Demokratların hakimiyyətinə son qoydular. Bəzi mənbələrdə hətta Trumenin bu məsələ ilə bağlı Sovetlərə «ultimatum» verməsi də qeyd edilirdi.

Ultimatum adının verildiyi bu adi məktubda Trumen Sovet hakim dairələrindən Üçtərəfli Müttəfiqlik Sazişinə əsasən öz üzərlərinə götürdükləri öhdəlikləri yerinə yetirməyi və razılaşdırılmış vaxtdan gec olmamaq şərtilə öz qoşunlarını İran ərazisindən çıxartmağa başlamağı tələb edirdi.(163) Lakin Trumenin 24 aprel 1952-ci ildə keçirdiyi mətbuat konfransında Sovet İttifaqına göndərdiyi məktubdan bəhs edərkən «ultimatum» termininden istifadə etməsi bu məsələ ilə əlaqədar böyük anlaşılmazlığın yaranmasına səbəb olmuşdu.(164) Nəhayət, 1969-cu ildə, on yeddi illik mübahisədən sonra, ABŞ Dövlət Departamenti rəsmi şəkildə açıqlama verərək departamentin arxivlərində ABŞ prezidenti tərəfindən Sovet İttifaqına ultimatum göndərilməsini təsdiq edən heç bir sənədin olmadığını bəyan etmişdi.(165) Belə bir ultimatumun mövcudluğunu sübut edən hər hansı bir tutarlı dəlilin olmamasına baxmayaraq, bir sıra siyasətçilər və alimlər Azərbaycanda Demokratların hakimiyyətinin sona çatmasında həmin fərz edilən «ultimatumun» son dərəcə həlledici rol oynadığını düşünürlər.(166)

Milli hökumətin qəfil süqutunun və Demokratların Azərbaycandakı hakimiyyətinin tamamilə sona yetməsinin yeganə səbəbi kimi Sovetlərin «Şərq məğlubiyyətinin» göstərilməsi düzgün olmazdı. Bu həm də «Qərb təzyiqinin» mövcudluğunun inkar edilməsi demək olardı. Demokratların hakimiyyətə gəldikləri ilk günlərdən etibarən Sovetlər tərəfindən mənəvi cəhətdən müdafiə olunması təkzibedilməz bir həqiqətdir. Lakin bu mənəvi dəstək özünü heç bir zaman sözün əsl mənasında doğrultmadığından elə də böyük əhəmiyyət kəsb etmirdi. Bununla əlaqədar ABŞ-ın İrandakı səfiri George Allen aşağıdakıları qeyd edirdi: «Ötən bir ildə Sovetlərin Azərbaycan rejiminə göstərdikləri kömək həddən artıq məhdud idi. Sovetlər Demokratlarla sövdələşməklə əslində bu yardımı daha da azaltmış oldular. Belə ki, Sovetlər əvvəlcədən razılaşdırılmış şəkildə Azərbaycanı buğda və digər ərzaq məhsulları ilə təchiz etdilər. Lakin bunun müqabilində azərbaycanlılardan böyük məbləğdə pul ödəməyi tələb etdilər. Azərbaycan külli miqdarda avtomat silahlar, döyüş sursatı

və digər yüngül ləvazimatlarla təchiz edilmişdi. Ancaq Azərbaycana göndərilən hərbi təchizatlar arasında ağır silahlar yox idi».(167)

Belə görünür ki, Azərbaycanlı Demokratların məğlubiyyətinin qaçılmaz hala çevrilməsində onların geniş kütlələr tərəfindən müdafiə olunmaması faktı «Şərq məğlubiyyəti» və «Qərb təzyiqi» amillərindən daha böyük təsirə malik idi. Həqiqətən də milli hökumətin bu qədər qısa bir zamanda qəflətən süqut etməsi və mərkəzi hökumətin qoşunlarına qarşı faktiki olaraq geniş silahlı müqavimətin göstərilməməsi milli hökumətin düşmənlərinin həqiqi gücünün yox, Demokratların geniş xalq kütlələri tərəfindən müdafiə olunmadığının göstəricisi sayılmalıdır. Lakin Demokratların mövqeyinə tərəzi gözü ilə baxıldıqda onların həyata keçirdikləri bir sıra siyasi tədbirlərin xalq arasında böyük ictimai dəstək gördüyünün inkaredilməz bir həqiqət olduğunu başa düşürük. ABŞ-ın Təbrizdəki baş konsulunun da qeyd etdiyi kimi, Demokratlar müasir siyasi zəkaya malik siyasətçilər idilər. ABŞ-ın baş konsulu öz sözlərinə belə davam edirdi: «Demokratlar bütün hərəkətlərində xalqa xitab edirdilər. Lakin onlar öz hərəkətlərinin nə ilə nəticələnəcəyini və gələcəkdə nələrin baş verəcəyini əvvəlcədən hiss edəcək qədər ağıllı idilər. Onlar insanların diqqətini çəkəcək tədbirlər həyata keçirirdilər. Belə ki, onlar yollar çəkir, küçələrdə səkilər düzəldir və Tehrandakı mərkəzi hökumətin uzun illər boyu görmədiyi işləri görürdülər. Onlar əsas diqqəti təhsilə verir və məktəbləri zahirən də olsa yeniləşdirməyə və tamamilə başdan yaratmağa çalışırdılar. Bütün bu tədbirləri həyata keçirməklə onlar öz hakimiyyətlərinin əbədiləşdirilməsinə nail olmaq istəyirdilər. Yəni, onlar doğru olanı sezə bilirdilər».(168)

Lakin Demokratlar əyalətdə yetərincə dəstək toplaya bilmədiklərindən sosial-siyasi hərəkatın genişlənməsinə də nail ola bilmədilər. Onların kütləvi hərəkat yaratmaq cəhdləri heç də birmənalı xarakter daşımırdı. Belə ki, Pişəvəri İran Konstitusiyasının bərpası tələbilə çıxış etməklə və konstitusiyada öz əksini tapmış hüquqları müdafiə etməklə öz mövqeyini qanuniləşdirməyə çalışırdı. Lakin Pişəvərinin «muxtariyyət» ideyasının əyalətlərdə yerli əyalət və vilayət şuralarının yaradılması hüququ ilə əlaqədar İran Konstitusiyasında qoyulan şərtləri ötüb keçdiyi və daha geniş məna kəsb etdiyi onun sonrakı fəaliyyətində məlum oldu. Belə ki, «millətlərin öz müqəddəratını təyin etmək, ayrılaraq öz milli, müstəqil dövlətini yaratmaq hüququna» istinad edən Pişəvəri

hətta ilk bolşeviklər tərəfindən irəli sürülən ideallara olan möhkəm bağlılığını dilə gətirməkdə belə tərəddüd etmirdi.

Hətta Pişəvəri bir neçə dəfə açıq-aydın mərkəzi hökuməti Azərbaycanın İrandan ayrılacağı ilə hədələmişdi. Belə ki, heç nədən çəkinməyən Pişəvəri mərkəzi hökumətə aşağıdakı şəkildə xəbərdarlıq etmişdi: «Azərbaycan özü öz işlərini idarə etməyə qadirdir. Əgər Tehrandakı fırıldaqçılar azadlığın kökünü kəsmək üçün təkid etməkdə qərarlıdırlarsa, onda biz irəliyə daha bir addım atmağa məcbur olacağıq və onlarla bütün əlaqələrimizi kəsəcəyik... Əgər Tehran irtica yolu ilə getsə, biz Tehrana əlvida etməli olacağıq! İran Azərbaycansız olacaq. Bu bizim son sözümüzdür!».(169)

Bir dəfə Pişəvəri sırf Azərbaycanın İrandan ayrılması məsələsi ilə əlaqədar öz fikrini bəyan etmək üçün belə bir müqayisədən istifadə etmişdi: «Azərbaycan İranın tərkibində Hindistan olmaqdansa, müstəqil İrlandiya olmağa üstünlük verir». (170) Pişəvərinin ritorik sözlərlə ifadə etdiyi İrandan ayrılma ideyası təkcə Tehrandakı mərkəzi hökumətin qəzəbinə səbəb olmaqla qalmamış, həm də Təbrizdəki siyasi dairələr arasında Demokratlara qarşı düşmən münasibətin yaranmasına səbəb olmuşdu. Hakimiyyətdə olduqları son günlərdə siyasi görüşlərini dəyişdirərək fərqli mövqedən çıxış etməyə başlayan Demokratlar birdənbirə İrandan ayrılma fikrindən tamamilə uzaqlaşmış, xalqların öz müqəddəratını təyin etmək və öz milli dövlətini yaratmaq hüququnu təkidlə müdafiə etməkdən əl çəkmişdilər. Milli Hökumətin bu son günlərində Demokratların siyasi baxışlarında özünü göstərən əsas dəyişiklik mərkəzi hökumətin Azərbaycan üzərindəki nəzarətinin azaldılması və Azərbaycana bir sıra üstünlüklər verilməsi ilə əlaqədar məsələnin arxa plana atılmasından ibarət idi. Belə ki, Demokratlar hakimiyyətdə olduqları bu son günlərdə artıq əvvəllər irəli sürdükləri tələblərlə çıxış etmir, özlərini daha çox bütün İranlıların mənafeyi naminə konstitusiyanın bərpa edilməsinin dönməz tərəfdarları kimi təqdim etməyə çalışırdılar. Konstitusiyanın dönməz müdafiəçiləri olan və konstitusiyada da göstərildiyi kimi, daha az mərkəzdən idarə olunan bir hökumət quruluşunun yaradılmasına nail olmağa çalışan Demokratlar bütün İran üçün nümunə sayıla biləcək demokratik siyasi xətlə irəliləyir və mütərəqqi, qabaqcıl baxışların təmsilçiləri kimi çıxış edirdilər. Lakin Demokratların bütün cəhdlərinin boşa çıxması və hakimiyyətlərinin faciəvi şəkildə sona yetməsi onların bu fikri qəbul etməkdə və həmin siyasi xətti götürməkdə həddən artıq çox gecikdiyini bir daha sübut edir.

# EPİLOQ

*Milli özünüdərketmə hissi, hər hansı bir siyasi və ya sosial cəmiyyətə mənsubluq millətin dövlət halında birləşməsinə rəvac verən ən mühüm amil kimi mədəni və ya siyasi dövlətçiliyin əsasını təşkil edir. Ümumiyyətlə, milli özünüdərketmə hissi milli dövlət olmadan da yarana bilər. Amma milli özünüdərketmə hissindən məhrum olan hər hansı bir milli hərəkat sonunda məğlubiyyətə uğramağa məhkumdur.*

**P.Alter**, Millətçilik, *səh. 18.*

Marks Hegelin tarixin təkrarlanmasına dair mülahizələrini şərh edərkən kinayə ilə həyatda baş verən hadisələrin əvvəlcə faciəvi, daha sonra isə komik şəkil aldığını qeyd etmişdi. Tarix boyu baş verən hadisələr Marksın bu nöqteyi-nəzərinin nə dərəcədə həqiqətə uyğun olub-olmadığını göstərir. Lakin şübhəsiz ki, Marksın bu fikri İran Azərbaycanındakı muxtariyyət hərəkatına şamil edilə bilməz. XX əsrdə İran Azərbaycanında iki böyük üsyan baş vermişdir. Bu üsyanların əsas məqsədi mərkəzi hökumətin regiondakı hakimiyyətini məhdudlaşdırmaq və yerli xalqın daha çox iştirak edə biləcəyi yeni hakimiyyət quruluşu yaratmaqdan ibarət idi. Hər iki üsyan ağır məğlubiyyətlə nəticələndi. İkinci üsyan cəhdinin faciəvi şəkildə nəticələnməsinin əsas səbəbləri 1920-ci il Xiyabani üsyanına nisbətən daha mürəkkəb olsa da, Pişəvərinin siyasi fəaliyyətinə son verilməsini və 1946-cı ildə Azərbaycan Muxtar Hökumətinin süqut etməsini labüdləşdirən tarixi şərait 1920-ci ildə baş verən Xiyabani üsyanının faciəvi sonunu doğuran şəraitlə oxşar idi.

Radikal islahatçı olan Şeyx Xiyabani bir müddət Çar Rusiyasının hakimiyyəti altında yaşamışdı. Buna baxmayaraq, onun bir siyasi xadim kimi yetişməsində XVIII əsrdə Qərbi Avropada meydana gəlmiş sosial ideyalar, müstəmləkə idarəçiliyi altında yaşadığı illərdə Rusiyanın sosial mühitində mövcud olan ideyalardan daha böyük rol oynamışdı. Xiyabani İranda tamamilə mərkəzləşdirilmiş idarəçiliyin qəti əleyhdarı kimi çıxış etsə də İranın ərazi bütövlüyünün qorunmasını rəhbər tutaraq İranda milli dövlətin təşkil olunması ideyasına Azərbaycanda müstəqil və ya muxtariyyət idarəçiliyinin yaradılmasından daha çox əhəmiyyət verirdi. Yəni, əsasən milli dövlətin yaradılması fikrini müdafiə edən Şeyx Xiyabaninin siyasi tələbləri daha çox mərkəzi hökumətlə İrandakı yerli idarəçilik orqanları arasındakı icraedici hakimiyyət bölgüsünün

düzgün və ədalətli şəkildə aparılmasını əhatə edirdi. Onun irəli sürdüyü tələblər bu çərçivədən bir o qədər də kənara çıxmırdı.

Paytaxtda yerləşən mərkəzi hökumət qarşısına bütün ölkədə siyasi islahatların keçirilməsinə dair regional səviyyədə gerçəkləşdirilmiş təşəbbüslərə nisbətən daha böyük tələblərin qoyulması İrandakı milli-islahatçı düşərgənin bölünməsinə gətirib çıxaran ən mühüm amillərdən biri idi. Belə ki, Xiyabani və onun yoldaşlarından ibarət qrup öz islahat kampaniyalarına Tehrandan deyil, Təbrizdən başlamaqla mərkəzi hökumətə məhəl qoymadıqlarını nümayiş etdirdikləri halda, islahatçı düşərgənin digər hissəsini təşkil edənlər ölkənin idarə olunmasında paytaxtın rolunu azaldacaq hər hansı addımın atılmasının bilavasitə və ya bilvasitə İranın zəifləməsinə səbəb olacağına və beləliklə də ölkənin suverenliyinin təhlükə altına atılacağına inanırdılar. Bu məsələ ilə əlaqədar iki qrup arasındakı fikir ayrılığı o qədər böyük idi ki, Xiyabaninin müstəqil mövqedən çıxış etməsi və hər hansı bir xarici dövlətin köməyinə arxalanmaqdan imtina etməsi belə islahatçı düşərgənin üzvlərinin bir araya gəlməsi və bir bayraq altında cəmlənməsi üçün kifayət etmədi.

Bu hadisədən iyirmi beş il keçdikdən sonra, inqilabi kommunist olan Pişəvəri Xiyabani üsyanının faciə ilə bitməsinin onun üçün dərs olduğuna inansa da Azərbaycanda daha bir regional hərəkatın başlanmasına rəhbərlik etməyə hazırlaşırdı. Uzun müddət inqilabi kommunist hərəkatında Marksist-Leninçi kimi fəaliyyət göstərən Pişəvəri təkcə İran azərbaycanlılarını ayrıca bir millət hesab etməklə qalmır, həm də «millətlərin öz müqəddəratını təyin etmək, ayrılaraq öz müstəqil dövlətini yaratmaq hüququ» ilə bağlı Leninçi inqilabi şüarın yorulmaz müdafiəçisi kimi çıxış edirdi. Pişəvəri «muxtariyyət» anlayışını daha geniş mənada başa düşürdü. Belə ki, o, «muxtariyyət» tələb etdikdə sadəcə mövcud suveren dövlətin sərhədləri daxilində qalmaq şərtilə yerli əhalinin regional qanunvericilik və idarəçilikdə daha fəal iştirak etməsinə nail olmağı nəzərdə tutmurdu. Həm də ki, Pişəvəri digər əlaqədar siyasi partiyaların daxili işlərinə qarışmaq haqqını özündə görən və lazım gəldikdə kommunist düşərgəsindən birbaşa kömək istəməkdə zərrə qədər tərəddüd etməyən kommunistlər nəslinə mənsub idi. Pişəvəri kommunist düşərgəsində aparıcı yer tutan Sovet İttifaqına Britaniya və ABŞ kimi digər böyük dövlətlərə baxdığı gözlə yanaşmırdı. Belə ki, Sovet İttifaqına İranın daxili işlərinə müdaxilə edən xarici bir dövlət ki-

mi baxmayan Pişəvəri sovetlərə digər müdaxiləçi xarici dövlətlərə göstərdiyi inamsızlıq münasibətini göstərmirdi.

Şübhəsiz ki, bu heç də o demək deyildi ki, liberallar arasındakı bütün siyasətçilər və bütün kommunistlər Pişəvərinin fikirləri ilə şərik idilər. XIX əsrin başlanğıcından etibarən İranın daxili siyasətinə daim xaricdən müdaxilə edilməsi İran üçün ciddi təhlükə mənbəyinə çevrilmişdi. Xarici dövlətin adı ilə tanınmaq dövlət xadimlərinin yolunu kəsən və siyasi uğur qazanmalarına böyük maneəçilik törədən amillərdən biri idi. Bu səbəbdən də Tudə Partiyasının əksər üzvləri və kadrları üçün Demokrat Partiyasının həyata keçirdiyi tədbirləri müdafiə etmək və Pişəvərinin fikirlərini qeyd-şərtsiz qəbul etmək olduqca çətin idi. Pişəvəri ilə sovetlər arasındakı münasibətlərin birmənalı olduğunu diqqətə aldıqda və onun Sovet İttifaqından asılılığına nəzər saldıqda Azərbaycandakı muxtariyyət hərəkatının nə dərəcədə yerli xarakter daşıması ilə bağlı suallar meydana çıxır. Kitabın əvvəlki səhifələrində də qeyd edildiyi kimi Azərbaycanda əhali mövcud siyasi vəziyyətdən son dərəcə narazı idi. Lakin bu kimi narazılıqlar Azərbaycan Muxtar Hökumətinin mərkəzi hökumətə qarşı belə təxribatçı mövqedən çıxış etməsi, mərkəzi hökumətə hədələyici bir dillə xəbərdarlıq etməsi, Tehranla bütün əlaqələri kəsmək kimi qəti qərarlar qəbul etməsi və bununla əlaqədar müvafiq tədbirlər həyata keçirməsi üçün yetərli səbəb hesab edilə bilməz.

Sonunda Pişəvərinin gözlədiyinin tam əksi baş verdi. Yəni, sovetlərin azərbaycanlı Demokratların muxtariyyət çağırışına səs verməsi istənilən müsbət nəticəni vermədi və muxtar hökumət süquta uğradı. Bir çox iranlılar İran Azərbaycanı ilə eyni adı daşıyan Sovet Sosialist Azərbaycan Respublikasının mövcudluğuna sovetlərin apardığı siyasətin arxasında əslində İran Azərbaycanını Sovet Azərbaycanına birləşdirmək məqsədinin dayandığının göstəricisi kimi baxırdılar. Məhz bu səbəbdən İranda əyalətlərə daha geniş muxtariyyət hüququnun verilməsi tərəfdarı olan siyasi fəallar öz şübhələrini açıq-aydın ifadə etməsələr də, azərbaycanlı Demokratları qeyd-şərtsiz müdafiə etməkdən imtina edirdilər. Onlar Pişəvərinin Azərbaycana regional muxtariyyət verilməsi tələbilə çıxış etməsini Azərbaycanın İrandan ayrılması planının bir hissəsi kimi dəyərləndirir, muxtar hökumətin yaradılmasına isə İrandan ayrılma ssenarisinin gerçəkləşdirilməsi üçün Demokratların atdığı bir

addım kimi baxırdılar. Bundan başqa, azərbaycanlı Demokratların etnik məsələlərlə və muxtariyyət anlayışı ilə əlaqədar tez-tez çox da dəqiq olmayan terminalogiyaya müraciət etməsi ictimaiyyət arasında onların siyasətinə dair dolaşan anlaşılmazlıqların və qarışıqlığın daha da böyüməsinə səbəb olmuşdu.

Demokratların Sovet İttifaqının dəstəyinə arxalanması tədricən azərbaycanlıları belə muxtar hökumət sıralarından uzaqlaşdırmışdı. Belə ki, azərbaycanlıların özləri də İrandan ayrılma fikrinin əyalətin gələcək iqtisadiyyatı və mədəniyyəti baxımından Azərbaycan üçün böyük təhlükə doğurduğuna inanırdılar. Xalq İranla bütün əlaqələrin kəsildiyi təqdirdə Azərbaycanın böyük iqtisadi və mədəni itkilərə məruz qalacağından son dərəcə narahat idi. Bu səbəbdəndir ki, Azərbaycan Muxtar Hökumətinin bir sıra cəlbedici islahatlar həyata keçirməsinə, yəni təhsil sistemində və seçki qanunvericiliyində əsaslı dəyişikliklər aparmasına, xüsusilə də böyük miqyaslı torpaq islahatları keçirməsinə baxmayaraq Demokratlar heç bir zaman xalq arasında geniş və həqiqi ictimai dəstək qazana bilmədilər. Muxtar hökumətin Tehranın hərbi təzyiqinə məruz qalan kimi süqut etməsi bunu bir daha sübut edir.

Xiyabani üsyanının məğlubiyyətə uğramasından öyrəniləcək bir dərs varsa, o da xalq arasında üsyana göstərilən dəstəyin nə üçün get-gedə azaldığı sualına veriləcək cavabda axtarılmalıdır. Mərkəzi hökumət üsyanın yatırılması məqsədilə öz silahlı qüvvələrini Azərbaycana göndərdikdə sayca bir o qədər də çox olmayan qoşunlar hər hansı bir ciddi müqavimətlə qarşılaşmadılar. Hətta yerli sakinlərin əksəriyyətinin mərkəzi hökumətə məxsus qoşunları böyük razılıq hissi ilə qarşıladığı və onların gəlişindən məmnun qaldığını belə demək olar. Xalqın bu şəkildə hərəkət etməsinin səbəbi Xiyabani tərəfindən həyata keçirilən islahatların onların tələblərinə cavab verməməsi ilə əlaqədar idimi? Xeyr. Əksinə, əsrin əvvəllərində Azərbaycanda mövcud olan sosial-iqtisadi şəraitə realistcəsinə nəzər saldıqda, Xiyabani tərəfindən irəli sürülən proqramın həmin şəraitdə həyata keçirilə biləcək ən mükəmməl islahat kampaniyasını özündə ehtiva etdiyini söyləmək olar. Deməli, mərkəzi hökumətin üsyançılara bir o qədər də böyük hərbi təzyiq göstərmədiyini və Xiyabaninin islahat proqramının xalq arasında geniş dəstək qazandığını nəzərə aldıqda anlaşılır ki, Xiyabani üsyanının məğlubiyyətlə nəticələnməsinin səbəbi və ya səbəbləri başqa yerdə axtarılmalıdır.

XIX və XX əsrlərdə dünyada millətçi dövlətlərdən bir qədər fərqlənən dövlətçi millətlər meydana gəldi. Bu kimi hallarda, adətən, dövlətin yaşaması üçün vacib sayılan ilkin şərtlər, zəruri tarixi və mədəni bağlar ya yaradılır, ya da ki, sadəcə ixtira edilirdi. Müstəmləkə quruluşunun sürətlə dağılması nəticəsində meydana gəlmiş yeni dövlətlər dünyanın hazırki xəritəsindəki müasir dövlətləri əmələ gətirməyə başlayırdılar. Sərhədləri süni surətdə müəyyən edilən bu yeni dövlətlərin əksəriyyəti etnik cəhətdən çox mürəkkəb tərkibə malik olub bir-birilə mədəni bağlılığı olmayan millətlərdən təşkil olunmuşdu. Hətta bəzi hallarda bir-birinə düşmən münasibəti bəsləyən və daimi ədavətdə olan etnik ünsürlər belə bir dövlətin tərkibinə daxil edilmişdi. Tarixən mövcud olan dövlətlər isə bu vaxt ərzində yeni yaranmış siyasi qurumlara əsaslanaraq öz müasir dövlətçiliklərini möhkəmləndirmək və inkişaf etdirməklə məşğul idilər. Bu dövlətlərdən bəziləri müxtəlif vaxtlarda həmin dövlətlərin ərazisində müəyyən dərəcədə hakimiyyət sahibi olmuş çox sayda etnik qrupları qəsdən bir suveren dövlətin tərkibinə daxil edirdilər. Birinci halda bir-birilə heç bir əlaqəsi olmayan, fərqli mədəniyyətə və bir-birindən tamamilə fərqlənən keçmişə malik müxtəlif etnik qrupları bir araya gətirmək və mərkəzdənqaçma meyllərini azaltmaq yolu ilə dövlət yaratmaq olduqca çətin, hətta qeyri-mümkün bir iş hesab edilirdi. Lakin ikinci halda bir dövlətin tərkibində yaşayan müxtəlif etnik qruplar bir-birilə o dərəcədə bağlanır və birinin digərindən olan asılılığı o dərəcəyə çatırdı ki, onların arasındakı bağları, xüsusilə də iqtisadi, mədəni və dini bağları zəiflətmək üçün atılan hər hansı bir addım böyük qəzəb və hiddətlə qarşılanırdı.

Ötən əsrdə dünyanın müxtəlif bölgələrində baş verən bölücü hərəkatların böyük əksəriyyəti əyalətlərin mərkəzin və ya mərkəzi hökumətin qarşısında daha geniş muxtariyyət tələbilə çıxış etməsi nəticəsində meydana gəlirdi. Əyalət beynəlxalq qüvvələrin köməyi ilə özünü müstəqil dövlət elan etdiyi və öz müstəqil bayrağını daşımağa başladığı zaman isə əyalətlə mərkəz arasındakı toqquşma, adətən, silahlı qarşıdurmaya çevrilirdi.

Əyalətlərlə mərkəz arasındakı əlaqələrə ümumi nəzər saldıqda İranda siyasi hakimiyyətin daimi mərkəzi kimi uzun müddət paytaxt funksiyasını yerinə yetirdiyi söylənilə biləcək bir şəhərin olmadığı anlaşılır. Tarix boyunca İran imperiyanın bütün gücünü uzun müddət özün-

də cəmləşdirmiş Konstantinopol və ya Sankt Peterburq kimi paytaxt şəhərə sahib ola bilməmişdir. İran miladdan öncə 1500-ci ildən başlayaraq dörd yüz il ərzində bir neçə dəfə paytaxt dəyişdirməyə məcbur olmuşdur. Paytaxtın və ya dövlətin mərkəzinin dəyişdirilməsi, şəhərin paytaxta çevrilməsi üçün zəruri sayılan ilkin şərtlərlə, yəni həmin şəhərin sosial və siyasi quruluşu və iqtisadi bazaları ilə əlaqədardır.(1) Mərkəzləşdirilmiş, güclü Səfəvilər dövlətinin inkişafı ilk olaraq imperiyanın şimal-qərbində yerləşən Təbriz şəhərindən başlamışdı. Təbriz şəhəri mühüm yolların və İranla Osmanlı imperiyası arasındakı etnik və mədəni əlaqələrin qovuşduğu bir bölgədə yerləşirdi. Bundan başqa, Təbriz həm də İrandakı ən böyük etnik azlıq sayılan Azərbaycan türklərinin paytaxt şəhəri idi. Təbriz indi də İran azərbaycanlılarının mərkəzi şəhəri olaraq qalır. Təbrizdən sonra Səfəvilər dövlətinin paytaxtı əsasən türklər və farsların məskunlaşdığı Qəzvin şəhəri oldu. Sonralar Səfəvilər dövlətinin paytaxtı Qəzvindən imperiyanın cənub-qərbinə, əsasən fars dilli əhalinin yaşadığı İsfahan şəhərinə köçürüldü. Səfəvilər sülaləsi süqut etdikdən sonra İran taxt-tacına yiyələnən Nadir Əfşarın qısamüddətli hakimiyyəti (1732—1747) dövründə isə paytaxt rolunu oynayan şəhər ölkənin şimal-şərqində yerləşən Məşhəd oldu. Lakin Kərim Xan Zənd (1747—1790) hakimiyyətə gəldikdən sonra ölkənin paytaxtı Şiraz şəhəri ilə əvəz olundu. Nəhayət, Qacarlar sülaləsinin yüksəlişi nəticəsində 1792-ci ildə bir o qədər də böyük əhəmiyyət kəsb etməyən Tehran şəhəri İranın yeni paytaxtı elan edildi.

İranın paytaxtına çevrildikdən sonra Tehranın həm siyasi, həm sosial, həm də iqtisadi statusu həddən artıq yüksəldi. Bu isə öz növbəsində şəhərin əhalisinin əhəmiyyətli dərəcədə artmasına səbəb oldu. Tehran əhalisinin çoxalması nəticəsində şəhərin etnik tərkibi də xeyli mürəkkəbləşdi. Burada Məşhəd şəhərini misal gətirmək maraqlı olardı. Belə ki, Nadir Məşhədin ölkənin həyatındakı rolunu artırmaq məqsədilə şəhərin paytaxt elan edilməsinə dair göstəriş vermişdi. Məşhəd paytaxta çevrildikdən sonra isə şəhərin əhalisi 250 min nəfər artmışdı.(2)

Şəhər əhalisinin gözlənilməz sürətlə artmasının əsas səbəblərindən biri şah ailəsi ilə yanaşı şahı əhatə edən çoxsaylı dövlət qulluqçularının, şah idarəçiliyində xidmət göstərən şəxslərin, şahı müşayiət edən bürokratların, hərbi kadrların və dini rəhbərlərin də mərkəzi şəhərlərə axın etməsi idi. Şəhər əhalisinin çoxalmasının ikinci səbəbi kimi isə

milli zadəganlar, böyük nüfuz sahibi olan mülkədarlar və tayfa başçılarının əksəriyyətinin şahın ətrafında cəmləşməsini göstərmək olar. Şahların böyük tayfa birləşmələrinin oturaq həyata keçməsinə dair göstəriş verməsi, eyni zamanda etnik və ya dini azlıqlardan ibarət qrupların şah iqamətgahlarının yerləşdiyi ərazilərin yaxınlığında məskunlaşdırılmasına dair qərarlar qəbul etməsi şəhər əhalisinin sayının birdən-birə yüksəlməsinə təsir etmişdi. Yuxarıda sadalanan bütün bu amillər həm paytaxt şəhərin inkişafına əhəmiyyətli dərəcədə təsir etmiş, həm də ümumiyyətlə bütün imperiyanın ərazi quruluşunun böyük ölçüdə dəyişilməsinə gətirib çıxarmışdı.(3)

Köçəri qrupların oturaq həyat tərzinə keçməyə məcbur edilməsi və məskunlaşdıqları ərazilərdən başqa yerlərə köçürülməsi yolu ilə həyata keçirilən yerdəyişdirmə siyasəti imperiyanın vətəndaşlarının etnik və dini cəhətdən eynicinsləşdirilməsi məqsədi daşıyırdı. Bu siyasət nəticəsində əhalinin etnik və dini tərkibi böyük ölçüdə dəyişikliyə uğradı. Misal üçün, Səfəvilərin məcburi köçürmə siyasəti nəticəsində təxminən 100000 türk köçəri ailəsi öz yurd-yuvasından didərgin salınaraq başqa yerlərdə məskunlaşdırılmış, 20000-ə yaxın erməni və gürcünün İsfahanın cənub bölgələrində yerləşdirilməsi üçün geniş imkanlar yaradılmışdı. Nadir Şahın qısamüddətli hakimiyyəti dövründə isə təxminən 150000 ailə köçürmə siyasətindən əziyyət çəkmişdi. Nəhayət, Zəndlərin hakimiyyəti dövründə 40000-ə yaxın köçəri ailə tarixən məskunlaşdığı ərazilərdən çıxarılaraq Şirazın yaxınlığına köçürülmüşdü. Köçürmə və ya yerdəyişdirmə siyasətinin ardından isə yeni kəndlərin yaradılmasına başlanmış, mövcud kəndlər genişləndirilmiş və şəhərlərə yeni məhəllələr artırmaqla onlara tamamilə başqa şəkil verilmişdi.(4)

Etnik və dini sərhədlər şəhərlərin daxili məhəllələrini bir-birindən ayırsa da, həmin məhəllələrin sakinləri bütün sosial-iqtisadi çətinliklərə baxmayaraq bir-birilə qarşılıqlı əlaqələr saxlayır və dinc yaşayırdılar. Tarixən müxtəlif etnik qruplardan təşkil olunmuş, fərqli sosial-iqdisadi keçmişə malik qarışıq və dəyişkən əhalili, sürətlə böyüyən kosmopolit şəhərlərin meydana gəlməsi bir çox hallarda insanlarda fərdi dostluq, mehriban qonşuluq, düzlük, sədaqət, vəfa və ən əhəmiyyətlisi torpağa bağlılıq hisslərinin oyanmasına təkan vermişdir. İran şəhərlərinin tarixinə nəzər saldıqda anlaşılır ki, etnik azlıqlar arasında narazılıq hallarının, ixtilafların və qanlı hadisələrin baş vermədiyi söylənilə bilməz.

Ancaq İranda heç bir şəhər məhz etnik və ya dini müxtəliflik ucbatından parçalanmamışdır. Bundan başqa, qeyd edilməlidir ki, İran şəhərlərinin səciyyəvi xüsusiyyətlərindən birini təşkil edən ikidillilik, bəzən də çoxdillilik amili eynicinsləşdirmə siyasətinə xidmət edən dil millətçiliyinin inkişafına və yayılmasına daim mənfi təsir göstərmişdir.

Bir şəhərin yeni paytaxta çevrildikdən sonra sürətlə yüksəlməsi, adətən, əvvəlki paytaxt şəhərin öz əhəmiyyətini itirməsinə, xüsusilə də əhalisinin azalmasına səbəb olur. Lakin bəzi alimlərin də qeyd etdiyi kimi, tarixən heç bir yeni paytaxt özündən əvvəlki paytaxt şəhərin tamamilə tənəzzül etməsinə səbəb ola bilməmişdir.(5) Belə ki, keçmiş paytaxt şəhərlərin əksəriyyəti müvafiq əyalətin inzibati mərkəzi olaraq qalmış və beləliklə də, öz funksiyalarının böyük bir qismini saxlamağa və ölkənin iqtisadi həyatında oynadığı rolu əldən verməməyə qadir ola bilmişdir. Qacarlar sülaləsinin hakimiyyəti dövründə İran dörd böyük əyalətə bölünmüşdü. Bu əyalətlərə Azərbaycan, Xorasan, Fars və Kirman-Sistan daxil idi. Bu əyalətlərin hər biri çoxsaylı vilayətlərdən təşkil olunmuşdu. Əyalətlərə valilər başçılıq edirdilər. Daha sonra inzibati dəyişiklik aparılmış və köhnə əyalətlər saxlanılmaqla mərkəzi Tehran olan yeni bir əyalət də yaradılmışdı. XIX əsrdə İranda Məşhəd və Təbriz şəhərləri olduqca inkişaf etdi. Bu iki şəhər bir çox hallarda öz fəaliyyətinə görə Tehranı ötüb keçirdi. Məşhəd şiələrin müqəddəs dini mərkəzi və ziyarətgahı kimi xüsusi əhəmiyyətə malik idi. Təbriz isə Rusiya və Avropanın ölkənin daxili hissələrinə iqdisadi cəhətdən nüfuz edə bilməsi üçün bir növ darvaza rolunu oynayırdı. Qacarlar sülaləsinin hakimiyyəti dövründə (1790—1925) Təbriz inkişaf edərək mühüm ticarət mərkəzinə çevrildi. Təbriz ölkənin taxıl anbarı adlandırılırdı. İranın siyasi cəhətdən ikinci ən mühüm şəhəri sayılan Təbriz həm də Qacar taxtının varisi, şahzadə Darül Səltənənin rəsmi iqamətgahının yerləşdiyi şəhər idi. Daha sonra, İranda baş verən hadisələr bu vaxt ərzində Təbrizin xarici hadisələrdən digər şəhərlərə nisbətən daha çox təsirləndiyini bir daha sübut etdi. Bu şəhər mütərəqqi siyasi düşüncə sahiblərinin yetişmə ocağına çevrilmişdi. 1905—1911-ci illərdə İranda baş verən konstitusiya hərəkatının rəhbərləri də məhz həmin tərəqqipərvər Təbrizlilər arasından çıxmışdı.

1900-cu ilə qədər İranın sərhədləri bir o qədər də sabit deyildi. Əksinə sərhədlər olduqca dəyişkən idi. Səfəvilərin mərkəzləşdirmə siya-

səti apararaq və şiəliyi xüsusi qurumlar vasitəsilə sistemli şəkildə təbliğ edərək daha böyük siyasi birlik əldə etmək cəhdləri nəticəsində İran öz sərhədlərindən kənarda yaşayanlarla əlaqədar müdafiə mövqeyindən çıxış etməyə üstünlük verməyə başlamışdı. Belə ki, Səfəvilər Persiyasının təbəələri milli mənsubiyyət anlayışını öz milli xüsusiyyətləri ilə deyil, yerli əlahiddəlikləri ilə ölçürdülər. Yəni onlar özlərini sünni müsəlman qonşuları ilə müqaisə etməklə milli mənsubiyyət anlayışını dolayı yolla izah etmiş olurdular. Səfəvilər dövlətinin yaranması ilə milli özünüdərketmə hissi və hakim sülaləyə göstərilən sədaqət çoxalsa da, Xəzər dənizindən Fars körfəzinə kimi uzanan bütöv Persiya dövlətinin formalaşması yalnız XVII—XVIII əsrlərdə başa çatdı. Belə ki, bu vaxt Avropada ilk dəfə İranın yarımüasir xəritəsi çəkilməyə başlandı. Əsasən Səfəvilərin nailiyyətləri nəticəsində ərazilərini genişləndirmiş İranın bu xəritəsi qədim Persiya imperiyasının xəritəsindən fərqlənirdi.

Müasir dövrdən əvvəlki dövrdə Osmanlı imperiyası tərəfindən işğal təhlükəsinin yaranması nəticəsində Avropa dövlətləri böyük nifrət bəslədikləri qonşularının öz sərhədlərini genişləndirəcəyi qorxusuna düşmüşdülər. Məhz bu səbəbə görə, Nadir 1736-cı ildə, Səfəvilər dövləti süqut edən kimi Osmanlı imperiyasının işğal etdiyi ərazilərin, yəni İranın şimal və şimal-qərb bölgələrinin qısa müddətdə geri qaytarılması tələbilə çıxış etməyə başladı və təkidlə ölkənin qanuni sərhədlərinin saxlanılması məsələsini ortaya qoydu. Əslində Nadir İran sərhədlərinin qanuniliyini əsas götürən yeganə şəxs deyildi. Belə ki, Səfəvilərdən miras qalan Persiya dövləti ərazi baxımından Nadirdən sonra hakimiyyətdə olan bütün hökmdarlar üçün əsas meyara çevrildi. Kərim xan Zənd də, Ağa Məhəmməd xan Qacar da eyni mövqedən çıxış edirdi. XIX əsrin əvvəllərində İran Rusiya və İngiltərənin qarşıdurmaları ilə üzləşdiyindən, Rusiya ilə bir-birinin ardınca iki müharibə apardığından və nəticədə 1813-cü və 1828-ci illər sülh müqavilələrinə imza atdığından özünün şimal ərazilərini itirmiş və indiki sərhədləri daxilinə sıxışdırılmışdı. Şimaldakı əhalinin böyük əksəriyyəti şiə müsəlmanları olsa da onların sonrakı taleyi İrandan tamamilə uzaq düşmüş və Rusiya imperiyasının müsəlman əhalisinin taleyinə sıx tellərlə bağlanmışdı. I Dünya müharibəsinin son günlərində Naxçıvan əhalisi İran hökumətinə ərizə yazmaqla yenidən İrana birləşmək arzusunda olduğunu ifadə etmişdi. Bu ərizə nəticəsində İran hökuməti Naxçıvanın yenidən İrana birləşdi-

rilməsi xülyasına qapılmışdı. Lakin müharibədən sonra dünyada baş verən qalmaqal və səs-küy İran hökumətinin heç bir məntiqə sığmayan bu qeyri-mümkün xülyasının gerçəkləşməsinə icazə vermədi.

İranda sosial əlaqələr və onların qarşılıqlı təsiri özünəməxsus səciyyəvi formaya malik idi. Sosial əlaqələrin bir-birinə bu şəkildə qarşılıqlı təsir etməsinə daha çox qeyri-məhdud hakimiyyət qurumlarında rast gəlinir. Belə ki İrandakı cəmiyyət öz tərkibi baxımından çox müxtəlif olsa da məhz qeyri-məhdud hakimiyyət sayəsində ölkədə siyasi birlik əldə edilə bilmişdi.

I Dünya müharibəsi dövründə İranda güclü dövlət yox idi. Bu səbəbdən müharibədən sonra İranın da Osmanlı imperiyası kimi bir neçə kiçik dövlətə parçalanacağı gözlənilirdi. Lakin İran müharibə bitdikdən sonra da öz ərazi bütövlüyünü qoruyub saxlaya bildi. İranda Pəhləvilər hakimiyyətə gəldikdən sonra Rza şah 1920—1930-cu illər arasında «bir ölkə—bir millət» şüarı altında özünün «müasirləşdirmə» siyasətini həyata keçirməyə başladı. Rza şahın bu siyasəti əslində özündən əvvəlki monarxların İrandakı etnik mənsubiyyət anlayışının ölçü və istiqamətini dəyişdirmək siyasətindən bir o qədər də fərqlənmirdi. Belə ki, Rza şahın dövründə köçəri tayfaların məcburi surətdə öz yaşayış yerlərindən köçürülərək ölkənin başqa bölgələrində məskunlaşdırılması daha böyük miqyas almışdı. Lakin bu dəfə bu siyasət Rza şahın müasirləşdirmə proqramı üçün təhlükə doğuran tayfa başçılarına qarşı yönəldilmişdi. Etnik cəhətdən eynicinsli tərkibə malik şəhər əhalisinin sayını çoxaltmaqda isə dövlətin əsas məqsədi müasir İran vətəndaşının simasını formalaşdırmaq idi. İranda yaradılmış müasir milli dövlətin əsasları siyasi birlik və millətin etnik eynicinsliyi üzərində qurulmuşdu. Beləliklə, milli dövlət ideyası sonunda mümkün reallığa çevrilmişdi.

Bundan başqa İranın sosial inkişaf dinamikasının səciyyəvi xüsusiyyəti sayılan sosial mütəhərriklik amili gündən-günə artmaqda olan antietnik və antitayfa siyasəti ilə birlikdə cəmiyyətdə iqtisadi mütəhərrikliyin meydana gəlməsinə və sürətlə böyüməsinə təkan vermiş oldu. Beləliklə, yavaş-yavaş İranda yeni sosial quruluş formalaşmağa başladı. Bu quruluşda əsas yeri yüksək qabiliyyətə malik səriştəli şəxslər tuturdu. Belə ki, etnik mənsubiyyətindən asılı olmayaraq hər bir İran vətəndaşının yeni idarəçilikdə iştirak etmək, şəxsi bacarığını nümayiş etdirmək hüququ var idi. Hər bir İran vətəndaşı ərazi bütövlüyünə sahib

müasir milli dövlət kimi İranın dövlətçiliyini yüksək qiymətləndirirdi. Ayrı-ayrı azərbaycanlılar öz ləyaqətli əməkləri nəticəsində İranın hərbi və inzibati aparatlarında ən yüksək rütbəli vəzifələri tutmuşdular. Rza şah hakimiyyətə gəlməmişdən əvvəl İran cəmiyyəti ayrı-ayrı tayfalardan təşkil olunmuşdu. Müxtəlif etnik qrupların birləşərək mərkəzi hökumətin hakimiyyətinə qarşı çıxışetmə ehtimalı da yüksək idi. Lakin Rza şahın səyləri nəticəsində İran mərkəzləşdirilmiş, müasir dövlətə çevrildi. Belə olduqda hakimiyyət uğrunda mübarizə aparmaq əvvəlki vaxtlara nisbətən bir qədər çətinləşdi. Ayrı-ayrı bölgələrin iqtisadiyyatlarının bir nöqtədə birləşdirilməsi isə ölkənin əyalətlərinin bir-birindən asılılıq dərəcəsinin artması ilə nəticələndi.

Ölkənin mədəniyyət birliyi Rza şahın millətçilik siyasətinin əsasını təşkil edirdi. Şahın təhsil sahəsində apardığı islahatlar nəticəsində ənənəvi dini məktəbxanalar müasir ibtidai məktəblərlə əvəz olunmuşdu. Bu məktəblərdə dərslər ölkənin dövlət dilində, yəni fars dilində tədris olunurdu. Fars dilindən başqa hər hansı bir dildə kitab nəşr etdirmək və ya qəzet çıxarmaq qadağan edilmişdi. Gelnerin sözləri ilə desək, İranın yeni «yüksək mədəniyyəti» tədricən dəyişmiş və tamamilə başqa şəkil almışdı. İqtisadi cəhətdən zərurət təşkil edən amillər İranda mədəniyyət sahəsi ilə bağlı milli normaların müəyyən edilməsində olduqca böyük rol oynamışdı. Gelner yazırdı: «Müasir iqtisadiyyat ayrı-ayrı şəxslərin qarşılıqlı ünsiyyətindən və onların arasındakı münasibətlərin mütəhərrikliyi və çevikliyindən asılıdır. Lakin müasir iqtisadiyyat yalnız həmin şəxslərin yüksək mədəniyyətdə, yəni dövlətin və dövlət başçısının həyata keçirdiyi rəsmi mədəniyyət siyasətində birləşdirildiyi təqdirdə müəyyən təsirə malik ola bilər. Buna nail olmağın yeganə yolu isə ölkədə vahid təhsil sisteminin yaradılmasıdır. Beləliklə, iqtisadiyyatın daxili qanunlarının tənzimlənməsində cəmiyyət yox, mədəniyyət əsas rol oynayır. Müasir dövlətlə həmin ölkənin mədəniyyəti arasındakı qarşılıqlı əlaqə isə müasir iqtisadiyyatın tələblərindən irəli gəlir».(6)

II Dünya müharibəsinin başlanması və Rza şahın 1941-ci ildə hakimiyyətdən getməsi İranda ictimaiyyətin rolunun artmasına səbəb oldu. Belə ki, həmin dövrdən başlayaraq bəzi əyalətlərdə əhalinin ölkənin siyasi həyatındakı rolunun artırılmasına dair çağırışlar səslənməyə başlandı. Bu çağırışlarla yanaşı mərkəzi hökumətin əyalətlərdəki hakimiyyətinin məhdudlaşdırılması və yerli əhalinin əyalətin siyasi hə-

yatında daha fəal iştirak etməyə cəlb edilməsi fikri də inkişaf etməyə başladı. Pişəvəri «Azərbaycan Muxtar Hökumətinin» əsasını məhz bu fikirlə qoymuşdu. Öz geosiyasi əhəmiyyəti və təbii ehtiyatları ilə bütün Qərbin diqqətini öz üzərinə çəkən və ərazi bütövlüyünün tanınmasına nail olan İran 1945—1946-cı illərdə mövcud olan Azərbaycan Muxtar Hökumətinin süquta uğraması və II Dünya müharibəsinin başa çatmasından sonra sosial-iqtisadi cəhətdən böyük dəyişikliyə uğradı. Şəhərləşmə və sənayeləşmə proseslərinin son dərəcə sürətlə genişlənməsi nəticəsində ölkədə müəyyən etnik yerdəyişmələr baş verdi. Ölkənin bütün böyük şəhərlərində olduğu kimi Tehranda da cəmiyyətin əsas hissəsini təşkil edən azərbaycanlılar yerli iqtisadiyyatda mühüm rol oynayırdılar. Bundan başqa, təhsil və xəbərləşmə sisteminin bütün ölkə boyunca genişləndirilməsi İranda mədəniyyətin yeknəsəqləşməsinə səbəb oldu. Ölkəni sosial, siyasi və mədəni cəhətdən eynicinsləşdirmə meyli 1979-cu ildə baş verən İslam inqilabı zamanı və daha sonrakı illərdə öz zirvəsinə çatdı. Kürdüstanın İranın sərhədləri daxilində qalmaq şərtilə regional muxtariyyət tələbilə çıxış etməsindən başqa İranda etnik və ya dini zəmində hər hansı bir ciddi siyasi münaqişənin baş verdiyini söyləmək düzgün olmazdı.

İkinci minilliyin başa çatdığı bir vaxtda soyuq müharibədən təzəcə çıxmış dünyada beynəlxalq vəziyyət tamamilə dəyişilmişdir. Belə ki, İranın şimalında artıq keçən iki yüz ildə olduğu kimi Çar və Sovet Rusiyası yerləşmir. İndi İran şimal sərhədini Sovet İttifaqının süqutundan sonra yaranmış kiçik müstəqil dövlətlərlə bölüşür. Bu müstəqil dövlətlərin bəziləri İran ərazisi daxilində yaşayan bir qrup əhali ilə etnik mənsubiyyət cəhətdən və dil eyniliyi baxımından eyni köklərə malik əhaliyə sahibdirlər.

Dövrümüzdə eyni dildə danışan, lakin ayrı-ayrı dövlətlərin bayrağı altında yaşayan xalqların birləşməsinə dair çağırışlar tez-tez səslənməkdədir. Müstəqilliyinə yenicə qovuşmuş Azərbaycan Respublikasında da bir sıra siyasi qruplar və ziyalı dairələri bu mövqedən çıxış edir və daha böyük Azərbaycan ideyasını müdafiə edirlər. Bu məqsədə çatmaq üçün İrandakı Azərbaycan əyalətinin İrandan ayrılaraq Azərbaycan Respublikasına birləşdirilməsi məsələsi günümüzdə bir daha qaldırılmışdır.

1989-cu ilin iyununda Bakıda akademiklər, incəsənət xadimləri və bəzi ticarət ittifaqı üzvlərinin iştirakı ilə keçirilən qurultayda Azərbay-

can Xalq Cəbhəsi rəsmən yaradıldı. Azərbaycan Xalq Cəbhəsi Partiyasının əsasının qoyulduğu qurultayda qəbul edilən proqramda partiyanın əsas məqsədinin Şimali Azərbaycanla İran Azərbaycanı arasındakı mədəni və iqtisadi əlaqələrin inkişafına əngəl törədən bütün siyasi maneələri aradan qaldırmaqdan ibarət olduğu aşağıdakı şəkildə bəyan edilirdi: «Xalq Cəbhəsi sərhəddin hər iki tərəfində yaşayan azərbaycanlıların etnik birliyinin bərpa edilməsinin tərəfdarıdır. Azərbaycan xalqı bütöv bir xalq kimi tanınmalıdır. Bölünmüş xalqımızın bütün iqtisadi, mədəni və sosial bağları yenidən bərpa edilməlidir. İnsanların bir-birilə birbaşa əlaqə saxlaması üçün (qohumların və dostların ziyarət edilməsi) çətinlik törədən bütün maneələr aradan götürülməlidir».(7)

Azərbaycan Xalq Cəbhəsi bütün Qafqazı etnik qalmaqalın bürüdüyü bir vaxtda yaradılmışdı. Dağlıq Qarabağ böhranı ilə üzləşən azərbaycanlılar Moskvanın alçaldıcı, biganəliyi qarşısında çaşqınlıq hissi keçirirdi. Bu səbəbdən də Azərbaycan Xalq Cəbhəsinin gündəliyində duran ən ümdə məsələ regiondakı bütün türkləri, xüsusilə də azərbaycanlıları birliyə çağırmaq idi. İmperiya «evciyinin» hissələrini yenidən bir araya toplamaq məqsədilə Qorbaçovun Sovet Ordusunu Qafqaza göndərməsi siyasi vəziyyəti daha da gərginləşdirdi. Belə bir vaxtda AXC Bakının Azadlıq Meydanı (keçmiş Lenin Meydanı—əvvəllər burada rəsmi dövlət paradları keçirilirdi) adlı ən böyük meydanında hər həftə yığıncaqlar keçirir və tez-tez ayrı-ayrı cənublu azərbaycanlıları buraya dəvət edirdi. Cənubdan azərbaycanlıları Bakıya dəvət etməkdə Azərbaycan Xalq Cəbhəsi məsullarının məqsədi Azadlıq Meydanında daşlı səhnə ətrafında toplaşmış geniş xalq kütlələrini Azərbaycanın iki hissəyə bölünmə tarixinin acı səhifələrindən xəbərdar etmək və mövcud vəziyyəti dəyişərək cənubla yenidən birləşmək arzusunda olduqlarını ifadə etmək idi. Bu toplaşmalar zamanı irəli sürülən əsas tələb isə Araz çayını İranla Çar Rusiyası arasındakı yeni sərhədə çevirmiş 1828-ci il Türkmənçay müqaviləsinin ləğv edilməsi ilə əlaqədar idi.

1989-cu ilin son günlərində birləşmə çağırışı müəyyən mənada gerçəkləşdi. Belə ki, Naxçıvan əyalətində yaşayan azərbaycanlılar İranla sərhəd xəttində yerləşən sərhəd dirəkləri və qurğularını sökərək İran Azərbaycanına keçdilər. Sərhədin İran tərəfində bu hadisə böyük həyəcan və ehtiyatlılıqla qarşılandı. Sərhəd maneəsinin aradan qaldırılması daha çox sərhəd bölgəsində yaşayan və şimalda qohum-əqrəbaları

olan insanları sevindirmişdi. Bakıda isə bu hadisəyə olduqca böyük əhəmiyyət verən bəzi dairələr sökülmüş sərhəd məftillərini Berlinin təzəcə yıxılmış divarlarına bənzədirdilər. Şimali azərbaycanlıların sərhədi keçərək İran Azərbaycanına daxil olması Qərb mətbuatında da geniş yer aldı. Belə ki, bir neçə gün boyunca bütün dünya beynəlxalq televiziya kanalları vasitəsilə sərhəd xəttində yerləşən hərbi qurğuları yandıraraq və tikanlı məftilləri sökərək İran Azərbaycanına keçən insanların sevincinə şahid oldu. Azərbaycanın digər bucağında yerləşən Lənkəran bölgəsində də Naxçıvanda baş verən hadisə təkrar olundu. Belə ki, qısa bir zamanda İran sərhədini azad şəkildə keçmək adi bir hala çevrildi. İran hökuməti isə bu hadisələrlə əlaqədar hələlik sadəcə ehtiyatlılıq nümayiş etdirirdi. İran hökuməti Şimaldan gələn şiə qardaş və bacılarını xoş hisslərlə qarşılasa da bu hadisəyə etnik cəhətdən yanaşmır və yaranmış vəziyyətə daha çox dini xarakter verməyə çalışırdı. Digər tərəfdən, Moskva öz təbliğatçı və təşviqatçılarını regiona göndərmək və Ayətullah Xomeyninin şəkillərini əhaliyə paylamaq yolu ilə öz sərhədləri daxilində «İslam təməlçiliyinin» yayılmasının qarşısını almağa və bu ad altında Azərbaycana edəcəyi uzun yürüşə bəraət qazandırmağa çalışırdı.

Sovet Ordusunun 1990-cı ilin yanvarında Bakıya yeridilməsi ilə Moskva Azərbaycanda sürətlə dəyişən siyasi vəziyyətin inkişafını ləngitsə də saatın əqrəbini geri çevirməyə nail ola bilmədi. Ölkədə hərbi vəziyyətin davam etdiyi bir vaxtda, 1990-cı ilin sentyabrında yeni Ali Şuranın yaradılması üçün seçkilər keçirildi. Seçki kampaniyası zamanı Azərbaycan Xalq Cəbhəsi Şimali və Cənubi Azərbaycanın birləşməsi məsələsini yenidən qaldırdı. Bu dəfə birləşmə məsələsinə daha ehtiyatla yanaşan AXC əvvəlkindən fərqli olaraq öz seçki proqramında Cənubi Azərbaycanla mədəni və iqtisadi əlaqələrin genişləndirilməsi çağırışı ilə çıxış edirdi.

Qafqazda Sovet hakimiyyətinin son ilində iqtisadi çətinliklər və gündən-günə böyüməkdə olan etnik münaqişələr bir-birinə qarışmışdı. İki qonşu ölkə, Ermənistan və Azərbaycan arasında Dağlıq Qarabağ muxtar regionu ilə əlaqədar olaraq yaranan və tədricən açıq hərbi qarşıdurmaya çevrilən ərazi mübahisəsi isə bu münaqişələr içərisində öz mühümlüyü və həyatiliyinə görə birinci yeri tutur. Ermənistanın sərhəd bölgələrindəki Azərbaycan şəhərlərinə arasıkəsilməz hücumları nəti-

cəsində zəif silahlanmış Azərbaycan ordusu bir-birinin ardınca gələn ağır məğlubiyyətlərlə üzləşməli oldu. Moskva bu müharibədə öz tarixi müttəfiqi Ermənistanı müdafiə etdiyindən Azərbaycan öz yaxın qonşuluğunda yerləşən ölkələrdə kömək axtarmağa başladı. Lakin nə Türkiyə, nə də İran Moskva ilə münasibətlərini təhlükə altına atmaq niyyətində deyildi.

1991-ci ildə Moskvada baş verən Avqust qiyamının məğlubiyyətlə nəticələnməsi Azərbaycanda prezident Ayaz Mütəllibovun başçılıq etdiyi keçmiş yerli kommunist elitasında böyük çaşqınlıq hissi yaratdı. Belə ki, bu hadisə kommunistləri qarışıqlıq və nizamsızlıqla qarşı-qarşıya qoydu. Avqustun sonlarında qəbul edilən müstəqillik aktı 1991-ci ilin 18 oktyabrında rəsmən təsdiq edildi. Ayaz Mütəllibov isə ölkənin prezidenti olaraq qaldı. Lakin gündən-günə artan və bütün ölkəni bürüyən siyasi iğtişaş prezidenti öz vəzifəsindən istefa verməyə məcbur etdi. 1992-ci ilin iyun ayında keçirilən prezident seçkilərində keçmiş dissident və siyasi məhbus Əbülfəz Elçibəy müstəqil Azərbaycan Respublikasının ilk prezidenti seçildi.

Əbülfəz Elçibəyin prezidentliyi bir ildən çox davam etmədi. Onun proqramı Azərbaycanın Müstəqil Dövlətlər Birliyinə (MDB) daxil olmasına zidd idi. Türkiyə ilə yaxın əlaqələrin yaradılmasına böyük əhəmiyyət verən Ə.Elçibəy prezident olduğu müddət ərzində İrana qarşı biganəlik nümayiş etdirir və İrandakı azərbaycanlılarla münasibətlərin genişləndirilməsi arzusunda olduğunu açıqca bəyan edirdi. Əbülfəz Elçibəyin bu proqramı regionda mövcud hakimiyyətə qarşı inamsızlığın yaranmasına səbəb oldu. Belə ki, iranlıların əksəriyyəti Əbülfəz Elçibəyin ifrat türkçü və milliyyətçi mövqedən çıxış etməsini, daha böyük Azərbaycan yaratmaq istəyində olmasını, tez-tez öz nitqlərində də bəyan etdiyi kimi, Azərbaycan Respublikasını İran Azərbaycanının İrandan ayrılmaq və şimala birləşmək uğrunda mübarizə meydanı hesab etməsini köhnə Sovet ssenarisinin bir növ təkrarı kimi qiymətləndirirdi.

Yeni yaradılmış Azərbaycan Respublikası Elçibəyin birillik hakimiyyəti dövründə geniş iqtisadi problemlər və hərbi çətinliklərlə üzləşdi. Dağlıq Qarabağda get-gedə pisləşməkdə olan hərbi vəziyyətin və ölkənin tənəzzül etməkdə olan daxili iqtisadiyyatının öhdəsindən gələ bilməyən Elçibəy sonunda paytaxtı tərk edərək dünyaya gəldiyi Kələki kəndinə (Naxçıvanın şərqində kiçik kənd) qayıtmağa məcbur oldu.

Əbülfəz Elçibəyin qısamüddətli prezidentliyinin faciəli şəkildə sona yetməsindən sonra Heydər Əliyev 1993-cü ilin iyununda yenidən hakimiyyətə gəldi. Elçibəyin prezident olduğu müddət ərzində ifrat Türkiyəyönlü siyasət aparmasının xalqda xəyal qırıqlığı yaratmasını Heydər Əliyevin yenidən hakimiyyətə gəlməsinə səbəb olan ən mühüm amil hesab etmək olar. Çünki Türkiyə tərəfindən Azərbaycana göstərilən kömək, gözlənildiyinin əksinə olaraq məhəbbət hissindən başqa heç nə ifadə etmirdi.

Öz sələfindən fərqli olaraq Heydər Əliyev hakimiyyətə gəldiyi ilk günlərdən etibarən «Böyük Azərbaycan» ssenarilərinin mövcudluğundan böyük narazılıq duyduğunu birmənalı şəkildə bəyan edərək Azərbaycan Respublikasının belə bir niyyətinin olmadığını dəfələrlə açıqlamışdır. Heydər Əliyev hələ prezident olmazdan əvvəl Naxçıvan Muxtar Respublikasının rəhbəri vəzifəsini yerinə yetirdiyi vaxt İrana səfər etmiş və İmam Rzanın Məşhəddəki məqbərəsini ziyarət etmişdi. Heydər Əliyev Azərbaycanın xarici siyasətində ilk olaraq qonşu ölkələrə yer verərək öz sələfinin səhvlərini düzəltməyə çalışsa da Əbülfəz Elçibəyin qısamüddətli hakimiyyəti dövründə yaranmış inamsızlıq o qədər möhkəm və dərin idi ki, bu inamsızlığı tez bir zamanda aradan qaldırmaq mümkün olmadı.

Yekun olaraq Karol Bogertin məndən «Nyusveek» üçün müsahibə alarkən verdiyi sonuncu sualı xatırlatmaq istərdim. Sual bu şəkildə qoyulmuşdu: «Bir gün İranda etnik mübarizə itlərinin hürəcəyini güman etmək olar?»(8) Mənim cavabım bu olmuşdu ki, XX əsr boyunca İran talenin Osmanlı imperiyası, Çar Rusiyası və Sovet İttifaqının başına gətirdiyi hadisələrin öhdəsindən müvəffəqqiyyətlə gəlmiş, İrandakı müxtəlif etnik qruplar isə bu müddətdə yanaşı və dinc yaşamışlar. Lakin diqqətə almaq lazımdır ki, XXI əsrdə İranda etnik mənsubiyyət və ərazi bütövlüyü məsələsi ölkənin siyasi quruluşunda aparılacaq əsaslı islahatlarda ən mühüm rol oynayan amilə çevriləcək. Bu isə öz növbəsində ayrı-ayrı fərdlərin hüquqları ilə yanaşı kollektiv hüquqların da qorunduğu bir cəmiyyətin yaranmasına və tədricən inkişaf etməsinə təkan vermiş olacaq. Əks halda heç nə əbədi deyildir.

# QEYDLƏR

## Müqəddimə

1. Nümunə üçün bax: *Azərbaycan tarixi*, 3-cü cild, Bakı, Azərbaycan Elmlər Akademiyası, 1958 –1962.

2. Thomas H., *Armed Truce*. The Beginning of the Cold War 1945–1946, London, Sceptre, 1988, səh.562.

3. Ladcivərdi H., *Labour Unions and Autocracy in Iran*, Syracuse University Press, 1985, səh. 287.

4. Beyhaqi Əbülfəzi Məhəmməd, *Tarix-e Beyhaqi*, Fəyyaz, A.(red.), Məşhəd Universitetinin nəşri, 1971, səh. 221-2.

## I bölüm: Azərbaycanlıların soykökü

1. Mərkəz-e Amar-e İran, *İran dər Ayine-ye Amar*, 1365, № 6, Tehran, 1988, s. 276.

2. Kəsrəvi Ə., *Azəri ya zəban-e Bastan-e Azərbaycan*, 2-ci nəşr, Tehran, Taban, 1938, s. 8.

3. Yaqut əl-Həməvi, *Kitab Mucam əl-Buldan*, Wüstenfeld, F. (ed). 1-ci bölüm, Leipziq, Brockhaus, 1866, s. 17.

4. İbn Fəqih, Əbubəkr Əhməd bin Məhəmməd bin Eshaq Həmədani, *Kitab əl-Buldan*, Tehran, Bonyad-e Fərhəng-e İran, 1970, s. 128.

5. Anonim, *Hodud əl-Aləm men əl-Məşreq ela əl-Məğreb*, Sotude M.(red.), Tehran, Daneşqah-e Tehran, 1962, s. 50.

6. İbn Hövqəl, *Surət əl-Ərz,* Şoar Y.(red.), Tehran, Bonyad-e Fərhəng-e İran, 1966, s. 82.

7. Əl-Müqəddəsi, Şəmsəddin bin Əbi Əbdullah Məhəmməd bin Əbubəkr əl-Bənna əl-Sami əl-məruf beh əl-Beşari, *Əhsən əl-Təğasim fi Məərifət əl-Əqalim*, de Goece M.C.(red.), Leiden, Brill, 1906,s. 259.

8. Yaqut əl-Həməvi, yuxarıda göstərilən əsər, s. 183.

9. Məhəmməd bin Xələf Təbrizi motəkəlles beh Borhan, *Borhan-e Qateh*, Moin M.(red), 1-ci bölüm, 2-ci nəşr, Tehran, İbn-Sina, 1963, s. 41.

10. Əl-İstəxri, Əbu İshaq əl-Farsi, *Kitab əl-məsalik və əl-Məmalik*, de Goece M.C.(red.) Leiden, Brill, 1927, s.191-2.

11. Əl-Məsudi, *Kitab əl-Tənbih və əl-İşraf*, de Goece M.J.(red.) Leiden, Brill, 1894, s. 77-8.

12. Yaqut əl-Həməvi, yuxarıda göstərilən əsər, s. 173.

13. Frye R.N.(red.) *The Cambridge History of İran*, 4-cü cild, Cambridge University Press, 1975, s. 238.

14. Boyle C.A.(red.) *The Cambridge History of İran*, 5-ci cild, Cambridge, Cambridge University Press, 1968, s. 44.

15. İbid., s.349-56.

16. Cacson P. (ed) *The Cambridge History of İran*, 6-cı cild, Cambridge, Cambridge University Press, 1986, p.162.
17. Kəsrəvi Ə. Yuxarıda göstərilən əsər, s.25.
18. Rumlu Həsən Bəy, *Əhsən ül-Təvarix*, Nəvai A. (red), Tehran, Babək, 1978, s. 87.
19. Averu P., Hamblu G., Melville C. (redaktorlar), *The Cambridge History of İran*, 7-ci cild, 1991, s.45.
20. Seton Watson N., Nation and State, *An Enquiry into the Origin of Nations and the Politics of Nationalism*, Boulder, Westview-Press, 1977, s.5.
21. Gellner E. *Nations and Nationalism*, Oksford, Blackwell, 1983, s.15.
22. Connor W. «A nation is a Nation, is a State, is an Ethnic Group». *Ethnic and Racial Studies*,1- ci cild, №.4. s.381.
23. Anderson B., *Imagined Communities, Reflections on the Origin and Spread of Nationalism,* 3-cü nəşr, London, Verso, s.16.
24. Connor W., *A nation is a Nation, is a State, is an Ethnis Group,...*», adı çəkilən əsərdə.
25. Stalin C., *Marxizm and the National Question*, New-York, İnternational Publishers, 1935, cited in Connor W., *The National Question in Marxsist-Leninist Theory and Strategy*, New Jersey, Princeton University Press, 1984, s.121.
26. Anderson B., adı çəkilən əsəri, s.15.
27. Yenə orada.
28. Andrews P., *Ethnic Groups in the Republic of Turkey*, Wiesbaden, Ludwig Reichert Verlag, 1989, s. 17-18.
29. Oscanyan C., *The Sultan and His People*, 2-ci cild, New-York, Derby and Cackson, 1857, s. 409, cited in: Davidson R., «Nationalism as an Ottoman Problem and the Ottoman Response», in Haddad, W.W. and Coshenwald, W. (red.) *Nationalism in a Non-Nation State*, Columbus, Ohio State University Press, 1977, s. 34.
30. Səfi Əlişah, *Zobdat ul- Əsrar*, Tehran, Səfi Əlişah, 1962, s.363.
31. Berkes N., *The Development of Secularism in Turkey*, Montreal, McGill University Press, 1964, s.197.
32. Lewis B., *The Emergense of Modern Turkey*, London, Oxford University Press, 1962, s.330.
33. Davidson R., adı çəkilən əsəri, s.33.
34. «Napoleon a Nasser-ed-din Schah, Palais de Tuilerie, 12 april 1858» in; Nateq H., *İran dər Rahyabi ye Fərhəngi*, 1834–1848, London, Pəyam, 1988, s.142.
35. Nateq N., həmin əsər, s.33.
36. Moşiri M., *Şərhe məmuriyyət-e Əcudanbəxşi*, Tehran, Əşrəfi, 1977, s. 226.
37. Yenə orada, s. 342.
38. Adəmiyyət F., *Fekre Azadi və Müqəddimat-e Nehzət-e Məşrutiyyət*, Tehran, Sohan, 1961, s.186.
39. Yenə orada.

40. Mostəşər ud-Dovlə Y., *Resale-ye Məsume beh yek Kəlime*, Paris, yersiz və tarixsiz, s.14.

41. Yenə orada, s. 39.

42 .Yenə orada, s. 8.

43. Yenə orada, s. 12.

44. Mostaşar ud-Dovlə to Grown Prince Mozaffar od-Din, cited in Nazem ol-İslam Kermani, *Tarixe Bidari-ye İraniyan*, yeni nəşr, Tehran, Aqah və Novin, 1983, s. 176-177.

45. Adəmiyyət F., adı çəkilən əsəri, s. 197.

46. Rəhimi M., *Qanun-e Əsasi-ye İran və Usul-e Demokrasi*, 3-cü nəşr, Tehran, Əmir Kəbir, 1978, s. 213-222.

47. Sani üd-Dövlə, *Rah-e Necat*, Tehran, Farus, 1907.

48. Kələkiyar D., *Turc-Francais Dictionnaire,* İstanbul, Mehran mətbəəsi, 1911, s.122.

49. Şəfai Ə., *Rəhbəran-e Məşrute: Sani üd-Dovlə*, Tehran, nəşr yeri naməlum, 1964, s. 5.

50. Anonim, *Həqq-e Daf-e Şərr və Qiyam bər Zedd-e Zolm*, yersiz və tarixsiz, s. 17.

51. «*Millət kist və hoquqəş çist?*», (30 mart, 1909-cu il tarixdə yayılmış gecə bəyannaməsi, Şərif Kaşaninin xatirələrində yenidən nəşr edilmişdir: *Vaqeat-e Ettefaqiyye dər Ruzeqar*, 1-ci cild, Tehran, Nəşr-e tarix-e İran, 1983, s. 314.

52. *Məramnameye Cəmiyyət-e Sosial-Revolusiyoner-e İran*, Tehran, Mətbəə-ye Douləti, tarixsiz, s. 4.

53. Yenə orada.

54. Hovanissian R.G., *The Republic of Armenia*, 1-ci cild, Berkeley, University of California, Press, 1971, s. 25-28.

55. Carr E.H., *The Bolshevik Revolution 1917–1923*, 1-ci cild., London, Macmillan, 1950, s. 342.

56. Hovanissian R.G., adı çəkilən əsər, s. 31.

57. Yenə orada.

58. Yenə orada, s. 288.

59. Akçuroğlu Y., (red.) *Türk Yili*, 1928, İstanbul, Yeni Mətbəə, 1928, s. 483.

60. Məhəmməd Əmin Rəsulzadədən Tağızadəyə, 15 mart 1924, *Ayəndə*, 4-cü cild, nos. 1-2, 1988, s. 57-59.

61. Təfərrüatı ilə öyrənmək üçün Rusiya Azərbaycanı tarixinə baxmalı: Kazımzadə F., *The Struggle for Transcaucasus (1917–1921)*, New-York, Philosophical Library, 1951. Swietochowski T., *Russian Azerbaijan 1905–1920, The Shapinq of National İdentity in* a *Muslim Community,* Cambridge, Cambridge University Press, 1985. Sumbatzadə A.S. *Azerbaidzhanskaia Istorioqrafia XIX–XX vekov*, Baku, Elm, 1987. Alstadt A., *The Azerbaijani Turks, Power and İdentity under Russian Rule*, Stanford, Hoover İnstitute Press, 1992.

62. Azərbaycan Respublikası (1991-ci ilə qədər Sovet Sosialist Respublikası, SSR) 86000 kv. kilometr ərazini əhatə edir. 1989-cu ildə keçirilən ümumsovet siyahıya almanın nəticələrinə əsasən Sovet Azərbaycanının əhalisi 7029000 nəfərdən ibarətdir. Həmin siyahıya almaya görə əhalinin 75%-ni azərbaycanlılar təşkil edir. Bax: *USSR Census 89*, Moskva, Novosti Press, 1989.

## II bölüm: Azərbaycanda muxtariyyət hərəkatının meydana gəlməsi

1. Müxbirüssəltənə Hidayət M., *Xaterat və Xətərat*, 3-cü nəşr, Tehran, Zəvvar, 1982, s. 143.
2. Seçicilərin tərkibini təşkil edən 6 kateqoriyaya daxil idi: üləma və mollalar, zadəganlar, tacirlər, mülkədarlar və gildiya üzvləri.
3. Kəsrəvi Ə., *Tarix-e Məşrute-ye İran*, 1-ci cild, 14-cü nəşr, Tehran, Əmir Kəbir, 1978, s. 224.
4. Tağızadə H., *Xetabe Tarix-e Əvael Enqelab və Məşrute-ye İran*, Tehran, Başqah-e Mehreqan, 1959, s. 46.
5. Məclisə rəhbərlik edən Ehteşam üs-Səltənə öz xatirələrində Şahla olan görüşünün təfərrüatını verərək onun Əlavə Qanunları təsdiq etməkdə necə tərəddüd etdiyini təsvir edir. Bax: Ehteşam üs-Səltənə, *Xaterat*, 2-ci nəşr, Tehran, Zəvvar, 1988, s. 610-611.
6. Kəsrəvi Ə., *Tarix-e Məşrute-ye İran*, yuxarıda göstərilən nəşr, s. 165.
7. Nateq N., «Əncomənha-ye Shoura-yi dər Enqelab-e Məşrute», *Əlefba*, № 4, Paris, 1983, s. 55.
8. F. O. 371/301, Srinq Rice to Grey, 27 may 1907.
9. Yenə orada.
10. *«Ma ra çe bayəd kərd»*, Əncümən, 2-ci il, №29, 6 iyun 1908.
11. *Caride-ye melli,* 1-ci il, №1, 19 oktyabr 1906.
12. Ehteşam üs-Səltənə, göstərilən əsəri, s. 594.
13. Nateq H., adı çəkilən əsəri, həmin yerdə; Adəmiyyət F., *Fekr-e demokrasi-ye ectemai dər Nehzət-e Məşrutiyyət-e İran*, Tehran, Pəyam, 1975, s. 34.
15. Bax: Əncümən, № 66, 17 aprel 1907.
16. Kəsrəvi Ə., adı çəkilən əsəri, s. 214-215.
17. Yenə orada, s. 584-586.
18. Əncümən, № 31, 13 iyun 1908.
19. Məlikzadə M., *Tarix-e Enqelab-e Məşrutiyyət-e İran*, 4-cü cild, 2-ci nəşr, Tehran, Elmi, 1984, s. 706, 748-760. Həmçinin bax: Kəsrəvinin adı çəkilən əsəri, s. 631-657.
20. Baş nazir Müşirüd Səltənəyə açıq məktub – Dutch Archives, Archief van de Nederlandse Leqatie te Teheran, Politeke Zaken, 25 june 1908.
21. Məlikzadə M., adı çəkilən əsəri, s. 936-937.
22. Kəsrəvi Ə., adı çəkilən əsəri, s. 236.
23. Yenə orada, s. 216.

24. Yenə orada, s.355. İngiliscəyə tərcüməsi E.Abrahamyanın «*İran iki inqilab arasında*» kitabından götürülmüşdür, Prinston Universiteti nəşri, 1982, s. 98.
25. Məlikzadə M., adı çəkilən əsəri, s. 936-937.
26. Kəsrəvi Ə., adı çəkilən əsəri, s. 676.
27. Məlikzadə M. göstərilən əsəri, s. 969.
28. Təbrizdən Tehrana göndərilən teleqram, 16 may 1909, Sharif Kashani M.M., göstərilən əsəri, s. 308.
29. Yenə orada s. 943. Həmçinin bax: Müxbirəs Səltənə M., göstərilən əsəri, s. 174.
30. Kəsrəvi A., *Tarixe Məşrute-ye İran*, göstərilən nəşrdə, s. 628.
31. Səadət Cəmiyyəti tərəfindən Hollandiya Xarici İşlər Nazirliyinə ünvanlanmış məktub, Dutsh Archives, Archief van de Nederlandse Leqatie de Teheran, Politieke Zaken, 15 iyul 1909.
32. Kəsrəvi A., *Tarixe Məşrute-ye İran*, həmin nəşr, s. 726.
33. Hüseynağa Fişəngçi, Xatirat, Rəsulzadə Məlik R., *Heydər xan Əmioğlu* kitabında, Tehran, Ruzbeh, tarixsiz, s. 145.
34. Taherzade Behzad, K., *Qiyam-e Azərbaycan Dər Enqelab-e Məşrutiyyət-e İran*, Tehran, Eqbal, 1963, s. 45.
35. Təbrizli Sosial Demokrat Çələngəriyan və Karl Kautskinin bir-birinə ünvanladığı bir sıra maraqlı məktublar İran Sosial Demokratlarının Konstitusiya İnqilabı ilə əlaqədar hansı mövqedən çıxış etmək niyyətində olduqları məsələsinə işıqlıq gətirir. Belə ki, bu məktublar günümüzə qədər İranın siyasi həyatında mühüm rol oynayan siyasi anlayışlar və sosial münasibətlərin inkişafının ilkin mərhələsini özündə əks etdirir. Beynəlxalq Sosial Tarix İnstitutunun arxivləri, Amsterdam. Həmçinin bax: «*Əsnad-e Taze dər Bareye Quruh-e Sosial- Demokrat-e Təbriz*», Donya, 12-ci cild, № 4, qış, 1971.
36. Müqavilənin təfərrüatı üçün bax: Ramazani,R., *The Foreign Polisy of İran (1500–1941)*, University Press of Virginia, 1966.
37. F.O.371/956, Annual Report on Persia, 1909, s. 8.
38. İranda siyasi partiyaların meydana gəlməsi haqqında təfərrüatlı məlumat üçün bax: Ettehadiyye, M., *Peydayeş və Təhəvvol-e Əhzab-e Siyasi-ye Məşrutiyyət*, Tehran, Qostəreş, 1982.
39. Atabaki T., Two Programmes of the Communist Movement in Khorasan in the Early 1920 s, *Utrecht Papers on Central Asia*, Utrecht, University of Utrecht, 1987, s. 146.
40. Rain İ., *Heydərxan Əmioğlu*, 2-ci cild, Tehran, naşirin adı göstərilmir, 1979, s. 265.
41. *Donya*, 4-cü cild, № 3, payız 1963, s. 89.
42. Anonim, *Sənəd-e Naşenaxte dər Bar-e ye Hezb-e Sosial Demokrat-e İran*, Donya, 7-ci cild, № 2, yay, 1966, s. 99-103.
43. *Hümmət* partiyasının və İranda ilkin Sosial Demokrat hərəkatının meydana gəlməsi barəsində təfərrüatlı məlumat üçün bax: Ravasani S., *Sowcetrepublik Gilan: Die sozialistische Bewequnq in İran seit Ende des 19 CH.bis 1922*, Berlin, naşirin adı və tarix göstərilmir.

44. Pilosiyanın Tağızadəyə məktubu, Əfşar I *Ovraq-e Tazeyab-e Məşrutiyyət*, Tehran, Cavidan, 1980, s.228.
45. Bax: Adəmiyyət F., Fekr-e azadi, göstərilən nəşr, s. 334.
46. Pilosiyanın Tağızadəyə məktubu, 30 fevral 1910, Əfşar,1., *Ovrağ-e Tazeyab-e Məşrutiyyət*, göstərilən nəşr, s. 220.
47. Kave, 3-cü cild, № 29/30, 15 iyul 1918, s. 6-8. Tanınmış Demokrat Bahar Məclisdəki Demokrat deputatların sayını iyirmi səkkiz olaraq göstərir. Bax: Bahar M., *Tarix-e Moxtəsər-e Əhzab-e Siyasi-ye İran*, 1-ci cild, Tehran, Cibi, 1978, s.9.
48. Abrahamian E., *İran Between Two Revolutions*, göstərilən nəşr, s. 103.
49. *Məramname-ye Ferqe-ye Siyasi-ye Demokrat-e İran(Amiyyun)*, 4-cü nəşr, Tehran, Mətbəə-ye douləti, 1911.
50. *İran-e Nou*, 1-ci cild, sayı 134, 16 fevral 1919.
51. Browne E.G., *The Press and Poetry of Modern Persia*, Cambridge, Cambridge University Press, 1914, s. 27 –153.
52. Yenə orada, s. 52.
53. Adəmiyyət F., *Fekr-e Demokras-ye Ectemaii dər Nehzət-e Məşrute-ye İran*, göstərilən nəşr, s. 96-97.
54. Rəsulzade M.Ə., *Tənqid-e Firqe-ye Etedaliyyun ya Ectemaiyyun Etedaliyun*, Tehran, Farus, 1910.
55. Abrahamian E., *İran Between Two Revolutions*, göstərilən nəşr, s. 102.
56. Ultimatum barəsində təfərrüatlı məlumat üçün bax: Kəsrəvi Ə., *Tarix-e Hicdəhsale-ye Azərbaycan*, 1-ci cild, 9-cu nəşr, Tehran, Əmir Kəbir, 1978, s. 235-240.
57. Ramazani R., göstərilən əsər, s. 103-108.
58. Blucher W.V., *Zeitenwende*, farscaya tərcüməsi «*Səfərnamə-ye Blucher*», Tehran, Xarəzmi, 1984, s. 37.
59. Ramazani R., göstərilən nəşr, s. 115.
60. Yenə orada, s. 117.
61. Kave B., göstərilən nəşr, s. 9-10.
62. Həmin etnik və icma münaqişələri barəsində ətraflı məlumat üçün bax: Kəsrəvi Ə., *Tarix-e Hicdəhsale-ye Azərbaycan*, həmin nəşr, s. 671-783.
63. Yenə orada, s. 674.
64. Aqahi Əbdülhüseyn, «Şəst Sal Əz Tarix-e Təsis-e Hezb-e Kommunist İran Qozəşt», *Donya*, sayı № 3, 1980, s. 48-49.
65. *Donya*, cild 12, № 2, Yay-1971, s. 101-109.
66. Yenə orada, s. 106.
67. *Proclamation and İrreversible Proposals of the Khorasan Provincial Committee*, İngiliscəyə tərcümə üçün bax: Atabeki T., göstərilən əsəri, s.151-156.
68. Lenin V., «*Millətlərin öz müqəddəratını təyin etməsi*», Seçilmiş əsərləri, Moskva, Proqressiv nəşriyyatı, 1966, s. 350.
69. Bu yaxınlara kimi belə güman edilirdi ki, İran Kommunist Partiyasının ikinci qurultayı Qərbi Azərbaycanda yerləşən Urmiya şəhərində keçirilmişdi.

Lakin veteran kommunist İhsan Təbrizi xatirələrində yazır ki, qurultayın keçirildiyi şəhərin Urmiya deyil, Sovet İttifaqının Azov dənizi yaxınlığında yerləşən Rostov şəhəri olduğunu hesab edir. Bax: Təbəri E., *Qazi-Rahe*, Tehran, Əmir Kəbir, 1987, s. 17.

70. «İran Kommunist Partiyasının proqramı», *Dünya*, cild 1, № 4, 1961, s.118.
71. Lewis B., göstərilən əsəri, s. 338.
72. Mehmet Emin, *Türkçe şirlər*, 1897, Lewis B., göstərilən əsəri, s. 337. (Mütərcimdən: müəllif burada türk adının mənasını aşağıdakı ifadələrlə izah etmişdir : «Türk» sözü həm türk, həm də ki, fars dillərində hər zaman «vəhşi», «oğru», «soyğunçu», «quldur» və «cahil» mənasını ifadə etmişdir. Bax: Steingass F., Farsca-İngiliscə lüğət, 6-cı nəşr, London, Routledge və Kegan Paul, 1977, s. 296.
73. Akçuraoğlu Y., *Üç Terzi-siyasət*, Qahirə, Qədr mətbəəsi, 1909, s.11-12.
74. Akçuraoğlu Y., *Türk Yılı*, 1928, İstanbul, Yeni Mətbəə, 1928, s. 396.
75. Lewis B., göstərilən əsəri, s. 343.
76. Yenə orada, s. 344.
77. Yenə orada, s. 345.
78. Gökalp Z., *Türkçülük Esasları*, Leiden, Brill, 1968, s. 17.
79. Yenə orada.
80. Kəsrəvi Ə., *Tarix-e Hicdəhsale-ye Azərbaycan*, cild 2, göstərilən nəşr, s. 749.
81. Yenə orada.
82. Mələkzade M., göstərilən əsər, s. 959.
83. Anonim, *Şərh-e Hal-e Şeyx Məhəmməd*, Berlin, İranşəhr, 1926, s. 23-29; Həmçinin bax: Azəri Ə., *Qiyam-e Şeyx Məhəmməd Xiyabani*, 4-cü nəşr, Tehran, Səfi Əlişah, 1975, s. 10.
84. Kəsrəvi Ə., *Tarixe Hicdəhsale-ye Azərbaycan*, həmin nəşr, s. 675-676.
85. *Mozakerat-e Məclis*, 23 fevral 1911.
86. Yenə orada.
87. Kəsrəvi Ə., *Tarix-e Hicdəhsale-ye Azərbaycan*, həmin nəşr, s. 678.
88. Yenə orada, s. 686-704.
89. Dövlətabadi Y., *Həyat-e Yəhya*, 3-cü nəşr,cild 3, Tehran, Ferdovsi, 1982, s. 85.
90. Azəri Ə., göstərilən əsəri, s. 225.
91. Kəsrəvi Ə., *Tarix-e Hicdəhsale-ye Azərbaycan*, həmin nəşr, s. 859.
92. F.O.371/6440, 1920-ci il ərzində Azərbaycandan hesabatlar.
93. Azəri Ə., adı çəkilən əsəri, s. 263.
94. F.O. 248/1278, Xiyabani ilə müsahibə, 1 may 1920.
95. Azəri Ə., həmin əsər, s. 149.
96. Kəsrəvi Ə., *Tarix-e Hicdəhsale-ye Azərbaycan*, həmin nəşr, s. 872.
97. Azəri Ə., həmin əsər, s.299.
98. F.O.371/1278, 11-12 sentyabr 1920.
99. F.O. 371/ 4927, 20 sentyabr 1920.

100. Yaqikiyan G., *Şourəvi və Conbeş-e Cənqal, Yaddaştha-ye Yek Şahed-e Eyni*, Tehran, Novin, 1984, s. 137.

101. Kazak Briqadası 1879-cu ildə yaradılmışdı. Bu briqada İran qoşun dəstələrindən təşkil olunmuşdu. Rus hərbi zabitlərinin rəhbərliyi altında öz fəaliyyətinə davam edən bu briqada qısa bir zamanda öz hərbi nizam-intizamı, qəddarlığı və amansızlığı ilə şöhrət qazanmışdı. Kazak briqadasının ən bədnam müdaxiləsi kimi isə 1907-ci ildə rus polkovniki Liaxovun başçılığı altında Məclisin bombardman edilməsini nümunə göstərmək olar. 1917-ci ildə Çar imperiyasının süquta uğraması səbəbilə Rusiyanın kazak briqadası üzərində olan idarəçiliyi də sona yetdi. Kazak briqadası 1921-ci il qiyamının başladılması üçün Rza xana gərəkli olan əsas hərbi dəstəyə çevrildi. Daha sonra Rza xan İran milli ordusunun yenidən təşkili prosesində briqadanı jandarma ilə birləşdirdi. F.O.371/2762, Fars Ordusu ilə bağlı memorandum, 1907

102. F.O. 371/4927. Müxbirüs Səltənə öz xatirələrində Xiyabaninin kazak briqadası qüvvələri tərəfindən qətlə yetirilməsi barədə ittihamı rədd edir. O iddia edir ki, Xiyabani qoşun dəstələri tərəfindən mühasirəyə alındığı zaman öz evinin zirzəmisində özünə sui-qəsd edərək dünyasını dəyişmişdir. Bax: Müxbirüs Səltənə M., göstərilən əsəri, s. 318. Ancaq Britaniyanın Təbrizdəki konsulluğunun əməkdaşı Bristovun məlumatına görə «Şeyxin gizləndiyi yer aşkar edilmiş və o kazaklar tərəfindən güllələnmişdir». Bax: F.O. 371/1278, 15 sentyabr 1920.

### III bölüm: Rza şahın hakimiyyəti: bir ölkə, bir millət

1. Tağıyeva A., *Natsionalno-Osvoboditelnoe Dvijenie v İranskom Azerbaydcane v 1917-1920*, Bakı, 1956, s. 114; həmçinin bax: «Zendegi-ye Yek Mobarez-e Kohənsal», *Donya*, cild 1, № 4, 1974, s. 54-55.

2. İvanov, M., *Tarix-e Novin-e İran*, Stokholm, Tude, 1977, s. 52.

3. Banani, A., *The modernization of İran*, 1921-1941, California, Stanford University Press, 1961, s. 34.

4. Yenə orada.

5. «*Türk ocağında konfrans*», *Yeni Məcmuə*, № 81, 2 avqust 1923,s. 317-318.

6. *İranşahr*, № 2, 18 oktyabr 1923, s. 95-103.

7. Əfşar M., «*Ağazname*», cild 1, № 1, 1925, s. 5.

8. Yenə orada, s.6.

9. *Ayənde*, cild 1, № 8, 1926, s. 560-561.

10. Yenə orada, s. 561-562.

11. Yenə orada, s. 566.

12. Ganci M. və Milani A., «Iran: Developments During The Last Fifty Years», in Casqz C.W. (red) İran, *Past and Future*, New York, Aspen Institute for Humanistic Stadies, 1976, s. 45.

13. Yenə orada.

14. Makki H., *Tarix-e Bist Sale-ye İran*, cild 6, Tehran, Nasher, 1983, həmçinin bax: Müxbirüs Səltənə M., *Xaterat və Xətərat*, göstərilən nəşr, s. 411.

15. Rza şahın dövründəki mətbuat haqqında məlumat almaq üçün bax: Sədr Haşemi M., *Tarix-e Cərayed və Mətbuat-e İran,* cild 1, İsfahan, Kamal, 1984, s. 29-33. Həmçinin bax: Məkki H., adı çəkilən əsəri, s. 66-80.
16. Məkki H., həmin əsər, s. 412-413.
17. Lambton A.K.S., *Landlord and Peasant in Persia*, London, Oxford University Press, 1951,s. 285-286, Həmçinin bax: Məkki, H., adı çəkilən əsəri, s. 66-80.
18. Banani A., göstərilən əsəri, s. 130.
19. Floor W., *İndustrialization in İran,* 1900-1941, Occasional Papers Series, № 23, University of Durham Press, 1984, s. 53-55.
20. Yenə orada, s. 58-63.
21. Millspaugh A., *Americans in Persia,* New York, Da Caro Press, 1976, s. 36.

## IV bölüm: Azərbaycanda muxtariyyət hərəkatının yenidən doğması

1. Anonim, *Qozəşte Çerağ-e Rah-e Ayənde əst*, cild 1, Tehran, Zebarcad, tarixsiz, s. 19.
2. *Ettelaat*, № 4, 1941, iyul
3. Azimi F., İran, *The Crisis of Democrasy*, London, Tauris, 1989, s. 35.
4. Əbutorabiyan H., *Mətbuaat-e İran əz Şəhrivər 1320 ta 1326*, Tehran, Ettelaat, 1987, s. 13.
5. Elwell Sutton L.P., «Political Parties in İran», *The Middle East Cournal*, № 1, 1949, s. 45-62.
6. F.O.371/40172, Russian Relations and Activities in Persia sinse 1941.
7. Yenə orada.
8. Xamei A., *Forsət-e Bozorg-e əz Dəst Rəfte*, Tehran, Nəte, 1984, s. 35.
9. Tudə Partiyası haqqında ətraflı məlumat üçün bax: Abrahamian E., *Social Bases of İranian Politics, The Tudeh Party (1941–1953)*, Ph.D.thesis, Columbia University, 1969. Son illərdə Tudə Partiyasının rəhbərləri və keçmiş üzvlərinin bir sıra xatirələri nəşr edilmişdir. Bu xatirələrin bəziləri Tudə Partiyasının ilkin tarixi barəsində bütün məlumatlarla zəngindir. Bax: İsgəndəri İ., *Xaterat* (4 cilddə), Paris, Hezb-e Demokratik-e İran, 1988; Cahanşahlı Əfşar N., *Ma və Biganegan* (2 cilddə), Berlin, naşirin adı verilməmişdir, 1982; Xamei A., *Xaterat* (3 cilddə)*: Pəncah Nəfər və Se Nəfər, Forsət-e Bozorg-e əz Dəst Rəfte, Əz Enşeab-e Kudeta*, Tehran, Hafte, 1984; Forutan Gh., *Əfsane-ye Ma,* naşirin adı və tarix verilməmişdir; Təbəri E., *Kazh Raheh*, Tehran, Əmir Kəbir, 1987; Maleki K., *Xaterat-e Siyasi*, Tehran, Ravaq, 10981; Keşavərz F., *Mən Mottəhem Mikonəm*, Tehran, Ravaq, 1980.
10. Veteran kommunistlər arasında Cəngəl hərəkatının nəticəsi olaraq 1920-ci ildə təşkil edilmiş Gilan Respublikasının Xarici İşlər Komissarı Cəfər Pişəvəri də var idi. Pişəvəri Süleyman Mirzənin evində keçirilən yığıncaqda

iştirak etsə də heç bir zaman Tudə Partiyasının sıralarına qoşulmadı. Pişəvəri haqqında daha ətraflı məlumat almaq üçün kitabın V bölümünə bax.

11. «Əlli üçlər» haqqında daha ətraflı məlumat üçün bax: Abrahamiyan E., «*İran iki inqilab arasında*», göstərilən əsəri, s.155-162. Həmçinin aşağıdakı xatirələrə bax: İsgəndəri İ., göstərilən əsəri, 1-ci cild; Xamei A., adı çəkilən əsərləri; Cahanşahlı Əfşar, adı çəkilən əsəri; Maleki K., adı çəkilən əsəri.

12. Siyasət, № 1, 1942, fevral. *Qozəşte Çerağ-e Rah-e Ayənde Əst*, göstərilən nəşr, s. 135.

13. Müqavilə mətni üçün bax: Əlavələr

14. *Qozəşte Çerağ-e Rah-e Ayənde Əst* , göstərilən nəşr, s.150.

15. Yenə orada, s. 153.

16. *Foreign Relations of the United States*, 1942, 4-cü cild, s. 227, Dreyfus to the Secretary of State, 5 mart 1942.

17. Mosəddeq M., *Mozakerat-e Məcles*, 26 iyul 1945.

18. Dreyfus to the Secretary of State, 5 march 1942, həmin nəşr.

19. Müxbir üs Səltəne M., göstərilən nəşr, s.351.

20. Mehdiniya C., *Zendegi-ye siyasi-ye Qəvvam-üs Səltəne*, Tehran, Pasarqad, 1987, s. 46.

21. Dreyfus to the Secretary of State, 5 Auqust 1942, həmin nəşr, s.152.

22. Yenə orada, s. 151.

23. Üsyan günləri ilə əlaqədar təfərruatlı məlumat üçün bax: Kuhi Kermani N., *Əz Şəhrivər-e 1320 ta Faceye-ye Azərbaycan və Zəncan*, cild 1, Tehran, Məzaheri, 1946, s. 313-371.

24. Xamei A., göstərilən əsəri, s. 59.

25. Dreyfus to the Secretary of State, 13 December 1942, həmin nəşr, s. 219.

26. Xamei, A., göstərilən əsəri, s. 59.

27. F.O. 371/40172, 1941-ci ildən bəri Rusiyanın Persiyada əlaqələri və fəaliyyətləri.

28. Abrahamian E., *Iran Between Two Revolutions*, həmin nəşr, s. 186.

29. F.O.371/61993, The Tude Party and Iranian Trade Unions.

30. *Rəhbər*, № 281, 8 may 1944.

31. *Qozəşte Çerağ-e Rah-e Ayənde Əst*, həmin nəşr, s.170.

32. Yenə orada.

33. *Ajir*, № 157, 15 iyun 1944.

34. Abrahamian E., *Iran Between Two Revolutions*, həmin nəşr, s. 200.

35. Key Ostovan H., *Siyasət-e Movazene-ye Mənfi Dər Məcles-e Çahardəhom*, cild 1, Tehran, Təban, 1948, s. 128.

36. *Mozakerat-e Məcles*, 22 iyun 1944.

37. *Mozakerat-e Məcles*, 3 iyul 1944.

38. *Mozakerat-e Məcles*, 13 iyul 1944.

39. Müsəddiq də daxil olmaqla bir sıra deputatlar iddia edirdilər ki, hər hansı bir qanunun Məclisdən keçə bilməsi üçün həmin qanunun səslərin yarısından çoxunu alması şərtdir. Bax: *Mozakerat-e Məcles*, 13 iyul 1944.

40. Ajir, № 169, 16 iyul 1944.

41. F.O. 371/40172, Rusiyanın 1941-ci ildən sonra Persiyada əlaqələri və fəaliyyətləri.
42. F.O. 371/40177, 1944-cü ilin Təbriz gündəliyi, № 1, 1-15 yanvar 1944.
43. Yenə orada.
44. Yenə orada.
45. F.O. 371/40177, № 2, 16-31 yanvar 1944.
46. F.O. 371/40177, 1944-cü ilin Təbriz gündəliyi, № 4 15 fevral – 6 mart 1944.
47. Yenə orada.
48. F.O. 371/40177, 1944-cü ilin Təbriz gündəliyi, № 7, 20 aprel –4 may 1944.
49. *Mozakerat-e Məcles, 9* dekabr 1944.
50. Key Ostovan H., cild 1, həmin nəşr, s. 156-157.
51. Yenə orada.
52. *Mozakerat-e Məcles*, 10 avqust 1944.
53. Fateh, M., *Pəncah Sal Neft-e İran*, 2-ci nəşr, Tehran, Pəyam, 1979, s. 355.
54. Ajir, № 205, 26 oktyabr 1944.
55. *Rəhbər*, № 402, 13 oktyabr 1944; № 411, 24 oktyabr 1944.
56. Partiyanın Sovet hakim dairələri ilə olan yaxınlığını nəzərə alan Qazar Simoniyan ilk vaxtlar Sovet Rusiyasının sovetlərə neft konsessiyaları verilməsini dəstəkləyən nümayişlərin təşkil edilməsinə dair tələbini rədd etməyə çalışırdı. Sovetlərin fikrini dəyişdirməyə nail olmaq üçün o, sağ partiyaların nümayəndələrinin Tudə nümayişçilərinə qarşı hücuma keçməyə təhrik etmək yoluna baş vurdu. Lakin Sovet hakim dairələri bu hadisədən sonra geriyə çəkilmək əvəzinə nümayişçiləri müdafiə etmək üçün qoşun dəstələrinin göndərilməsində israrla təkid etməyə davam etdilər.
57. *Rəhbər*, sayı 380, 12 sentyabr 1944.
58. İranın tanınmış oçerkçilərindən olan Əl Əhməd bir neçə il sonra yazdığı bir məqalədə 1944-cü ilin 27 oktyabrında özünün nümayişçilərin sıralarından necə utanc hissi ilə ayrıldığını xatırlayır və buna səbəb kimi küçələrdə Sovet hərbi qoşunlarının ilkin əlamətlərini görməsini göstərir. Əl Əhməd C., *Dər Xedmət və Xəyanət-e Rouşənfekran*, cild 2, Tehran, Xarəzmi, 1978, s. 175.
59. Kambəxş A., *Nəzər-e Beh Conbeş-e Kargəri və Kommunist Dər İran*, Stassfurt, Tude, 1972, s.88-91.
60. İsgəndəri İ., *Xaterat*, həmin nəşr, cild 2, s. 84-86; Xamei, A., *Forsət-e Bozorg-e Əz Dəst Rəfte*, həmin nəşr, s. 130-145.
61. *Mozakerat-e Məclis*, 29 oktyabr 1944.
62. Kuhi Kermani H., həmin nəşr, s. 54.
63. F. O.371/40241, Teleqram From Foreign Office to Sir Reader Bullard, 3 oktyabr 1944.
64. F. O. 371/40243, Draft note for the Secretary of State (for Cabinet), 16 oktyabr 1944.

65. Nümunə üçün bax: «*Sər-o Təh Yek Karbas*», redaktoru Xəlil Maleki, *Rəhbər*, sayı 438, 10 dekabr, 1944.
66. *Ajir*, sayı 250, 18 fevral, 1945.
67. 17 yanvar, 21 yanvar və 28 may 1945-ci il tarixlərində Fiirudin Keşavərz, Ardaşes Ovanesyan və İrac İsgəndərinin parlamentdə çıxışları (müvafiq olaraq), *Mozakerat-e Məclis*.
68. Atabaki T., « *L' Orqanisation syndicale ouvri-re en İran, de 1941–1946*», *Soual* , № 8, Paris, fevral 1988, s.44-48.
69. Xamei A., *Forsət-e Bozorg-e Əz Dəst Rəfte,* həmin nəşr, s. 152-153.
70. İranın Maliyyə Departamentində Amerikanın müşaviri kimi çalışan Millspauqun ikinci dəfə missioner fəaliyyəti ilə məşğul olmasına son qoymaq məqsədilə Məclisin Müsəddiq kimi bir sıra deputatları ilə əməkdaşlıq Bayatın həyata keçirdiyi ən mühüm tədbirlərdən biri idi. Millspauq 1943-cü ildə, on yeddi ildən sonra, ikinci dəfə missioner fəaliyyətinə başladı. Lakin, onun fəaliyyəti bu dəfə birincidən fərqli olaraq qalmaqallarla dolu və daha dağıdıcı bir mühitdə sona yetdi. Misal üçün, onun yeni vergi qanunu barəsində irəli sürdüyü layihə ölkə daxilində malliyyə sahəsindəki mütəşəkkil rüşvətxorluğun daha da artması ilə nəticələndi. Millspauqun ikinci dəfə missioner fəaliyyəti ilə məşğul olması haqqında daha ətraflı məlumat üçün bax: *Qozəşte Çerağ-e Rah-e Ayənde Əst,* həmin nəşr, s. 160-169.
71. Xamei A., həmin əsər, s. 162.
72. Parlament çıxışları, *Mozakerat-e Məclis,* 23 sentyabr 1945. Həmçinin Sədr M., *Xaterat-e Sədr ol Əşrəf,* Tehran, Vahid, 1985, s. 30-191.
73. *Bağ-e Şah*-Şah bağı, Tehranın mərkəzində yerləşən dövlət parkı, ən tanınmış məşrutəçilərin – Məhəmmədəli Şahın əmri ilə, öldürüldüyü yer.
74. Key Ostovan H., həmin əsər, cild 2, s. 49.
75. *Rəhbər,* sayı 624, 7 avqust, 1945.
76. *Rəhbər,* sayı 620, 1 avqust, 1945.
77. Həmin qanuni təklif və onun doğurduğu əks təsirlər haqqında təfərrüatlı məlumat üçün bax: Key Ostovan N., həmin əsər, cild 2, s. 118-159.
78. İranlı zabit Əhməd Zəngənə bu hadisənin üzərindən illər keçdikdən sonra Rusiyanın hücumunun müdafiəçi İran qoşunları arasında səbəb olduğu çaxnaşma və qarışıqlığı təsvir edir. Bax: Zəngəne A., *Xaterati Əz Məmuriyyətha-ye Mən Dər Azərbaycan*, Tehran, Şərq, 1976, s. 16–34.
79. Dutch Archive, Archief van de Nederlandse Legative te Teheran, Verslag Over Iraanse Militaire Zaken, 8 Mart 1944.
80. Pakdamən N., *Amarname-ye Eqtesad-e İran Dər Ağaz-e Cəng-e Cəhani-ye Dovvom,* cild 1, Tehran Universitetinin nəşriyyatı, 1976, s. 9.
81. Mosəddiq M., Parlamentdə çıxışı, *Mozakerat-e Məclis,* 20 aprel 1945.
82. Yenə orada, həmçinin bax: *Fəryad,* sayı 21, 13 iyul 1942.
83. *Bank-e Mərkəzi-ye İran,* sayı 208-209, Tehran, 1959.
84. F. O. 371/27192, Təbriz Gündəliyi, noyabr 1940.
85. Yenə orada.

86. *Ajir*, sayı 165, 4 iyul 1944.

87. *Ajir*, sayı 155, 11 iyun 1944.

88. F.O. 371/31426, Təbriz Gündəliyi, 24 iyul 1942.

89. F. O. 371/35090, Təbriz Gündəliyi, 8-15 fevral 1943.

90. Qulam Yəhyanın oğlu Aslan Daneşiyan böyük lütf göstərərək 1989-cu ilin oktyabrında Bakıda atasının nəşr olunmamış xatirələrinin surətini mənə təqdim etmişdir. Buna görə ona dərin minnətdarlığımı bildirirəm.

91. *Rəhbər*, sayı 565, 24 may 1945.

92. F.O. 371/31426, Təbriz Gündəliyi, 24 iyul 1942.

93. Çeşmazər M.Q., *Azərbaycan Demokrat Partiyasının yaranması və fəaliyyəti,* Bakı, Elm, 1986, s. 18.

94. Yenə orada.

95. Yenə orada. Tehran Universitetinin kitabxanasından əldə edilmiş fars dilli qəzetlərdə Şəbüstəri «*Azərbaycan*» qəzetinin imtiyaz sahibi kimi, Şəms isə baş redaktor kimi göstərilir. Bax: Sadiqi Nəsib V.M., *Fehrest-e Ruzname-ha-ye Farsi-ye Sal-e 1320–1332 Şəmsi dər Məcmuye-ye Enteşarat-e Ketabxana-ye Mərkəzi və Mərkəz-e Əsnad-e Daneşgah-e Tehran*, Tehran, Enteşarat-e Daneşqah-e Tehran.

96. F.O. 371/31426, Consul Cook to Sir Reader Bullard, Təbriz, 8 april 1942.

97. Çeşmazər M. Q., həmin əsər, s. 19.

98. Yenə orada.

99. Yenə orada, s. 24. Qeyd etmək maraqlı olardı ki, Təbriz Antifaşist Komitəsinin fəal üzvləri elə adı çəkilən digər cəmiyyətlərin əsasını qoyan şəxslər idi. Belə ki, Təbriz Antifaşist Komitəsinin tərkibinə Badeqan, Velayi, Nunkrani, Şəbüstəri, həmçinin Əsədi, Giverkyan və Cavidan daxil idi.

100. F.O.371/31426, Consul Cook to Sir Reader Bullard, Tabriz, 26 January 1942. «*Vətən Yolunda*» qəzetinin nəşr edilməsinə başlanılmasının üstündən çox keçmədən Sovetlər özlərinin ikinci qəzeti olan «*Qızıl Əskər*» adlı qəzetin nəşrinə başladılar.

101. Fars dilli mətbuat aşağıdakı qəzetlərdən ibarət idi: *Ariya* (1941), *Əxtər-e Şomal* (1942–1945), *Fəryad* (1942), *Qooğa-ye Zendegi* (1943–1944), *Qoftar və Kerdar* (1942–1943), *Codat* (1942–1946), *Kayvan* (1944–1945), *Kelid-e Necat* (1944–1945), *Məhtab* (1941), *Neda-ye Həqq* (1944–1945), *Pərtov-e Eslam* (1944), *Seda-ye Azərbaycan* (1941), *Şahin* (1941–1945), *Təbriz* (1943–1945); Azərbaycanca çıxan qəzetlər aşağıdakılar idi: *Yumruq* (Təbriz) (1943–1945), *Yumruq* (Ərdəbil) (1943–1945), *Ədəbiyyat səhifəsi* (Təbriz) (1943–1946); Fars və Azərbaycan dilində ikidilli qəzetlər: Azərbaycan (1941–1942), *Xavər-e Nou* (Tudə partiyasının rəsmi məhəlli orqanı) (1943–1945), *Setare-ye Azərbaycan* (1944–1945); Bir erməni qəzeti: *Haqa Faşist* (1943–1945).

102. F.O.371/31426, Consul Cook to Sir Reader Bullard, 20 may 1942.

103. Yenə orada.

104. Çeşmazər M.Q., həmin əsər, s. 20.

105. Zibai A., *Kommunizm dər İran ya Tarix-e Moxtəsər-e Kommunistha dər İran*, Tehran, adsız, 1964, s. 234. Bu kitab SAVAKın (İran Məxfi Polisi) o vaxtkı rəhbəri tərəfindən nəşr edilmişdir. Bu kitabın müəllifi kimi həmin şəxsin adı göstərilsə də həqiqətdə bu kitab əsasən 1953-cü il qiyamından sonra həbs edilmiş Tudə Partiyasının keçmiş üzvləri tərəfindən yazılmışdır. Belə ki, onlar həbsdə ikən SAVAK tərəfindən Tudə Partiyası və kommunistlərin İrandakı fəaliyyəti ilə əlaqədar bütün məxfi sənədlərlə təmin edilmiş və antikommunist təbliğat xarakteri daşıyan bir kitab yazmaq barəsində təlimatlandırılmışdılar. Bu kitab SAVAKın tarixi faktlara əsaslanmayan məlumatlarına istinad edilərək yazılmış olsa belə, əhatə etdiyi mövzulara dair dolğun məlumatlarla zənginliyi baxımından mükəmməl bir mənbə hesab edilə bilər.

106. Yenə orada.

107. Çeşmazər Kələntəriyə Əyalət Komitəsinin təsisçilərindən biri kimi baxmasa da Komitəyə daha sonra qoşulan Hüseyn Malik mənə verdiyi müsahibədə Kələntərinin Əyalət Komitəsinin yeganə qeyri-kommunist üzvü olduğunu və I Əyalət Qurultayının keçirilməsindən sonra Komitədən xaric edildiyini mənə bildirmişdi.

108. *Rəhbər*, sayı 483, 6 fevral 1945.

109. Sovet statistikasına görə 1944-cü ilin əvvəllərində Tudə Partiyasının Azərbaycanda 5000 üzvü var idi. Azərbaycan Tarix İnstitutunun arxivi, qovluq 5, sayı 12/5-9.

110. Maleki K., həmin əsəri, s. 364.

111. Mir Cəfər Bağırov (1896–1956) Sovet Azərbaycanı Kommunist Partiyası Mərkəzi Komitəsinin birinci katibi və Sovet Azərbaycanı Xalq Komissarları Sovetinin sədri, Stalin dövrünün həlledici simalarından, repressiyanın fəal iştirakçılarından biri olmuşdur. Sovet tarixçisi Roy A. Medvedyevin yazdığına görə 1937–1938-ci illərdə Azərbaycanda 10 min nəfər Bağırova sui-qəsd təşkil etməyə cəhd göstərməkdə ittiham edilərək repressiyaya məruz qalmış və amansızcasına güllələnmişdi. 1953-cü ildə Stalinin ölümündən sonra Bağırov tutduğu bütün vəzifələrdən azad edilmiş və bir il sonra həbs edilmişdi. O, 12-26 aprel 1956-cı il tarixində Bakıda SSRİ Ali Məhkəməsi tərəfindən mühakimə olunaraq ölüm cəzasına məhkum edilmişdi. Wieczynski J.L., (red) *The Modern Encyclopaedia of Russia and Soviet History,* Gulf Breeze (Florida), Academic International Press, 1976, s.238-240. Medvedev R.A., *Let History Judge, The Origin and Consequences of Stalinism,* New York, Macmillan, 1972, s.344.

112. Maleki K., «Təbrizdə çıxış», *Rəhbər*, sayı 591, 24 iyun 1945.

113. *Rəhbər*, sayı 604, 12 iyul 1945.

114. K. Maleki öz xatirələrində rəqib fraksiyanın təbliğati fəaliyyətinə qarşı durmaq üçün böyük səy göstərdiyini təsvir edərək bunu misal gətirir ki, partiyanın qərargahında Stalinin portretini Səttarxan və Bağırxan kimi azərbaycanlı konstitusiyaçıların şəkilləri ilə əvəz edilmişdir. Bax: Maleki, adı çəkilən əsəri, s. 365-374.

115. Ənvər Xameiyə görə Əyalət Komitəsi daxilində Bağırov yönlü siyasət aparılması nəticəsində Xəlil Maleki Azərbaycanı tərk etdi. Bununla yanaşı, partiyanın bir sıra tanınmış üzvləri, o cümlədən, komitənin sədri Əmir Xızı, Tudə Partiyasının rəhbərlərindən olan Ovanesyan, Məclis deputatı olan Zolun, uzun müddət kommunist kimi fəaliyyət göstərən bir yəhudi və Hüseyn Malik partiya sıralarından uzaqlaşmağa məcbur oldular. Bax: Xamei A., *Forsət-e Bozorq-e Əz Dəst Rəfte*, adı çəkilən əsəri, s. 193-194.

116. Pakdamən N., göstərilən əsəri, s. 13.

117. Çeşmazər M., göstərilən əsəri, s. 22.

118. F. O. 371/31426, Təbriz gündəliyi, 21 sentyabr–31 oktyabr 1942-ci il.

119. Yenə orada.

120. Wash. Nat. Arch., 891.00/10-504, 12 dekabr 1942.

121. F.O.371/45450, Sovet Ticarət İttifaqı nümayəndələrinin İrana səfəri, 16 sentyabr 1845-ci il.

122. F.O. 371/40178, Təbriz gündəliyi, 28 iyul –10 avqust 1944-cü il.

123. Yenə orada.

124. F.O. 371/ 40178, Təbriz gündəliyi, 16-30 noyabr 1944-cü il.

125. Maleki K., göstərilən əsəri, s. 374.

126.F.O. 371/40178, Təbriz gündəliyi, 21 sentyabr–12 oktyabr 1944-cü il.

127.Wash. Nat. Arch., 891.00/10-2844, 29 oktyabr 1944-cü il.

128. *Rəhbər*, sayı 572, 1 iyun 1945-ci il.

129. *Ajir*, sayı 219, 10 dekabr 1944.

130. *Rəhbər*, sayı 597, 3 iyul 1945-ci il.

131. Wash. Nat. Arch. 891.00/6-145, 1 yanvar 1945-ci il.

132. *Xavər-e Nou*, sayı 71, 9 iyul 1945-ci il.

133. *Mozakerat-e Məclis*, 4 iyun 1945-ci il.

134. *Rəhbər*, sayı 518, 8 iyun 1945-ci il.

135. *Rəhbər*, sayı 518, 21 mart 1945-ci il.

136. *Rəhbər*, sayı 522, 1 aprel 1945-ci il.

137. Daneşiyan Q.Y. Nəşr olunmamış xatirələri.

138. *Rəhbər*, sayı 637,23 avqust 1945.

139. Daxili İşlər Nazirliyi tərəfindən nəşr edilən bəyannamə: *Rəhbər*, sayı 630, 14 avqust 1945-ci il; Ənvər Xameinin verdiyi məlumata görə Sovetlər xüsusilə, Hac Ehteşamın Qırmızı Ordunun əsas təchizatçılarından birinə çevrilməsindən sonra Liqvan hadisəsinə fitva verdilər. Daha sonra isə onlar Tudə Partiyasının Mərkəzi Komitəsinin Azərbaycandakı nümayəndəsi və Məclisin deputatı Ardaşes Ovanesyandan Azərbaycanı tərk etməyi tələb etdilər. Həmçinin bax: Xamei A., *Forsət-e Bozorq-e Əz Dəst Rəfte*, həmin nəşr, s. 174.

140. *Rəhbər*, sayı 633, 19 avqust 1945-ci il.

141. Yenə orada.

142. *Mozakerat-e Məclis*, 11 avqust 1945-ci il.

143. *İran-e Ma*, sayı 440, 14 avqust 1945-ci il.

1. Kominternin apardığı siyasət barəsində təfsilatlı məlumat üçün bax: Ulyanovski R. A., (red) *The Comintern and The East,* Moskva, Proqress, 1979; *A Critique of the Critique*, Moskva, Proqres, 1978.
2. *Ajir*, sayı 156, 13 iyun 1944-cü il.
3. Yenə orada.
4. *Azərbaycan*, sayı 6, 18 sentyabr 1944-cü il.
5. İsgəndəri İ., göstərilən əsəri, 4-cü cild, s. 217.
6. *Şəhrivərin On İkisi, Azərbaycan Demokrat Firqəsinin birinci ildönümü münasibətilə*, Təbriz Mərkəzi Təbliğat Şurasının nəşriyyəsi, 1946, s. 1.
7. Khamehi A., *Forsət-e Bozorg-e Əz Dəst Rəfte,* həmin nəşr, s. 194-195.
8. «*Azərbaycan Demokrat Firqəsinin Müraciətnaməsi*», «*Şəhrivərin On İkisi*»ndə, həmin nəşr, s. 5-7.
9. Çeşm Azər, həmin nəşr, s. 56.
10. *İran-e Ma*, sayı 460, 9 dekabr 1945.
11. Yenə orada.
12. *Azərbaycan*, sayı 1, 5 sentyabr 1945.
13. Cahanşahlı Əfşar N., həmin əsər,s. 306; İsgəndəri İ., göstərilən əsəri, 4-cü cild, s. 213.
14. Keşavərz F., həmin əsəri, s. 61.
15. İsgəndəri İ., həmin əsəri, 1-ci cild, s. 88.
16. Çeşm Azər, M.Q., həmin əsəri, s. 53.
17. İsgəndəri İ., ADF-nin təşkilati Memorandumu, həmin əsəri, 4-cü cild, s. 218. Sovet mənbələrinə görə birləşmə ərəfəsində Azərbaycanda Tudə Partiyası üzvlərinin ümumi sayı 44000 nəfərə bərabər olmuşdur. Bu rəqəmin 72%-ni əkinçilər, 11,1%-ni fəhlələr, 10,2%-ni ixtisaslı işçilər və qalan 6,7%-ni isə idarə məmurları, mülki xidmətçilər və ziyalılar təşkil edirdi. Azərbaycan Tarix İnstitutunun arxivi, sənəd 5, № 12\5-9.
18. İsgəndəri İ., həmin əsəri, s. 218.
19. Yenə orada.
20. Pesyan N., *Mərg Bud, Bazgəşt həm Bud*, Tehran, Emruz, 1949, s.22.
21. Cahanşahlı Əfşar N., həmin əsəri, s. 231-241.
22. *Azərbaycan*, sayı 5, 17 sentyabr 1945.
23. F.O.371/45478, Təbriz gündəliyi, 7-21 sentyabr 1945.
24. Azərbaycan Demokrat Firqəsi, *Si Sal*, nəşr olunduğu yer məlum deyil, Tude, 1978, s. 17.
25. Yenə orada.
26. Pesyan N., həmin əsəri, s. 23.
27. *Azərbaycan Demokrat Firqəsinin Məramnaməsi və Nizamnaməsi*, Təbriz, Azərbaycan Mətbəəsi 1945, s. 5-20.
28. *Ayənde*, sayı 9-10, 1945.
29. *Azərbaycan* , sayı 22, 7 oktyabr 1945.

30. *Azərbaycan Demokrat Firqəsinin Məramnaməsi və Nizamnaməsi*, həmin nəşr, ikinci hissə, s. 1-9.

31. Çeşm Azər, M.Q., həmin əsəri, s. 62.

32. İsgəndəri İ., «ADF-nin Təşkilat Memorandumu», həmin əsəri, s. 219. İsgəndəriyə görə beş əsas şəxsdən biri olan Cavid nəinki Qurultayın seçki orqanında hər hansı bir vəzifəyə malik deyildi, hətta Qurultayın gedişatı zamanı da orada deyildi. Lakin Çeşm Azər Cavidin adını Mərkəzi Komitəyə üzv seçilən şəxslər arasında qeyd edir. Bax: Çeşm Azər M. Q., adı çəkilən əsəri, s.62.

33. *Azərbaycan*, sayı 47, 11 noyabr 1945.

34. Çeşm Azər M.Q., həmin əsəri, s. 71-73.

35. Yenə orada.

36. Bəzi iştirakçıları tərəfindən «Qiyam-e Əfsəran-e Xorasan» (Xorasan zabitlərinin qiyamı) adlandırılan bu üsyan 1945-ci ildə, avqust ayının ortalarında başlandı. İran ordusunda xidmət göstərən və mayor rütbəsi daşıyan Əli Əkbər İsgəndərinin rəhbərliyi ilə İran ordusunun iyirmi beş zabiti öz qarnizonlarını Məşəddə qoyaraq silah və digər döyüş avadanlıqlarını özləri ilə götürdülər. Bu qiyam olduqca qısaömürlü oldu. Belə ki, hökümət qüvvələri qiyamçılar arasında baş verən ilkin qarşıdurmadan sonra bir sıra çətinlik və bədbəxtliklərlə üzləşən üsyançıların İsgəndəri də daxil olmaqla hamısı dağılışdı. Onlar Sovet İttifaqına qaçdılar. Sürgün edilmiş zabitlər Bakının yaxınlığında yerləşən, Şaholan adlı bir kənddə sığınacaq tapdılar. Sonradan İrandan qaçan digər zabitlər də onlara qoşuldu. İslam İnqilabından sonra Xorasan qiyamında iştirak edən zabitlərdən ikisi öz xatirələrini nəşr etdirmişlər ki, bu xatirələr olduqca dolğun məlumatlarla zəngindirlər. Bax: Təfreşiyan A., *Qiyam-e Əfsəran-e Xorasan*, Tehran, Elm, 1980. Həmçinin bax: Şəfai A., *Qiyam-e Əfsəran-e Xorasan və Si-yo həft Sal Zendeqi dər Şourəvi*, Tehran, Ketabsara, 1987.

37. Zabitlərin birinci qrupu: Azər, Əzimi, Qazi Əsədullahi, Mürtəzəvi, Aqahi, Musəvi və Nəzəri. İkinci qrupa isə daxil idi: Pirzadə, Kələtbəri, Qəmsəriyyan, Səlimi , Qəhrəman və Şəfai. Bax: Şəfai A., həmin əsəri, s. 134.

38. F.O.371/45478, Təbriz gündəliyi, 25 oktyabr–21 noyabr 1945.

39. N.Pesyanın təqdim etdiyi Memorandumun surəti, həmin nəşr, s. 32-34.

40. Kuniholm V.R., *The Origin of the Cold War in the Near East, Great Power Conflict and Diplomasy in Iran, Turkey, and Greece*, Princeton University Press, 1980, s. 279.

41. Bu nümayişləri təsvir edən hesabatlar üçün bax: *Azərbaycan*, 54, 56, 58-ci sayları.

42. Azərbaycan Demokrat Firqəsi, *Şəhrivərin On İkisi*, həmin nəşr, s. 21.

43. Bax: Çeşm Azər M.Q., həmin nəşr, s. 87.

44. *Azərbaycan*, sayı 62, 23 noyabr 1945.

45. Yenə orada.

46. «Azərbaycan Məclisi Müəssisanının Qərarları», *Azərbaycan*, sayı 63, 26 noyabr 1945.

47. *Azərbaycan*, sayı 69, 3 dekabr 1945.

48. *Azərbaycan*, sayı 73, 7 dekabr 1945.
49. «Seyid Cəfər Pişəvəri ilə müsahibə», *Xandəniha*, sayı 30, 3 dekabr 1945.
50. Çeşm Azər M. Q., həmin əsər, s. 88.
51. *Azərbaycan*, sayı 69, 3 dekabr 1945.
52. Yenə orada.
53. Abrahamyan E., *İran Between Two Revolutions*, həmin əsər, s. 289.
54. Abrahamyan E., Communism and Communalism in Iran : The Tudeh and the Firqah-i Dimukrat», *İnternational Cournal of Middle Eastern Studies*, sayı 1, 1970, s. 291-316.
55. Pişəvəri M.C., *Seçilmiş əsərləri*, Bakı, Azərbaycan Nəşriyyatı, 1965, s.6. İranın müasir tarixində yəqin ki, Pişəvəri qədər şəxsiyyəti ziddiyyətli mübahisələrə səbəb olan ikinci bir şəxs olmamışdır. Lenezovski belə hesab edir ki, Pişəvəri Stalinin 1930-cu illərin sonlarına doğru həyata keçirdiyi repressiyalar zamanı edama məhkum edilmiş Kommunist Partiyasının görkəmli rəhbəri Sultanzadə ilə eyni adam idi. Lenezovskiyə görə Sultanzadə edam edilməmiş və qaçmağa nail olaraq adını dəyişdirmiş və yenidən ikinci dəfə olaraq İranın siyasi həyatına daxil olmuşdur. Kuniholm isə, Pişəvərinin «Əlli Üçlər» marksist qrupunun üzvlərindən biri olduğunu və 1937-ci ildə həbs edildiyini göstərir. Kottam Pişəvərinin adının Cəfər deyil, Məhəmməd olduğunu iddia etdiyi halda, Huq Tomas belə hesab edir ki, Pişəvərinin öz adı Seyid Cəfər Bədkəbeyl olmuşdur, lakin sonralar o, öz adını Sultanzadə kimi dəyişdirmişdir. Huq Tomas sonralar yazmışdır: «Stalinin 1938-ci il repressiyalarının qurbanlarından biri olan Pişəvəri gizlicə İrana qayıtmış və başqa bir adla 1941-ci ildə Kommunist Partiyasını Tudə Partiyası adı ilə bərpa etmişdir». İqleton da özünün 1946-cı il kürd qiyamından bəhs edən kitabında Pişəvərinin İrana qayıtma tarixi kimi İkinci Dünya müharibəsi ərəfəsini göstərir. Çox maraqlıdır ki, yuxarıda adları çəkilən müəlliflərdən heç biri bu faktları gətirərkən istinad etdikləri mənbənin adını göstərməmişlər. Bax: Lenezovski G., *Russia and the West in Iran 1918-1948,* Ithaca. Cornell University Press, 1949, s. 98; Kuniholm B., göstərilən əsəri, s.135. Cottam R., *Nationalism in Iran,* Pittsburg University Press, 1964, s. 125; Tomas H., Armed Truce, The Beginning Of The Cold War 1945-1946, London, Sceptre, 1988, s. 562-563; Eaglaton W.J.R., *The Kurdish Republic of 1946*, Oxford University Press, 1964, s.41.
56. *Açıq söz,* sayı 458, 26 aprel 1917.
57. *Azərbaycan Coz-e Layənfəkk-e İran*, pos. 1,3,7,9-28 yanvar- 28 fevral 1918.
58. *Hürriyyət*, sayı 72, 21 may 1920.
59. Yenə orada.
60. F.O.371/1278, noyabr 1920. Həmçinin bax: Mənsur Sərxani, M.A., *Siyasət-e Doulət-e Şourəvi dər İran əz 1296-ta 1306*, cild 1, Tehran, naşirsiz, 1947, s. 55.
61. Fəxrai İ., *Sərdar-e Cəngəl*, Tehran, Elmi, 1972, s. 246-272.

62. Rustamova S., *Mətbuat-e Kommunisti-ye İran dər Mühacirət*, 1917–1932, Bakı, Azərbaycan, 1985, s. 43.

63. Bakı Konqresinə dair sənədə istinadən məlumat almaq üçün bax: Pearse B., (red) *Congress of the Peoples of the East*, London, New Park, 1977; Gruber H., *Soviet Russia Masters the Comintern*, New York, Anchor Books, 1974.

64. Marksizm-Leninizm İnstitutu, Sovet Azərbaycan Kommunist Partiyasının Mərkəzi Arxivi, Fond 544, Kat. 2, cild 8, s. 1-43.

65. Şahruxi K., *Azade-ye Qomnam*, Tehran, naşirsiz, 1955, s. 92. Fəxreyi də özünün böyük tədqiqatlar sonrası yazdığı kitabında Pişəvərini Bakı Konqresindəki İran nümayəndə heyətinin üzvlərindən biri kimi göstərir. Bax: Fəxreyi E., adı çəkilən əsəri, s. 274.

66. Pişəvəri M.C. *Seçilmiş əsərləri*, həmin nəşr, s. 10.

67. Ovanesyana görə 104-cü nömrəsi çapa buraxıldıqdan sonra qadağan edilən «Həqiqət» qəzetinin tirajı 2000 ilə 2500 arasında idi. Bax: Ovanesyan A., *Səfehat-i Çənd əz Conbeş-e Kargəri və Kommunisti-ye İran dər Douran-e Rza Şah*, nəşr olunduğu yer naməlumdur, Tude, 1979, s.11.

68. Tağı Şahin – ADP MK üzvü və Pişəvərinin katibi—mənimlə müsahibəsində Pişəvərinin həbs olunarkən əslində Kommunist Partiyasının birinci katibi olduğu iddiasını irəli sürmüşdür.

69. ABŞ Mərkəzi Kəşfiyyat İdarəsi, ORE 23-49, 18 iyul 1949, Significant Biographical Data, s. 25; həmçinin bax: Pişəvəri, M. C., *Yaddaştha-ye Zendan*, nəşr olunduğu yer naməlumdur, tarixsiz və naşirsiz, s. 9.

70. Xamei A., *Pəncah Nəfər və Se Nəfər*, həmin nəşr, s. 190.

71. Wash. Nat. Arsh., 891.00/6-2146, 21 iyun 1946.

72. Xamei A., *Forsət-e Bozorg-e əz Dəst-e Rəfte*, həmin nəşr, s. 21.

73. İsgəndəri İ., həmin əsəri, cild 4, s. 216.

74. Qeyd etmək lazımdır ki, Pişəvərinin ölümü ilə bağlı müsahibə apardığım şəxslərdən heç biri onun qətli barəsində bitkin bir fikir söyləyə bilmədi. Pişəvərinin qətlə yetirildiyi fikrində olanlar muxtar hökumətin süqutundan sonra Pişəvəri və Bağırov arasında şəxsi münaqişənin yarandığı iddiası ilə çıxış edirlər. ADF-nin bəzi rəhbərlərinin verdiyi məlumata görə həmin münaqişə Bağırovun Sovet Qızıl Ordusunun təsis edilməsinin ildönümü münasibətilə verdiyi bir ziyafətdə meydana gəlmişdi. Belə ki, Bağırov ildönümü münasibətilə qədəh qaldırmış və «Azərbaycanı azad etmək» uğrunda ADF rəhbərliyinin göstərdiyi böyük səyləri alqışlamışdı. Lakin bununla yanaşı o, həm də partiyanın çatışmazlıqları barəsində bəzi qeydlər etməyi də unutmamışdı. O, muxtar hökumətin süquta uğramasının əsas səbəbi kimi «şimal və cənub arasındakı əlaqələrin aşağı səviyyədə olmasını» və «ADF-nin Azərbaycan Kommunist Partiyası ilə kifayət qədər yaxınlıq etməməsi»ni göstərmişdi. Belə deyilir ki, Pişəvəri Bağırovun bu sözlərinə çox sərt cavab verərək onu təəccübləndirmiş və qəzəbinə səbəb olmuşdu. Həmin hadisənin bilavasitə şahidləri belə məlumat verirlər: «Bağırovdan fərqli olaraq Pişəvəri belə fikirləşirdi ki, muxtar

hökumətin süqutunun əsas səbəbi Sovet Azərbaycanından həddən artıq çox asılılığın olmasında idi. O, belə hesab edirdi ki, bu asılılıq bir çoxlarının onlara Sovet casusları və vasitəçiləri kimi yanaşmasına rəvac vermişdi». Bağırov çox sərt və kobud cavab vermiş və ona «otur kişi» demişdi. Lakin, sözü gedən ziyafətdə iştirak edən şəxslərdən biri – Rəhim Qazi mənə verdiyi müsahibədə yuxarıda verilmiş məlumatın doğruluğunu təsdiqləməklə yanaşı, Bağırovla mübahisə edən şəxsin Pişəvəri deyil, muxtar hökumətin ordusunda xidmət göstərən yüksək rütbəli generallardan biri olan Azərin olduğunu da bildirmişdir.

75. *Azad Millət*, sayı 3, 28 fevral 1946.

76. Cahanşahlı Əfşar N., həmin əsəri, s. 317.

77. *Rəhbər*, sayı 829, 2 oktyabr 1945.

78. Cahanşahlı Əfşar N., həmin əsəri, s. 318.

79. Cavid S., *Quşe-yi Əz Xaterat-e Nehzət-e Melli-ye Azərbaycan*, Tehran, naşirsiz, 1979, s. 33-34; həmçinin bax; *İran-e Ma*, sayı 559, 18 iyun 1946.

80. Cavid S., həmin əsər, s. 35.

81. Mənsur Garekani M., A., həmin əsəri, s. 165.

82. Wash. Nat. Arsh. 891.00/7-1546,15 iyul 1946; həmçinin bax: *İran-e Ma*, sayı 559, 18 iyun 1946.

83. *Azərbaycan*, sayı 82, 20 dekabr 1945.

84. Aqahi A., «Şəst Sal Əz Tarix-e Təsis-e Hezb-e Kommunist-e İran Qozəşt», *Donya*, sayı 3, 1980, s. 54.

85. *Azərbaycan*, sayı 82, 20 dekabr 1945.

86. Cahaqşahlı Əfşar N., həmin əsəri, s.318.

87. Daneşiyan Q.C. Çap edilməmiş xatirələri; həmçinin bax: Taher S., *Fədai Zheneral*, Bakı, Azərbaycan, 1987, s. 6-11.

88. Daneşiyan Q.C., həmin əsər; həmçinin bax; Akqar, İ., *Mərg Həst və Bazgəşt Nist,* Tehran, Çehr, tarixsiz, s. 319.

89. Cahanşahlı Əfşar, N., həmin əsəri, s. 319.

90. Şeyda C., *Biriyanın Ürək Sözləri,* Təbriz, Ərk, 1981, s. 6.

91. *Rəhbər*, sayı 461, 10 yanvar 1945.

92. Həmin əsəri.

93. F.O. 371/40178, *Təbriz gündəliyi*, 21 sentyabr –12 oktyabr 1944.

94. Cahanşahlı Əfşar N., həmin əsəri, s. 306.

95. Cahanşahlı Əfşar N., həmin əsəri, s. 306-308.

96. Rossow R., «The Battle of Azerbaijan 1946» *Middle East Journal*, po.1, 1956, p.30.

97. Mən fürsətdən istifadə edərək Azərbaycan Demokrat Partiyasının keçmiş rəhbərlərindən olan tanınmış Cahanşahlı Əfşara bu cədvəli hazırlamaqda mənə böyük köməklik göstərdiyinə görə öz dərin minnətdarlığımı bildirirəm.

98. Bu cədvəldə adı çəkilən şəxsiyyətlər barəsində mümkün qədər dəqiq məlumat təqdim etmək üçün əlimizdən gələni etsək də qeyd etməliyik ki, həmin şəxslərin sinfi mənsubiyyəti barəsində verilən məlumat dəqiq olmaya bilər. Bu səbəbdən həmin məsələyə diqqət göstərmək məqsədəuyğun olardı.

Həmçinin əlavə etmək lazımdır ki, Qərb cəmiyyətində sinfi fərqlər barəsində məqbul sayılan terminologiya İrandakı sosial vəziyyətlə heç cür uyğun gəlmədiyi üçün iranlı şəxslərə şamil edilə bilməz.

99. İllər keçdikcə Tudə Partiyası öz ilkin siyasi mövqeyindən uzaqlaşaraq İranın ortodoksal Marksist-Leninçi partiyasına çevrildi. Lakin bu ADF və Tudə Partiyasının daha da yaxınlaşmasına səbəb ola bilmədi. 1960-cı ildə «Pelenom-e Vəhdət» (Vəhdət Plenumu) adlı plenumun keçirilməsi münasibətilə ADF nominal olaraq Tudə Partiyası ilə birləşərək öz adını Tudə Partiyasının Azərbaycan Əyalət Komitəsi ilə əvəz etdi. Buna baxmayaraq sonrakı illərdə baş verən siyasi hadisələrin də nümayiş etdirdiyi kimi, ADF fraksiyası Tudə Partiyası ilə zahiri birliyi qoruyub saxlamaq naminə bəzi cüzi güzəştlərə getməsinə və partiyanın Marksizmə meyl edən mövqeyi ilə uyğunlaşırmış kimi görünməyə çalışmasına baxmayaraq hər zaman Tudə Partiyası daxilində öz Leninçi xüsusiyyətləri ilə fərqlənən güclü bir meylin müdafiəçiləri mövqeyini saxlamağa nail ola bilmişdi.

## VI bölüm: Azərbaycan Muxtar Hökuməti

1. Firqe-ye Demokrat-e Azərbaycan, *Si Sal*, həmin nəşr, s. 49.

2. Komitənin yeni idarəedici heyətinin üzvlərinə daxil idi: Şəbüstəri, Badeqan, Rəfii, Codat, Vəlayi, Azima, Dibaiyan, Dilməqani və Teymuri. *Azərbaycan*, sayı 78, 12 dekabr 1945; Çeşm Azər M.Q., həmin əsəri, s.90.

3. «Azərbaycan Milli Məclisinin Daxili Nizamnaməsi», *Azərbaycan*, sayı 79, 14 dekabr 1945.

4. Yenə orada.

5. Wash. Nat. Arch. 891.00/12-1845, 23 yanvar 1946.

6. *Azərbaycan*, sayı 78, 12 dekabr 1945.

7. Yenə orada.

8. F.O. 371/52663, 12 yanvar 1946.

9. *Azərbaycan*, sayı 78, 14 dekabr 1945.

10. Wash. Nat. Arch. 891.00/3-2346, 23 mart 1946.

11. *Azərbaycan*, sayı 79, 14 dekabr 1945.

12. F.O. 371/52663, 12 yanvar 1946.

13. Mətnin əsli üçün bax: Pesyan N., həmin əsəri, s. 98. New York Timesın 17 dekabr 1945-ci il sayında dərc olunmuş məlumatda bildirilir ki, Derəxşani və Pişəvəri arasındakı razılığa görə yalnız on beş zabitin Azərbaycanda qalmaması qərara alınmışdı.

14. F.O. 371/52661, 26 dekabr 1945.

15. F.O.371/ 52661, 26 dekabr 1945; Zəngəne A., həmin əsəri, s.66-138

16. Wash.Nat.Arch. 891.00/2-2047, 21 fevral 1946.

17. Wash. Nat. Arch. 891.00/12-1845, 23 yanvar 1946.

18. Yenə orada.

19. Yenə orada.

20. Çeşm Azər M.Q., həmin əsəri, s. 89-90.
21. Wash. Nat. Arch. 891.00/12-1845.
22. Kuniholm B.R., həmin əsəri, s. 304.
23. Bax: Hurewitz C.C., *Diplomasy in the Near and Middle East,* New Cersey, Van Nostrand, 1956, çild 2, s. 90 –94.
24. Kuinholm B.R., həmin əsəri, s. 304.
25. *İran-e Ma,* sayı 465, 18 dekabr 1945.
26. Key Ostovan N., həmin əsəri, 2-ci cild, s. 214.
27. *Mozakerat-e Məclis*, 26 yanvar 1946.
28. *Mozakerat-e Məclis,* 2, 11, 15 dekabr 1945.
29. Maleki K., həmin əsəri, s. 392.
30. *İran-e Ma*, sayı 462, 12 dekabr 1945.
31. *İran-e Ma*, sayı 467, 20 dekabr 1945.
32. *Ajir*, sayı 157, 15 iyun 1944.
33. *Mozakerat-e Məclis*, 15 dekabr 1945.
34. Wash. Nat. Arch.891.00/6- 646, 6 iyun 1946.
35. Thomas N., *Armed Truce*, həmin nəşr, s. 156.
36. *Izvestia,* 18 December 1945, cited in Thomas C.R., *The Rise and Fall of the Azerbaijan Peoples Republic as Reflected in Izvestia, 1945–1947*, Certificate Essay, Columbia University, 1953, s. 53.
37. *Rəhbər*, sayı 671, 13 mart 1946.
38. Bax: Xamei A., *Forsət-e Bozorg-e Əz Dəst Rəfte,* həmin nəşr, s.278-286.
39. Məsudi Q., *Cəreyan-e Mosaferat-e Mission-e Ezamiyye İranbeh Mosko*, Tehran, çap, 1946, s.17.
40. Yenə orada, s. 67-68.
41. Yenə orada, s. 70.
42. Bax: Nurewitz, C.C., *Diplomacy in the Middle East*, 1914-1956, 2-ci cild, Princeton, Van Nostrand, 1956, s. 233-234.
43. Vail Motter T.H., *The Persian Corridor and Aid to Russia*, Washington, Office of the Chief of Military History, Department of Army, 1952, s. 281-283; Qobad İrani, R., «American Diplomacy: An Option Analysis of the Azerbaijan Crisis, 1945–1946», *International Studies*, 1978, s. 25-34.
44. Xan Məlek Yəzdi, *Qouğa-ye Təxliyye-ye İran*, Tehran, Selsele, 1983, s. 114.
45. *Mozakerat-e Məclis*, 3 mart 1946.
46. Key Ostovan H., həmin əsəri, 2-ci cild, s. 279-280.
47. Bax: Əfşar İ., (red.) *Zende-ye Tufani, Xaterat-e Seyyid Həsən Tağızade*, Tehran, Elmi, 1989, s. 276-278.
48. Qromyko A., *Memories, from Stalin to Qorbachev*, London, Arrow Vooks, 1989, s. 303-304.
49. Məsudi Q., həmin əsəri, s. 200.
50. *Cəbhe*, sayı 119,6 aprel 1946.
51. *Cəbhe*, sayı 133, 23 aprel 1946.

52. Azərbaycan heyəti Pişəvəri, Padeqan, Cahanşahlı Əfşar, İbrahimi, Dilməqani, Şahin və Seyf Qazidən ibarət idi. Aşağıdakı şəxslər isə mərkəzi hökumət tərəfindən Demokratlarla danışıqlar aparmaq üçün təyin edilmişdilər: Mostəşər üd Dövlə, Fərmanfərmaiyan, İpəkçiyan, Sepehr, Lənkərani və Firuz.

53. *Zəfər*, sayı 241, 24 aprel 1946.

54. *Rəhbər*, sayı 700, 23 aprel 1946.

55. *Rəhbər*, sayı 703, 26 aprel 1946.

56. *Cəbhe*, sayı 135,25 aprel 1946.

57. *Cəbhe*, sayı 144, 7 may 1946.

58. *Azərbaycan*, sayı 172, 14 aprel 1946.

59. *Azərbaycan*, sayı 178, 21 aprel 1946.

60. *Azərbaycan*, sayı 179, 22 aprel 1946.

61. *Azərbaycan*, sayı 180, 23 aprel 1946.

62. Firqe-ye Demokrat-e Azərbaycan, *Si Sal*, həmin nəşr, s. 66.

63. Azərbaycan Demokrat Firqəsi Mərkəzi Komitəsi, *Azərbaycan Milli Məclisi və Azərbaycan Milli Hökumətinin Qərar və Qanunlar Məcmuəsi, Azərbaycan Milli Məclisinin müsadirə haqqında təsvib olunmuş Qanunu*, Bakı, Azərbaycan, 1980, s. 10-12.

64. Yenə orada.

65. Firqe-ye Demokrat-e Azərbaycan, *Si Sal*, həmin nəşr, s. 67.

66. «Azərbaycan Milli Məclisinin Felahat Bəhrəsinin Malek ilə Əkinçi arasında bölünməsi Qanunu», *Azad Millət*, sayı 12, 12 aprel 1946.

67. *Azərbaycan*, sayı 96, 9 yanvar 1946.

68. *Azərbaycan*, sayı 84, 23 dekabr 1945.

69. On doqquz yaşından yuxarı hər bir azərbaycanlı qadın və kişi səs verə, 25-75 yaşlar arasında olanlar isə seçilə bilərdi. Bax: *Azərbaycan*, sayı 97, 10 yanvar 1946.

70. Təbriz əyalət şurasına seçkilər 15-20 yanvar 1946-cı ildə kesirildi, 9-14 fevralda isə vilayət və rayon seçkiləri oldu. Bax: *Azərbaycan*, sayı 103, 107, 115, 117, 122-22 yanvar–1 fevral 1946.

71. Wash. Nat. Arch. 891.00/2-1946, 19 fevral 1946.

72. Yenə orada.

73. Wash. Nat. Arch. 891.00/2-1845, 23 yanvar 1946.

74. *Azərbaycan*, sayı 2, 8 sentyabr 1945.

75. Bax: Eaqleton W., *The Kurdish Republic of 1946*, London, Oxford University Press, 1963, Roosevelt A., «The Kurdish Republic of Mahabad», *Middle East Cournal*, no. 1, iyul 1947, s.247-269, Pesyan N., Az Mahabad-e xunin ta keraneha-ye Aras, Tehran, Çap, 1949.

76. Çeşm Azər M. Q., həmin əsəri, s.46.

77. Eaqleton W., göstərilən əsəri, s. 57.

78. Yenə orada.

79. Yenə orada, s.60.

80. Bax: *Kurdistan*, sayı 223, 13 yanvar 1989.

81. Wash. Nat. Arch.891.00/2-2846, 28 fevral 1946.
82. Yenə orada.
83. *Azərbaycan*, sayı 190, 5 may 1946.
84. Yenə orada.
85. *Azərbaycan*, sayı 185, 29 aprel 1946.
86. Demokratların ilkin təklifinin tam mətni üçün bax: *Şəhrivərin On İkisi*, göstərilən nəşr, s. 106-110.
87. Müharibədən sonrakı dövrün əsaslı siyasi prinsiplərini əhatə edən Atlantika Xartiyası 1941-ci ilin avqustunda Ruzvelt və Çörçil tərəfindən verilmiş bəyannamə idi. Bu Xartiyada digər prinsiplərlə yanaşı xalqlara öz hökumət formalarını seçməkdə azadlıq verilirdi.
88. Wash. Nat. Arch., 891.00/5-146, 1 may 1946.
89. *Azərbaycan*, sayı 199, 15 may 1946.
90. Bax: *Şəhrivərin On İkisi*, göstərilən nəşr, s. 110-115. Həmçinin: *Qozəşte Çerağ-e Rah-e Ayənde Əst.*, həmin nəşr, s. 368-375.
91. F.O. 371/52679, 16 iyul 1946.
92. Tavreshiyan A., həmin əsəri, s. 76.
93. F.O. 371/56831, 20 mart 1946.
94. *Azərbaycan*, sayı 223, 11 iyun 1946.
95. Razılaşmanın mətni əlavələrdə verilmişdir.
96. *Azərbaycan*, sayı 228, 18 iyun 1946.
97. *Azərbaycan*, sayı 223, 24 iyun 1946.
98. Yenə orada.
99. *İran-e Ma*, sayı 562, 21 iyun 1946.
100. *İran-e Ma*, sayı 568, 30 iyun 1946.
101. Yenə orada.
102. *İran-e Ma*, sayı 566, 26 iyun 1946.
103. Abrahamiyan E., *İran Between Two Revolutions*, həmin nəşr, s. 231.
104. Bax: Atabəki T., «L' Orqanisation syndicale ouvriere en Iran», həmin nəşr, s. 51.
105. İsgəndəri İ., həmin əsəri, cild 2, s.141.
106. *Rəhbər*, sayı 795, 22 avqust 1946.
107. Wash. Nat. Arch. 891.00/8-1346, 13 avqust 1946.
108. Yenə orada.
109. Wash. Nat. Arch.891.00/12-3046, 30 dekabr 1946. *Azərbaycan*, sayı 355, 22 noyabr 1946.
110. İsgəndəri İ., həmin əsəri, cild 2, s.143-144.
111. *Kayhan*, sayı 984, 18 iyun 1946.
112. Xamei A., həmin əsəri, s. 307.
113. Wash. Nat. Arch.,891.00/15-2246, 22 may 1946.
114. *İran-e Ma*, sayı 636,24 sentyabr 1946.
115. Solat Qaşqayi M.N., *Salha-ye Bohran*, Tehran, Rasa, 1987, s. 26.
116. *Cəbhe*, sayı 274, 18 oktyabr 1946.
117. *Rəhbər*, sayı 703, 26 aprel 1946.
118. *Aras*, sayı 42, 20 fevral 1946.

119. *Dad*, sayı 774, 27 iyun 1946.
120. İsgəndəri İ., həmin əsəri, cild 2, s. 147.
121. Wash. Nat. Arch. 891.00/6-646,6 iyun 1946.
122. Wash. Nat. Arch. 891.00/1-1146. F.O. 371/52661, 29 dekabr 1945.
123. Wash. Nat. Arch. , 891.00/12-1845, 23 yanvar 1946.
124. Çeşm Azər M., O., həmin əsəri, s. 121.
125. *Xəndaniha*, sayı 30, 3 noyabr 1946.
126. 1945–1946-cı illərdə Azərbaycanca aşağıdakı qəzetlər nəşr olunurdu: «*Azərbaycan*»—ADF-nin rəsmi orqanı, «*Azad Millət*»—Azərbaycan Milli Məclisinin orqanı, «*Yeni Şərq*», «*Qələbə*», «*Codat*», «*Urmiyə*», «*Cavanlar*»—Azərbaycan Demokrat Gənclər Təşkilatının orqanı, «*Azər*», «*Azərbaycan ulduzu*», «*Ədəbiyyat səhifəsi*», «*Şairlər Məclisi*», «*Maarif*», «*Vətən*», «*Fədayi*», «*Demokrat*», «*Günəş*».
127. Bax: *Vətən dili*, Dördüncü kitab, s.113.
128. Tavreşiyan A., həmin əsəri,s. 71-72.
129. Yenə orada.
130. *Rəhbər*,sayı 755, 30 iyun 1946. İran-e Ma, sayı 666, 30 oktyabr 1946.
131. *Azərbaycan*, sayı 331,23 oktyabr 1946.
132. *Azərbaycan*, sayı 355, 22 noyabr 1946.
133. *Zəfər*, sayı 400, 17 noyabr 1946.
134. *Rəhbər*, sayı 868, 4 dekabr 1946.
135. *İran-e Ma*, sayı 674, 12 noyabr 1946. *Cəbhe*, sayı 1, 22 noyabr 1946.
136. *Cəbhe*, sayı 298, 21 noyabr 1946.
137. *Nəbərd-e Emruz*, sayı 1, 22 noyabr 1946.
138. *Azərbaycan*, sayı 357, 25 noyabr 1946.
139. Wash. Nat. Arch., 891.00/12-3046, 30 dekabr 1946.
140. Yenə orada.
141. Yenə orada.
142. *Azad Millət*, sayı 118, 26 noyabr 1946.
143. *Nəbərd-e Emruz*, sayı 1, 22 noyabr 1946.
144. *İran-e Ma,* sayı 684, 25 noyabr 1946.
145. *Nəbərd-e Emruz*, sayı 3, 25 noyabr 1946.
146. *Azərbaycan*, sayı 357, 26 noyabr 1946.
147. Yenə orada.
148. *Zəfər*, sayı 413, 2 dekabr 1946.
149. *Nəbərd-e Emruz*, sayı 3, 25 noyabr 1946.
150. *Azərbaycan*, sayı 366, 7 dekabr 1946. Farsca mətni üçün bax: İran-e Ma, sayı 693, 8 dekabr 1946.
151. Wash. Nat. Arch. 891.00/12-3046, 30 dekabr 1946.
152. Yenə orada.
153. Yenə orada.
154. *İran-e Ma,* sayı 691, 11 dekabr 1946.
155. Cahanşahlı Əfşar N., həmin əsəri, s. 308.
156. Yenə orada, s.358.
157. *Azərbaycan*, sayı 371, 12 dekabr 1946.

158. Wash.Nat. Arch., 891.00/12-2346, 23 dekabr 1946.
159. Belə xırda hallara misal kimi, Təbriz şəhərinin ətrafında baş verən və İnqilab Komitəsi tərəfindən təşkil edilən müqavimət cəhdini göstərmək olar. Ruzeqar M., *Xaterat* (nəşr olunmamış nüsxə).
160. Douqlas W.O., Strange Land and Friendly People, New York, Harper and Brothers, 1951, s. 45.
161. Demokratların hesablamalarına görə on min nəfər, yarı rəsmi İran hökumət mənbələrinə görə səkkiz yüz, Tehrandakı ABŞ səfirliyinin məlumatına əsaslanan Britaniya mənbələrinə görə isə 421 nəfər demokrat öldürülmüşdür. Demokratların məlumatı üçün bax: Azərbaycan Demokrat Firqəsi, *Azadlıq Yolunun Mübarizləri*, 2-ci cild, Bakı, Azərbaycan, 1969, s. 5., İranın hökumət məlumatı üçün bax: *Xandəniha*, sayı 36, 24 dekabr 1946., ABŞ səfirliyinin məlumatı üçün bax: Wash. Nat. Arch. 891.00/1-1547, 15 yanvar 1947.
162. Azərbaycan «böhranı»nın dəyərləndirilməsi bir çox kitabların, məqalələrin, universitet araşdırmalarının və dissertasiyaların mövzusu olmuşdur. Məsələn, Azərbaycanda baş verən hadisələrin əsas səbəbi kimi beynəlxalq siyasi hadisələrin üzərində dayanıldığı ən son tədqiqat: L' Estrange Fawsett, L., *The Struggle for Persia, the Azerbaijan Crisis of 1946*, D. Phil.thesis, St Antony College, University of Oxford, 1988.
163. Təfərrüatı üçün bax: Atabeki, T., «Əfsane-ye Yek Ultimatum», Çeşməndaz, sayı 3, 1987-ci ilin payızı, s. 54-68; Thorpe, C.A., «Truman's Ultimatum to Stalin on the 1946 Azerbaijan Crisis», *The Sosiety for Iranian Studies Newsletters*, 7-ci cild, sayı 3, oktyabr 1972, s. 8-10.
164. New York Times, 25 aprel 1952.
165. United States, Department of State, Foreign Relations of the United States, 1946, 7-ci cild, Washington, 1969, s. 348.
166. Keşavərz F. Həmin əsəri, s. 67.
167. Wash. Nat. Arch. ,891.00/12-2346, 23 dekabr 1946.
168. Wash. Nat. Arch., 981.00/12-3046, 23 dekabr 1946.
169. *Azərbaycan*, sayı 1, 5 sentyabr 1945.
170. *Azərbaycan*, sayı 8, 20 sentyabr 1945.

## Epiloq

1. Eskart Ehlers, « Capitals and Spatial Organization in Iran, Esfahan, Shiraz, Tehran, in: Adle and B.Hourcade (red) *Teheran Capitale bicentenarie*, Paris, Diffusion, 1992, s. 155-156.
2. Eskart Ehlers, həmin əsəri, s. 156.
3. Yenə orada, s. 161.
4. Yenə orada.
5. Yenə orada.
6. Gellner, E., həmin əsəri, s. 140.
7. The Caucasus and Central Asian Chronicle, cild 8, sayı 4, 1989, s. 7-10.
8. *Newsweek*, 26 may 1997, s. 31.

## MÜNDƏRİCAT


Tərcüməçidən ............ 3
Cənubi Azərbaycanın tarixinə dair dəyərli araşdırma *(Yaqub Mahmudov)* ............ 4
Dr. Turac Atabəyinin «Azərbaycan» kitabı üzərində bir dəyərləndirmə
və təkmilləşdirmə *(Dr. Cavad Heyət)* ............ 8
İkinci nəşrə ön söz ............ 22
Ön söz ............ 23
Müqəddimə ............ 25

**I. Azərbaycanlıların soykökü**

Türklərin gəlişi ............ 32
Azərbaycanlılar millətdirlər, yoxsa etnik qrup? ............ 35
Millətçilik milli mənsubiyyətə qarşı ............ 36
Türklər millətdirlər, yoxsa ümmət? (dini cəmiyyət) ............ 39
İranlılar ümmət (dini cəmiyyət), millət, yoxsa əhalidirlər? ............ 42
Azərbaycanlılar Qafqazda millətdirlər, yoxsa İranda etnik qrup? ............ 47

**II. Azərbaycanda muxtariyyət hərəkatının mənşəyi**

Məşrutə (konstitusiya) inqilabı ............ 49
Təbriz Şurası ............ 51
İkinci Məclis və siyasi partiyaların meydana gəlməsi ............ 57
I Dünya müharibəsi: köhnə quruluşun dağılması və yeni ideyaların gəlişi ............ 61
Xiyabani üsyanı ............ 68

**III. Rza şahın hakimiyyəti: bir ölkə, bir millət**

Müasir milli dövlətin yaradılması ............ 75
Mərkəzləşdirmə siyasəti ............ 76

**IV. Azərbaycanda muxtariyyət hərəkatının yenidən doğması**

Çaxnaşma içərisində doğulan yeni demokratiya ............ 83
On dördüncü Məclis: onun formalaşması və milli
təmsilolunma məsələsi ............ 91
On dördüncü Məclisin yaşama müddəti, ölkənin rifahı və
əmin-amanlığı məsələsi ............ 97
Azərbaycan ayağa qalxmağa hazırlaşarkən ............ 106

**V. Azərbaycan Demokrat Partiyası**

Partiyanın yaranması ............ 121
Partiya rəhbərliyinə bir baxış ............ 137

## VI. Azərbaycan Muxtar Hökuməti

Muxtariyyətin əsasının qoyulması ........ 152
Nikbinlik günləri ........ 162
İslahatların həyata keçirildiyi tənəffüs ........ 172
Kürd qalmaqalı ........ 175
Bədbin günlər ........ 177
Demokratlar çıxılmaz vəziyyət qarşısında ........ 189
Azərbaycan Muxtar Hökuməti süquta doğru ........ 193
Macəranın sonu ........ 200
Epiloq ........ 204
Qeydlər ........ 220

*Atabəyi Turac*
AZƏRBAYCAN: ETNİK MƏNSUBİYYƏTİ VƏ İRANDA
QÜDRƏT UĞRUNDA MÜBARİZƏSİ
Bakı, «Təhsil», 2002

Redaktoru *Məs'udə Əvəz qızı*
Rəssamı və bədii redaktoru *Abdulla Ələkbərov*
Korrektorları *Zülfiyyə Rzayeva*
*Günay Məmmədova*

Çapa imzalanmış 04.10.2002. Kağız formatı 60x84 1/16.
Ofset çapı. Ofset kağızı. Fiziki çap vərəqi 15,5. Tirajı 150.
Sifariş 91. Qiyməti müqavilə ilə.

Azərbaycan Respublikası Təhsil Nazirliyinin «Təhsil» nəşriyyatı,
Bakı, 370073, Şəhriyar küçəsi, 6.